SEVİNC RUİNTƏN

# AZƏRBAYCAN TÜRK DÖVLƏTLƏRİ İLƏ SİYASİ ƏLAQƏLƏR SİSTEMİNDƏ
## (XX əsrin 90-cı illəri)

Bakı Dövlət Universiteti Tarix fakültəsi Elmi Şurasının 30 dekabr 2004-cü il tarixli iclasının (protokol №1) qərarı ilə çapa məsləhət görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

"Adıloğlu" nəşriyyatı
Bakı-2005

R 85

**Elmi redaktor:** tarix elmləri doktoru, professor
**Əsməd Muxtarova**

**Rəyçilər:** tarix elmləri doktoru, professor
**Qabil Əliyev**

tarix elmləri namizədi, dosent
**Altay Göyüşov**

tarix elmləri namizədi, dosent
**İqbal Ağayev**

tarix elmləri namizədi, dosent
**Kərəm Məmmədov**

**Ruintən S.F. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri).** Bakı, 2005. - 236 s.

Monoqrafiyada Azərbaycanın türk dövlətləri ilə siyasi əlaqələri tarixşünaslıqda və siyasətşünaslıqda ilk dəfə olaraq kompleks şəkildə elmi-tədqiqat obyekti kimi araşdırılır, müxtəlif faktların toplanması, sistemləşdirilməsi və təhlili əsasında müstəqilliyin ilk on ılı ərzində bu əlaqələrin tarixi yazılır. Faktik materialların öyrənilməsi və təhlili əsasında mövcud əlaqələrin formaları, məqsəd və vəzifələri göstərilir, real vəziyyəti - mövcud problem və çətinliklər müəyyənləşdirilir, ümumiləşmələr aparılır, gələcəkdə bütün potensial imkanlardan istifadə edilməklə münasibətlərin daha da inkişaf etdirilməsi məqsədilə praktik tövsiyələr verilir.

R $\frac{4300060008}{121-2005}$ sıfarışlə

© Ruintən S.F., 2005

MÜNDƏRİCAT

səh.
**Ön söz** ........ 4
**Müəllifdən** ........ 5
**GİRİŞ** ........ 19

**I fəsil. Azərbaycanın Türkiyə Respublikası ilə qarşılıqlı siyasi əlaqələri** ........ 27

**II fəsil. Azərbaycanın Mərkəzi Asiyanın türk dövlətləri ilə qarşılıqlı siyasi əlaqələri** ........ 79
2.1. Qazaxıstan Respublikası ilə qarşılıqlı siyasi əlaqələr ........ 81
2.2. Qırğızıstan Respublikası ilə qarşılıqlı siyasi əlaqələr ........ 92
2.3. Özbəkistan Respublikası ilə qarşılıqlı siyasi əlaqələr ........ 100
2.4. Türkmənistan Respublikası ilə qarşılıqlı siyasi əlaqələr ........ 113

**III fəsil. Azərbaycan türk dövlətlərinin çoxtərəfli siyasi əlaqələri sistemində** ........ 133
3.1. Beynəlxalq və məhəlli təşkilatlar çərçivəsində əməkdaşlıq ........ 133
3.2. Türk dövlət başçılarının Zirvə toplantılarının ölkələrarası siyasi əlaqələrin inkişafında rolu ........ 157
3.3. Azərbaycanın türk dövlətləri ilə siyasi əməkdaşlığında neft strategiyası və kommunikasiya diplomatiyasının yeri ........ 174

**NƏTİCƏ** ........ 186
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** ........ 196
**Əlavələr** ........ 208

## ÖN SÖZ

***Dünənimizə hörmətlə yanaşan, bu günümüzün fəal və vicdanlı qurucusu olmaqla sabahımız üçün müasir tariximizi yaradan, İnsanlığı və Ləyaqəti yüksək qiymətləndirən hər bir kəsə həsr edirəm***

Çox qəribə bir vaxtda yaşayırıq. Artıq hamı hər şeyi bilir, heç kim başqasını eşitmir. Eşidirsə də, yenə də düzünü yalnız özü bilir ... Hər yerdə, hər addımda siyasət, yaxud siyasiləşmiş tarixlə rastlaşırıq. Ən yaxşı halda siyasət və tarix məişət söhbətinə çevrilib. Yaxud da, əksinə, nə qədər acınacaqlı olsa da, əksər hallarda siyasət və tarixdən bəhs olunmalı auditoriyalar daha çox teatr səhnəsini xatırladır. Tarixə və tarixi hadisələrə qiymət verilməsi çox asanlaşıb. Bütün hadisələri yalnız «ağ», yaxud «qara» fonda görənlər, populizm «professional»ları həqiqi tarixçiləri artıq çoxdan arxa plana sıxışdırıblar. Tarixə bir çox hallarda yalnız siyasi proseslərə, müəyyən hərəkətlərə haqq qazandırmaq, yaxud sadəcə şou yaratmaq məqsədilə müraciət olunur. Unudulur ki, əslində həqiqi tarix hadisələrə siyasətçilərin, tarixdən xəbəri olmayan ayrı-ayrı fərdlərin verdiyi qiymətdən asılı olmamalıdır. O, siyasi prosesləri sürətləndirməyə deyil, ümumilikdə maariflənməyə xidmət etməlidir. Həqiqi tarixçi isə özünün mövqeyini müdafiə etməli, özünü siyasətçidən, nəzəriyyəçidən fərqləndirməyi bacarmalıdır.

Bu daha çox müasir dövr tədqiqatçıları olan tarixçilərə aiddir. Belə ki, artıq məlum bir həqiqətə çevrilib ki, heç bir kəs öz yaşadığı zamanın təsirindən tam azad ola bilmir, bu təsiri daim öz üzərində hiss edir. Sadəcə, yalnız bu təsirin arxasınca gedib, qalan bütün həqiqətləri və gerçəklikləri görməməyi düz hesab etmirik. Bu baxımdan, müasiri və müəyyən mənada iştirakçısı olduğumuz dövr və hadisələrə qiymət verilməsinin, onların qələmə alınmasının çox böyük məsuliyyətini dərk edərək, mövcud tədqiqat çərçivəsində həmin tələblərə imkan daxilində nail olmağa çalışmışıq. Əvvəlcədən qeyd etmək istərdik ki, müəyyən hallarda gəldiyimiz nəticələr və ümumiləşmələrlə razılaşmayacaq oxucuların olacağını da istisna etmirik. Lakin bütün hallarda hadisələrə müəllif münasibətinin olduğu faktının qəbul edilməsini vacib hesab edirik.

Və nəhayət sonda, mövcud monoqrafiyanın çapa hazırlanması və nəşr olunmasında göstərdikləri təmənnasız köməyə görə Kəmalə Ruintən, Leyla Atakişiyeva və İslam Aslanova təşəkkürümü bildirirəm.





## Müəllifdən

Azərbaycan Respublikasının müstəqillik illərində həyata keçirdiyi xarici siyasət kursunun, xüsusən də türk dövlətləri ilə siyasi münasibətlərinin qurulması və inkişafı probleminin elmi-nəzəri cəhətdən araşdırılması, bu sahədə həyata keçirilən tədbirlərin, onların nəticələrinin ümumiləşdirilməsi, obyektiv qiymətləndirilməsi mühüm elmi və praktik əhəmiyyətə malikdir. Belə ki, Azərbaycan özünün geostrateji mövqeyinə görə tarix boyu bir çox böyük dövlətlərin, müasir dövrdə isə xüsusilə Rusiya, İran və Türkiyənin, Türkiyə vasitəsilə regionda öz mənafelərini təmin etmək istəyən ABŞ və digər qərb ölkələrinin maraqlarının toqquşduğu siyasət meydanına çevrilmişdir. Belə mürəkkəb, mənafelərin toqquşduğu ziddiyyətlər meydanı olması Azərbaycan dövlətinin, xüsusən də müstəqilliyinin ilk illərində, xarici siyasət fəaliyyətində son dərəcə diqqətli olması zərurətini doğururdu.

Bu illərdə Azərbaycanın dil, mənəvi, tarixi, mədəni və siyasi cəhətdən sıx tellərlə bağlı olduğu türk dövlətləri ilə hər hansı formada yaxınlaşmaq cəhdi onun xarici siyasətinin dini, etnik təəssübkeşlik prinsipləri əsasında həyata keçirildiyi, bu əməkdaşlığın «pantürkizm», «turançılıq», «böyük türk millətçiliyi» olması haqqında ittihamlarla müşayiət olunurdu. Bütün bunlar isə Azərbaycanın türk dövlətləri ilə əlaqələrini müəyyən dərəcədə bölgədə marağı olan digər dünya dövlətlərinin, xüsusən də qonşu Rusiya və İranın istək və arzularından asılı edirdi.

Məlum həqiqətdir ki, dövlət maraqları heç də həmişə sabit qalmır, tarixi reallıqlar, beynəlxalq vəziyyət dəyişdikcə onun məzmunu da dəyişir, yeni tələblərə uyğunlaşır. Lakin dövlət maraqlarının əbədi əsasları da vardır ki, bunlar digər xalqlar və dövlətlərlə əsrlər boyu qərarlaşmış münasibətlər-

dən, milli təhlükəsizliyin ənənəvi mənafelərindən ibarətdir. Bütün bunlar Azərbaycanın dünya ilə çoxçalarlı, çoxkeyfiyyətli mənafe və meyllərinin tam bir strukturunu yaradır. Məhz bu mülahizələrə görə, bütün çətinliklərə, təzyiqlərə baxmayaraq, türk dövlətləri ilə əlaqələrin qurulması və inkişaf etdirilməsi elə ilk dövrdən Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin paritet istiqaməti kimi müəyyənləşdirildi və, bir çox hallarda uğursuzluqla nəticələnməsinə baxmayaraq, həyata keçirilməsinə başlandı.

Azərbaycanın türk dövlətləri ilə siyasi əlaqələrinin öyrənilməsini zəruri edən digər bir cəhət onun bütünlükdə indiyə qədər elmi-tarixi və siyasi araşdırmalarda xüsusi tədqiqat obyekti olmamasıdır. Problemin yalnız ayrı-ayrı məsələlərinə müəyyən məqalələrdə, elmi ədəbiyyatda toxunulmuşdur, lakin onun bir tam halında sistemli öyrənilməsi də mühüm əhəmiyyətə malikdir.

Müstəqilliyimizin ilk günlərindən tarixi proseslərə obyektiv və elmi yanaşma əsasında Azərbaycan diplomatiyasının keçdiyi yola nəzər salıb onun uğurlarını və yol verilən səhvləri təhlil etmək, Azərbaycan Respublikasının beynəlxalq münasibətlərin iştirakçısına və beynəlxalq hüququn subyektinə çevrilməsi prosesinin qanunauyğunluqlarını, meyllərini və mərhələlərini müəyyən etmək elmi və tarixi əhəmiyyətə malik olmaqla yanaşı siyasi baxımdan da xüsusi aktuallıq kəsb edir. Azərbaycan Respublikasına münasibətdə beynəlxalq siyasətin təkamülü prosesini, beynəlxalq münasibətlərin dönüş məqamlarını izləmək respublika tarixşünaslığında həlli zəruri olan ciddi elmi problemlərdəndir. Türk dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətlərimizin araşdırılması nəinki Azərbaycan tarixşünaslığı, eyni zamanda həmin ölkələrin xarici siyasət tarixinin öyrənilməsi, ümumilikdə diplomatiya tarixinin zənginləşdirilməsi baxımından da faydalı hesab oluna bilər.





Bütün bunlar və həmçinin Azərbaycanın türk dövlətləri ilə siyasi əlaqələrinin indiyə qədər xüsusi tədqiqat obyekti olmaması, məsələnin ayrıca problem şəklində ilk dəfə tədqiq olunması nəzərə alınaraq tədqiqat işinin qarşısında bir sıra məqsəd və vəzifələr qoyulmuşdur. Bunlar:

- Azərbaycan Respublikasının xarici siyasətində türk dövlətlərinin yeri və çəkisinin, bu əlaqələri həyata keçirmək üçün istifadə olunan forma və vasitələrin müəyyənləşdirilməsi, dövlətlərarası əlaqələrin hüquqi-normativ bazasının təhlil edilməsi;
- Azərbaycan Respublikasının gələcək inkişaf strategiyasının müəyyənləşdirilməsi. «Türkiyə inkişaf modeli»;
- Azərbaycan Respublikasının türk dövlətləri ilə münasibətlərinin dünya birliyinin qəbul etdiyi normalar əsasında qurulduğunu, etnik və dini təəssübkeşlikdən uzaq olduğunu, bütün digər dövlətlərlə olduğu kimi əlaqələrimizin yalnız bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığa əsaslandığını, xalqımızın sülhsevər təbiəti ilə şərtləndiyini, mühüm geostrateji, iqtisadi və siyasi əsaslara söykəndiyini elmi, tarixi faktlarla əsaslandırmaq;
- türk dövlətləri ilə tarixən mövcud olmuş əlaqələrimizin yeni prinsiplər əsasında bərpa edilməsi, hər bir dövlətlə diplomatik münasibətlərin inkişafı yollarının səciyyəvi cəhətlərinin müqayisəli şəkildə işıqlandırılması;
- Azərbaycanın xarici siyasətinin qarşısında duran ən mühüm problemə – Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ probleminə münasibətdə türk dövlətlərinin münasibətlərinin təhlili.

Hazırki iş yazılarkən Azərbaycan, Türkiyə, Mərkəzi Asiya müəlliflərinin, həmçinin türk dövlətlərində baş verən hadisələrə münasibət bildirən Rusiya, Qərbi Avropa və ABŞ tədqiqatçılarının əsərlərinə, məqalələrinə yeri gəldikcə müraciət edilmişdir. Həmin tədqiqat və əsərləri aşağıdakı qaydada qruplaşdırmağı mümkün hesab edirik.

Ümumiyyətlə, artıq qeyd etdiyimiz kimi, tarixşünaslıqda Azərbaycanın türk dövlətləri ilə siyasi əlaqələrinin tədqiqinə həsr olunmuş xüsusi əsər yoxdur, problem hələ öyrənilmə səviyyəsindədir. Mövcud problemə yalnız müstəqillik əldə etdikdən sonrakı dövrdə xarici siyasət və beynəlxalq münasibətlər məsələlərinin öyrənilməsinə həsr olunmuş ayrı-ayrı monoqrafiyalarda və dissertasiyalarda səthi toxunulur.

XX əsrin 90-cı illərində ümumilikdə dünyada, Şərqi Avropada, və xüsusən də keçmiş SSRİ məkanında baş verən hadisələr, bu hadisələrin nəticəsində yaranmış yeni geosiyasi boşluqlarda nüfuz uğrunda dünya dövlətlərinin mübarizəsi və s. məsələlərə həsr olunmuş ayrı-ayrı müəlliflərin, siyasətçilərin, politoloqların ümumiləşdirilmiş əsərləri, elmi araşdırma və monoqrafiyaları, həmçinin dövri mətbuatda, elmi jurnallarda nəşr olunan məqalələri **birinci qrupa** daxil edilə bilər.

Yeni müstəqil dövlətlərin yaranması, bu dövlətlərin daxili və xarici vəziyyəti, onların ictimai, siyasi, iqtisadi, sosial və mədəni durumu, qarşılıqlı əlaqələri, dünya birliyinə bərabərhüquqlu üzv olmaq istiqamətində apardıqları işlər, dövlət başçılarının dünya siyasətində yeri və s. məsələlərin araşdırıldığı, bilavasitə türk dövlətlərinə həsr olunmuş xüsusi tədqiqatlar **ikinci qrupa** aid edilə bilər.

**Üçüncü qrupa** hadisə və proseslərin bilavasitə iştirakçıları olmuş dövlət və siyasi xadimlər tərəfindən yazılmış kitablar daxildir. Bu əsərlərin əhəmiyyəti ondan ibarətdir ki, onlarda hadisələrlə bağlı bir sıra mühüm sənəd və materiallar, həmçinin sənəd və materiallarda öz əksini tapmayan müəyyən məqamlar dövriyyəyə gətirilmişdir. Bu əsərlər eyni zamanda, müstəqil dövlətlərin yaranması, onların daxili və xarici siyasətlərinin öyrənilməsi, bəzi ümumiləşmələr aparılması baxımından da qiymətlidir.

**Azərbaycan tarixşünaslığında** birinci qrupa aid tədqiqatlardan A.Abbasbəylinin, M.Qasımovun, S.Nuriyevin, R.Mus-





tafayevin; ikinci qrupa aid tədqiqatlardan M.Qasımovun, Y.Mahmudovun, Ə.Muxtarovanın, Ə.Məmmədovun, Ə.Həsənovun, İ.Hüseynovanın, H.Hüseynovanın, E.Əhmədovun, E.Nəsirovun, E.Hüseynovun, S.İmanovanın, H.Rəcəbovun, N.Əliyevin, E.Şahbazovun, E.Poluxovun; üçüncü qrup tədqiqatlardan H.Əliyevin «Azərbaycan nefti dünya siyasətində» və «Россия великая страна», V.Quluzadənin «Gələcəyin üfüqləri» kitab, tədqiqat, monoqrafiya və məqalələri əhəmiyyəti ilə seçilir. Bunlardan bəzilərini xüsusi qeyd etməyi lazım bilirik.

Tarix elmləri doktoru Musa Qasımovun Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin öyrənilməsinə həsr olunmuş məqalələri, əsərləri xüsusi maraq doğurur. Belə ki, M.Qasımov «Müstəqil Azərbaycanın xarici siyasəti» (117, 5-6 noyabr 1992); «Xarici siyasətimizə bir baxış» (118, 28 fevral 1992); «Qarşılıqlı münasibətlərdə hər bir dövlət özünə aid yolu keçməlidir» (117, 7 sentyabr 1995); «Xarici siyasətimiz: tarix və müasirlik» (119, 26 may 1996); «Azərbaycanın MDB ölkələri ilə münasibətləri» (119; 23, 24, 26 avqust 1996); «Azərbaycanın xarici siyasəti» (117; 9, 14 noyabr 1996) məqalələrində, «Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri)» (35), «Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər)» (34) və N.Axundovla birlikdə yazdığı «Azərbaycan və beynəlxalq parlament təşkilatları» (4) adlı kitablarında Azərbaycanın müstəqillik illərində xarici siyasət fəaliyyətinin formalaşması, bu siyasətin prioritetləri və s. məsələlərə toxunur. Bu məqalə və kitabları mövcud tədqiqat üçün maraqlı edən cəhət onlarda yeri gəldikcə Azərbaycanın xarici siyasətində türk dövlətlərinin yeri məsələsinin, bu dövlətlərlə əlaqələri zəruri edən şərtlərin araşdırılması, əlaqələrin qurulması, inkişaf səviyyəsi və s. məsələlərin qismən də olsa işıqlandırılmasıdır.

Tarix elmləri doktoru, əməkdar elm xadimi Yaqub Mahmudovun məqalə və monoqrafiyaları həmçinin tədqiq

edilən dövrdə Azərbaycanın xarici siyasət fəaliyyəti ilə bağlı ümumi təsəvvürün formalaşmasında, dövr haqqında təsəvvürün əldə edilməsində yardımçı olmuşdur. Belə ki, «Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış» adlı seriya məqalələrində, «Azərbaycanın dövlətçilik və parlamentarizm ənənələri tarixindən» (49), «Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk parlamentli respublikadır» (48), «Heydər Əliyev Yeni Azərbaycanın qurucusudur» (51), «Ata yurdumuzun Atatürkü» (50), «Heydər Əliyev müstəqilliyimizin qarantıdır» (47), «Qurtuluş mübarizəsinin qalibi» (46), «Yeni Azərbaycanın qurucusu» (44), «Milli siyasət aydın və konkret olmalıdır» (43) adlı məqalələrində, «Azərbaycan dövlətçiliyinin xilaskarı» (45), «Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti» (52) kitablarında müəllif Azərbaycanda müstəqil dövlətçilik strategiyasının həyata keçirilməsi prosesinin müxtəlif mərhələlərinin şərhini verir, Heydər Əliyevin Azərbaycan tarixindəki milli öndərlik fəaliyyəti ilə yanaşı, dövlətimizin beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsində onun xidmətlərini işıqlandırır.

Tarix elmləri doktoru Ağalar Abbasbəylinin «Azərbaycan müasir dövrdə» (2), «Qafqaz geostrategiya məkanında» (3), «Кавказ в современной геостратегии» (69), E.Abbasbəyli ilə birlikdə yazdığı «Heydər Əliyev və dünya siyasəti» (67) kitablarının da adını çəkmək yerinə düşərdi. Kitablarda Azərbaycan Respublikasının beynəlxalq aləmə çıxışı, müasir dövlətlər arasındakı münasibətlərə qoşulması prosesi təhlil edilir, Azərbaycan diplomatiyasının xarici siyasət istiqamətləri araşdırılır. Kitabları mövcud tədqiqat üçün maraqlı edən məqamlardan biri onlarda həmçinin Türkiyə Respublikasının Qafqazda geostrateji vəziyyətdə yeri, müasir geostrategiya və Azərbaycan-Türkiyə əməkdaşlığı, Ermənistan-Azərbaycan münaqişəsinin regionda vəziyyətə təsiri, Azərbaycanın universal və məhəlli xarakterli dünya qurumlarına qoşulması, bu təşkilatlarla əlaqələrinə geniş yer verilməsidir.





Azərbaycanın müstəqilliyinin bərpasının 10 illik yubileyi münasibətilə fəlsəfə elmləri doktoru R.Mehdiyevin ümumi redaktəsi ilə müəlliflər kollektivi tərəfindən hazırlanmış «Azərbaycan Respublikası. 1991-2001» nəşrinə (11) də müraciət edilmişdir. Kitabın «Azərbaycanın müstəqilliyinin bərpası və qorunub saxlanması uğrunda mübarizə» adlı ikinci hissəsində SSRİ-nin dağılması ərəfəsindən başlayaraq 1995-ci ilin mart dövlət çevrilişinədək ölkəmizdə baş verən ictimai-siyasi hadisələr üzərində geniş dayanılmışdır. «Müstəqil dövlət quruculuğunun əsas istiqamətləri» adlı üçüncü hissədə digər məsələlərlə yanaşı Azərbaycanın xarici siyasət fəaliyyəti, milli-mənəvi inkişafı və s. barədə geniş bəhs olunur.

Tarix elmləri doktoru İradə Hüseynovanın Bakı Dövlət Universitetinin «Türk və Qafqaz xalqları tarixi» kafedrasında yerinə yetirilmiş «Müstəqil Azərbaycan dövlətinin yaranması və möhkəmləndirilməsində Heydər Əliyevin rolu» mövzusunda doktorluq dissertasiyasını (31) qeyd etməyi lazım bilirik. İ.Hüseynovanın həmçinin «Dövlətçilik naminə» (29) və «Müstəqilliyimizin təminatçısı» (30) kitablarına da müraciət edilmişdir. Bu kitablarda 1993-2001-ci illərdə Respublikamızda baş verən dəyişikliklər, ictimai-siyasi, iqtisadi, sosial sahələrdəki yeniliklər, müstəqil Azərbaycan dövlətinin beynəlxalq aləmdə tanınmasında, Qafqazda gedən ictimai-siyasi proseslərin regionun ümumi təhlükəsizliyinin təmin olunmasına istiqamətləndirilməsi sahəsində H.Əliyevin rolu və xidmətləri, eyni zamanda bir çox digər məsələlər öz əksini tapmışdır. Kitablar tədqiq edilən dövrdə Azərbaycanda baş verən hadisələr, ümumilikdə dövr haqqında təsəvvürün əldə edilməsində yardımçı olmuşdur.

Bakı Dövlət Universitetinin «Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi» kafedrasında yerinə yetirilmiş, Əli Həsənovun tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyi «Azərbaycanın xarici siyasəti: Avropa

dövlətləri və ABŞ (1991-1996)» mövzusunda dissertasiyanın (24), «Azərbaycan və ATƏT» adlı monoqrafiyasının (22), «Heydər Əliyev və Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması» (25) məqaləsinin adlarını çəkmək yerinə düşərdi. Adı çəkilən tədqiqatlarda 1991-1996-cı illərdə Azərbaycanın xarici siyasət konsepsiyası sistemli şəkildə elmi-nəzəri cəhətdən araşdırılmış, müstəqilliyin ilk beş ili ərzində həyata keçirilən xarici siyasət kursunun əsas vəzifələri, prinsip və istiqamətləri təhlil edilmişdir. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində xarici siyasət modelinin xüsusi rolundan çıxış edərək bu modelin reallaşdırılmasında üstün istiqamətlər və prinsiplər əsaslı şəkildə nəzərdən keçirilmişdir. Tədqiqatları bizim üçün maraqlı edən cəhət odur ki, onlarda Azərbaycan dövlətinin xarici siyasətinin təkamül yolu ilə inkişaf mərhələləri təhlil olunur, onların xarakteristikası verilir, hər mərhələdə Azərbaycanın Mərkəzi Asiyanın türk dövlətləri və Türkiyə ilə əlaqələri məsələlərinə də, az olsa da, toxunulur; Azərbaycanın xarici siyasətinin ən mühüm problemlərindən olan Ermənistanın Azərbaycana təcavüzü, Dağlıq Qarabağ problemi, bu problemin həll olunması istiqamətində görülən işlər, Xəzərin statusu məsələsi və s. məsələlər araşdırılır, onlara münasibət bildirilir; həmçinin Azərbaycanın beynəlxalq təşkilatların işində iştirakı məsələlərindən bəhs edilir.

Azərbaycanın milli suverenliyinin bərpası və daha da möhkəmləndirilməsi, müstəqil respublikanın daxili quruculuğu və xarici siyasət sahəsində həyata keçirdiyi ilk tədbirlərin öyrənilməsi baxımından Əli Məmmədovun «Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (80-ci illərin sonu – 1997-ci il)» (42) monoqrafiyasını xüsusi qeyd etmək olar. Belə ki, monoqrafiyada 80-ci illərin sonu – 90-cı illərdə müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə araşdırılır.





Monoqrafiyanı mövcud tədqiqat üçün maraqlı edən burada həmçinin müstəqil Azərbaycan dövlətinin xarici ölkələrlə, o cümlədən türk dövlətləri ilə, iqtisadi, siyasi, mədəni əlaqələrinin bərpası, möhkəmləndirilməsi, ölkənin ərazi bütövlüyünün təmin edilməsi və sülh uğrunda aparılan mübarizənin araşdırılmasıdır.

Azərbaycanın çoxtərəfli beynəlxalq münasibətlərdə iştirakının öyrənilməsi baxımından yenə də Bakı Dövlət Universitetində «Beynəlxaq münasibətlər» kafedrasında Hicran Hüseynova tərəfindən siyasi elmlər doktoru alimlik dərəcəsi almaq üçün yerinə yetirilmiş «Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində» adlı dissertasiyanın (28) adını çəkmək mümkündür. Adı çəkilən dissertasiyanın tədqiqat üçün əhəmiyyəti burada Azərbaycanın Avropa ilə əlaqələri sırasında həmçinin Türkiyə ilə mövcud əlaqələrinin tədqiq edilməsi, inkişaf meyllərinin müəyyənləşdirilməsi, müasir beynəlxalq münasibətlər sistemində ölkələrarası əməkdaşlığın genişləndirilməsində Azərbaycanın «neft strategiyası»nın və «kommunikasiya diplomatiyası»nın rolu, beynəlxalq və məhəlli təşkilatlarda iştirak və s. məsələlərə toxunulmasıdır. Tədqiqatda yeri gəldikcə adı çəkilən dissertasiyaya da müraciət edilmişdir.

Bunlardan başqa yeri gəldikcə bir sıra digər tədqiqatlara da müraciət edilmişdir ki, bunlar da həmçinin tədqiq edilən dövrdə Azərbaycanın xarici siyasət fəaliyyəti ilə bağlı ümumi təsəvvürün formalaşmasında, dövr haqqında konkret bilgilər əldə edilməsində yardımçı olmuşdur. Azərbaycanın xarici siyasətinin mövcud problemlərindən bəhs olunarkən tarix elmləri namizədləri Elçin Əhmədovun «Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar» (17) və Elman Nəsirovun «Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1999)» (61), «Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər)» (60) kitablarına müraciət edilmişdir. Bunlar-

dan başqa S.İmanovanın «Azərbaycanın beynəlxalq parlament təşkilatları ilə əlaqələri (1991-1998-ci illər)» (33), E.Hüseynovun «Azərbaycan Respublikasının Türkiyə ilə iqtisadi və mədəni əlaqələri (1991-1995-ci illər)» (27) mövzusunda namizədlik dissertasiyalarında da mövcud tədqiqat üçün maraqlı olan məqamlara toxulmuşdur.

Tədqiqatda həmçinin «Azərbaycan – 1993. Anarxiyadan sabitliyə doğru» (5), «Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır» (20), H.Rəcəbovun «BMT-nin ixtisaslaşmış qurumları və Azərbaycan» (63), N.Əliyev və E.Şahbazovun «Heydər Əliyev və Azərbaycan neftinin inkişafı» (19) kitablarından, E.Poluxovun «Müasir mərhələdə Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri» (93), Ə.Muxtarovanın «Heydər Əliyev və türk dünyası» (58) məqalələrindən; H.Əliyevin «Azərbaycan nefti dünya siyasətində» (21) və «Россия великая страна» (80), V.Quluzadənin «Gələcəyin üfüqləri» (41) kitablarından istifadə edilmişdir.

Türkiyə tarixşünaslığı. Tədqiqat yazılarkən həmçinin Türkiyə müəlliflərinin də əsərlərinə müraciət edilmişdir. Onlardan birinci qrupa aid etdiyimiz, ümumilikdə 28 müəllifin (Ersin Kalayçıoğlu, Oral Sander, Gülden Ayman, Nursin Ateşoğlu Güney, Kemal Kirişci və b.) kollektiv işinin nəticəsi olan «Türk xarici siyasətinin analizi» (113) kitabını qeyd etməyi lazım bilirik.

İkinci qrupa aid etdiyimiz bir sıra əsərlərdən Nadir Devletin «Çağdaş türk dünyası» (110), Mehmet Sarayın «Türkiyə ilə türk cümhuriyyətləri və türk toplulukları arasında ilişkiler və fəaliyyətlər» (111), Tayyar Sadıkların «İki mininci illər. Dünya və Türkiyə» kitabından (115), həmçinin müəlliflər kollektivi tərəfindən hazırlanmış digər əsərlərdən - «Müstəqilliyin ilk illəri (Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan)» (108), «Türk inqilabı və Türkiyə Cümhuriyyəti tarixi» (114) istifadə edilmişdir. Bu





əsərlərdə SSRİ-nin dağılması nəticəsində türk dünyasında baş verən dəyişikliklər, yeni türk cümhuriyyətləri, onların müasir durumu, siyasi, iqtisadi və mədəni vəziyyətləri, Türkiyə xarici siyasətində türk cümhuriyyətləri məsələləri, həmçinin beynəlxalq və məhəlli təşkilatlarda iştirak və əməkdaşlıq, yeni müstəqillik qazanmış dövlətlərə iqtisadi yardım, ümumilikdə xarici iqtisadi əlaqələr məsələləri nəzərdən keçirilir.

Mərkəzi Asiya tarixşünaslığı. Tədqiqat yazılarkən Mərkəzi Asiya müəlliflərinin dövri mətbuatda, jurnallarda çap olunmuş məqalələrinə, həmçinin haqqında bəhs edilən türk dövlət başçılarının əsərlərinə də müraciət edilmişdir.

Mərkəzi Asiya müəlliflərindən M.Esenovun «Türkmənistanın xarici siyasət kursunun formalaşması (politoloji təhlil)» (106) adlı tədqiqatı, M.Murataliyevin «Müstəqil Qırğızıstanın ilk beş ili» (88), S.Kuşkumbayevin «Mərkəzi Asiyada inteqrasiya tarix və geosiyasi kontekstdə» (86), R.Xasanovun «İslam Konfransı Təşkilatı və MDB-nin müsəlman dövlətləri» (103) və s. məqalələrdə müstəqillik illərində Mərkəzi Asiyanın türk dövlətlərinin xarici siyasətinin formalaşması, onların nəzəri-metodoloji əsasları, prioritet istiqamətləri, xüsusiyyətləri, haqqında danışılan dövlətlərin regional xarici siyasəti, beynəlxalq və məhəlli təşkilatlarda iştirakı və s. məsələlər işıqlandırılmışdır.

Dövlət başçıları və siyasi xadimlər tərəfindən yazılmış əsərlərdən Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun «Özbəkistan iqtisadi islahatların dərinləşməsi yolu ilə» (82) və «Özbəkistan XXI əsrin astanasında: təhlükəsizliyə hədələr, inkişafın şərtləri və təminatı» (83); Türkmənistanın Prezidenti Saparmurat Niyazovun «Ruhnamə» (102) əsərlərini qeyd etmək olar. Adı çəkilən əsərlər tədqiq olunan zaman kəsiyində Özbəkistanda mövcud durum, bu durumun Azərbaycan və Türkiyə ilə münasibətlərə təsiri və bir sıra di-

gər məsələlərə aydınlıq gətirilməsinə, Türkmənistanda cərəyan edən hadisələr haqqında təsəvvür yaratmaq, onları təhlil etmək baxımından əhəmiyyətlidir.

Qazaxıstan Respublikası Xarici İşlər nazirliyinin «Qazaxıstanın xarici siyasətinin aktual problemləri» (71) adlı məqalələr toplusu yeni müstəqillik əldə etmiş Qazaxıstan dövlətinin xarici siyasət fəaliyyətinin müəyyənləşdirilməsi, onun prioritet istiqamətləri və s. məsələlərin öyrənilməsi yönümündə əhəmiyyətli sayıla bilər.

Rus, Qərbi Avropa və ABŞ müəlliflərinin əsərləri. Artıq qeyd etdiyimiz kimi, müstəqilliyimizin ilk dövrlərində, bəzən isə hətta hal-hazıra qədər dünya dövlətlərinin türk dünyasında baş verən hadisələrə münasibəti birmənalı olmamış, dövlətlərimiz arasında münasibətlərə bir qədər ehtiyatla yanaşılmışdır. Bu yanaşma təkcə siyasi dairələrdə, rəsmi səviyyədə deyil, həmçinin elmi araşdırmalarda da özünü göstərmişdir. Belə ki, regionda maraqlı olan dövlətlərin alimləri (V.Nadein - Rayevski – 90, İ.Azovski –70, M.Çeşkov–105, V.Babak – 73, P.Henze və E.Uimbuş - 104, R.Safronov - 94), dövlət və siyasi xadimləri (V.Nikonov – 91, C.Kollinz - 84), politoloqları və ekspertlərinin (Z.Bzejinski –75, P.Qobl - 81) arasında hadisələrə obyektiv, qərəzsiz yanaşma ilə bərabər, bəzən qərəzli, obyektivlikdən uzaq araşdırmalara da rast gəlinir. Mövcud tədqiqatda yeri gəldikcə bu araşdırmalardan bir qisminə müraciət olunmuş, münasibət bildirilmişdir. Bu araşdırmalar əksər hallarda birinci qrup tədqiqatlara aiddir, onlarda türk dövlətləri dünya prosesləri kontekstində öyrənilir.

Tədqiqatın mənbə bazasını təşkil edən sənəd və materialları aşağıdakı kimi qruplaşdırmaq mümkündür.

1.Dövlət qurumlarının arxiv materialları, internet saytları. Haqqında bəhs olunan dövlətlərin dövlət başçılarının, Xarici İşlər Nazirliklərinin dövri mətbuat və internet saytlarından (129-145) götürülmüş sənədlər və materiallar tədqiqatın mənbəşünaslıq bazasını təşkil edir.





2.Dövlət başçılarının görüşlərinin materialları, nitq, məruzə və çıxışları. Dövlət başçılarının rəsmi görüşlər, səfərlər zamanı etdikləri məruzə, nitq və çıxışları müvafiq ölkələrin xarici siyasət məsələlərini öyrənmək baxımından mühüm mənbədir (12-14, 18, 79). Bu baxımdan, Azərbaycanın dövlət başçısı H.Əliyevin xarici səfərlərinin materialları əsasında tərtib edilmiş çox cildli «Azərbaycan beynəlxalq aləmdə» (6) «Müstəqilliyimiz əbədidir» (18) və «Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır» (20) kitabları diqqətdən kənarda qalmamışdır. Bundan başqa türk dövlət başçılarının Azərbaycana və Azərbaycan dövlət başçılarının həmin dövlətlərə rəsmi səfərlərinin materiallarını özündə əks etdirən nəşrlərə də (9, 12, 13, 14, 32) yeri gəldikcə müraciət edilmişdir.

6958

Tədqiqatda həmçinin Türkmənistanın Prezidenti Saparmurat Niyazovun nitq, çıxış və müsahibələrinin toplusu olan «Bitərəf Türkmənistanın xarici siyasəti» (76) adlı topludan da istifadə olunmuşdur.

3.Digər beynəlxalq-hüquqi qüvvəli aktlar - dövlətlər arasında imzalanmış müqavilələr, sazişlər, beynəlxalq və məhəlli təşkilatların sənədləri; görüşlərin yekun aktları, bəyannamələr və s.

4.Dövri mətbuat materiallarından «Azərbaycan» (117), «Xalq qəzeti» (119), «Həyat» (118), «İzvestiya» (121) «Zaman» (123) qəzetlərindən istifadə edilmişdir.

Tədqiqatın metodoloji əsasını elmi obyektivlik, tarixilik və sistemlilik prinsipləri təşkil edir. İş problemlər üzrə xronoloji ardıcıllıqla yazılmışdır.

Tədqiqat işi yazılarkən beynəlxalq münasibətlər tarixi problemlərini araşdırmaq üçün tətbiq edilən toplanmış materialların kompleks təhlili, ümumiləşdirilməsi, nəticələr çıxarılması, proseslərin səbəb-nəticə əlaqələrinin üzə çıxarılması

İşlər İdarəsi
PREZIDENT KİTABXANASI

və s. metodlardan istifadə edilmişdir. Aparılan tədqiqat hər hansı ideoloji istiqamət və təsirlərdən azad olub, ilkin mənbələrin və ədəbiyyatların obyektiv araşdırılmasına və təhlilinə əsaslanır.

Tədqiqat işinin əsas müddəa və nəticələrindən ümumi tarix və beynəlxalq münasibətlər tarixinə dair tədqiqatların yazılmasında; Azərbaycan tarixinə və ümumi tarixə dair dərslik, dərs vəsaiti və ümumiləşdirilmiş əsərlərin hazırlanmasında; elmi-pedaqoji fəaliyyətdə; ali məktəblərin müvafiq fakültələrində xüsusi kursların oxunmasında; Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi sistemində istifadə edilə bilər.





## GİRİŞ

XX əsrin 90-cı illəri Azərbaycan Respublikasının XX əsrdə ikinci dəfə müstəqillik qazanması, ilkin diplomatik addımların atılması, müstəqil xarici siyasət konsepsiyasının formalaşması və dünya dövlətləri ilə bərabərhüquqlu qarşılıqlı münasibətlərin qurulması ilə səciyyələnir.

Tarix baxımından böyük bir müddət olmayan bu zaman kəsiyi yaşanmış sarsıntılar və problemlər, əldə edilmiş nailiyyətlər və uğurlar, həyata keçirilmiş işlər baxımından bir neçə onillik, bəlkə də bir əsrlik yola bərabər sayıla bilər. Bunu şərtləndirən əsas amillərdən biri onunla bağlıdır ki, müstəqilliyin əldə edilməsi ilə ölkə adətən qat-qat daha ağır və mürəkkəb bir problemlə – müstəqilliyin qorunması problemi ilə üzləşir. Yeni tarixi inkişaf mərhələsində Azərbaycan Respublikasının qarşısında da dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi dövlətin qurulması, respublikanın ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun ədalətli həlli, ölkə əhalisinin təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi mühüm tarixi vəzifələr dururdu. Bütün bunlar isə ardıcıl məqsədyönlü, düşünülmüş daxili və xarici siyasətin həyata keçirilməsini tələb edirdi.

Ümumilikdə, XX əsrin 90-cı illəri təkcə Azərbaycan üçün deyil, bütünlükdə türk dünyası üçün əlamətdar hesab edilə bilər. Belə ki, XX əsrin 90-cı illərinə qədər türk dünyasını beynəlxalq aləmdə təkcə Türkiyə Respublikası təmsil edirdi. 90-cı illərin başlanğıcında SSRİ-nin dağılması nəticəsində daha beş türk dövlətinin – Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın müstəqillik qazanması ilə türk dünyasında gözəçarpacaq bir canlanma başlandı. XX əsrin 90-cı illəri türk dövlətləri arasında bütün sahələrdə çox-

cəhətli əlaqələrin qurulduğu dövrdür. Bu qarşılıqlı yaxınlaşma dünyada, və xüsusən də, Avropada gedən inteqrasiya prosesləri ilə üst-üstə düşür və türk xalqlarının həyati mənafeyindən doğduğuna görə getdikcə daha çox aktuallıq kəsb edir. Ümumiyyətlə, XX əsrin 90-cı illəri Azərbaycanın türk dövlətləri ilə ikitərəfli münasibətlərinin qurulması (Türkiyə Cümhuriyyəti ilə 14 yanvar 1992-ci ildə, Qazaxıstan Respublikası ilə 27 avqust 1992-ci ildə, Özbəkistan Respublikası ilə 4 yanvar 1992-ci ildə, Qırğızıstan Respublikası ilə oktyabr 1992-ci ildə, Türkmənistanla 9 iyul 1992-ci ildə diplomatik münasibətlər yaradıldı), həmçinin beynəlxalq və məhəlli təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlıq baxımından mühüm bir dövr kimi qiymətləndirilə bilər.

Lakin göstərilən dövrdə, bəzən isə hətta hal-hazıra qədər dünya dövlətlərinin türk dünyasında baş verən hadisələrə münasibəti birmənalı olmamış, dövlətlərimiz arasında münasibətlərə bir qədər ehtiyatla yanaşılmışdır. Bu yanaşma təkcə siyasi dairələrdə, rəsmi səviyyədə deyil, həmçinin elmi araşdırmalarda da özünü göstərmişdir. Regionda maraqlı olan dövlətlərin alimləri, dövlət və siyasi xadimləri, politoloqları və ekspertlərinin arasında hadisələrə obyektiv, qərəzsiz yanaşma ilə bərabər, bəzən qərəzli, obyektivlikdən uzaq araşdırmalara da rast gəlinir. Belə ki, Azərbaycanın dil, mənəvi, tarixi, mədəni və siyasi cəhətdən sıx tellərlə bağlı olduğu türk dövlətləri ilə hər hansı formada yaxınlaşmaq cəhdi onun xarici siyasətinin dini, etnik təəssübkeşlik prinsipləri əsasında həyata keçirildiyi, bu əməkdaşlığın «pantürkizm», «turançılıq», «böyük türk millətçiliyi» olması haqqında ittihamlarla müşayiət olunurdu. Bütün bunlar isə Azərbaycanın türk dövlətləri ilə əlaqələrini müəyyən dərəcədə bölgədə marağı





olan digər dünya dövlətlərinin, xüsusən də qonşu Rusiya və İranın istək və arzularından asılı edirdi.

Məlum həqiqətdir ki, dövlət maraqları heç də həmişə sabit qalmır, tarixi reallıqlar, beynəlxalq vəziyyət dəyişdikcə onun məzmunu da dəyişir, yeni tələblərə uyğunlaşır. Lakin dövlət maraqlarının əbədi əsasları da vardır ki, bunlar digər xalqlar və dövlətlərlə əsrlər boyu qərarlaşmış münasibətlərdən, milli təhlükəsizliyin ənənəvi mənafelərindən ibarətdir. Bütün bunlar Azərbaycanın dünya ilə çoxçalarlı, çoxkeyfiyyətli mənafe və meyllərinin tam bir strukturunu yaradır. Məhz bu mülahizələrə görə, bütün çətinliklərə, təzyiqlərə baxmayaraq, türk dövlətləri ilə əlaqələrin qurulması və inkişaf etdirilməsi elə ilk dövrdən Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin paritet istiqaməti kimi müəyyənləşdirildi və, bir çox hallarda uğursuzluqla nəticələnməsinə baxmayaraq, həyata keçirilməsinə başlandı.

XX əsrin 90-cı illərində Azərbaycanın türk dövlətləri ilə əlaqələrini iki mərhələdə izləmək olar. Birinci mərhələ Azərbaycanın hələ SSRİ-nin tərkibində olduğu dövrə təsadüf edir və 1990-1991-ci illəri əhatə edir. 1991-ci ilin sonlarından, daha dəqiq desək, SSRİ-ni təşkil edən müttəfiq respublikaların hər birinin öz müstəqilliyini elan etdiyi gündən onun siyasi əlaqələr tarixinin yeni mərhələsi başlanır. Azərbaycan Respublikasının XX əsrin 90-cı illərində siyasi əlaqələr tarixinin ikinci mərhələsi 1991-ci il oktyabr ayının 18-də «Müstəqillik haqqında Konstitusiya Aktı»nın qəbul edilməsi ilə başlanır.

Azərbaycanın türk dövlətləri ilə münasibətlərinin birinci mərhələsində əlaqələri - Türkiyə ilə Moskva tərəfindən tənzimlənən əlaqələr çərçivəsindən kənara çıxmamış, yalnız iqtisadi, mədəni və humanitar xarakter daşımışdır. Mərkəzi Asiyanın türk dövlətləri ilə əlaqələr də iqtisadi, mədəni sahələr çərçivəsində qurulmuş, siyasi əlaqələr isə SSRİ-nin müttəfiq

respublikaları arasında mövcud olan əlaqələr şəklində mövcud olmuşdur (Azərbaycan Respublikasının SSRİ-nin tərkibində olduğu dövrdə beynəlxalq münasibətlər sistemində iştirakı barədə ətraflı məlumat üçün bax: S.Sayadov (97, 98, 99, 100), H.Hacıyev (77), Q.Quliyev (85), A.Bağırov (74), O.Sayadov (95, 96), E.Sayadovun (101) monoqrafiya və tədqiqatlarına). Yəni Mərkəzi Asiyanın indi müstəqil olan türk dövlətləri hamısı birlikdə vahid bir dövləti – SSRİ-ni təşkil edirdilər və, deməli, onlar arasında fəal siyasi əlaqələrdən bəhs edilə bilməzdi. Bu dövrdə onlar arasında yalnız «passiv xarici siyasət» olmuşdur desək, səhv etmərik.

Lakin 80-ci illərin ikinci yarısı – 90-cı illərin əvvəllərində SSRİ-nin daxilində, bütünlükdə Şərqi Avropa dövlətlərində gedən proseslərin məntiqi nəticəsi kimi türk respublikalarında da müstəqillik meylləri güclənməkdə davam edirdi. Ayrı-ayrı respublikalar Moskvadan asılı olmayan müstəqil qarşılıqlı əlaqələr qurmağa cəhdlər etməyə başlamışdılar. Bu meyl müəyyən dərəcədə özünü xarici siyasət fəaliyyəti sahəsində də göstərməyə başlamışdı. Bütün bu proseslərdən kənarda qalmayan Azərbaycan dövləti də özünün siyasi, iqtisadi, sosial və mədəni sahələrdə fəaliyyətində əsaslı dönüş etdi. 1989-cu il sentyabr ayının 23-də Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası «Azərbaycan SSR-in suverenliyi haqqında» Konstitusiya aktını qəbul etdi (42, s.44) və bundan sonra dünya dövlətləri ilə birbaşa əlaqələr yaradılmasına başlandı. Bu dövlətlər sırasında ön yerlərdən biri isə, şübhəsiz ki, Türkiyəyə məxsus idi.

1990-cı ilin yanvar ayında Azərbaycan Respublikasının hökumət nümayəndə heyəti Türkiyəyə səfər etdi. 1991-ci ilin mart ayında isə Türkiyə Prezidenti Turqut Özal SSRİ-yə rəsmi səfəri çərçivəsində Azərbaycanda oldu. Bundan başqa, həmin görüşlərarası vaxtda müxtəlif rəsmi səviyyələrdə bir sıra





qarşılıqlı səfərlər olmuşdu. Həmin görüşlərdə Azərbaycanla Türkiyə arasında əməkdaşlıq haqqında 20-dək protokol imzalanmış və bu sənədlər ilk dövrlərdə dövlətlərimiz arasında qarşılıqlı əlaqələrin qurulması üçün hüquqi-normativ baza olmuşdur (107, s.92-94).

Bu mərhələdə Azərbaycan həmçinin Mərkəzi Asiyanın türk dövlətlərindən Özbəkistanla (oktyabr 1990) və Qazaxıstanla (30 sentyabr – 2 oktyabr 1991) birbaşa qarşılıqlı əlaqələr qurmuşdu (bu barədə müvafiq fəsillərdə danışılacaq).

Artıq qeyd etdiyimiz kimi, 1991-ci ilin sonlarından, SSRİ-ni təşkil edən müttəfiq respublikaların hər birinin öz müstəqilliyini elan etdiyi gündən onun siyasi əlaqələr tarixinin yeni mərhələsi başlanır. Məlum olduğu kimi, Moskvada 1991-ci ilin 19-21 avqust dövlət çevrilişi cəhdindən sonra SSRİ-ni təşkil edən müttəfiq respublikalar, o cümlədən də türk respublikaları, bir-birinin ardınca öz müstəqilliklərini elan etməyə başladılar: 31 avqust 1991-ci ildə – Qırğızıstan, 1 sentyabr 1991-ci ildə – Özbəkistan, 18 oktyabr 1991-ci ildə – Azərbaycan, 25 oktyabr 1991-ci ildə – Qazaxıstan, 27 oktyabr 1991-ci ildə – Türkmənistan. Yeni yaranmış türk dövlətləri həm dünyanın digər ölkələri və xalqları ilə, həm də özləri arasında müstəqil əlaqələr yaratmağa başladılar. Milli maraqlardan doğan təbii inteqrasiya get-gedə güclənməyə, böyük bir regionu əlverişli əməkdaşlıq məkanına çevirmək üçün zəmin yaratmağa başladı.

Artıq bu dövrdən etibarən Azərbaycan dövləti dünya birliyinin qəbul etdiyi normalardan irəli gələn və xalqımızın milli mənafelərinə uyğun prinsiplərə əsaslanaraq özünün xarici siyasətini qurmağa başladı. Bu dövrdən dünya birliyinin bərabərhüquqlu üzvü olan digər türk dövlətləri ilə ənənəvi tarixi əlaqələrin bərpa edilməsi və daha da genişləndirilməsi

xarici siyasətimizin xüsusi aktuallıq kəsb edən məsələlərindən birinə çevrildi.

Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələrini ikitərəfli və çoxtərəfli qaydada, müxtəlif forma və vasitələrdən istifadə etməklə həyata keçirir. İkitərəfli əlaqələr – dövlət başçılarının, dövlət və hökumət nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, parlamentlərarası əlaqələr, səfirlik və konsulluq səviyyəsində əlaqələr, telefon danışıqları, nota mübadiləsi və s.; çoxtərəfli əlaqələr isə – beynəlxalq və məhəlli təşkilatların işində iştirak, xarici iqtisadi əlaqələr (birgə layihələrin işlənib hazırlanması və həyata keçirilməsi) vasitəsilə qurulur.

Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinə həsr olunmuş mövcud tarixi-siyasi ədəbiyyatda mürəkkəb siyasi, iqtisadi, sosial və s. daxili problemlərlə üzləşən, xarici təzyiqlərə, o cümlədən qonşu Ermənistan Respublikasının hərbi təcavüzünə məruz qalan Azərbaycan diplomatiyasının XX əsrin 90-cı illərində mürəkkəb və ziddiyyətli bir yol keçdiyi göstərilir. Ümumilikdə göstərilən vaxt ərzində Azərbaycan Respublikasının siyasi əlaqələr tarixi üç mərhələdə izlənilir. Bu mərhələlər aşağıdakı qaydada müəyyənləşdirilir:

1991-ci ilin oktyabr ayından 1992-ci ilin may ayınadək olan dövrü əhatə edən *birinci mərhələdə* kənardan heç bir vasitəçilik olmadan, müstəqil, suveren dövlətlər kimi əlaqələr yaradılmasına ilk təşəbbüs edildi. Bü mərhələdə Azərbaycan dövlətinin xarici siyasətinin əsasını bütövlükdə Rusiyaya meyllilik strategiyası təşkil edirdi. Lakin eyni zamanda qeyd edilməlidir ki, Azərbaycanın dünya birliyi dövlətləri ilə, o cümlədən türk dövlətləri ilə keyfiyyət baxımından əvvəlki illərdən fərqli əlaqələr qurmağa başlaması da məhz bu mərhələyə təsadüf edir. Məhz bu mərhələdə Azərbaycan Respublikasının istiqlaliyyətinin bir sıra dövlətlər tərəfindən rəsmi tanınması onu beynəlxalq aləmin tam hüquqlu subyektinə çevirdi. Azərbaycan Respublikası bir sıra nüfuzlu beynəlxalq





və məhəlli təşkilatların üzvü oldu (məsələn, BMT, ATƏT, İKT və s. // Bu barədə bax: 4; 7, 33, 42 və s.). Azərbaycanın Mərkəzi Asiyanın türk dövlətləri ilə qarşılıqlı surətdə bir-birlərinin müstəqilliklərini tanıması, diplomatik münasibətlər qurması da bu mərhələyə təsadüf edir.

Münasibətlərin *ikinci mərhələsi* 1992-ci ilin may ayından 1993-cü ilin iyun ayına qədər olan dövrü əhatə edir. Bu mərhələdə birtərəfli qaydada, beynəlxalq durumun obyektiv gerçəkliyi, dövlətin real vəziyyəti və mənafelərini tam nəzərə almayan xarici siyasət kursu həyata keçirilirdi. Bu siyasətin məntiqi nəticəsi kimi bir sıra dövlətlərlə münasibətlərdə əsassız gərginlik və narazılıqlar yaranırdı. Mövcud ədəbiyyatlarda bu dövrdə birtərəfli qaydada yalnız Türkiyə ilə münasibətlərə üstünlük verilməsindən danışılır. Lakin Türkiyə ilə münasibətlər də yalnız yüksələn xətt üzrə inkişaf etməmiş, mövcud narazılıq və ittihamlar Özbəkistan, Türkmənistan kimi türk dövlətləri ilə yanaşı, Türkiyə ilə münasibətlərdə də özünü göstərmişdir.

*Üçüncü mərhələ* 1993-cü ilin iyun ayından başlanır və günümüzə qədər davam edir. Bu mərhələdə Azərbaycanın xarici siyasət fəaliyyətində yeni strateji kursun və konseptual yanaşmanın əsası qoyuldu. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər müstəvisində yeri, Avropa ölkələri və ABŞ-la, keçmiş sovet respublikaları və Rusiya ilə, müsəlman dünyası və İranla, türk dövlətləri və Türkiyə ilə, digər ölkələrlə əlaqələrin yaxın dövr üçün prioritetləri, istiqamətləri, aparıcı strategiyası müəyyənləşdirildi, hər qrupa daxil olan ölkələrlə ayrı-ayrılıqda və birgə münasibətlərin düşünülmüş, bütün amilləri nəzərə alan sistemi yaradıldı. Bu mərhələdə Azərbaycanın xarici siyasət kursunda yeni keyfiyyət dəyişikliyi baş verdi. Bu, Azərbaycanın türk dövlətləri ilə münasibətlərində də özünü göstərdi. Belə ki, əvvəlki mərhələlərdə Azərbaycanın türk dövlətləri ilə əlaqələri daha

çox beynəlxalq və məhəlli təşkilatlar çərçivəsində – çoxtərəfli əməkdaşlıq formasında həyata keçirilirdisə, bu mərhələdə artıq Azərbaycan türk dövlətləri ilə qarşılıqlı əlaqələrin inkişafına da xüsusi səy göstərməyə başladı və bu səy uğurlu nəticələr verdi. 1995-ci ilin sonlarından Özbəkistanla, 1996-cı ildən Qazaxıstanla, Türkmənistanla, 1997-ci ildən Qırğızıstanla tam həcmdə diplomatik əlaqələr yaradıldı. Sonrakı dövrdə bu əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində müəyyən işlər görüldü. Azərbaycan Respublikasının 2003-cü ilin oktyabr ayında seçilmiş yeni Prezidenti İ.Əliyevin ilk rəsmi səfər etdiyi ölkələr sırasında Türkiyə (13-15 aprel 2004-cü il), Qazaxıstan və Özbəkistan Respublikalarının da yer alması bundan sonrakı dövrdə də Azərbaycanın xarici siyasət fəaliyyətində türk dövlətləri ilə əməkdaşlığın xüsusi çəkisinin olacağından xəbər verir.





## I fəsil

## AZƏRBAYCANIN TÜRKİYƏ RESPUBLİKASI İLƏ QARŞILIQLI SİYASİ ƏLAQƏLƏRİ

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra xarici siyasətinin əsas istiqamətlərindən biri türk dövlətləri ilə çoxcəhətli sıx əlaqələrin qurulması olmuşdur. Xüsusən bu dövr ərzində Türkiyə ilə münasibətlər daha da dərinləşmiş və genişlənmişdir. Ümumiyyətlə, Türkiyə rəsmi və işgüzar dairələrində Azərbaycana münasibətdə həmişə xüsusi yanaşma mövcud olmuş, dövlət və hökumət, həmçinin digər müxtəlif səviyyəli görüşlərdə bu münasibət dəfələrlə vurğulanmışdır. Bu baxımdan, 1997-ci ilin may ayında Azərbaycan-Türkiyə dövlət başçılarının görüşündə Türkiyə prezidenti Süleyman Dəmirəlin dediyi sözləri qeyd etmək yerinə düşərdi: «Azərbaycanın müstəqilliyini biz öz müstəqilliyimiz qədər qiymətləndirir, onun səylərinə mümkün olan bütün köməyi göstərməyi özümüzə borc bilir və bundan şərəf duyuruq» (6, c.III, s.199). Bu da təsadüfi deyil. Keçmiş Sovetlər Birliyi məkanında müstəqillik qazanmış beş türk dövlətindən coğrafi cəhətdən Türkiyəyə ən yaxın olanı və xarici siyasət fəaliyyətində ona daha çox önəm verəni Azərbaycandır. Belə ki, müştərək mədəniyyətimiz, qarşılıqlı anlayış və hörmət iki dövlət arasında xüsusi məna daşıyan xüsusi əlaqələrin təməlini yaratmışdır.

Belə möhkəm təmələ malik olan Azərbaycan-Türkiyə əməkdaşlığını müasir dövrdə də şərtləndirən bir sıra amillər mövcuddur. Belə ki, dövlətlərimiz arasında əlaqələrin müasir vəziyyətindən bəhs edən mövcud tarixi-siyasi ədəbiyyatların (3, 14, 22, 23, 28, 35, 69, 109, 113 və s.) təhlili bizə bu amilləri aşağıdakı qaydada ümumiləşdirməyə imkan verir:

- XX əsrin son onilliklərində beynəlxalq aləmdə baş vermış dəyişikliklər Türkiyə və Azərbaycanın regionda nüfuzunu, hadisələrin gedişinə təsirini, əhəmiyyətini, rolunu əhəmiyyətli dərəcədə artırmışdır;

- Azərbaycan Gürcüstan və Mərkəzi Asiyanın türk respublikaları ilə birlikdə elə bir sərhəd divarıdır ki, Rusiyanı bütövlükdə Yaxın və Orta Şərqdəki müttəfiqlərindən ayırmaqla dünyanın təkrar bir-birinə qarşı duran nəhəng bloklara bölünməsi təhlükəsinin reallaşmasına imkan vermir, Türkiyə bu «sərhəd divarının» NATO qarantıdır;

- həm Türkiyə, həm də Azərbaycan Avrasiyanın, dünya mədəniyyətinin, dünya siyasətinin qovşağında, Avrasiya beynəlxalq ticarət yolunun üzərində yerləşir;

- Qərb dövlətləri üçün Türkiyə Yaxın Şərqin, Azərbaycan isə Mərkəzi Asiyanın qapısıdır;

- Azərbaycan böyük neft kəmərinin başlanğıcı, Türkiyə sonucudur;

- Azərbaycan TRASEKA proqramına əsasən qurulmaqda olan Avropa-Qafqaz-Asiya beynəlxalq ticarət yolunda başlıca əlaqələndirici halqa, Türkiyə TRASEKA-nın Avropaya çıxış yollarından ən mühümüdür;

- Ermənistan-Azərbaycan münaqişəsinə münasibətdə Türkiyə Azərbaycanın təhlükəsizliyinin qarantı, öz növbəsində Azərbaycan son illərdə erməni millətçiləri tərəfindən dünya parlamentlərində müzakirəyə çıxarılmış qondarma «erməni soyqırımı» məsələsində Türkiyənin mənafeyinin fəal müdafiəçisidir;

- Türkiyə və Azərbaycan strateji partnyordur, bu partnyorluq dövlətlərarası münasibətlərin bütün sahələrini, o cümlədən də hərbi sahəni tədricən daha geniş əhatə etməlidir;

- Nəhayət, Cənubi Qafqaz regionunda yaradılmış və son dərəcə kövrək olan qüvvələr müvazinəti güclü Türkiyəsiz və güclü Azərbaycansız uzun müddət davam edə bilməz.





Bir sıra tarixçilər, siyasətçilər, politoloqlar Azərbaycanın Türkiyə üçün müsəlman-türk dünyasının «giriş qapısı», Türkiyənin öz növbəsində Azərbaycan üçün Avropa «qapılarının açarı» olduğu haqda fikirlər də irəli sürürlər. Müəyyən zaman kəsiyində bu fikirlərlə bəlkə də razılaşmaq olardı. Lakin hazırki dövrdə vəziyyət bir qədər dəyişmişdir. Belə ki, hətta bəzi Avropa tədqiqatçıları da bu fikrin yanlış və müəyyən məqamlarda Azərbaycanın Avropaya inteqrasiyasını bir qədər də ləngidən, əngəlləyən bir fikir olduğunu bildirirlər. Onlarla razılaşırıq və belə hesab edirik ki, Azərbaycan-Avropa əlaqələri vasitəçilərsiz, birbaşa qurularsa daha uğurlu olar. Və hətta, yeri gəldikcə Azərbaycan dövləti Türkiyənin Avropaya inteqrasiyasında ona yardımçı ola bilər. Bunu Avropa Birliyi-Azərbaycan, Avropa Birliyi-Türkiyə münasibətləri də bir daha təsdiq edir. Azərbaycanın Türkiyə üçün müsəlman-türk dünyasının «giriş qapısı» ola biləcəyi fikrinə gəlincə isə, qeyd etmək istərdik ki, Azərbaycanın Mərkəzi Asiyanın türk dövlətləri ilə əlaqələrini nəzərdən keçirərkən aydın olur ki, bu dövlətlərin Azərbaycanla əlaqələri özü hələ istənilən səviyyədə qurulmayıb. Türkiyə ilə əlaqələr isə birbaşa qurulur və bu əlaqələrin səviyyəsi də bir o qədər qənaətbəxş hesab oluna bilməz. Dövlətlərimiz daha çox beynəlxalq və regional iqtisadi layihələrin hazırlanıb həyata keçirilməsində bərabər tərəflər kimi iştirak edirlər.

Lakin bütün bunlarla baxmayaraq, Azərbaycan və Türkiyənin əlverişli geosiyasi və geostrateji mövqeləri ölkələrimizi yalnız bir-biri üçün deyil, ümumən dünya üçün mühüm məkana çevirmişdir. Bu isə öz növbəsində, qloballaşma, inteqrasiya proseslərinin xüsusi əhəmiyyət kəsb etdiyi müasir dövrdə dövlətlərimizə öz gələcəklərini tarixi həqiqətlər və ümumi mədəni dəyərlər üzərində qurmaları üçün əlverişli zəmin yaratmışdır. Azərbaycan-Türkiyə əməkdaşlığı və tərəfdaşlığı məhz göstərilən amillərin təsiri altında qısa, lakin zən-

gin tarixi inkişaf yolu keçərək bu gün artıq strateji müttəfiqlik müstəvisinə keçmişdir.

XX əsrin 90-cı illərində Azərbaycanın türk dövlətləri ilə əlaqələrinin iki mərhələdə həyata keçirildiyini, birinci mərhələnin Azərbaycanın hələ SSRİ-nin tərkibində olduğu dövrə təsadüf etdiyini və 1990-1991-ci illəri əhatə etdiyini artıq qeyd etmişik. Ümumiyyətlə, Sovetlər Birliyinin 15 müttəfiq respublikasından biri olduğu 70 il ərzində Azərbaycanın Türkiyə ilə əlaqələri SSRİ ilə Türkiyə arasında imzalanmış müqavilə və sazişlər, digər beynəlxalq sənədlər nəzərə alınmaqla qurulmuşdur (yalnız iqtisadi, ticarət və mədəni əlaqələr olmuşdur). 80-ci illərdə Türkiyənin Sovet İttifaqı ilə ticarət-iqtisadi münasibətlərində müəyyən canlanma müşahidə edilməyə başlandı. Lakin həmin dövrdə də ermənilər Sovet-Türkiyə münasibətlərinin bütün istiqamətlərini inhisara almışdılar. Xarici İşlər Nazirliyinin Orta Şərq ölkələri ilə əlaqələr şöbəsində, Xarici Ticarət Nazirliyində, Dövlət İqtisadi Əlaqələr Komitəsində, Mədəniyyət Nazirliyində, hətta Beynəlxalq Kitab Birliyində, yəni xarici siyasət və xarici ticarətlə məşğul olan bütün ittifaq təşkilatlarında özlərinə möhkəm yuva quran ermənilər Azərbaycanla Türkiyə arasında hər hansı əlaqələrin yaranmasına müxtəlif yollarla mane olur, mərkəzi hakimiyyət orqanlarını inandırmağa çalışırdılar ki, Türkiyə ilə münasibətlər nəticəsində müsəlman respublikalarına pantürkizm ideyaları sirayət edə bilər.

Lakin, artıq qeyd edildiyi kimi, 80-ci illərin ikinci yarısı – 90-cı illərin əvvəllərində SSRİ-nin daxilində ayrı-ayrı respublikalar Moskvadan asılı olmayan müstəqil qarşılıqlı əlaqələr qurmağa cəhdlər etməyə başlamışdılar. Bu meyl müəyyən dərəcədə özünü xarici siyasət fəaliyyəti sahəsində də göstərməyə başlamışdı. Bütün bu proseslərdən kənarda qalmayan, 1989-cu ilin sentyabr ayında «Suverenlik haqqında» Konstitusiya aktını qəbul edən Azərbaycan Respublikası da





bundan sonra dünya dövlətləri ilə birbaşa əlaqələr yaratmağa başladı. Bu dövlətlər sırasında ön yerlərdən biri isə, şübhəsiz ki, Türkiyəyə məxsus idi.

Belə ki, 1990-cı ilin yanvar ayında Azərbaycan Respublikasının hökumət nümayəndə heyəti Türkiyəyə səfər etdi. 1991-ci ilin mart ayında isə Türkiyə Prezidenti Turqut Özal SSRİ-yə rəsmi səfəri çərçivəsində Azərbaycanda oldu. Bundan başqa, həmin görüşlərarası vaxtda müxtəlif rəsmi səviyyələrdə bir sıra qarşılıqlı səfərlər olmuşdu. Həmin görüşlərdə Azərbaycanla Türkiyə arasında əməkdaşlıq haqqında 20-dək protokol imzalanmış və bu sənədlər ilk dövrlərdə dövlətlərimiz arasında qarşılıqlı əlaqələrin qurulması üçün hüquqi-normativ baza olmuşdur (107, s.92-94).

1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikası özünün dövlət müstəqilliyini elan etdikdən sonra ilk olaraq onu Türkiyə tanıdı (9 noyabr 1991-ci il – 18, VI c., s.118) və bununla da onun üçün dünya birliyinə bir növ pəncərə açdı. Türkiyənin bu addımı dünya dövlətləri tərəfindən heç də birmənalı qarşılanmadı. Noyabr ayının 9-da Türkiyə Respublikası Azərbaycan Respublikasının müstəqilliyini rəsmən tanıdığını bəyan etdikdən dərhal sonra, ABŞ dövləti Türkiyəyə bir qədər tələsməməyi məsləhət gördü, belə ki, dünyanın digər fövqəl dövləti olan Sovet İttifaqının mövcudluğu şəraitində Türkiyənin tələskənliyi dünyada gərginliyin artması ilə nəticələnə bilərdi. Buna cavab olaraq 1991-ci il noyabr ayının 11-də Türkiyə Respublikasının Xarici İşlər naziri Səfa Gəray bəyanatla çıxış etdi və bildirdi ki, Sovet İttifaqının əsaslı dəyişikliklər yoluna qədəm qoyması bütün dünyada olduğu kimi, Türkiyə-Sovet münasibətlərinə də müsbət təsir göstərmişdir. Türkiyə öz qonşusu ilə dostluğa və səmərəli əməkdaşlığa həmişə böyük əhəmiyyət vermişdir və indi də onunla münasibətləri qarşılıqlı hörmət əsasında qurur. Hazırda Türkiyə Respublikası yeni türk dövlətlərinin müstəqilliklərini tanı-

maq məsələsini özünün SSRİ-yə münasibətdə ümumi siyasəti çərçivəsində müzakirə edir. Azərbaycanın istiqlaliyyətini tanımaq haqqında Türkiyə hökumətinin qərarı isə türk xalqının iradəsini ifadə edir (119, 12 noyabr 1991). Elə həmin gün Türkiyə Respublikasının Bakıdakı Baş konsulu Altan Karamanoğlu Azərbaycan Respublikasının istiqlaliyyətinin tanınması haqqında Türkiyə Xarici İşlər naziri Səfa Gərayın bəyanatını Türkiyə Respublikası hökuməti adından Azərbaycan Respublikasının Prezidentinə təqdim etdi (119, 12 noyabr 1991).

Bunun ardınca 1992-ci il yanvar ayının 14-də yenə ilk olaraq Türkiyə Azərbaycanla diplomatik münasibətlərin bərpa edilməsi, Bakıda və Ankarada səfirliklər səviyyəsində diplomatik nümayəndəliklər yaradılması haqqında protokol imzaladı (107). 1991-ci ilin dekabrında Azərbaycan Xarici İşlər Nazirliyi rəsmən məlumatlandırılmışdı ki, Türkiyə Respublikasının hökuməti Türkiyə Respublikasının Bakı şəhərindəki Baş konsulluğunu Azərbaycanda Türkiyə Respublikasının səfirliyinə çevirməyi qərara almışdır (119, 4 yanvar 1992). Türkiyənin 1992-ci ilin əvvəllərinədək Azərbaycanda Baş konsulu olmuş Altan Karamanoğlu isə 1992-ci ilin yanvarında Türkiyə Respublikasının Azərbaycanda ilk səfiri təyin edilmişdi (119, 29 yanvar 1992). Qeyd etmək yerinə düşərdi ki, 1918-ci ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı elan edildikdən sonra o vaxt da ilk olaraq Türkiyə onun müstəqilliyini tanımış, siyasi və diplomatik münasibətlər qurduğunu bildirmişdi. Həmin illərdə Türkiyə Azərbaycanın varlığının qorunub saxlanması üçün ona hərtərəfli yardım göstərmişdi. 1920-ci ilin aprel işğalından sonra da SSRİ-nin təşkilinə qədər Azərbaycanın Türkiyədə nümayəndəliyi mövcud idi (Bu dövrdə Azərbaycan-Türkiyə münasibətlərindən M.Qasımovun (36, 37), N.Nəsibzadənin (59), M.Sofiyevin (65), C.Həsənovun (26) əsərlərində ətraflı bəhs olunur).





1991-ci ilin dekabrında Türkiyənin Baş naziri Süleyman Dəmirəl ölkənin parlamentində çıxışında bildirmişdi ki, Sovet İttifaqının dağılması və Avropadakı dəyişikliklər şəraitində türk və müsəlman sovet respublikaları ilə əməkdaşlıq zəruridir. Belə ki, «1992-ci il ərəfəsində Türkiyənin qarşısında əsasən Mərkəzi Asiya və Qafqaz istiqamətində geniş, öz əhəmiyyətinə görə böyük perspektivlər açılır. Türkiyə üçün faydalı olardı ki, dövlətimiz, hökumətimiz, parlamentimiz və işgüzar dairələrimiz həmin respublikalara xüsusi fikir versinlər, onlarla yaranan mehriban münasibətlərin bünövrəsini təşkil edən əsas dəyərləri nəzərə alsınlar və çalışsınlar ki, gələcəkdə bizim barəmizdə belə sözlər deyilməsin: «Bu böyük qardaşımız da bizi məyus etdi». Bundan başqa belə mövqe dünyada Türkiyənin strateji mövqelərini möhkəmlətmək baxımından da faydalıdır. Çətinliklərimizə baxmayaraq, biz göz yummamalıyıq ki, həmin respublikaların təbii ehtiyatları vardır, amma mal əldə etmək üçün vasitələri yoxdur».

Ümumiyyətlə, türk sovet resublikaları ilə əlaqədar problem ölkənin ali qanunvericilik orqanı olan Türkiyə Böyük Millət Məclisinin iclaslarında mütəmadi müzakirə olunurdu. Müzakirələrdə ölkədə «xarici türklərin» işləri üzrə xüsusi nazirlik yaradılmasının, latın əlifbasına keçməkdə türk xalqlarına yardım göstərilməsinin zəruriliyi bildirilirdi. Eyni zamanda, «Sovet İttifaqının dağılması şəraitində təhrikçilik siyasətindən imtina edilməsi» haqqında fikirlər də eşidilirdi (119, 20 dekabr 1991).

Həmin dövrdə Türkiyənin nüfuzlu «Hüriyyət» qəzeti Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun Türkiyəyə səfərini şərh edərək yazırdı ki, «sovet türk respublikaları» barəsində Ankara Moskva ılə bağlı olmayan tamamilə yeni siyasət yeritməyə başlamışdır. Görüş zamanı SSRİ-nin bayrağı olmamış, himni səslənməmişdi.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan da daxil olmaqla postsovet məkanında yerləşən bütün dövlətlər özlərinin gələcək inkişaf strategiyasını müəyyənləşdirərkən ciddi seçim qarşısında qaldılar: onlar dünyada mövcud olan mürəkkəb beynəlxalq və regional şəraiti düzgün qiymətləndirməli, dünya siyasətinin güc mərkəzləri olan ABŞ, Avropa Birliyi, Rusiya, Şərqi Asiya ölkələri arasındakı mənafe və maraq çəkişmələrində özlərinin suverenliyini qoruyub saxlamaq məqsədilə düşünülmüş xarici siyasət kursu yeritməli idilər. Bu dövlətlər qarşısında müasir dövrdə beynəlxalq aləmdə qəbul edilmiş və həyata keçirilən inkişaf modellərinin, ilk növbədə Amerika, Avropa və Asiya modellərinin zəif və üstün cəhətlərini diqqətlə araşdırmaq və bu zəmində ya onlardan birinə üstünlük vermək, ya da ayrı-ayrı modellərin əsas cəhətlərini sintez edərək ölkənin spesifik şəraitinə daha uyğun olan inkişaf yolunu seçmək vəzifəsi dururdu.

90-cı illərdə müstəqillik qazanmış bir çox yeni dövlətlər üçün II dünya müharibəsindən sonra iqtisadi, siyasi və hərbi sahədə sürətli tərəqqiyə nail olan və dünya dövlətləri arasında liderə çevrilən ABŞ-ın siyasi sistemi və iqtisadi modeli daha çox cəlbedici görünməkdə idi. Lakin tarixi seçim zərurəti ilə üzləşən postsovet respublikalarının davranışında siyasi praqmatizm də mühüm rol oynamışdır. Belə ki, həmin dövlətlərin strateji seçimini onların SSRİ-nin varisi rolunu öz üzərinə götürən Rusiyanın ənənəvi təsir dairəsindən çıxmaq, beynəlxalq aləmlə inteqrasiya məsələlərində və daxili iqtisadi-siyasi problemlərin həllində sabit iqtisadi və maliyyə gücünə malik olan ABŞ kimi superdövlətdən kömək almaq istəyi də şərtləndirirdi. Amerika modelinin cəlbediciliyində inqilabi partlayışlarsız və sarsıntılarsız, demokratik yolla inkişaf edən ABŞ-ın uzun müddət, yəni «soyuq müharibə» dövründə totalitar dövlət olan SSRİ ilə qarşıdurmasında əsas rəqib kimi çıxış edərək bu mübarizədən qalib çıxması faktı da mühüm rol oynamışdır. Lakin XX əsrin sonunda dünya siyasətinin yeni güc mərkəzləri kimi meydana çıxan Avropa və Asiya dövlətləri qruplarının inkişaf modellərinin ABŞ modeli ilə rəqabət mübarizəsindəki uğurları, habelə proqnozlaşdırılan üstünlükləri sonuncunun cəlbediciliyinə müəyyən zərbə vurmuşdur (bu barədə daha ətraflı bax: 24; 105, 106).





Belə bir şəraitdə, 1992-ci ilin əvvəllərində Türkiyənin baş naziri Süleyman Dəmirəl Davosda Dünya İqtisadi Forumunda (30 yanvar – 2 fevral) türk dövlət başçıları ilə görüşlərində və bundan dərhal sonra ABŞ-da rəsmi səfərdə (10-15 fevral) olarkən Amerika rəsmiləri ilə görüşlərində keçmiş İttifaqın müsəlman dövlətləri üçün Türkiyə inkişaf modelinin məqsədəuyğun olduğu haqqında fikir söyləmişdi. S.Dəmirəl bunu belə əsaslandırırdı ki, Sovetlər Birliyinin dağılmasından sonra Amerika Birləşmiş Ştatları Rusiya və Ukrayna, Qərbi Avropa dövlətləri isə Şərqi Avropa dövlətlərində gedən proseslərə daha çox maraq göstərir, onları öz nüfuz dairələrində saxlamağa çalışırlar. Müsəlman dövlətləri isə bir qədər diqqətdən kənarda qalıblar. Həmin dövlətlərin inkişafı üçün Türkiyə modelinin təklif olunması isə heç də o demək deyildir ki, Türkiyə həmin dövlətlərdə təkbaşına nüfuz sahibi olmaq niyyətindədir. Türkiyədə yaxşı bilirlər ki, müasir dünyada təkbaşına, kənardan yardım olmadan inkişaf mümkün deyildir. Bu baxımdan, keçmiş birliyin müsəlman dövlətlərinə onların gələcək inkişafında məhz ABŞ-ın Yaxın Şərqdə strateji müttəfiqi olan Türkiyənin yardımçı olması daha məqsədəuyğun olardı. Problemə belə yanaşma artıq dünyanın yeganə fövqəldövləti olan ABŞ-ı da təmin edirdi. Və artıq həmin vaxtdan rəsmi görüşlərdə və mətbuatda inkişafın «Türkiyə modeli» haqqında tövsiyələr eşidilməyə başlandı (Ətraflı məlumat üçün bax: 108, s.12-17; 113, s.143-158, 404-405). Bunun məntiqi davamı kimi, Avropa dövlətlərinin siyasi məsləhət şurası olan Avropa Şurası da keçmiş Sovet İttifaqı-

nın müsəlman dövlətləri üçün «İslamın və müasir dövlət qurumlarının uzlaşdığı Türkiyə modeli»ni daha məqbul hesab etdiyini bildirdi. 1992-ci ilin may ayında Avropa Şurasının Baş katibi Katrin Lalyumber Qərb ölkələrini Türkiyənin Orta Asiya respublikalarına kömək etmək səylərini müdafiə etməyə çağırdı (119, 22 iyul 1992). Dünya mətbuat orqanlarında da bu məsələ ilə bağlı müxtəlif fikirlər bildirilirdi. Belə ki, «Nyu-York Tayms» qəzetində bildirilirdi ki, «diplomatik planda Türkiyənin Orta Asiya respublikaları – Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tacikistan, habelə Azərbaycanla tarixi etnik əlaqələri onun bu ölkələrlə münasibətlərinin inkişafı üçün xüsusi şərtləri təmin etməlidir. Həmin əlaqələrin inkişafı Səudiyyə Ərəbistanı və İranın islam fundamentalizmini yaymaq səylərinin əksinə yönəlib» (119, 29 sentyabr 1992). Burada Səudiyyə Ərəbistanı haqda fikirə etiraz etmədən, iki məqamla bağlı münasibətimizi bildirməyi lazım bilirik. Birinci məqam İranla bağlıdır. Tədqiq olunan dövrdə də, ondan bir qədər əvvəlki dövrlərdə də İranın xarici siyasət fəaliyyətini nəzərdən keçirsək bütün vaxtlarda onun özünün dövlət maraqlarını dini maraqlardan daha üstün tutduğu qənaətinə gələ bilərik. Fikrimizi təsdiq etmək üçün lazımi qədər arqument gətirmək olardı, lakin İraqla müharibə, Ermənistanla münasibətlər faktları ilə kifayətlənmək istərdik. Digər məqam isə ondan ibarətdir ki, son illərin hadisələri belə deməyə əsas verir ki, Azərbaycanda (və həmçinin Mərkəzi Asiyanın türk, müsəlman respublikalarında) İslam dininin yayılması və təbliğində Türkiyə İrandan daha əməli mövqe nümayiş etdirir. Məscidlərin tikilməsi, dini yönümlü təhsil müəssisələrinin, məktəblərin, Universitetlərdə İlahiyyat fakültələrinin açılması, dini ədəbiyyatların yayılması və s. qənaətimizin düzgün olduğunun əyani göstəricisidir. Bütün deyilənlərdən belə nəticə hasil etmək olar ki, regionda maraqlı dövlətlərin özlərinin İranla «qeyri-səmimi», Türkiyə ilə





isə «müttəfiqlik» münasibətləri onları müvafiq bəyanatlarla çıxış etməyə sövq edib. Təsadüfi deyil ki, hazırda bəzi avropalı ekspertlərinin fikrinə görə, əslində Azərbaycan Türkiyədən daha çox dünyəvi dövlətdir.

Özünün gələcək inkişaf modelini yaradan, Qafqazın, Asiyanın və Avropa sivilizasiyalarının ənənələrini özündə birləşdirən orijinal mədəniyyətini qoruyub saxlayan, Şərq ilə Qərbin, Şimal ilə Cənubun qovuşuğunda yerləşən Azərbaycan dövləti bu modeli tarixi təcrübə və respublikanın geosiyasi vəziyyəti baxımından müəyyən edir, dünya inkişafının indiki qanunauyğunluqlarını nəzərə almaqla, XX əsrin axırlarınadək bəşər sivilizasiyasının hazırladığı fundamental prinsiplərə sadiq olan demokratik, sülhsevər bir dövlətin, dünya birliyinin bərabərhüquqlu üzvünün modelini yaratmağa çalışır. Və dünya demokratiyasının, mədəniyyətinin, inkişaf etmiş ölkələrin iqtisadiyyatının təcrübəsinin Azərbaycanda tətbiq olunması prosesində xalqımızın həm dil, həm də mənəvi, tarixi, mədəni və siyasi cəhətdən sıx tellərlə bağlı olduğu Türkiyənin əldə etdiyi nailiyyətlərdən yeri gəldikcə istifadə edilir, «Türkiyə modeli»nə müraciət olunur.

Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra dövlətlərimiz arasında ilk rəsmi görüş 1992-ci ilin yanvar ayında oldu. Həmin il yanvar ayının 23-27-də Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibov Türkiyə Respublikasının Prezidenti Turqut Özalın dəvəti ilə Türkiyəyə səfər etdi. Görüşün yekunlarına həsr olunmuş mətbuat konfransında xüsusi qeyd edilmişdi ki, Türkiyəyə bu rəsmi səfər və yüksək səviyyədə görüş Azərbaycan üçün böyük siyasi əhəmiyyətə malikdir. Belə ki, dövlətlərarası əlaqələr səviyyəsində respublika ilk dəfə müstəqil dövlət kimi çıxış edir. Görüşün nəticəsi kimi, «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında» müqavilə, Hərbi əməkdaşlıq və bir sıra digər sənədlər im-

zalanmış, Türkiyənin Azərbaycana texniki yardım göstərməsi məsələsi də müzakirə edilmişdi. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əlaqələrin gələcəyinə inam doğuran «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında» sənədi Prezidentlər ikitərəfli münasibətlər tarixində yeni səhifə adlandırmış və bildirmişdilər ki, müqavilə bütün sahələrdə gələcək əməkdaşlığın bünövrəsini qoymuşdur (119, 29 yanvar 1992). Türkiyənin Milli Müdafiə naziri Nevzət Ayazın hərbi əməkdaşlıqla bağlı müqavilə haqda bəyanatında deyilirdi ki, Türkiyə və Azərbaycan arasında hərbi sahədə əməkdaşlıq yalnız «hərbi təhsil səviyyəsində» aparılacaqdır (119, 1 fevral 1992; bununla əlaqədar aşağıda ətraflı məlumat veriləcəkdir – S.R.).

1992-ci ilin əvvəllərində keçmiş Sovet İttifaqının türk respublikaları ilə münasibətləri nizamlamaq məqsədilə Türkiyə Xarici İşlər Nazirliyi yanında Xüsusi İdarə yaradıldı. İdarənin əsas vəzifəsi həmin dövlətlərlə iqtisadi, elmi və mədəni sahələrdə fəaliyyətlərini əlaqələndirmək, ilk növbədə isə dövlətin idarə olunması və diplomatiya sahəsində Türkiyənin təcrübəsindən türk dövlətlərinin yararlanmasına imkan yaratmaq idi. Türkiyə Respublikasının Xarici İşlər naziri Hikmət Çətin bu məsələ ilə bağlı bildirmişdi ki, Türkiyə türk dövlətlərinə müxtəlif yardım göstərəcəkdir. Lakın bunu heç də «nüfuz uğrunda yarışda iştirak kimi» qiymətləndirmək olmaz (119, 4 fevral 1992).

1992-ci il fevral ayının 28-də Türkiyə nümayəndə heyəti (Xarici İşlər naziri Hikmət Çətin, dövlət naziri Şərif Ercan, Xalq təhsili naziri Köksal Toptan, Türkiyə Böyük Millət Məclisinin bir qrup nümayəndəsi) Azərbaycanda olarkən müxtəlif fəaliyyət sahələrində ikitərəfli əməkdaşlığın genişləndirilməsi ilə əlaqədar məsələlər müzakirə olunmuş, xalq təhsili, mədəniyyət, beynəlxalq münasibətlər sahəsində qarşılıqlı fəaliyyətin perspektivləri müəyyən edilmiş, bir sıra dövlətlərarası sənədlərin imzalanması ilə əlaqədar məsələlər müzakirə edilmiş, diplomatiya sahəsində təcrübə mübadiləsi haqqında razılıq əldə edilmişdi (119, 29 fevral 1992). Həmçinin Dağlıq Qarabağ probleminə toxunulmuşdur. Azərbaycan tərəfi bildirmişdi ki, münaqişə dincliklə aradan qaldırılmalıdır. Türkiyə Xarici İşlər naziri Hikmət Çətin öz növbəsində qeyd etmişdi ki, münaqişənin qızışdırılması onu Dağlıq Qarabağın hüdudlarından kənara çıxara bilər, regionda vəziyyəti olduqca mürəkkəbləşdirər, başqa ölkələri də bu münaqişəyə cəlb edə bilər. Odur kı, indi başlıca məsələ atəşin dayandırılmasına nail olmaq və münaqişənin siyasi vasitələrlə aradan qaldırılması prosesinə başlamaq məsələsidir. Öz tərəfindən Türkiyə bu prosesə hər vasitə ilə yardım göstərəcəkdir.

Qarabağ problemi Türkiyə Böyük Millət Məclisinin İnsan hüquqları komissiyasının Azərbaycanda olan üzvlərinin Azərbaycan Respublikası Ali Sovetinin Sədri Yaqub Məmmədovla 1992-ci il martın 10-da keçirilmiş görüşü zamanı da müzakirə olunmuşdu. Türkiyə parlamentinin deputatları bölgədəki real vəziyyət haqqında məlumatın dünyanın bütün dövlətlərinin nəzərinə çatdırılmasına çalışacaqlarını bildirmişdilər (119, 11 mart 1992). TBMM İnsan hüquqları komissiyasının üzvləri mart ayının 11-də Azərbaycan və dünya mətbuatı nümayəndələri üçün mətbuat konfransı keçirmişdilər. Mətbuat konfransında Türkiyənin Azərbaycandakı səfiri Altan Karamanoğlu da iştirak etmişdi. Komissiya üzvləri bildirmişdilər ki, Qarabağda savaş yox, qətliam var. Hətta Xocalı soyqırımından sonra belə dünya həqiqəti eşitmək istəmir. Dünya mətbuatının nümayəndələri Azərbaycanda olmalı ikən buraya gəlmirlər. Bu cinayəti cəzasız qoymaq olmaz. Türkiyəyə qayıdandan sonra komissiyanın 21 üzvü dünya ölkələrinə səfər edəcək, buradakı həqiqətləri hamıya çatdıra-

caq, azəri türklərinin insan hüquqlarının müdafiəsini bütün beynəlxalq təşkilatlardan tələb edəcək (119, 14 mart 1992).

1992-ci il mart ayının 24-də Türkiyənin Baş naziri Süleyman Dəmirəl və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Heydər Əliyev Ankarada əməkdaşlıq haqqında protokol imzaladılar. Türkiyə ilə Naxçıvan arasında iqtisadiyyat, təhsil, nəqliyyat və rabitə sahəsində münasibətlərin inkişafı nəzərdə tutulur, Türkiyə Araz sərhəd çayı üzərində körpü salmaq barədə öhdəlik götürürdü. Bundan başqa, qonşu respublikanın iqtisadiyyatına investisiya qoyulması üçün Türkiyə iş adamlarına imtiyazlar verilməsi vəd olunurdu (119, 26 mart 1992).

1992-ci ilin aprel ayında Türkiyə parlamentinin 72-ci ildönümü münasibəti ilə Türkiyəyə gəlmiş Azərbaycan nümayəndə heyəti üzvlərinin Türkiyə parlament partiyalarının liderləri ilə, habelə baş nazir Süleyman Dəmirəllə görüşlərində (26 aprel) türk dövlətləri arasında münasibətlərin inkişaf perspektivləri müzakirə olunmuşdu. S.Dəmirəl ölkə rəhbərlərinin mövqeyini ifadə edərək bildirmişdi ki, Türkiyə yeni müstəqillik qazanmış türk dövlətləri üçün «böyük qardaş» rolunu oynamaq istəmir, dövlətlər arasında qarşılıqlı surətdə faydalı olan bərabər münasibətlərə tərəfdardır. Bununla belə, Türkiyə Azərbaycana, habelə digər türk dövlətlərinə və ümumiyyətlə, ehtiyacı olan bütün ölkələrə bundan sonra da iqtisadi və siyasi yardım göstərəcəkdir. Süleyman Dəmirəl həmçinin qeyd etmişdi ki, onun ölkəsi hər hansı dövlətin daxili işlərinə qarışmaq, yaxud dünyanın müxtəlif bölgələrində, o cümlədən keçmiş Sovet İttifaqının dövlətlərində baş verən prosesləri hər hansı şəkildə sürətləndirmək fikrində deyildir. Qarabağ problemi ilə bağlı S.Dəmirəl bildirmişdi ki, o, Qarabağ münaqişəsinin ancaq sülh danışıqları yolu ilə aradan qaldırılmasını qəbul edir və Türkiyə gələcəkdə də bütün səylərini bu istiqamətə yönəldəcəkdir. Onun fikrincə Qarabağ probleminin hərbi vasitələrlə həlli mümkün deyil (119, 30 aprel 1992).





Siyasi münasibətlərin dövlət və hökumət nümayəndə heyətlərinin, dövlət başçılarının qarşılıqlı səfərləri forması çərçivəsində 1992-ci ilin may ayında Türkiyənin baş naziri Süleyman Dəmirəl Azərbaycanda, 1992-ci ilin noyabr ayında Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy Ankarada, 1993-cü ilin aprel ayında isə Türkiyə Respublikasının Prezidenti Turqut Özal Azərbaycanda səfərdə oldular. Bu səfərlər zamanı Türkiyə-Azərbaycan münasibətlərinin daha da inkişaf etdirilməsi məqsədilə hökumətlərarası yeni sənədlər imzalandı.

Türkiyənin Baş naziri Süleyman Dəmirəl 1992-ci il may ayının 2-də Azərbaycanda səfərdə olarkən Azərbaycan parlamentinin üzvləri ilə görüşündə qeyd etmişdi ki, Türkiyənin və Azərbaycanın münasibətləri ən əvvəl qardaş xalqların münasibətləridir... 90-cı illərdə imperiyanın xarabalıqları üzərində yeni müstəqil dövlətlər, o cümlədən qardaşlarımız azərbaycanlıların, qırğızların, qazaxların, özbəklərin, türkmənlərin dövlətləri yarandı. Böyük türk dünyası reallığa çevrildi. Bu ölkələrin hamısında hüquqi əsasda fəaliyyət göstərən və qarşısına öz xalqlarının tərəqqisi kimi nəcib məqsəd qoyan demokratik cəmiyyət qurulmalıdır (119, 3 may 1992). May ayının 3-də S.Dəmirəl Bakıda Türkiyə səfirliyinin açılışı mərasimində, həmçinin həmin gün keçirilən türk xalqlarının həmrəylik gününə həsr olunmuş mitinqdə də iştirak etdi. S.Dəmirəl belə bir günün keçirilməsi ideyasına tərəfdar olduğunu bildirdi (119, 4 may 1992). Görüşün sonunda imzalanmış birgə bəyanatda qeyd olunurdu ki, ATƏM-in qərarına əsaslanaraq tərəflər Dağlıq Qarabağın Azərbaycan torpağı olduğunu və orada yaşayanların Azərbaycan vətəndaşı olduğunu, ölkə sərhədlərinin güclə dəyişdirilməsi cəhdlərinin beynəlxalq qanunlara zidd olduğunu və bu problemin qan tö140-

mədən sülh yolu ilə həll edilməsinə yönəldilmiş bütün səylərə yardım edəcəklərini bildirirlər. Tərəflər xüsusi tarixi və mədəni tellərlə bağlanan Türkiyə ilə Azərbaycan arasında birgə danışıqlar aparılmasının faydalı olduğunu bildirmiş, bu çərçivədə regional və beynəlxalq məsələləri araşdırmaq məqsədilə Türkiyə və Azərbaycan, həmçinin arzu edən digər qardaş dövlətlər də daxil olmaqla, ilk iclası 1992-ci ilin payızında dövlət və hökumət başçıları səviyyəsində İstanbulda keçirilməsi nəzərdə tutulmuş müşavirələr barədə fikir mübadiləsi etmişlər (119, 5 may 1992).

Türkiyənin Xarici İşlər naziri Hikmət Çətin mayın 13-də İstanbulun «Milliyyət» qəzetinə müsahibəsində bildirmişdi ki, Türkiyə hər vasitə ilə çalışır ki, Ermənistan-Azərbaycan münaqişəsinə qarışmasın. Bu problemin dinc yolla həll olunması üçün Ankara bütün beynəlxalq təşkilatlara müraciət etmişdir. Qarabağ Azərbaycan torpağıdır. Bu, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Məsələlərinə dair Müşavirənin qərarlarında öz əksini tapmışdır. Ermənilər başa düşməlidirlər ki, işğal etdikləri ərazini tərk etməlidirlər (119, 14 may 1992).

May ayının 2-də Azərinformda Türkiyə Respublikası hökumət nümayəndə heyətinin üzvü, uzun illər YUNESKO-da işləmiş və dövlətlərarası informasiya xidmətlərinin təşkilatçısı kimi tanınan Hifzi Topuzla görüş olmuşdu. Hıfzı Topuz türk dünyası müstəqil dövlətlərinin vahid informasiya agentliyinin yaradılmasında Azərinformun da iştirak etməsini təklif etmişdi. O, Azərinformun texniki təchizatı ilə tanış olduqdan sonra təklif etmişdi ki, gələcək agentliyin mərkəzləri Ankarada və Bakıda açılsın. Nəzərdə tutuldu ki, həmin agentliyin işinə Orta Asiya və Qazaxıstan türk dövlətlərinin də milli informasiya agentlikləri cəlb edilsinlər (119, 4 may 1992).

1992-ci ilin noyabr ayında Ankarada türk dövlətləri Kütləvi İnformasiya Vasitələri rəhbərlərinin iki gün davam





edən konfransı keçirildi. YUNESKO-nun təşəbbüsü ilə təşkil olunmuş konfransda Azərbaycan, Türkiyə, Qazaxıstan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyətinin nümayəndələri iştirak etmişdilər. İştirakçı tərəflərin razılığı ilə Türk Dövlətləri Agentliklərinin Birliyi (TAB) yaradılmış, onun Nizamnaməsi təsdiq olunmuş, Azərinformun baş direktoru Vaqif Rüstəmov Birliyin sədri seçilmişdi (119, 1 dekabr 1992).

1992-ci il may ayının 21-də Türkiyə Respublikasının Xarici İşlər nazirliyinin nümayəndə heyəti Naxçıvana gəlmişdi. Nümayəndə heyətini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri H.Əliyev qəbul etmişdi. O, Sədərəkə və Şərur bölgələrinə erməni ordusunun mayın 18-dən başlamış və hələ də davam edən təcavüzü, atəşin dayandırılması ilə bağlı görülən tədbirlər, o cümlədən erməni rəhbərləri ilə telefon danışıqları haqqında məlumat vermişdi. Qəbuldan sonra Muxtar Respublikada olan jurnalistlər üçün mətbuat konfransı keçirilmişdi. Türkiyə Respublikası Xarici İşlər nazirliyinin nümayəndə heyəti vəziyyətlə yerində tanış olmaq məqsədilə münaqişə rayonuna getmişdi (119, 23 may 1992).

Azərbaycan Respublikasının Prezidenti Ə.Elçibəy 1992-ci il iyunun 25-də keçirilmiş Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının toplantısında dövlət rəhbərləri səviyyəsində görüşdən sonra Ankaraya səfər etmiş, Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəllə danışıqlar aparmışdı. Eyni zamanda Azərbaycanın Xarici İşlər naziri Tofiq Qasımovun və Hikmət Çətinin razılaşmaları nəticəsində iki ölkə arasında mövcud münasibətləri daha da inkişaf etdirmək, yaxın əməkdaşlığın əsasını qoymaq və s. məsələləri müzakirə etmək məqsədilə Türkiyədən Azərbaycana yüksək səviyyəli bir heyətin göndərilməsi qərara alınmışdı.

Bu qərara müvafiq olaraq 1992-ci il iyul ayının 13-17-də Türkiyə Xarici İşlər nazirinin birinci müavini səfir Özdəm Sanberqin başçılığı ilə Türkiyə rəhbərləri və mütəxəssislərin-

dən ibarət 23 nəfərlik bir heyət Bakıda olmuşdu. Türkiyə nümayəndə heyəti Azərbaycan Prezidenti, Azərbaycan Ali Sovetinin sədri, Xarici İşlər naziri, Baş nazirin birinci müavini səviyyəsində qəbul edilmişdi. Xarici İşlər nazirliyində aparılan danışıqlar zamanı ikitərəfli münasibətlərə dair problemlər müzakirə edilmiş, sosial-iqtisadi, konsulluq, hüquq məsələlərinə və iki ölkə üçün qarşılıqlı maraq kəsb edən digər məsələlərə baxılmış, müvafiq müqavilə və sazişlərin layihələri üzərində iş aparılmışdı (119, 21 iyul 1992).

1992-ci il avqust ayının 10-da Azərbaycanın Xarici İşlər naziri Tofiq Qasımov Türkiyəyə səfər etmişdi. Xarici İşlər nazirliyinin nümayəndə heyətinin səfərinin məqsədi Azərbaycan Prezidenti Ə.Elçibəyin həmin ilın sentyabr ayında Türkiyəyə nəzərdə tutulan səfərinə hazırlıq işlərinin görülməsi idi. Türkiyənin ali rəhbərləri ilə görüşdə bir çox sənədlərin imzalanacağı, həmçinin Türkiyədə Azərbaycan səfirliyinin açılması, iki ölkənin xarici siyasət idarələrinin gələcək geniş əməkdaşlığı məsələlərin müzakirəsi gözlənilirdi. Və gözlənildiyi kimi səfər iki mühüm sənədin – iki ölkənin Xarici İşlər nazirlikləri arasında əməkdaşlıq və məsləhətləşmələr haqqında saziş və həmin sazişə konsul konvensiyası və protokolunun imzalanması ilə başa çatdı (119, 15 avqust 1992). Səfərin gedişində bir sıra yüksək səviyyəli danışıqlar və görüşlər keçirilmiş, ikitərəfli əməkdaşlığın mühüm məsələləri, habelə hər iki ölkənin mənafeyi ilə bağlı bir sıra beynəlxalq problemlər müzakirə olundu.

Bu problemlərdən ən mühümü Türkiyənin Xarici İşlər naziri Hikmət Çətinlə görüşlərdə Cənubi Qafqaz bölgəsindəki vəziyyətlə bağlı problemlərin geniş dairəsinin müzakirəsi olmuşdu. Hikmət Çətin Dağlıq Qarabağa dair ATƏM-in Minsk görüşünə hazırlıq üzrə Romada keçirilən fövqəladə konfransda Azərbaycanın tutduğu mövqeyi yüksək qiymətləndirmiş, qeyd etmişdi ki, bölgədə sülh və əmin-amanlığın





bərqərar olması istər Türkiyə, istərsə də Azərbaycan üçün son dərəcə vacibdir. Hikmət Çətin Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması məsələsində bundan sonra da sülhpərvər xətti gözləməyi tövsiyə etmiş, öz tərəfindən vəd etmişdi ki, Türkiyənin bütün səfirlərinə olduqları ölkələrdə bu münaqişədə Azərbaycanın mövqeyini izah etmək vəzifəsini öz üzərinə götürmək barədə tapşırıq verəcəkdir. O, habelə təkid etmişdi ki, Azərbaycan Xarici İşlər nazirliyi də erməni lobbisinin güclü təsiri olan ABŞ və Fransaya həmin məqsədlə öz nümayəndələrini göndərsin. İki ölkənin Xarici İşlər nazirliklərinin başçıları Gürcüstanda yaşayan azərbaycanlıların problemlərini də müzakirə etmişdilər (119, 15 avqust 1992).

Türkiyənin Baş naziri Süleyman Dəmirəl Azərbaycanın Xarici İşlər naziri Tofiq Qasımovla görüşü zamanı qeyd etmişdi ki, bu gün Azərbaycanın demokratik dəyişikliklər yolunda keçirdiyi çətinliklər Türkiyəyə bəllidir. Lakin bunları aradan qaldırmaq üçün vaxt lazımdır və bu yolda Türkiyə özünün ən yaxın qonşusuna dayaq olmağa həmişə hazırdır.

Türkiyə parlamentinin sədri Cindorukla söhbətdə Azərbaycanda bütün dövlət strukturlarının dəyişdirilməsi və yeniləşdirilməsi, məhkəmə sisteminin islahatı ilə bağlı məsələlər müzakirə olunmuşdu. Bunların həyata keçirilməsi hakimiyyətin bölüşdürülməsi prinsiplərini və hüquqi dövlətin struktur əsasının yaradılmasını təmin etməlidir. Türkiyə parlamentinin başçısı dövlət quruculuğu ilə bağlı bütün məsələlərdə Azərbaycana lazımi kömək göstəriləcəyini vəd etmişdi.

Səfərin sonunda Azərbaycan Xarici İşlər naziri Türkiyə prezidenti Turqut Özal tərəfindən qəbul edilmişdi. Görüş və söhbətlər zamanı tərəflər bir çox beynəlxalq problemlər barədə Azərbaycanın və Türkiyənin mövqelərinin uyğun gəldiyini razılıqla qeyd etmişlər.

1992-ci il oktyabrın 28-də Azərbaycan nümayəndə heyəti Türkiyəyə səfərə yola düşdü (Azərbaycan Prezidentinin ayın əvvəlində Türkiyəyə səfər edəcəyi nəzərdə tutulmuşdu. Lakin respublikadaxili işlərlə əlaqədar səfər ayın sonuna təxirə salınmışdı (119, 29 oktyabr 1992)). Azərbaycan nümayəndə heyətinin eyni zamanda Türkiyə Respublikasının yaranmasının 69-cu ildönümünə həsr olunmuş bayram şənliklərində. Respublikanın Prezidentinin isə türk dövlət başçılarının zirvə toplantısında iştirak edəcəyi nəzərdə tutulmuşdu.

1992-ci il noyabr ayının 1-də Azərbaycan Prezidentinin Türkiyəyə rəsmi səfəri başlandı. Türkiyənin Baş naziri Süleyman Dəmirəllə görüşdə Azərbaycan Prezidenti bildirdi ki, Azərbaycanla Türkiyə arasında bütün sahələrdə sıx əlaqələr yaradılmalıdır. Bu əlaqələr heç bir ölkənin mənafeyinə zidd deyil və iki müstəqil dövlətin öz işidir. Danışıqlardan sonra iki ölkə arasında iqtisadi və mədəni əlaqələrin inkişafına dair 6 müqavilə, bir sıra digər dövlətlərarası sənədlər imzalandı. Noyabr ayının 2-də Azərbaycan Prezidenti Ankarada Azərbaycan səfirliyinin rəsmi açılışı mərasimində iştirak etdi.

Türkiyənin Baş naziri Süleyman Dəmirəl Azərbaycan Prezidentinin Türkiyəyə səfəri ilə bağlı bildirmişdi ki, Azərbaycan Prezidentinin Türkiyəyə səfərini sözün əsil mənasında dostluq bayramı və dövlətlərarası əməkdaşlığın ən yüksək zirvəsi kimi qiymətləndirir. Ölkələrimiz arasında səfər çərçivəsində imzalanmış sənədlər yaxın vaxtlarda öz bəhrəsini verəcəkdir. Bir il əvvəl müstəqilliyini elan edən Azərbaycan müəyyən çətinliklərə baxmayaraq, tezliklə ayağa qalxacaq və bölgədə güclü iqtisadiyyata malik dövlət olacaqdır. Bu işdə Azərbaycan Türkiyənin hərtərəfli köməyinə arxayın ola bilər.

1992-ci il noyabr ayının 9-da Prezident iqamətgahında Azərbaycan Prezidenti Ə.Elçibəy Türkiyəyə səfəri ilə bağlı mətbuat konfransı keçirdi. Azərbaycan və Türkiyə arasında





bağlanmış ikitərəfli müqavilələr məsələsinə toxunarkən Azərbaycan Prezidenti bildirdi ki, bir sıra sənədlər imzalanmışdır. Ancaq elə sənədlər var ki, onların paraflanması saxlanılıb. Məsələn, özəlləşmə haqqında Azərbaycan Milli Məclisinin qərarı olmadığı halda iqtisadi əlaqələr üzrə sənədləri imzalamaq hələlik məqsədəuyğun deyil. Razılığa əsasən Türkiyə Azərbaycana 250 mln. dollar kredit verəcək. Az sonra bir qədər də əlavə kredit veriləcək. Bundan başqa, Azərbaycan Xarici İşlər nazirliyinə öz problemlərini, yəni kadr hazırlığı, səfirliklərin açılması məsələlərini həll etmək üçün daha 15 mln. dollar yardım göstəriləcək (119, 10 noyabr 1992). Bundan başqa səfərin ikinci hissəsinin türk dövlət başçılarının yığıncağına həsr olunduğu qeyd edildi.

Həmin il dekabr ayının 7-də Türkiyə Baş nazirinin müavini, Türkiyənin dövlət naziri Ərdal İnönü nümayəndə heyəti ilə birlikdə əməli səfərlə Bakıya gəlmişdi. Azərbaycan Prezidenti Ə.Elçibəy Ərdal İnönünü qəbul etmişdi. Görüşdə Türkiyə-Azərbaycan əməkdaşlığı haqqında fikir mübadiləsi olmuşdu. Azərbaycan Prezidenti bildirmişdi ki, ölkələrimiz arasında işgüzar əməkdaşlığın daha da genişləndirilməsi işində başlıca çətinlik ikitərəfli razılaşmaların həyata keçirilməsi mexanizminin olmaması ilə bağlıdır. Yüksək səviyyədə görüşlərdə dövlətlərarası və hökumətlərarası sənədlər imzalamaqla iş bitmir, gərək bunlar konkret icra strukturları vasitəsilə həyata keçirilsin. Ərdal İnönü öz növbəsində qeyd etmişdi ki, Türkiyə ilə Azərbaycan arasında qarşılıqlı surətdə faydalı əlaqələrin dərinləşməsində son vaxtlar nəzərə çarpan müsbət irəliləyişlər tərəflərin geniş imkanlarını tam şəkildə əks etdirmir. Belə ki, iki ölkə arasında yeni əməkdaşlıq sahələrində sürətli irəliləyiş lazımdır.

Azərbaycan Respublikasının Baş naziri Rəhim Hüseynovun Türkiyə nümayəndə heyəti ilə görüşündə də tərəflər üçün qarşılıqlı maraq doğuran iqtisadi əməkdaşlığın geniş-

ləndirilməsinin zəruriliyindən danışılmış, qeyd edilmişdi ki, Azərbaycandakı mövcud çətinlikləri sürətlə aradan qaldırmağa kömək edəcək bağlanmış müqavilələri daha tam şəkildə həyata keçirmək üçün potensial imkanlardan istifadə etmək vacibdir (119. 9 dekabr 1992).

Artıq əvvəldə qeyd etdiyimiz kimi, Azərbaycanın xarici siyasət fəaliyyətindən bəhs edən mövcud tarixi-siyasi ədəbiyyatda 1992-ci ilin may ayından 1993-cü ilin iyun ayına qədər olan dövrdə birtərəfli qaydada, beynəlxalq durumun obyektiv gerçəkliyi, dövlətin real vəziyyəti və mənafelərini tam nəzərə almayan xarici siyasət kursu həyata keçirildiyi qeyd olunur, bu siyasətin məntiqi nəticəsi kimi bir sıra dövlətlərlə münasibətlərdə əsassız gərginlik və narazılıqlar yaranmasından, birtərəfli qaydada yalnız Türkiyə ilə münasibətlərə üstünlük verilməsindən danışılır. Lakin faktların araşdırılması göstərir ki, göstərilən dövrdə Türkiyə ilə münasibətlər də yalnız yüksələn xətt üzrə inkişaf etməmiş, mövcud narazılıq və ittihamlar Türkiyə ilə münasibətlərdə də özünü göstərmişdir. Məsələn, 1992-ci ilin sonu – 1993-cü ilin əvvəllərində Türkiyə-Azərbaycan münasibətlərində müəyyən narazılıqlar özünü göstərməyə başlamışdı. Səbəb isə Ankaranın ərazisindən keçirilməklə Ermənistana humanitar yardım aparılmasına Türkiyənin icazə verməsi olmuşdur (113, s.406.). Bu yardımı dünya birliyi ölkələri «Azərbaycanın blokadada saxladığı əzabkeş erməni xalqına» göndərirdi. Azərbaycanın rəsmi nümayəndələri bu məsələ barədə danışarkən bir qədər ehtiyatlı olmağa çalışır, lakin bununla bərabər öz narazılıqlarını da gizlətmirdilər. 1993-cü ilin fevral ayında Azərbaycan Müdafiə naziri general Nurəddin Sadıqov Ankarada Türkiyənin Silahlı Qüvvələri Baş Qərargahının rəisi Doğan Güreş və Milli Müdafiə naziri Nevzət Ayazla görüşmüş, ölkələrimiz arasında hərbi hazırlıq sahəsində əməkdaşlığın perspektivlərini müzakirə etmişdilər. Görüşdən sonra N.Sadıqov mətbuat konfransı zamanı Türkiyə ərazisindən keçirilməklə Ermənistana yardım edilməsi barədə ona verilən suala münasibətdə bildirmişdi ki, Türkiyə müstəqil dövlət kimi, müstəqil olaraq belə bir qərar qəbul etmişdir. Azərbaycanın Türkiyədəki səfiri Məmməd Əliyev isə bildirmişdi ki, Yerevana kömək göstərilməsi Ermənistanın təcavüzkarlığını artırır. Türkiyənin Ermənistana ərzaq məhsulları və yanacaq verməsi Bakı ilə Ankara arasında münasibətlərin soyumasının səbəbi ola bilər. Səfir Türkiyəni hadisələrin bu cür inkişaf etməsindən yaxa qurtarmaq üçün tarazlaşdırılmış münasibət bəsləməyə çağırmışdı (119, 3 fevral 1993).

Türkiyənin özündə də bu məsələyə birmənalı münasibət olmamışdı. Azərbaycan Kültür Cəmiyyətinin baş katibi Əhməd Qaraca Ankarada təşkil etdiyi mətbuat konfransında bildirmişdi ki, «Türkiyə Respublikasının hökuməti erməni lobbisinin təsiri altında olan və Türkiyəni Ermənistana kömək göstərməyə məcbur etməyə çalışan xarici qüvvələrin, işgüzar adamların və müxtəlif dairələrin təzyiqinə lazımi müqavimət göstərməlidir» (119, 16 fevral 1993). Türkiyədə həmçinin Türkiyənin Ermənistana göstərdiyi yardıma etiraz komitəsi yaradılmışdı. Həmin komitə «Ermənistana yardıma yox!» kampaniyası keçirir, bəyannamə hazırlayıb yayırdı. Bəyannamələrdə deyilirdi ki, «Ac insanlar müharibəyə külli miqdarda pul sərf etmək əvəzinə evlərində oturub qarınlarını doydurmaq üçün çarə axtarsalar daha düzgün olar. Türk milləti və tarixi erməniyə yardım göstərənləri heç vaxt əhv etməyəcəkdir ... Ermənilərin özlərini bütün dünyaya «zavallı», «əzabkeş» xalq kimi tanıtmaları saxtakarlıqdan başqa bir şey deyil. Erməni vəhşiləri bu gün də Qarabağda mənasız müharibəni davam etdirərək türk dünyasına qarşı qəddar münasibət bəsləməkdədirlər» (119, 16 mart 1993).

1993-cü ilin mart ayında Ermənistan-Azərbaycan münaqişəsinin dayandırılması barədə təklifləri müzakirə etmək

məqsədi ilə Türkiyənin Xarici İşlər naziri Hikmət Çətin Bakıya gəlmişdi. Bundan əvvəl o, Rusiyanın Xarici İşlər naziri Andrey Kozırevlə görüşmüş və Qarabağ probleminin dinc yolla həll edilməsi mexanizminin hazırlanmasına dair mövqeləri müəyyənləşdirmişdi.

Türkiyənin Xarici İşlər naziri Hikmət Çətin Azərbaycanın Xarici İşlər naziri Tofiq Qasımovla birgə keçirdikləri mətbuat konfransında bildirmişdi ki, münaqişənin aradan qaldırılması üçün Rusiya ilə birgə siyasət yeridilməlidir. Türkiyə və Rusiya xarici siyasət başçıları arasında Yuxarı Qarabağın Azərbaycan torpağı olması və Ermənistan qoşunlarının oradan çıxarılması barədə fikir ayrılığı olmamışdır. O cümlədən Amerika, İngiltərə və Fransanın da Qafqazda, o cümlədən Cənubi Qafqazda sülh yaranmasında maraqları var. Türkiyənin Rusiya ilə birgə səyləri məsələsinə münasibət bildirən Azərbaycanın Xarici İşlər naziri qeyd etmişdi ki, regiona sülhün haradan gəlməsi vacib deyil. Əsas odur ki, Ermənistanın Azərbaycana qarşı apardığı qeyri-rəsmi müharibəyə son qoyulsun. Azərbaycanı təkcə atəşin dayandırılması təmin edə bilməz. Minsk konfransı çərçivəsində sülh yalnız o halda mümkün ola bilər ki, Azərbaycan ərazisindən bütün hərbi birləşmələr çıxarılsın, qarşılıqlı blokadalar götürülsün.

Lakin bütün görülən tədbirlərə, aparılan danışıqlara baxmayaraq, 1993-cü ilin yazında Ermənistanın təcavüzkarlığı daha da artaraq son həddə çatdı. Bir-birinin ardınca Azərbaycan rayonlarının işğalı, dinc əhalinin öz yurd-yuvasından didərgin salınması, müharibənin artıq Dağlıq Qarabağın sərhədləri çərçivəsindən çıxması Azərbaycan dövlətinin narahatlığını artırırdı. Belə bir şəraitdə Azərbaycan hökuməti beynəlxalq birliyin üzvü olan dövlətlərə, beynəlxalq təşkilatlara müraciət edərək Ermənistanın təcavüzkarlığının dayandırılması işində onlardan yardım istədi.





Türkiyə Respublikası öz növbəsində Ermənistanın Azərbaycana qarşı hərbi əməliyyatları gücləndirməsi ilə əlaqədar Ermənistana yardımı dayandırdığını bildirdi. Türkiyə hərbi hava qüvvələri yüksək döyüş hazırlığına gətirildi və Ermənistanla sərhəddə xəbərdarlıq uçuşları edilməyə başlandı. Hətta erməni tərəfinin verdiyi məlumata görə, Türkiyə Ermənistanla sərhəddə zirehli tank korpusu göndərmişdi (119, 17 aprel 1993). Türkiyənin Xarici İşlər naziri Hikmət Çətin Rusiyanın və ABŞ-ın XİN-nə müraciət edərək, ermənilərin hücumunu dayandırmağa çağırmışdı. Türkiyə əhalisinin qarşısında çıxış edərkən S.Dəmirəl bildirmişdi ki, «Ermənistanın Azərbaycana etdiyi zülmlərə baxmayaraq, Türkiyə aclıq çəkən Ermənistana çörək vermişdi. Amma ermənilər bunu da qiymətləndirmədilər. Özünü müstəqil, azad, azadlıqsevər bir ölkə elan edən Ermənistan qan tökür. Və əgər Ermənistan ən qısa zamanda təcavüzü dayandırmasa, bizim səbrimiz tükənəcəkdir» (119, 6 aprel 1993). Türkiyə Xarici İşlər nazirliyindən bildirilmişdi ki, Türkiyə Ermənistandan və Ermənistana uçan bütün təyyarələr üçün öz səmasını bağlayır, habelə, bundan sonra Türkiyə ərazisindən Ermənistana humanitar yardım aparılmasına da yol verməyəcəkdir (113, s.406). Türkiyə həmçinin BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinə də müraciət edərək, onları Dağlıq Qarabağda qan tökülməsinə son qoymaq və ermənilər tərəfindən Azərbaycan ərazisinin işğalına mane olmaq üçün fəal tədbirlər görməyə çağırdı.

Türkiyənin müxalifət partiyaları Süleyman Dəmirəl hökumətini Yerevan barədə «ürkək» siyasəti üçün tənqid edir və erməni hücumunu dayandırmaq üçün hərbi müdaxilə tələb edirdilər. Parlament qruplarının başçıları Azərbaycana hər cür yardım göstərilməsini, o cümlədən silah verilməsini tələb edirdilər. Onlar Ermənistanın son həmlələrinin Yerevan hökumətinə Türkiyənin güzəştlərə getmək siyasətinin nəticəsi olduğu qeyd edirdilər. Vəziyyətin belə dəyişdiyini görən dün-

ya dövlətləri bir qədər narahat olmağa başladılar. Vəziyyəti izləyən, Türkiyənin Ermənistana verdiyi bəyanatı şərh edən Amerikanın Assoşeyted Press Agentliyi bildirirdi ki, Ankaranın qonşuları arasında etnik münaqişə məsələsində onun artıq siyasi bitərəflikdən uzaqlaşması özünü göstərir (119, 2 aprel 1993).

1993-cü il aprel ayının 12-14-də Türkiyə Respublikasının Prezidenti Turqut Özalın Azərbaycana üç günlük səfəri oldu (aprel ayında Türqut Özal Mərkəzi Asiya Respublikalarına və Azərbaycana səfər etmişdi). Səfərinin yekunlarına həsr olunmuş mətbuat konfransında Türkiyə Respublikasının Prezidenti Turqut Özal bildirmişdi ki, Azərbaycan torpaqlarını işğal altında saxlayan və hərbi müdaxiləni davam etdirən Ermənistandan təcavüzə son qoymasını, zəbt etdiyi torpaqlardan çəkilməsini gözləyirik. Sülhün, insan hüquqlarının, demokratiyanın üstünlüyü prinsiplərinin gözlənilməsi Qafqaz ölkələrindən ən səmimi təmənnamızdır. İndiki dövrdə zorla başqasının torpaqlarına sahib çıxmaq mümkün deyil, müasır dünya buna heç vəchlə yol verməz. Belə hərəkətlər təcavüzkar xalqın özünü böyük fəlakətlərə düçar edə bilər. Azərbaycanın sülh niyyətləri Türkiyəyə də, dünyanın digər dövlətlərinə də bəllidir. Həmin dövlətlər də bölgədə sülh danışıqlarına tərəfdardırlar. Bu yol seçilməsə Ermənistan da, onu dəstəkləyən dövlətlər də rüsvay olacaqlar.

Turqut Özalın Azərbaycana bu səfəri zamanı müştərək müdafiə müqaviləsinin imzalanması da gözlənilirdi. Lakin belə bir müqavilə imzalanmadı. Prezidentlər bu məsələyə açıqlama verərkən bildirdilər ki, Azərbaycan ATƏM xəttinə sadiqdir və çalışacaq ki, problemi beynəlxalq ictimaiyyətin köməyi ilə həll etsin. Turqut Özal xüsusilə qeyd etdi ki, hərbi ittifaq bağlayıb məsələni zor gücünə həll etmək mümkün deyil. Bu, münaqişəni daha da genişləndirər, Yaxın və Orta Şərqdə böyük faciələr doğura bilər. Məsələ siyasi yolla həll





olunmalıdır. Olunmazsa, biz onu Ermənistanla Azərbaycan arasında münaqişə kimi həll etməliyik ki, böyük dövlətlər bu münaqişəyə qoşulub onu daha da genişləndirməsinlər. Turqut Özal bildirdi ki, Azərbaycan torpaqlarının işğalı qəbul edilə bilməz. Erməni buradan çıxmasa, çıxarılacaq ... Türkiyə Azərbaycanın yanındadır və ona köməyi artırır. Lakin Azərbaycan Ermənistanla münaqişəni həll etmək üçün öz qüvvəsini də meydana gətirməlidir (119, 16 aprel 1993 (fikrimcə, çox haqlı və yerində tutulmuş iraddır - !)).

Yeri gəlmişkən, «...hərbi ittifaq bağlanmasının münaqişəni daha da genişləndirə biləcəyi barədə» fikirlə razılaşmadığımızı bildirmək istərdik. Belə ki, hələ 1992-ci ilin may ayında Müstəqil Dövlətlər Birliyi çərçivəsində Rusiya, Ermənistan və, Türkmənistan istisna olmaqla, keçmiş ittifaqın Mərkəzi Asiya respublikaları (!) Daşkənd şəhərində «Kollektiv təhlükəsizlik haqqında» müqavilə imzalamışdılar. Müqaviləyə əsasən, onu imzalayan dövlətlərdən hər hansı biri xarici təcavüzə məruz qalardısa, digərləri ona hərbi və əsgəri yardım göstərəcəkləri barədə öhdəlik götürmüşdülər. Doğrudur, müqavilənin imzalanmasından sonra münaqişə daha da genişləndi, lakin müqavilə iştirakçısı olan Ermənistanın Azərbaycan ərazisinə təcavüzü şəklində və Ermənistanın bu təcavüzü nə Yaxın və Orta Şərqdə, nə də dünyanın başqa bir hissəsində nəinki böyük faciələr doğurmadı, hətta bu təcavüzə bilərəkdən göz yumuldu. Məsələnin siyasi yolla həll olunmasına gəlincə isə, hələ də öz «aktuallığını» itirməyib. Bu məsələ ilə bağlı hətta bəzi rus siyasətçiləri və tədqiqatçıları belə bir fikir irəli sürürlər ki, guya, rəsmi Ankara Azərbaycanın mövqeyini nə qədər dəstəkləsə də, ona nə qədər yardım vəd etsə də, hər halda özünü müttəfiqlik bağları ilə bağlamaqdan çəkinir, buna görə də onunla hərbi ittifaq imzalamır (90).

Mövcud problemə münasibətdə Türkiyə ictimaiyyəti özünün daha qətiyyətli olması ilə rəsmi Ankaradan fərqlənirdi. Bir misal. Türkiyədə fəaliyyət göstərən 29 cəmiyyət, qrup, birlik və dərnəyi birləşdirən Türk Dünyası Qurumunun keçirdiyi mətbuat konfransında belə bir fikir irəli sürülmüşdü ki, TBMM hökumətdən Azərbaycana hərbi yardım göstərməyi tələb etməlidir. «Türk ocaqları» təşkilatının baş katibi Orxan Qovunçu bildirmişdi ki, Türkiyənin bütün siyasi partiyalarının rəhbərləri Ermənistanın təcavüzkar olması barədə birgə bəyanat verməlidirlər. Mətbuat konfransında həmçinin bildirilmişdi ki, Azərbaycana maliyyə yardımı göstərmək məqsədilə Azərbaycan səfirliyinin adına ziraət bankının şöbələrindən birində hesab nömrəsi açılıb (119, 14 aprel 1993).

1993-cü il may ayının əvvəllərində Türkiyə Böyük Millət Məclisinin millət vəkillərindən ibarət nümayəndə heyəti Azərbaycanda səfərdə oldu. Azərbaycanın gələcəkdə nə vaxtsa Türkiyə ilə hərbi ittifaqa girməsinin mümkün olub-olmayacağı haqda suala cavab verərkən nümayəndə heyətinin başçısı Bülənd Akarcalı bildirdi ki, Avropada və dünyanın başqa regionlarında ayrı-ayrı ölkələr arasında hər cür münasibətlər və əməkdaşlıq məqbul sayıldığı kimi, Türkiyə ilə Asiyanın başqa türk dövlətləri arasında da belə münasibətlər yarana bilər. Ancaq bunun üçün hələ zaman yetişməyib. Səbəbi Türkiyənin türk dövlətləri ilə yaxınlaşmasının bir sıra Qərb dövlətlərini narahat etməsidir. Bu narahatlıq, guya Türkiyənin regionda «ağabəylik» iddiasına düşməsi kimi fikirlərin dolaşmasından doğur. Türkiyə burada hər sahədə öndə gedir, deyə müxtəlif yanlış təsəvvürlərlə ona əngəl olmağa çalışırlar. Ona görə də, Türkiyənin tədbirli olması lazımdır.

Lakin bütün bunlar heç də Türkiyənin Azərbaycana yardım etməsinə, onun problemlərinin həlli üçün çalışmasına mane ola bilmirdi. Türkiyə bütün beynəlxalq məclislərdə, toplantılarda, dövlət rəsmiləri ilə görüşlərdə Azərbaycanın





problemlərinin həlli yollarını tapmaq üçün müzakirələrin keçirilməsinə çalışırdı.

Belə ki, Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı səfirliyindən verilən məlumata görə, iyulun 27-də Fransa Prezidenti Fransua Mitteranla danışarkən, Rusiya Prezidenti Boris Yeltsinə isə məktub göndərərək Türkiyə Prezidenti Süleyman Dəmirəl onlardan xahiş etmişdi ki, Ermənistan üzərindəki nüfuzlarından istifadə edərək, Ermənistanın beynəlxalq hüquq normalarına hörmət etməsini və işğal etdiyi Azərbaycan torpaqlarından çıxmasını təmin etsinlər. Süleyman Dəmirəl bildirmişdi ki, Ermənistanın təcavüzkar hərəkətləri bölgədə və bütün dünyada sülh üçün təhlükə yaradır. Ermənistana qarşı ciddi tədbirlər görməyin vaxtının gəlib çatdığını Fransua Mitterana və Boris Yeltsinə bildirən Süleyman Dəmirəl Türkiyənin bu məqsədlə Fransa və Rusiya ilə BMT və ATƏM çərçivəsində əməkdaşlıq etməyə hazır olduğunu söyləmişdi (119, 30 iyul 1993).

1993-cü ilin oktyabr ayında Türkiyənin Baş naziri Tansu Çillərin ABŞ səfəri zamanı da Türkiyə Respublikasının bəyanatlarında rəsmi Ankara üçün ənənəvi olan problemlər – Bosniya, Kipr və kürd problemləri ilə birlikdə Azərbaycanda vəziyyət və erməni təcavüzü ilə bağlı məsələlər də üstünlük təşkil etdi. Bu isə sübut edirdi ki, «Azərbaycan yönümü» Türkiyədə xarici siyasətin üstün cəhətləri sistemində mühüm yer tutur. Belə ki, Tansu Çillər oktyabr ayının 15-də ABŞ Prezidenti Bill Klintonla görüşdən sonra bildirmişdi ki, Qafqazda sülhün bərqərar edilməsi sahəsində birtərəfli səylər qeyri-məqbuldur. Ermənistan onun beynəlxalq ictimaiyyət tərəfindən pislənməsinə məhəl qoymur və vəziyyət gərginləşib elə bir böyük yanğına gətirib çıxara bilər ki, bu yanğın digər ölkələri də münaqişəyə cəlb edər və bununla da bütöv bölgənin strateji sabitliyi üçün təhlükə törədər. Belə bir şəraitdə Türkiyə rəhbərliyi bölgədə qeyri-sabit vəziyyət olduğundan

və xüsusən də Ermənistanın təcavüzünün Türkiyənin təhlükəsizliyinə və mənafelərinə mənfi təsiri baxımından indi həmişəkindən daha çox narahatdır. ABŞ Prezidenti Bill Klinton bildirmişdi ki, ABŞ Minsk prosesini qətiyyətlə dəstəkləyir və ümid edir ki, vəziyyət üçün hamı məsuliyyət hiss edəcəkdir (119, 22 oktyabr 1993).

Bu dövrdə Türkiyə ilə Azərbaycan arasında baş vermiş daha bir anlaşılmazlıq diqqəti cəlb edir. Türkiyə Respublikasının Baş naziri Tansu Çillər Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü ilə əlaqədar olaraq BMT Təhlükəsizlik Şurasına müraciət etməyi və iki ölkə arasında BMT-nin sülh qüvvələrinin yerləşdirilməsini təklif etmişdi. Onun bu təklifi Azərbaycan ictimaiyyəti arasında bəzi yanlış fikirlər yaranmasına səbəb olmuşdu. Belə ki, Azərbaycanda belə bir fikir yaranmışdı ki, Türkiyə Azərbaycanın xəbəri olmadan onun yerinə qərar verir. Bununla bağlı Türkiyənin Azərbaycandakı səfirliyindən bildirilmişdi ki, Türkiyə baş nazirinin bəyanatı mövcud ağır böhranla əlaqədar olaraq atıla biləcək addımlar haqqında bir təklifdən ibarətdir və BMT qüvvələrinin dəvət edilməsi Azərbaycan hökumətinin qərarından asılıdır. Tansu Çillər Azərbaycanın bununla əlaqədar bir müraciəti olacağı təqdirdə Türkiyə tərəfindən şübhəsiz ki, lazımı kömək göstəriləcəyini bildirmək məqsədilə bəyanat vermişdi. Azərbaycan tərəfindən razılıq alınmadığı üçün isə BMT-yə müraciət edilməmişdir.

Türkiyə səfirliyinin bəyanatında həmçinin qeyd olunmuşdu ki, Türkiyə Ermənistanın Azərbaycana qarşı təcavüzü və müstəqil Azərbaycan torpaqlarının bütövlüyünün Ermənistan tərəfindən pozulması hallarının yalnız Azərbaycanın daxili işi olmadığını, bütün beynəlxalq qanunları tapdalayan, beynəlxalq hüququ pozan, dünya miqyasında təhlükəli bir məsələ olduğuna inanır, bütün dünyanı Ermənistanın işğal və təcavüzünə qarşı səfərbər etmək üçün əlindən gələn bütün





imkanlardan istifadə edəcəyini və öz üzərinə düşən məsuliyyəti həyata keçirəcəyini bir daha elan edir (119, 30 iyul 1993).

Dünya ictimaiyyətinin hadisələrə belə soyuqqanlı münasibətinin dəfələrlə şahidi olan Ermənistan isə Azərbaycana qarşı təcavüzkarlığını daha da artıraraq, bu dəfə artıq statusu 1921-ci ildə Türkiyə ilə Rusiya arasında imzalanmış Qars müqaviləsi ilə müəyyənləşən Naxçıvan torpaqlarına da iddia etməyə başladı.

1993-cü ilin yay aylarında Azərbaycanda, xüsusilə Bakıda baş vermiş hadisələrlə bağlı çox danışılır. Və hesab edirik ki, bu barədə mövcud tədqiqat çərçivəsində geniş danışmamaq da olar (1993-cü ilin iyun hadisələri haqqında məlumat üçün baxmaq olar: 2, 5, 10, 11, 38 və s.). Problemin qoyuluşu baxımından dövrün qısa xülasəsini verməyi və hadisələrə Türkiyə Respublikasının münasibətini açıqlamağı daha məqsədəuyğun hesab edirik.

Həmin il dövlətçilik tariximizdə dönüş ili hesab olunur. Xarici təcavüz və daxili çəkişmələr özünün kulminasiya həddinə çatmışdı. Dövlət vəziyyətə, hadisələrə artıq nəzarət edə bilmirdi. Belə bir şəraitdə respublika rəhbərliyinə Naxçıvan Ali Sovetinin sədri, böyük dövlətçilik təcrübəsi keçmiş Heydər Əliyev dəvət olundu. Daxili sabitliyi və beynəlxalq aləmdə Azərbaycanın müsbət imicini formalaşdırmaq üçün kompleks tədbirlər həyata keçirilməyə başlandı. Bu dövrdən Azərbaycan dövləti yeni xarici siyasət kursu götürdü. Elə xarici siyasət xətti müəyyən edildi ki, o, milli mənafeyimizə, müstəqilliyimizin möhkəmləndirilməsinə xidmət etsin, əvvəlki dövrlərdən qalmış problemlərin həllinə kömək olsun. Azərbaycan beynəlxalq mövqelərini tədricən möhkəmləndirərək dünya birliyində layiqli yer tuta bilsin; xarici dövlətlərlə münasibətdə tarazlaşdırılmış xarici siyasət xəttinin olması təmin edilsin, qonşu dövlətlərlə sabit əlaqələrə nail olunsun. Digər çox mühüm vəzifə ölkəmizin zorla cəlb edildiyi müna-

qişənin sülh yolu ilə həll olunması işinə böyük dövlətləri, nüfuzlu təşkilatları cəlb edərək bu işdə onların dəstəyinə nail olmaqdan ibarət idi. Vaxtında görülmüş lazımi tədbirlər nəticəsində ölkədə hadisələri normal məcraya yönəltmək mümkün oldu.

1993-cü ilin iyun ayında Bakıda baş verən hadisələrlə əlaqədar Türkiyə hökuməti və ictimaiyyəti ciddi narahatlığını bildirirdi. Vəziyyətlə bağlı Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl müsahibələrindən birində bildirmişdi ki, Türkiyə heç vaxt Azərbaycanın daxili işlərinə qarışmayacaq. Azərbaycanın arxasında duran yeganə böyük dövlət Türkiyədir. Türkiyə ilə Azərbaycanın münasibətləri heç vaxt pis ola, pozula bilməz (119, 2 iyul 1993). Türkiyə tərəfi həmçinin bildirirdi ki, Azərbaycanın daxili işlərinə qarışmaq fikrində deyil, lakin ölkədə baş verən hadisələrə passiv və biganə qalmayacaqdır (119, 22 iyul 1993). Bu, xüsusilə Ermənistanın təcavüzü məsələsinə aiddir. Belə ki, Ermənistanın Azərbaycana qarşı təcavüzünü və müstəqil Azərbaycanın torpaqlarının bütövlüyünün Ermənistan tərəfindən pozulması halının yalnız Azərbaycanın daxili işi olaraq qalmadığını, bütün beynəlxalq qanunları tapdalayan, beynəlxalq hüququ pozan, dünya miqyasında təhlükəli bir məsələ olduğunu bəyan edən Türkiyə Prezidenti Süleyman Dəmirəl 1993-cü ilin sentyabr ayının 6-da Ermənistan prezidenti Levon Ter-Petrosyanla telefon danışığında bildirmişdi ki, Azərbaycan torpaqlarının işğal edilməsi Türkiyədə böyük hiddət doğurmuşdur. Bu işğala dərhal son qoyulmalıdır. Ermənistan Prezidenti Levon Ter-Petrosyan isə öz tərəfindən bildirmişdi ki, hadisələr artıq Ermənistanın nəzarəti altından çıxmışdır və onlar Dağlıq Qarabağ ermənilərinin əməlləri ilə əlaqədar baş verir (119, 8 sentyabr 1993).

Hadisələrin bu istiqamətdə inkişaf etdiyi bir şəraitdə – sentyabr ayında həmin dövrdə Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Ali Sovetinin sədri Heydər Əliyev Ermənistanın münaqişə tərəfi kimi tanınması, erməni təcavüzünə son qoyulması məqsədilə BMT Baş Katibinə və Təhlükəsizlik Şurasının Sədrinə teleqram göndərmiş (116; 6 iyul 1993, sənəd №611/3), bununla kifayətlənməyərək Moskvada rəsmi səfərdə olarkən (sentyabr 1993) həmçinin burada səfərdə olan Tansu Çillərlə görüşmüşdü. Görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması ilə bağlı məsələlər kompleksi müzakirə olunmuşdu. T.Çillər bildirmişdi ki, Türkiyə ATƏM prinsiplərinə riayət etməyə meyllidir. Lakin lazım gələrsə Türkiyə hərbi tədbirlər də görə bilər. Qüvvəsi kifayət qədərdir. Azərbaycana qarşı erməni təcavüzü davam etdiyi bir vaxtda Türkiyə əli qoynunda otura bilməz. Eyni zamanda Türkiyə regionda Rusiya ilə birlikdə hərəkət etmək niyyətini də bildirdi (121, 10 sentyabr 1993; 119, 11 sentyabr 1993).

Ümumiyyətlə, 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan-Türkiyə münasibətlərinin də inkişafının yeni mərhələsi başlandı (66, s.48).

1994-cü ilin yanvar ayında Türkiyə Prezidenti Süleyman Dəmirəl artıq 1993-cü ilin oktyabr ayında Azərbaycan Respublikasının Prezidenti seçilmiş Heydər Əliyevə məktubla müraciət edərək ölkələrimiz arasında qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə xüsusi əhəmiyyət verdiyini bildirmişdi. Türkiyənin dost Azərbaycanla hərtərəfli əlaqələrinin inkişaf etdirilməsi və dərinləşdirilməsi əzmində olduğunu qeyd edən Prezident Süleyman Dəmirəl Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi münasib bildiyi vaxtda Türkiyəyə rəsmi səfərə dəvət etmişdi.

Dəvəti qəbul edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü il fevral ayının 8-11-də Türkiyədə rəsmi səfərdə oldu (20, s.59-88). Görüş zamanı Azərbaycan Respublikasının Prezidenti bildirdi ki, Türkiyə ilə Azər-

baycan arasında yaranmış əlaqələr yeni mərhələyə keçir. Bu mərhələ əvvəldən indiyədək görülmüş işlərin üzərində qurulur. Ancaq indiki görüşlərin və danışıqların nəticələri bu işlərin daha da irəliləməsi, genişlənməsi, ölkələrimizin bir-birinə daha da yaxınlaşması üçün yeni imkanlar açır. Səfərin siyasi əhəmiyyətindən danışarkən qeyd olundu ki, o təkcə Azərbaycanın formalaşmaqda olan müstəqil xarici siyasətində deyil, Türkiyə kimi dost bir ölkə ilə münasibətlərində də yeni mərhələdir. Bununla bağlı Azərbaycan Respublikasının Xarici İşlər naziri H.Həsənov bildirdi ki, son illər ərzində Türkiyə Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün çox işlər görübdür. Lakin Azərbaycanda normal dövlətçilik olmadığından, dövləti idarəetmə təcrübəsi olmadığından Azərbaycan Türkiyə ilə əlaqələrin ona verdiyi üstünlüklərdən istifadə edə bilməyib. İndiki mərhələdə Azərbaycan hökuməti Türkiyə ilə əlaqələrini dövlətlərarası münasibətlərin beynəlxalq prinsipləri əsasında qurur. Yeni mərhələnin mahiyyəti də məhz bundadır.

Türkiyə Xarici İşlər naziri Hikmət Çətin isə keçmiş hakimiyyətə tənqidi münasibətdən yan keçərək sualı belə açıqladı: Heydər Əliyevin bu səfəri Türkiyə ilə Azərbaycanın dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə yardımçı olmuşdur və bu baxımdan qardaşlığımızı daha da möhkəmləndirəcək bir sıra sənədlər imzalanmışdır (119, 18 fevral 1994). Azərbaycan Prezidenti səfərin əhəmiyətindən danışarkən qeyd etmişdi ki, səfərin siyasi və iqtisadi əhəmiyyətini daha qabarıq göstərən əsas nəticələrdən biri məhz iki ölkə arasında imzalanmış sənədlərdir. Bir halda ki, Türkiyə dövlətini dost dövlət bilib əsas siyasi partnyor kimi qəbul etmişdik, bu, dövlətlərarası münasibətlərin beynəlxalq prinsipləri əsasında rəsmi sənədlərdə təsbit olunmalı idi. Vaxtında belə bir addım atılsa idi, təbii ki, bu, regionda Azərbaycanın siyasi mövqeyinin güclənməsinə və təklənib sıxışdırılmamasına kömək olardı. Keçmiş dövlət rəhbərləri bir tərəfdən MDB-yə daxil olmaqdan imtina etmiş, digər tərəfdən də Türkiyə ilə lazımi sənədləri imzalamamışlar (Azərbaycan ərazilərinə təcavüz etmiş Ermənistan Respublikasının isə 1992-ci ildə Rusiya ilə kollektiv təhlükəsizlik haqqında müqavilə imzaladığını artıq əvvəldə qeyd etmişik - S.R.). Bunun nəticəsi olaraq Ermənistanın təcavüzünə məruz qalan Azərbaycan siyasi arenada təklənmiş və gün-gündən zəifləmişdir (119, 18 fevral 1994).





Görüşün yekunu kimi, ölkələrimiz arasında dostluq, qarşılıqlı anlaşma və hərtərəfli əməkdaşlıq haqqında sənəd də daxil olmaqla 16 sənəd imzalandı (20, s.82). «Dostluq, qarşılıqlı anlaşma və hərtərəfli əməkdaşlıq haqqında» müqaviləyə görə tərəflərdən biri hər hansı bir ölkə və ya ölkələr tərəfindən təcavüzə məruz qaldığı halda digər tərəf bu təcavüzün qarşısını almaq məcburiyyətində qalacaqdı (20, s.80-81). Beləliklə, bu müqaviləyə əsasən Azərbaycana hər hansı bir dövlət tərəfindən təcavüz ediləcəyi halda Türkiyə bunun qarşısını almaq üçün Azərbaycana kömək edəcəkdir. Bu görüşlə bağlı bir fikir mübadiləsi zamanı yenə də hərbi ittifaq məsələsi günün aktual məsələsi kimi ortaya çıxdı. Türkiyədə bu məsələ ilə bağlı fikir ayrılığının olmadığı özünü göstərirdi. Türkiyənin Xalq Cümhuriyyət Partiyasının sədri Dəniz Baykal Azərbaycan Prezidenti ilə təkbətək görüşdən sonra bildirmişdi ki, çox-çox əvvəl Azərbaycana yardım etməyimizin lazım olduğunu və bu işdə gecikdiyimizi düşünürəm. Ona görə də, bu günlərdə Türkiyənin Azərbaycanla imzalayacağı hər cür müqaviləni məmnuniyyətlə qarşılayacağıq. Hər cür yardım deyəndə hərbi yardım da istisna olunmur. Əgər belə bir müqavilə vaxtında imzalansa idi, təbii ki, Ermənistanın təcavüzünün belə gerçəkləşəcəyi mümkün olmazdı (bu barədə həmçinin bax: 113, s.393-394). Azərbaycanla Türkiyə arasında belə bir müqavilənin imzalanması bizim hansısa bir dövlətə düş-

mənçiliyimiz kimi qiymətləndirilməməlidir. Türkiyənin Xarici İşlər naziri Hikmət Çətin isə bununla bağlı bildirdi ki, «Ermənistan həqiqəti görməlidir. Gəldiyi kimi gedəcəkmi, yaxud qan töküb gedəcəkmi, bunun qərarını özü verməlidir. Bizim başlıca istəyimiz işğal etdiyi Azərbaycan torpaqlarından qansız çəkilib getməsidir. Əgər getməzsə, mütləq çıxarılacaq» (119, 18 fevral 1994).

Əlbəttə, Ermənistanın Azərbaycan torpaqlarından çəkilib getməsi və indiyə qədər qan tökülməsinə səbəb olan müharibənin sülhlə başa çatması təkcə Türkiyənin təsiri ilə həllini tapacaq asan bir iş deyildir və dörd günlük bir səfər zamanı bu problemə son qoyulacağını gözləmək sadəlövhlük olardı (əslində, qarşıya belə bir məqsəd qoyulmamışdı da). Azərbaycan Prezidenti Türkiyəyə səfəri zamanı dəfələrlə açıqlamışdı ki, bu təcavüz təkcə Ermənistanın təcavüzü deyildir. Bu, Azərbaycanı dağıtmaq, parçalamaq, Qafqazda güclü bir dövlət kimi məhv etmək məqsədi ilə toplaşan qüvvələrin birlikdə təcavüzüdür. Ermənistanı Şərqdən də, Qərbdən də, Şimaldan da, Cənubdan da dəstəkləyirlər. Belə bir şəraitdə Azərbaycan nə qədər güclü olsa belə, xarici siyasətdə daha tədbirli və sərt addımlar atmalı, öz mövqeyini daha da möhkəmlətməlidir (20, s.77-80). Bu baxımdan Fransaya səfərdən sonra (dekabr 1993) Türkiyəyə yüksək səviyyəli görüş böyük əhəmiyyətə malikdir. Ümumiyyətlə, Türkiyə ilə yaxınlaşma Azərbaycanda strateji maraqları olan dövlətlərdə qısqanclıq doğurmamalıdır. Azərbaycanla dostluğu və əməkdaşlığı iki müstəqil dövlətin arasında normal münasibətlər hesab edən Türkiyənin Xarici İşlər naziri Hikmət Çətin bunu xüsusilə vurğulayaraq növbəti dəfə bildirdi ki, Türkiyə ilə Azərbaycan arasında əlaqələr kimsəyə qarşı yaranmır və hər hansı dövlətə qarşı yönəlmir. Eyni dildə danışan iki ölkənin yaxınlaşması heç kimi narahat etməməlidir. Şübhəsiz ki, bu qısqanclığın ilk növbədə Rusiyada oyanacağı ehtimalı irəli





sürülürdü. Burada təkcə siyasi əlaqələr deyil, iqtisadi əməkdaşlıq da diqqət mərkəzindədir. Belə ki, səfər zamanı Azərbaycan Prezidenti Türkiyəni əsas iqtisadi partnyor elan etmişdi. Ancaq iş burasındadır ki, 200 il ərzində müəyyən ərazilərlə əlaqələri və bütün son 70 ildə keçmiş SSRİ-nin vahid dövlət strukturunda olması Azərbaycanın iqtisadi əlaqələrinə öz təsirini göstərməmiş deyil və sözsüz ki, bu əlaqələr dərin izlər buraxmışdır. Ona görə də, bu gün söhbət o regionlarla iqtisadi əlaqələri qırmaqdan deyil, Azərbaycanın keçmiş Sovet Respublikaları ilə mövcud olan əlaqələrinə Türkiyənin də inteqrasiya olunmasından gedir. Xarici siyasət isə xarici-iqtisadi əlaqələrsiz mümkün deyil.

Bütövlükdə səfər isə qəti şəkildə Rusiyaya toxuna bilməz. Çünki Azərbaycan bu səfərində Rusiyaya toxunacaq heç bir addım atmır. Əksinə, bir daha bildirir ki, Azərbaycanın xarici siyasəti açıq siyasətdir. Yəni Azərbaycan dünyanın bütün dövlətləri ilə normal əlaqələr yaratmaqda maraqlıdır. Xüsusilə də, qonşu və regionda istiqamətverici dövlətlərlə. Belə ölkələrdən biri də sözsüz ki, Rusiyadır.

Bu məsələ ilə bağlı türkiyəli şərhçilər bildirirdilər ki, Heydər Əliyevin Türkiyəyə səfəri Qafqazın gələcəyi baxımından çox əhəmiyyətlidir. Belə ki, regionda, beynəlxalq aləmdə yalqız olmadığına əmin olan Azərbaycan bu səfərdən böyük cəsarət alacaq. Təbii ki, Rusiya faktoru da mövcuddur və o da Qafqazda öz nüfuzunu bərpa etmək və möhkəmləndirmək əzmindədir. Azərbaycanın da Rusiya ilə çox yaxın əlaqələri var, Türkiyənin də Rusiya ilə əlaqələri var və o, bunların daha da güclənməsini istərdi.

Səfərin əhəmiyyətindən danışarkən həmçinin qeyd edildi ki, ötən ilin məlum iyun hadisələrindən sonra Türkiyə-Azərbaycan münasibətləri müəyyən «sarsıntılar» keçirmişdi. Bunlar Türkiyənin rəsmi siyasətində açıqlanmasa da, Azərbaycanda dəyişən hakimiyyətə və onun aparacağı siyasətə

şübhələr oyatmağa başlamışdı. «Türkiyənin istər rəsmi dairələri, istərsə də siyasi xadimləri Azərbaycanda hakimiyyətin baş kürsüsünə keçən birinci şəxsi həm siyasi xadim, həm də dövlət başçısı kimi yaxşı tanıyırdılar. Buna baxmayaraq, ictimaiyyət arasında, və xüsusilə də mətbuatda müəyyən yanlış təsəvvürlər formalaşmağa başlamışdı. Az bir zamanda onların təsiri Azərbaycanla Türkiyənin iqtisadi əlaqələrində də özünü göstərdi. Müəyyən işgüzar türklər Azərbaycandan uzaq düşməyə başladılar. Türkiyənin rəsmi dairələrini, müxtəlif siyasi qüvvələrini və mətbuatı ilk növbədə narahat edən məsələ Azərbaycanın MDB-yə daxil olması və bununla guya Azərbaycanın müstəqilliyinin itirilməsi təhlükəsinin yaranması idi. Bu ehtimal ətrafında güclü təbliğat qurulur, hətta türk mətbuatında bu elə verilirdi ki, guya Türkiyə ictimaiyyəti Azərbaycanın müstəqilliyini artıq uçurumda görür» (20, s.78-79). Bu məsələdə Türkiyənin Azərbaycan haqqında xəbərləri xarici agentliklərdən alması da az rol oynamırdı. Lakin artıq bunlar keçmişdə qalıb. Prezident Heydər Əliyevin dörd günlük səfəri Türkiyədəki yanlış təsəvvürlərə zərbə oldu. O, keçirdiyi bütün görüşlərdə açıqladı ki, Azərbaycanın müstəqilliyi dönməzdir. Azərbaycan keçmiş iqtisadi-siyasi sistemə dönə bilməz. Azərbaycanda demokratik, hüquqi dövlət qurulur və bu quruculuq davam edəcək.

1994-cü il aprel ayının sonunda Türkiyə Xarici İşlər naziri Hikmət Çətin Bakıya qısamüddətli işgüzar səfər etdi. Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşdü. Azərbaycan Prezidenti Türkiyə Xarici İşlər nazirinə son vaxtlar Ermənistan silahlı qüvvələrinin indiyədək miqyası görünməmiş hücum əməliyyatları aparması barədə məlumat verdi və həm beynəlxalq təşkilatlara, həm də Minsk qrupunun üzvü olan dövlətlərə, o cümlədən Türkiyəyə bir daha müraciət edərək münaqişənin dinc vasitələrlə aradan qaldırılması yollarının axtarışı sahəsində öz fəaliyyətlərini gücləndirməyə, təcavüzkarı cilovlamağa çağırmışdı.





Türkiyə Xarici İşlər nazirinin fikrincə, dünya ictimaiyyəti nəhayət aydın bilməlidir ki, Azərbaycan öz ərazisini qoruyaraq müharibə aparmağa məcburdur. Bu baxımdan, hərbi əməliyyatların davam etməsinə görə Azərbaycanın və Ermənistanın bərabər məsuliyyət daşıması prinsipi məqbul sayıla bilməz, çünki təcavüz Azərbaycana qarşı edilir. Hikmət Çətin bildirmişdi ki, Türkiyə bu mövqeyi bütün beynəlxalq məclislərdə müdafiə edəcəkdir.

1994-1998-ci illərdə Azərbaycan-Türkiyə dövlət və hökumət nümayəndə heyətlərinin çoxsaylı görüşləri, məsləhətləşmələri, dövlət başçılarının qarşılıqlı səfərləri, məktublaşmaları və telefon danışıqları olmuşdu (6, cc.I-V 18; cc.V-VIII və s.). Dövlət başçıları həmçinin beynəlxalq və məhəlli səviyyəli toplantılarda görüşmüş, məsləhətləşmələr aparmışlar. 1998-ci ilin fevral ayında Türkiyədə səfərdə olarkən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycanla Türkiyə arasındakı çoxsaylı görüşlər haqqında demişdi ki, bu əlaqələr başqa dövlətlər arasında olmayacaq səviyyədədir. Ancaq Azərbaycanın Türkiyənin yardımına hər zaman ehtiyacı var. Və biz hər zaman bu yardımı hiss edirik. Xüsusən də, Ermənistan-Azərbaycan münaqişəsinin həllində. Minsk qrupunun həmsədri kimi Türkiyə daim bu məsələ ilə maraqlanır.

1997-ci il mart ayının 19-da Mərkəzi Asiyanın türk respublikalarına 9 günlük səfərdən qayıdan Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Qələminin başçılıq etdiyi nümayəndə heyəti Bakıya gəldi. Azərbaycan Prezidenti Türkiyə nümayəndə heyətini qəbul etdi. Azərbaycan Prezidenti bildirdi ki, Dağlıq Qarabağ problemi ilə bağlı beynəlxalq təşkilatlarda Türkiyə Azərbaycanın mövqeyini daim dəstəkləyir, qərarların qəbul olunmasında mühüm rol oynayır. Lakin son vaxtlar Türkiyə-Ermənistan quru sərhədlərinin açılacağı, Trabzon-Yerevan təyyarə reydlərinin təşkil ediləcəyi barədə

yayılan xəbərlər narahatlıq doğurur. Türkiyə Böyük Millət Məclisinin sədri bildirdi ki, bunlar bəzi informasiya vasitələrinin yaydığı uydurmalardır. Mustafa Qələmi Azərbaycanın işğal olunmuş torpaqları azad edilməyincə, qaçqınlar evlərinə qayıtmayınca Türkiyə ilə Ermənistan arasında hər-hansı əlaqələrin yaradılmasının qeyri-mümkünlüyü haqqında öz ölkəsinin mövqeyini bir daha təsdiq etdi (Yeri gəlmişkən, 1995-ci ildən açıq olan Ankara-Yerevan reysi ilə bağlı məqama aydınlıq gətirmək istərdik. Türkiyə rəsmi dairələri bununla bağlı bildirirdilər ki, Türkiyə ilə Ermənistan arasında dövlət səviyyəsində heç bir əlaqə yoxdur. Rəsmi Ankara 1993-cü ildə Ermənistanın Azərbaycan ərazilərinə təcavüzünün genişləndiyi bir vaxtda onunla sərhədləri bağlayıb və dəfələrlə rəsmi şəkildə bəyan edib ki, Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməyənə qədər onunla heç bir sahədə əməkdaşlıq qurmayacaq. Ankara-Yerevan təyyarə reysi özəl aviaşirkət tərəfindən həyata keçirilən çarter reysidir. Həmin aviaşirkətin prezidenti isə milliyyətcə ermənidir. Qeyd edək ki, 2003-cü ilin sonlarından isə öz növbəsində əks tərəfə – Yerevan-Ankara xətti üzrə də uçuşlar edilməyə başlamışdır – S.R.).

Azərbaycan Prezidenti bildirdi ki, Azərbaycan da öz növbəsində beynəlxalq əlaqələrini qurarkən Türkiyənin mənafelərini ön plana çəkir. O xatırlatdı ki, dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» imzalanarkən (sentyabr 1994) Türkiyənin bu müqavilədə payı 1,75 faiz idi. Sonralar Azərbaycan öz payından qardaş ölkəyə daha 5 faiz ayırdı (18, c.VI, s.360). «Şahdəniz» layihəsi üzrə ötən il imzalanmış müqavilədə isə Türkiyənin payı 9 faizdir. Heydər Əliyev vurğuladı ki, Azərbaycana investisiya qoymaq istəyənlər çoxdur. Ancaq biz istəyirik ki, Türkiyə ölkəmizin xarici iqtisadi əlaqələrində daha geniş təmsil olunsun.





Azərbaycan və Türkiyə parlamentləri arasında imzalanmış əməkdaşlıq protokolundan danışarkən Mustafa Qələmi bildirdi ki, belə bir protokol Türkiyə ilə Qazaxıstan və Qırğızıstan arasında da imzalanıb. O, türk dövlətləri parlament ittifaqının yaradılması ideyasının yaxın gələcəkdə reallaşacağına ümidvar olduğunu bildirdi.

1997-ci il martın 24-də Türkiyənin Xarici İşlər Nazirliyi Rusiyanın Ermənistana qanunsuz olaraq silah göndərməsi (1, s.15) ilə əlaqədar bəyanat vermişdi (117, 26 mart 1997). Bəyanatda deyilirdi ki, son iki ildə Ermənistana qanunsuz olaraq 84 ədəd tank, 50 ədəd RDM verilməsi faktı ilə bağlı Rusiya Federasiyasının başladığı təhqiqatların tezliklə yekunlaşdırılması və gələcəkdə ortaya çıxa biləcək belə halların qarşısının alınmasını təmin etmək üçün təsirli tədbirlər görülməsi böyük əhəmiyyət kəsb edir. Qanunsuz silah verilməsinin bölgədə sülhə və əmin-amanlığa mənfi təsir göstərdiyini vurğulayan Türkiyə Xarici İşlər Nazirliyi Avropada adi silahlı qüvvələr haqqında müqavilə çərçivəsində Rusiya və Ermənistanın öz üzərlərinə götürdükləri öhdəliklərə də diqqəti cəlb edir. Bəyanatda daha sonra deyilirdi ki, Türkiyə bölgədəki münasibətlərin dinc yolla aradan qaldırılmasını burada sülh və təhlükəsizliyin təmin edilərək uzunmüddətli sabitlik yaranmasının əsas şərti sayır.

1997-ci ilin may ayının 5-dən 8-nə qədər Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyəyə növbəti səfəri oldu. «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında» bəyannamə və bir çox digər sənədlər, ümumilikdə 9 sənəd imzalandı (117, 16 may 1997). Türkiyə tərəfi bildirdi ki, Azərbaycanın müstəqillik və suverenliyini qorumaq və inkişaf etdirmək səylərini bundan sonrakı dövrdə də hər sahədə və daim müdafiə edəcək, əlaqələrin daha da inkişaf etməsi üçün səy göstərəcəkdir. Azərbaycan Prezidenti bildirdi ki, Azərbaycanın müs-

təqilliyi sarsılmazdır və dönməzdir. Türkiyə-Azərbaycan dostluğu isə dövlət müstəqilliyimizi qoruyub saxlamaq üçün bizə həmişə dayaqdır (6, III c., s.199).

1998-ci ilin fevral ayının 13-14-də Azərbaycan Prezidenti Türkiyədə qısamüddətli işgüzar səfərdə oldu. Səfər Türkiyə Prezidenti Süleyman Dəmirəl və Türkiyənin Baş naziri Məsud Yılmazın dəvəti ilə həyata keçirilmişdi. Səfərdə Azərbaycan-Türkiyə əlaqələri haqqında, eyni zamanda bölgədə, beynəlxalq aləmdə olan vəziyyət barədə fikir mübadiləsi aparıldı (119, 14 fevral 1998). Azərbaycan Prezidenti səfərin yekunları barədə bəyanatında qeyd etdi ki, problemlər həqiqətən çoxdur. Özü də təkcə Qafqazda deyil. Türkiyənin ətrafında, Yaxın Şərqdə də problemlər çoxdur. Ancaq Qafqazın problemləri, Qafqazla sərhədləri olan Türkiyə üçün Qafqazla əlaqələri xüsusi əhəmiyyət kəsb edir. Türkiyə ilə Azərbaycan arasında keçirilən danışıqların əsas mənası ondan ibarətdir ki, ölkələrimiz arasında fikir ayrılığının olmadığı bir daha təsdiqləndi (119, 17 fevral 1998). Dövlətlər Qafqazın dirçəliş səylərinin müvəffəqiyyətli olması üçün sülhün və sabitliyin mütləq qorunmasının zəruriliyi fikri ilə hərəkət edərək, təhlükəsizlik əsas götürülməklə hər sahədə əməkdaşlığın dərinləşdirilməsinə qətiyyətlərini qarşılıqlı surətdə təsdiq etdilər. Xüsusi olaraq qeyd edildi ki, Gürcüstan istər Türkiyə, istərsə də Azərbaycan üçün misilsiz strateji tərəfdaşdır və onlar bu ölkənin sülh, sabitlik və rifahına çox böyük əhəmiyyət verirlər. Bildirildi ki, Gürcüstanla həmrəylik davam etdiriləcək.

Bunun məntiqi davamı kimi, 1998-ci il aprel ayının 26-da Trabzonda Türkiyə, Gürcüstan və Azərbaycan prezidentlərinin görüşü keçirildi. Görüşdə üçlük dövlətlərinin əməkdaşlığının perspektiv inkişaf yolları müzakirə edildi. Prezidentlər Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında yaranmış xüsusi dostluq, mehriban





qonşuluq və əməkdaşlıq münasibətlərini bundan sonra daha da genişləndirməyə və dərinləşdirməyə hazır olduqlarını bəyan etdilər. Bu münasibətlər maraqların ümumiliyi əsasında sülhə və sabitliyə, bölgə xalqlarının iqtisadi inkişafına və yaxınlaşmasına getdikcə daha çox kömək edən sanballı amilə çevrilir (15, s.198-201).

Belə ki, Türkiyə ilə Azərbaycan arasında birbaşa coğrafi əlaqənin, demək olar ki, olmaması körpü rolunu oynayan Gürcüstanın bu iki dövlət arasındakı münasibətlərə cəlb olunmasını şərtləndirir. Digər tərəfdən, Qafqazda möhkəmlənmək istəyən hər hansı bir dövlət həm Azərbaycanla, həm də Gürcüstanla eyni dərəcədə normal münasibətlərdə olmalıdır. Çünki bu dövlətlərdən biri Transqafqaz dəhlizinin, həm də təkcə bu dəhlizin deyil, girişi, digəri isə çıxışıdır. Azərbaycan və Türkiyə ilə sıx əməkdaşlıq münasibətləri Gürcüstanın da iqtisadi-siyasi maraqları daxilindədir. Xüsusən, Xəzər hövzəsindən Türkiyəyə axmalı olacaq enerji resursları tranzit ölkə kimi Gürcüstanın iqtisadi inkişafına böyük stimul ola bilər.

Prezidentlər bölgədə təhlükəsizliyin və sabitliyin təmin olunması sahəsində birgə səyləri həm regional səviyyədə, həm də daha geniş beynəlxalq səviyyədə daha da gücləndirməyin vacibliyini qeyd etdilər. Onlar dövlət suverenliyinə, ərazi bütövlüyünə hörmət və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında təcavüzkar separatçılığa və terrorizmin hər hansı təzahürünə qarşı birgə mübarizəni fəallaşdırmaq əsasında bölgədə münaqişələri tez bir zamanda sülh yolu ilə aradan qaldırmağın zəruri olduğunu vurğuladılar. Türkiyə Prezidenti Azərbaycan Prezidenti ilə Gürcüstan Prezidentinin Tbilisi bəyannaməsində - «Dinc Qafqaz» bəyannaməsində ifadə etdikləri prinsiplərin həyata keçirilməsinə yönəlmiş səyləri tamamilə dəstəklədiyini təsdiq etdi (119, 28 aprel 1998).

«Azərbaycanla Türkiyə arasında münasibətləri kimsə poza bilməz» deyən Türkiyənin Azərbaycandakı səfiri Qədri Ecvet Tezcan qeyd etmişdi ki, Ermənistan Prezidenti R.Köçəryan müsahibələrinin birində Türkiyə ilə ticarət əlaqələrinin son dövrlərdə 3-5 dəfə artdığını vurğulayaraq, bu məlumatın Ermənistanla Türkiyə arasında iqtisadi əməkdaşlığın mövcudluğuna sübut olduğunu bildirmişdi. Türkiyə Qarabağ düyünü çözülməyincə erməni dövləti ilə hər hansı əməkdaşlığın olmayacağını bildirmişdi. Səfir qeyd etmişdi ki, Türkiyə dövlətinin Ermənistanla ticarət əlaqələri yoxdur. Yalnız ayrı-ayrı iş adamları bu işlə məşğul olurlar. Onların da fəaliyyət dairələri çox məhduddur. Həmin adamları xırda tacirlər adlandırmaq düzgün olardı. Bu isə Ermənistanla ticarət əlaqələrinin yaranmasına sübut deyil. Türkiyə bu məsələ ilə bağlı şərtlərini bildirmişdir. Nə qədər ki, Azərbaycanın işğal edilən torpaqları geri qaytarılmayıb, qaçqınlar yaşadıqları obalara dönməyiblər, Ermənistanla normal ticarət əlaqəsi ola bilməz. ATƏT-in Minsk qrupu çərçivəsində bölgədə sülhün addım-addım gerçəkləşdirilməsi gərəkdir. Əks halda Türkiyə dövləti Ermənistanla heç bir ticarət fəaliyyətinə qoşulmayacaq (119, 20 fevral 1998).

1998-ci ilin iyun ayında Türkiyə-Amerika Assosiasiyaları Assambleyasının üzvləri Bakıda rəsmi səfərdə oldular. Milli Məclisin sədri Murtuz Ələsgərovla görüş zamanı Türkiyə-Azərbaycan əlaqələri məsələlərinə toxunuldu. Assambleyanın sədri Tamer Açkalili bildirdi ki, 1979-cu ildən formalaşan Assambleya ABŞ-da fəaliyyət göstərən 54 təşkilatı birləşdirir. Onların məqsədi amerikalılara Türkiyə Cümhuriyyəti haqqında dəqiq və qərəzsiz ətraflı məlumat çatdırmaq, siyasi hadisələr barədə türklərin mövqeyini açıqlamaqdır. Assambleyanın üzvləri, həmçinin ABŞ-da yaşayan türklər burada Azərbaycan lobbisinin formalaşmasına da bacardıqları qədər yardım edirlər.





1998-ci il iyun ayının 3-də Azərbaycan Prezidenti Türkiyə Silahlı Qüvvələrinin quru qoşunları komandanı ordu generalı Hüseyn Kıvrıkoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdi. Azərbaycan rəhbəri vurğuladı ki, ölkələrimiz arasında əsgəri, hərbi işbirliyi çox böyük əhəmiyyət kəsb edir. Türkiyə silahlı qüvvələri nümayəndələri heyətinin ölkəmizə bu səfərindən hərbi sahədə işbirliyinin genişlənməsi və inkişaf etdirilməsi üçün yeni imkanların açılacağı gözlənilirdi.

Azərbaycan Prezidenti bildirdi ki, Azərbaycanın sevinci Türkiyənin sevinci, kədəri Türkiyənin kədəri olduğu kimi, Türkiyənin sevinci Azərbaycanın sevinci, kədəri Azərbaycanın kədəridir. Belə ki, may ayının 29-da Fransa parlamentinin aşağı palatasının guya vaxtilə Türkiyənin ermənilərə qarşı soyqırım etməsi ilə əlaqədar qərarı Azərbaycanda çox böyük etiraz və narahatlıq doğurubdur. İyunun 2-də Azərbaycan parlamenti bu məsələni müzakirə edib, bununla əlaqədar qərar qəbul edib, Fransa parlamentinə məktub göndərib. Hətta bu məsələ ilə bağlı parlamentin bir qrup üzvünü Fransaya göndərmək haqqında qərar qəbul edilibdir.

Bütün bu tədbirlərdən əlavə, Azərbaycana «Xəzərneft-qaz-98» sərgisinə gəlmiş Fransa nümayəndə heyətini qəbul edərkən Azərbaycan Prezidenti onlara Fransa parlamentinin aşağı palatasının qəbul etdiyi qərarla əlaqədar etirazını bildirmiş, bəyan etmişdi ki, həmin qərar əsassız və ədalətsizdir. Fransa ilə Türkiyə və Azərbaycan arasında dostluq əlaqələri var, bu əlaqələr inkişaf etdirilir. Fransa Rusiya və ABŞ-la bərabər ATƏT-in Minsk qrupunun həmsədridir. Bu ölkə Ermənistan-Azərbaycan münaqişəsinə ədalətlə yanaşır. Lakin, bununla yanaşı, Fransa parlamentinin aşağı palatası belə bir qərar qəbul etmişdir. Azərbaycan Prezidenti Fransa nümayəndə heyətinin üzvlərinə bildirmişdi ki, «ermənilər uzun illər, əsrlər boyu türklərə, azərbaycanlılara qarşı soyqırım

ediblər. Bu, əsrin əvvəllərində, 1905-1906-cı illərdə, 1918-1920-ci illərdə olubdur. Nəhayət, 1992-ci ildə Dağlıq Qarabağda Xocalı şəhərində olubdur. Biz bunu dünyaya bəyan etdik. Bu qədər soyqırım etmiş ermənilər indi Fransa parlamentinin dəstəkləməsi ədalətsiz bir haldır». Görüşdə Azərbaycan Müdafiə naziri Səfər Əbiyev və Türkiyənin Azərbaycandakı səfiri Qədri Ecvet Tezcan da iştirak etmişlər (119, 4 iyun 1998).

1999-cu ilin oktyabr-noyabr aylarında Azərbaycan Respublikası Prezidentinin Türkiyəyə növbəti işgüzar səfəri oldu. Görüş ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində növbəti addım oldu.

1999-cu ilin oktyabrında Türkiyə Naxçıvan Muxtar Respublikasına eynilə Şimali Kipr Türk Cümhuriyyətinə verilmiş güzəştlərə bənzər güzəştlər vermək niyyətində olduğunu bildirdi. Bu güzəştlərə şəffaf sərhədlər, vizasız gediş-gəliş hüququ, gömrük haqqının minimuma endirilməsi və s. məsələlər aiddir (123, 30 oktyabr 1999).

Azərbaycan və Türkiyə dövlət başçılarının növbəti görüşü 2001-ci il mart ayının 12-17-də Ankarada keçirildi. Bu görüş tədqiqatın əhatə etdiyi xronoloji çərçivədən kənara çıxdığı üçün yalnız bir neçə məqamı qeyd etməklə kifayətlənmək istərdik.

Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Əhməd Necdət Sezərin dəvəti ilə Ankarada rəsmi səfərdə oldu. Türkiyə-Azərbaycan əlaqələrinin vəziyyəti haqqında fikir mübadiləsi edildi. Qeyd edildi ki, əlaqələrimiz strateji-partnyorluq əlaqələridir və gün-gündən daha da inkişaf edir. Danışıqlarda əsas müzakirə olunan mövzulardan biri Dağlıq Qarabağ probleminin, Ermənistanın Azərbaycana təcavüzü məsələsinin həll edilməsi istiqamətində görüləcək işlər oldu. Qeyd edildi ki, Azərbaycan tərəfi məsələnin sülh yolu ilə həll edilməsi və Ermənistanın təcavüzkarlığına son qoyulmaqla





Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün təmin olunması üçün hər cür səy göstərir. Lakin son dövrdə Fransa parlamentinin «erməni soyqırımı» haqqında məlum qərarı, ermənilərin Türkiyədən 1921-ci il Qars müqaviləsini ləğv etmək tələbi, Türkiyənin Qars və Ərdahan, Azərbaycanın Naxçıvan bölgələrinə ərazi iddiaları irəli sürməsi, «Böyük Ermənistan» ideyasını mərhələ-mərhələ həyata keçirmək yolunda yeni cəhdləri Azərbaycan ictimaiyyətinin mövqeyinin bir qədər sərtləşməsinə, müharibə əhval-ruhiyyəsinin yaranmasına səbəb olmuşdur. Bu baxımdan, Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin həllində, nizamlanmasında Azərbaycan Respublikasının Türkiyənin köməyinə, ciddi yardımına ehtiyacı olduğunu və buna ümid etdiyini, problemin həllində Türkiyənin real köməyinin vaxtı çatdığını bildirdi. Bunun üçün isə ilk növbədə dünya miqyasında özünü göstərən ikili standartlar siyasətinə son qoyulmalı, Türkiyənin Azərbaycana həqiqi arxa olduğu, dəstək verdiyi sözdə deyil, işdə sübut edilməlidir. Qarabağ münaqişəsinin həlli ilə məşğul olan beynəlxalq təşkilatlar, xüsusilə Minsk qrupunun üzvü və həmsədri olan dövlətlər faktiki təklənən Azərbaycanın tək olmadığını görməli, hiss etməli və bununla hesablaşmalıdırlar (Bu problemlə bağlı bax: 4, 17, 22 və s.; 119, 13-16 mart 2001). Yeri gəlmişkən qeyd etmək istərdik ki, məsələyə başqa cür yanaşma da mövduddur. Belə ki, Ermənistan mətbuatında və xarici KİV-də belə bir fikir irəli sürülür ki, guya həm Türkiyədə, həm də Azərbaycanda siyasətdaxili «realiya»lara əsaslanan psixoloji aspektlər mövcuddur və onlar belə bir nəticəyə gəlməyə əsas verir ki, Türkiyə amili olmasaydı Azərbaycanın siyasi elitası kompromislərə daha meylli ola bilərdi. (1, s.16).

Görüş zamanı Azərbaycanın Türkiyədən hərbi yardım istəməsi və bunun diplomatik qaydada razılıqla qarşılanması Azərbaycan-Türkiyə münasibətlərinin yeni mərhələyə daxil olmasından xəbər verir. Bütün bunlar göstərir ki, Prezident

Heydər Əliyevin «bir millət, iki dövlət» adlandırdığı Türkiyə və Azərbaycan dünyanın yeni iqtisadi, siyasi və hərbi reallığında yeniləşən kompleks əlaqələr qurmaq, həmin reallığa uyğun birgə fəaliyyət yoluna çıxır. Və bu yolun uğurlu olacağı şübhəsizdir.

Ümumiyyətlə, indiyədək dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri, görüşləri nəticəsində Azərbaycanla Türkiyə arasında 200-dən artıq sənəd imzalanıb ki, bunlar da ölkələrimiz arasında əlaqələrin hüquqi-normativ bazasını təşkil edir.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında siyasi əlaqələrin digər forması səfirlik və konsulluq səviyyəsində olan əlaqələrdir. Azərbaycan SSRİ-nin tərkibində olduğu vaxt Bakıda Türkiyənin konsulluğu fəaliyyət göstərirdi. Azərbaycanın müstəqilliyini elan etməsilə əlaqədar olaraq Türkiyə hökuməti 1991-ci ilin dekabr ayında Türkiyə Respublikasının Bakı şəhərindəki Baş konsulluğunu Azərbaycanda Türkiyə Respublikasının səfirliyinə çevirmək haqqında qərar qəbul etdi. 1992-ci il yanvar ayının 14-də Türkiyə Xarici İşlər nazirliyinin nümayəndə heyəti Azərbaycanda olarkən Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik münasibətlərin bərpa edilməsi haqqında protokol imzalandı. Protokolda qeyd edilirdi ki, tərəflər Bakıda və Ankarada səfirliklər səviyyəsində diplomatik nümayəndəliklər yaradırlar. 1992-ci ilin yanvar ayına qədər Türkiyənin Bakıda Baş konsulu vəzifəsini icra edən Altan Karamanoğlu Türkiyə Respublikasının Azərbaycanda birinci səfiri oldu. 1992-ci il may ayının 3-də Bakıda Türkiyə səfirliyinin açılışı mərasimi oldu. Mərasimdə Türkiyə Respublikasının Baş naziri S.Dəmirəl iştirak edirdi. 1992-ci il avqust ayının 11-də Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Məmməd Əliyev Türkiyə Respublikasında Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri, Abbas Abdulla Hacaloğlu Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin olundular (119, 11 avqust 1992). 1992-ci ilin avqust ayında Azərbaycanın Xarici İşlər naziri Tofiq Qasımov Türkiyəyə rəsmi səfəri zamanı Azərbaycanın öz xarici siyasət fəaliyyətinin mərkəzini Ankaraya keçirmək barədə arzusunu bildirmişdi. Belə ki, Azərbaycanın diplomatik münasibətlər yaradılmış ölkələrin bir çoxunda öz səfirliklərini açmaq üçün hələ ki, vəsaiti yoxdur (Bəhs olunan dövrdə Azərbaycanın istiqlaliyyətini 105 ölkə tanımış, 21 dövlət tam həcmli diplomatik münasibətlər yaratmışdı. Diplomatik münasibətlər yaratmaq təklifi ilə Azərbaycana müraciət etmiş 37 dövlətə müvafiq notalar və məktublar göndərilmişdi. Azərbaycanın milli mənafeləri əsas tutularaq, diplomatik münasibətlər yaradılması və əməkdaşlıq haqqında müraciətlər və təkliflər bir sıra başqa dövlətlərə də göndərilmişdi // 119, 25 mart 1992). Bu arzu diqqətlə qarşılanmış, Azərbaycan (eyni zamanda keçmiş SSRİ-nin digər türk-müsəlman dövlətləri) üçün diplomatik kadrlar hazırlanması və Xarici İşlər nazirliyinin işinin təşkilində Türkiyə Xarici İşlər nazirliyi tərəfindən kömək göstərilməsi barədə razılığa gəlinmişdi. 1992-ci il noyabr ayının 2-də Ankarada Azərbaycan səfirliyinin açılışı mərasimi oldu. Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy mərasimdə iştirak edirdi. Türkiyə Respublikasının Prezidenti Turqut Özal çıxışında Azərbaycanın Türkiyədə ilk səfirliyinin Mustafa Kamal Atatürk tərəfindən açıldığını xatırlatdı. Türkiyə Azərbaycan Respublikasının Xarici İşlər nazirliyinə öz problemlərini, yəni kadr hazırlığı, səfirliklərin açılması və s. məsələləri həll etmək üçün 15 mln. dollar yardım göstərməyi qərara almışdı.

Türkiyə Azərbaycana həmçinin dünyanın digər dövlətləri ilə də səfirlik və konsulluq səviyyəli əlaqələr saxlamağa yardım edir. Belə ki, Azərbaycanda təxminən 21 ölkə səfirlik

və diplomatik nümayəndəlik səviyyəsində təmsil edilib. Diplomatik korpusun tərkibinə dünyanın mötəbər siyasi, iqtisadi və humanitar təşkilatları da daxildir. Azərbaycanda ümumiyyətlə 62 ölkənin səfiri akkreditə olunub, ölkəmizdə diplomatik korpusun tərkibi artmaqdadır. Azərbaycanın təxminən 20 ölkədə, Türkiyənin isə 120 ölkədə səfirliyi fəaliyyət göstərir. 25 ölkənin Türkiyədəki səfiri eyni zamanda öz ölkəsinin Azərbaycanda səfiridir (Azərbaycanda fəaliyyət göstərən səfirlik və diplomatik nümayəndəliklərin sayı haqqında rəqəmlər 1998-ci ildə Azərbaycanın Xarici İşlər naziri olmuş Tofiq Zülfüqarovun məlumatından götürülüb və həmin ilə aiddir // 119, 12 mart 1998-ci il).

Sonda qeyd etmək istərdik ki, dövlətlərimizin sıx, bərabərhüquqlu və səmərəli əməkdaşlığı zamanın hökmüdür, bizim əvvəlki tariximizdən və müasir siyasi və iqtisadi proseslərin gedişindən irəli gələn obyektiv zərurətdir. Yeni minilliyin astanasında ölkələrimizi nəinki tarixi köklər, adət və ənənələr, həm də dövlətlərimizin müstəqilliyi və suverenliyinin möhkəmləndirilməsi, regionumuzda sülhün və sabitliyin bərqərar edilməsi kimi ümummilli mənafelər birləşdirir. İnanmaq istərdik ki, dünya sivilizasiyasının inkişafına böyük töhfələr vermiş olan xalqlarımız bu vəzifələrin öhdəsindən də uğurla gələcəkdir.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr ölkəmizin müstəqilliyini inkişaf etdirmək, dövlət quruculuğunu müvəffəqiyyətlə aparmaq, iqtisadiyyatda əsaslı dəyişikliklər etmək baxımından da çox əhəmiyyətlidir Azərbaycanla Türkiyə arasında bütün sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi həmçinin beynəlxalq aləmdə mövqelərimizi gücləndirir.

Qafqaz bölgəsində, eləcə də dünyada baş verən son hadisələrin analitik qiymətləndirilməsi fonunda Azərbaycan-Türkiyə əlaqələrinə yenidən baxılması, xüsusilə, iqtisadi, siyasi, hərbi sahələrdə dost ölkələrin təxirəsalınmaz taleyüklü iş birliyinə, ortaq məxrəcə gəlinməsi vacibdir. Fransada, eləcə də dünyanın bir sıra parlamentlərində guya 1915-ci ildə Türkiyədə ermənilərə qarşı soyqırım siyasətinin həyata keçirilməsinin təkidlə gündəmə gətirilməsi, 1921-ci il Qars müqaviləsinin ləğvi ilə bağlı yeni iddiaların baş qaldırması və digər antitürk tendensiyalar Azərbaycan-Türkiyə, bütövlükdə ümumtürk əlaqələrinə yenidən baxılmasını qaçılmaz edir. Müasir dünya hərbi, iqtisadi, siyasi reallığında ümumtürk iş birliyi, xüsusilə Azərbaycan-Türkiyə kompleks əlaqələrinin necə qurulması, necə inkişaf etdirilməsi, hansı sahələrin dayaq nöqtəsi seçilməsi və s. suallara cavab verilməsi, bu məqsədlə dövlət başçılarının, dövlət və hökumət nümayəndə heyətlərinin, siyasi xadimlərin işgüzar görüşlərinin keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, tədqiq olunan dövrdə Azərbaycan-Türkiyə əlaqələrini nəzərdən keçirərkən aşağıdakı nəticəyə gəlirik:

- XX əsrin son onilliklərində beynəlxalq aləmdə baş vermiş dəyişikliklər Türkiyə və Azərbaycanın regionda nüfuzunu, hadisələrin gedişinə təsirini, rolunu əhəmiyyətli dərəcədə artırmışdır;
- Azərbaycan böyük neft kəmərinin başlanğıcı, Türkiyə sonucudur;
- Azərbaycan TRASEKA proqramına əsasən qurulmaqda olan Avropa-Qafqaz-Asiya beynəlxalq ticarət yolunda başlıca əlaqələndirici halqa, Türkiyə TRASEKA-nın Avropaya çıxış yollarından ən mühümüdür;
- Ermənistan-Azərbaycan münaqişəsinə münasibətdə Türkiyə Azərbaycanın təhlükəsizliyinin qarantı, öz növbəsində Azərbaycan son illərdə erməni millətçiləri tərəfindən dünya parlamentlərində müzakirəyə çıxarılmış qondarma «er-

məni soyqırımı» məsələsində Türkiyənin mənafeyinin fəal müdafiəçisidir;

- Türkiyə və Azərbaycan strateji partnyordur, bu partnyorluq dövlətlərarası münasibətlərin bütün sahələrini, o cümlədən də hərbi sahəni tədricən daha geniş əhatə etməlidir;

- Nəhayət, Cənubi Qafqaz regionunda yaradılmış və son dərəcə kövrək olan qüvvələr müvazinəti güclü Türkiyəsiz və güclü Azərbaycansız uzun müddət davam edə bilməz.

Bütün deyilənlər belə qənaətə gəlməyə əsas verir ki, Azərbaycan-Türkiyə əməkdaşlığı ümumilikdə bölgənin dirçəlməsinə, burada sabitlik və əmin-amanlıq yaranmasına xidmət edir.





## II fəsil

## AZƏRBAYCANIN MƏRKƏZİ ASİYANIN TÜRK DÖVLƏTLƏRİ İLƏ QARŞILIQLI SİYASİ ƏLAQƏLƏRİ

Azərbaycanın Mərkəzi Asiyanın türk dövlətləri ilə bir-birlərinin müstəqilliklərini 1991-ci ildə tanımalarına, 1992-ci ildən diplomatik münasibətlər yaratmalarına baxmayaraq qarşılıqlı münasibətlərin intensiv inkişafı yalnız 1990-cı illərin ortalarından başlanır. Bu da təsadüfi olmayıb, bir tərəfdən yeni yaranmış dövlətlərin özlərinin xarici siyasət fəaliyyətlərində yol verdikləri subyektiv səhvlərin nəticəsi idisə, digər tərəfdən onlara qarşı olan təzyiqlərin nəticəsi kimi qiymətləndirilə bilər. Belə ki, müstəqilliklərinin ilk illərində türk dövlətləri arasında hər hansı formada yaxınlaşma, yaxud əməkdaşlıq cəhdləri onların xarici siyasətinin dini, etnik təəssübkeşlik prinsipləri əsasında qurulduğu, bu əməkdaşlığın pantürkizm, turançılıq, böyük türk millətçiliyi olduğu haqda ittihamlarla müşayiət olunurdu. Bütün bunlar isə adı çəkilən dövlətlər arasında əlaqələri müəyyən dərəcədə bölgədə marağı olan digər dünya dövlətlərinin, xüsusən də qonşu Rusiya və İranın istək və arzularından asılı edirdi. Lakin bütün bu çətinliklərə, təzyiqlərə baxmayaraq, türk dövlətləri arasında əlaqələrin qurulması və inkişaf etdirilməsi yeni müstəqillik qazanmış dövlətlərin xarici siyasət fəaliyyətinin tərkib hissələrindən biri kimi müəyyənləşdirildi və çox vaxt uğursuzluqla nəticələnməsinə baxmayaraq həyata keçirilməsinə cəhd göstərildi. Türk dövlətləri arasında əlaqələr beynəlxalq hüquq normalarına uyğun, qarşılıqlı faydalı əməkdaşlıq əsasında qurulur. Bu əlaqələr heç bir üçüncü dövlətə qarşı çevrilməyib. Digər dövlətlərlə əməkdaşlığı istisna etmir.

Özünün xarici siyasət fəaliyyətini məhz bu prinsiplər əsasında qurmağa çalışan Azərbaycan Respublikasının Mərkəzi Asiyanın türk dövlətləri ilə siyasi əlaqələri 1991-ci ilin oktyabr ayından 1993-cü ilin iyun ayına qədər, əsasən göstərilən səbəblər üzündən, daha çox beynəlxalq və məhəlli təşkilatlar çərçivəsində – çoxtərəfli əməkdaşlıq formasında həyata keçirilirdisə, 1993-cu ilin iyun ayından sonrakı dövrdə artıq Azərbaycan türk dövlətləri ilə qarşılıqlı əlaqələrinin inkişafına da xüsusi səy göstərməyə başladı və bu səy uğurlu nəticələr verdi. 1995-ci ilin sonlarından Özbəkistanla, 1996-cı ildən Qazaxıstanla, Türkmənistanla, 1997-ci ildən Qırğızıstanla tam həcmdə diplomatik əlaqələr yaradıldı. Sonrakı dövrdə bu əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində müəyyən işlər görüldü.

Ümumiyyətlə, Azərbaycan Mərkəzi Asiyanın türk xalqları ilə tarixən mövcud olmuş əlaqələrlə bağlıdır. Tarixin müəyyən mərhələlərində müxtəlif xarakterli olmuş bu əlaqələr dövrümüzdə beynəlxalq hüquq normalarının yeni prinsiplərinə əsaslanaraq qurulur. Belə ki, Azərbaycan dövləti dünya dövlətləri ilə, o cümlədən Mərkəzi Asiyanın türk xalqları ilə, əlaqələrini beynəlxalq birliyin qəbul etdiyi normalardan irəli gələn və xalqımızın milli mənafelərinə uyğun prinsiplərə əsaslanaraq bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq əsasında inkişaf etdirir.

Bəhs olunan dördə Mərkəzi Asiyanın türk dövlətlərindən yalnız Qazaxıstan Respublikası ilə əlaqələrimiz nisbətən sabit inkişaf yolu keçmişdir. Digər türk dövlətləri olan Qırğızıstan Respublikası, Özbəkistan Respublikası və Türkmənistanla münasibətlərdə Azərbaycan Respublikası vaxtaşırı müəyyən problemlərlə qarşılaşmış, bəzən bu problemlər zaman keçdikdən sonra aradan qaldırılmış (məsələn, Özbəkistanla, Qırğızıstanla olan narazılıqlar), bəzən isə həlli mümkün olmayan problem səviyyəsinə çatmışdır (məsələn, Xəzərin statusu məsələsində Türkmənistanla mövcud olan narazılıq).





Bu fəsildə Azərbaycanın Mərkəzi Asiyanın türk dövlətləri ilə ikitərəfli münasibətləri nəzərdən keçiriləcək.

### 2.1.Qazaxıstan Respublikası ilə qarşılıqlı siyasi əlaqələr

Azərbaycanın Qazaxıstanla birbaşa qarşılıqlı əlaqələrinin qurulması hələ hər iki respublikanın İttifaqın tərkibində olduğu dövrə təsadüf edir. Respublikaların müstəqilliklərinin elan ediləcəyi ərəfədə, 1991-ci il 30 sentyabr – 2 oktyabr tarixdə Azərbaycan Respublikası nümayəndə heyətinin Qazaxıstana rəsmi səfəri olmuşdu. Səfər Azərbaycan Respublikası ilə Qazaxıstan arasında əməkdaşlığın, mehriban qonşuluğun daha da inkişaf etdirilməsi məqsədini daşıyırdı. Səfərin yekunu kimi oktyabr ayının 1-də «Azərbaycan Respublikası ilə Qazaxıstan Sovet Sosialist Respublikası arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında» müqavilə imzalanmışdı.

Müqavilədə Azərbaycan və Qazaxıstanın mövcud sərhədlər daxilində bir-birlərinin suverenliyini, ərazi bütövlüyünü qəbul etdiyi, qarşılıqlı münasibətlərdə bir-birlərinin daxili işlərinə qarışmamaq prinsipini rəhbər tutacaqları bildirilirdi. Həmçinin tərəflər kollektiv təhlükəsizlik sisteminin tələblərini, o cümlədən özlərinin sülhü daha da möhkəmləndirmək səylərini nəzərə almaqla müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıqlarının zəruriliyini etiraf edirdilər. Bundan başqa ikitərəfli əlaqələrin inkişaf etdirilməsi mənafeyini, habelə təşəkkül tapmış beynəlxalq təcrübəni rəhbər tutan tərəflər bir-birlərinə səlahiyyətli nümayəndəliklər göndərəcəklərini, sonralar Bakı və Alma-Ata şəhərlərində müvafiq idarələr açacaqlarını bildirirdilər. Tərəflər eyni zamanda digər sahələrdə

də qarşılıqlı münasibətlərin inkişaf etdirilməsi üçün ən əlverişli rejim yaratmaq niyyətində olduqlarını, bundan başqa, ortaya çıxacaq fikir ayrılıqlarını və mübahisəli məsələləri yalnız siyasi vasitələrlə, məsləhətləşmələr və birbaşa danışıqlar yolu ilə həll edəcəklərini öhdələrinə götürdüklərini bildirirdilər. Müqavilənin üçüncü dövlətlər barəsində tərəflərin öhdəliklərinə və onların üçüncü dövlətlə müqavilə bağlamaq hüququna xələl gətirmədiyi xüsusi qeyd edilirdi. Göstərilirdi ki, müqavilə 10 il müddətinə bağlanır. Və əgər tərəflərdən biri müqavilənin müddətinin başa çatmasına azı 6 ay qalmış yazılı məlumat verib onu ləğv etmək istədiyini bildirməzsə, onun müddəti avtomatik olaraq növbəti 10 illik müddət üçün uzadılacaqdı (119, 8 oktyabr 1991). «Azərbaycan Respublikası ilə Qazaxıstan Sovet Sosialist Respublikası arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında» dövlətlərarası müqavilə Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı ilə 1991-ci il dekabr ayının 16-da təsdiq edildi (119, 21 dekabr 1991). Göstərilən müqavilə 1996-cı ilin sentyabr ayında Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin Azərbaycana rəsmi səfəri zamanı imzalanacaq müqavilələrə qədərki dövrdə Azərbaycan-Qazaxıstan münasibətlərini tənzimləyən sənəd oldu.

Bu boşluq yalnız Azərbaycan tərəfinin, belə demək mümkünsə, Qazaxıstana qarşı diqqətsizliyi üzündən baş verməmişdi. Azərbaycanla eyni vaxtda müstəqilliyini elan etmiş Qazaxıstan dövləti özü də bu dövrdə müstəqil xarici siyasət fəaliyyətini, onun istiqamətlərini formalaşdırırdı, bu fəaliyyətdə isə dünya birliyində artıq özünəməxsus yeri olan dövlətlərlə əlaqələrə daha üstün yer verilirdi. Fikrimizcə, bu dövlətlər sırasında ön yerlərdən birinin Azərbaycana məxsus olmaması təbii qəbul olunmalıdır. Deyilənləri təsdiq etmək üçün bir fakta müraciət edək. 1992-ci il may ayının 15-də Nursultan Nazarbayev parlamentdə çıxışında Qazaxıstan





Respublikasının xarici siyasət fəaliyyətində önəm verdiyi dövlətlərdən bəhs edərkən onların – qonşu dövlətlərdən: Rusiya, MDB, Çin, Monqolustan, Hindistan, Pakistan; Qərb dövlətlərindən: ABŞ, Avropa və Yaponiya; nəhayət Türkiyə və İran olduğunu bildırmışdi (Türkiyənin Almatıdakı səfiri Argun Özpayının 29 noyabr 1993-cü ilə aid məlumatı // 108, s.255). Göründüyü kimi, nə Azərbaycanın, nə də Mərkəzi Asiyanın digər türk dövlətlərinin adı çəkilmir, yaxud müstəqil dövlətlər kimi adları çəkilmir. Onlara yalnız MDB-nin subyektləri kimi münasibət bildirilir. Və təəccüblüdür ki, belə faktlar nədənsə həmin dövrdə «böyük türk təməlçiliyi»ndən, «turançılıq» ideyalarının baş qaldırmasından narahat olan siyasətçilərin nəzərindən yayınırdı.

1991-ci il oktyabr ayının 18-də Azərbaycanın, 25-də isə Qazaxıstanın müstəqilliklərini elan etmələri ilə dövlətlərarası münasibətlərdə keyfiyyət dəyişikliyi baş verdi. 1991-ci il dekabr ayının 21-də Qazaxıstan Azərbaycanın müstəqilliyini tanıdığını bildirdi (119, 21 dekabr 1991). 1992-ci il avqust ayının 27-də dövlətlər arasında diplomatik münasibətlər yaradıldı. 1993-cü ildə Qazaxıstanın Azərbaycanda səfirliyi fəaliyyət göstərməyə başladı (139). Lakin bütün bunlara baxmayaraq, iki ölkə arasında qarşılıqlı əlaqələrin intensiv inkişafı yalnız 1996-cı ildən başlandı. Bu dövrə qədər Azərbaycan-Qazaxıstan əməkdaşlığı, artıq əvvəldə göstərildiyi kimi, ayrı-ayrı beynəlxalq və məhəlli təşkilatlar çərçivəsində həyata keçirilmişdir.

Belə ki, 1991-ci ilin oktyabr ayından 1993-cü ilin iyun ayına qədər olan dövrdə Azərbaycan-Qazaxıstan əməkdaşlığı əsasən türk dövlət başçılarının Zirvə toplantısı, müxtəlif beynəlxalq və məhəlli təşkilatlarda dövlət və hökumət nümayəndə heyətlərinin görüşləri, habelə Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması istiqamətində Rusiya Prezidenti Boris Yeltsin və Qazaxıstan Prezidenti Nursultan Na-

zarbayevin birgə fəaliyyəti formasında həyata keçirilirdi. 1993-1995-ci illərdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev həm müxtəlif beynəlxalq və məhəlli təşkilatlarda iştirak, həm birgə layihələrin işlənib hazırlanması çərçivəsində, həm də TÜRKSOY xətti ilə keçirilən tədbirlərdə Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə dəfələrlə ikitərəfli görüşlər keçirmiş, həmin görüşlərdə dövlətlərimiz arasında ikitərəfli əlaqələrin mövcud imkanlardan istifadə olunmaqla daha da inkişaf etdirilməsinə ciddi ehtiyac olduğunu bildirmiş, N.Nazarbayev öz növbəsində bu əməkdaşlığa tərəfdar olduğunu qeyd etmişdi. Görüşlərdə həmçinin Xəzərin statusuna dair dövlətlərin mövqeləri, Qazaxıstan neftinin xarici ölkələrə ixracında Azərbaycandan çəkiləcək neft kəmərindən istifadə olunması məsələləri də müzakirə obyektinə çevrilirdi. Həmin görüşlərdə belə bir qənaətə gəlinmişdi ki, Qazaxıstanın bu kəmərə qoşulması hər iki ölkənin mənafeyinə tamamilə uyğundur. Görüşlərdə ikitərəfli əlaqələrin perspektivləri, birgə müəssisələr arasında birbaşa əlaqələr qurulması barədə də təkliflər irəli sürülürdü. Və beləliklə, bütün bu görüşlərin, dövlət başçılarının qarşılıqlı səylərinin nəticəsində 1996-cı ildən dövlətlər arasında ikitərəfli əlaqələr quruldu.

Bu istiqamətdə ilk addım Azərbaycan Prezidenti Heydər Əliyevin 1995-ci ildə qazax mütəfəkkiri və filosofu, maarifçisi, yeni qazax yazılı ədəbiyyatının banisi Abay Kunanbayevin anadan olmasının 150 ili münasibətilə YUNESKO proqramı çərçivəsində avqustun 9-10-da Almatıda keçirilən yubiley şənlikləri və bayram tədbirlərinə dəvət edilməsi oldu. Moskvada, Türkiyədə (Ankarada və İstanbulda), Parisdə – YUNESKO-nun iqamətgahında keçirilmiş yubiley tədbirləri bu dəfə ədibin vətənində – Semipalatinsk vilayətində davam edəcəkdi. Və 1995-ci il avqust ayının 1-də Qazaxıstanın ölkəmizdəki səfiri İbrahim Amanqaliyev Azərbaycan Prezidenti





H.Əliyevin yubiley tədbirlərinə dəvət olunması barədə Qazax Prezidenti N.Nazarbayevin şəxsi məktubunu ona təqdim etdi.

Azərbaycan Prezidenti yubileydə iştirak edəcəyini bildirərək qeyd etdi ki, böyük qazax mütəfəkkiri Abay Kunanbayevin yubileyi, şübhəsiz ki, Azərbaycanda da qeyd olunacaqdır. Azərbaycan Prezidenti həmçinin qeyd etdi ki, xalqlarımızın görkəmli nümayəndələrinin yubileylərinin qeyd olunması müsbət hadisədir. Çünki bu, eyni zamanda xalqlarımız, ölkələrimiz arasında dostluq əlaqələrini daha da inkişaf etdirmək üçün bir vasitədir. Azərbaycan ilə Qazaxıstan arasında əlaqələrin tarixi isə böyükdür. Dövlət başçısı bir daha xatırlatdı ki, ümumiyyətlə, MDB çərçivəsində və beynəlxalq səviyyələrdə keçirilən digər tədbirlərdə prezidentlər tez-tez görüşür, söhbət edir, fikir mübadiləsi aparırlar. Bu görüşlər zamanı əlaqələrin daha da genişləndirilməsi və dərinləşdirilməsinin zəruri olduğu dəfələrlə qeyd edilmişdir. 1994-cü ilin mart ayında Çin Xalq Respublikasına səfərdən qayıdarkən yolüstü qısa müddətə Almatıda dayanmış Azərbaycan Prezidenti H.Əliyev Qazax Prezidenti N.Nazarbayevlə görüşmüş və bu barədə onunla bir daha fikir mübadiləsi etmişdi.

1995-ci il avqust ayının 8-də Azərbaycan Prezidenti H.Əliyev başda olmaqla respublikanın nümayəndə heyəti yubiley tədbirlərində iştirak etmək üçün Almatıya yola düşdü. Azərbaycan Prezidenti yola düşməzdən əvvəl bildirmişdi ki, xalqlar arasında əlaqələrin möhkəmləndirilməsində mədəniyyət, ədəbiyyat böyük rol oynayır və həmin imkanlardan istifadə edilməlidir. Belə ki, yubileyə bir çox başqa dövlətlərin də başçıları dəvət ediliblər. Səfər çərçivəsində ikitərəfli görüşlər, Qazaxıstanın rəhbərləri ilə görüşlər keçirilə bilər. Bu, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin inkişafı üçün bir imkandır. Belə görüşlər ayrı-ayrı məsələlər barədə məsləhətləşmək, fikir mübadiləsi aparmaq, bəzi məsələləri aydınlaş-

dırmaq üçün imkan yaradır. Xarici siyasətimizi qurmaq üçün belə imkanlardan istifadə edilməlidir.

Görüş çərçivəsində Azərbaycan və Qazaxıstan Prezidentlərinin görüşü keçirildi. Görüşdə dövlətlərarası münasibətlərin inkişaf etdirilməsi məsələlərinə bir daha toxunuldu. Azərbaycan Prezidenti bildirdi ki, Qazaxıstanı və Azərbaycanı birləşdirən köklər olduqca çoxdur. İndi, müstəqil olduğumuz bir vaxtda münasibətlərimizi əməkdaşlıq və qarşılıqlı anlaşma ruhunda inkişaf etdirmək üçün böyük imkanlar açılır. Ölkələrimiz arasında əlaqələri daha da intensiv inkişaf etdirməyin labüdlüyünü qeyd edən Prezidentlər söhbət zamanı qarşılıqlı maraq doğuran bir çox məsələlərə, o cümlədən Xəzər dənizindən birgə istifadə olunması probleminə də toxundular. Görüşün sonunda Azərbaycanın dövlət başçısı Qazaxıstan Prezidentini Azərbaycana rəsmi səfərə dəvət etdi. Respublikaların baş nazirlərinə tapşırıldı ki, qarşıdakı səfərlə əlaqədar hazırlıq işləri görülsün, xüsusən, imzalanacaq birgə sənədlərin layihələri hazırlansın.

1996-cı il mayın 13-14-də Heydər Əliyev Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) üzvü olan ölkələrin dövlət başçılarının Zirvə toplantısında iştirak edərkən mövcud görüş çərçivəsində bir çox dövlət başçıları ilə, o cümlədən Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevlə də ikitərəfli görüşlər keçirdi. Prezidentlər əlaqələrin daha da möhkəmləndirilməsinin vacib olduğunu növbəti dəfə vurğuladılar. Hər iki dövlət başçısının fikrincə, ölkələrimiz arasında əməkdaşlığın hüquqi cəhətdən tənzimlənməsi üçün bir sıra hüquqi sənədlərin imzalanmasına ehtiyac vardır və buna görə də, tərəflər bir çox məsələlərin müzakirəsini tezliklə başa çatdırmalıdırlar. Bu da əlaqələrin inkişafının daha da sürətləndirilməsinə öz təsirini göstərəcəkdir.





Həqiqətən də dövlət başçılarının bütün bu səyləri nəticəsində, nəhayət, Azərbaycanla Qazaxıstan arasında ikitərəfli əlaqələrin qurulması mümkün oldu.

1996-cı il sentyabr ayının 16-17-də Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Azərbaycanda rəsmi səfərdə oldu (139). Bu, müstəqilliyin elan edilməsindən sonra qazax nümayəndə heyətinin Azərbaycana ilk rəsmi səfəri idi. Görüşlərin yekunu kimi, dövlətlərarası münasibətlərin hüquqi-normativ bazasını təşkil edən 13 sənəd imzalandı. Səfər zamanı bildirildi ki, Azərbaycanla Qazaxıstan arasında əlaqələrin inkişafı üçün geniş imkanlar mövcuddur. Həm bölgədə, həm də beynəlxalq təşkilatlarda bir çox məsələlərdə hər iki dövlətin mövqeyi üst-üstə düşür. Bunlar isə ölkələr arasında əməkdaşlığın daha da inkişaf etdirilməsini zəruri edir (42, s.286-287). Azərbaycan Xəzər vasitəsilə Qazaxıstanla qonşudur. Son illər məhz Azərbaycanın təşəbbüsü ilə Xəzər dənizinin enerji ehtiyatlarından istifadə olunması sahəsində görülən işlər digər Xəzərətrafı dövlətləri, həmçinin də Qazaxıstanı, bu işə cəlb edir. Transqafqaz nəqliyyat dəhlizi haqqında 1996-cı ilin mayında Sərəxsdə imzalanmış sazişə Qazaxıstan da qoşulub. Bunların hamısı əməkdaşlığımızın daha geniş vüsət alması və uğurlu olması üçün əsas verir. Məhz bunlara görə bu dəfə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Azərbaycan Prezidenti Heydər Əliyevi Qazaxıstana rəsmi səfərə dəvət etdi.

Qazaxıstan Prezidentinin dəvətini qəbul edən Azərbaycan Prezidenti 1997-ci il iyun ayının 10-11-də Qazaxıstanda rəsmi səfərdə oldu. Prezidentlərin təkbətək görüşü keçirildi, nümayəndə heyətlərinin iştirakı ilə danışıqlar aparıldı. Danışıqlarda dövlətlər arasında ticarət iqtisadi münasibətlərinin, xüsusən nəqliyyat kommunikasiyaları və neft-qaz sahələrində əlaqələrin inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında bəyannamə, neftin beynəlxalq bazarlara nəqlində əməkdaşlıq

haqqında memorandum və dövlətlərarası münasibətləri yeni inkişaf səviyyəsinə qaldırmaq məqsədilə 17 sənəd imzalandı. Səfər zamanı dövlətlər arasında imzalanmış sənədlər 1997-ci il iyun ayının 27-də Azərbaycan tərəfindən təsdiq edildi (117, 31 iyul 1997).

1998-ci il may ayının 10-da Azərbaycan Prezidenti Heydər Əliyev Qazaxıstanın yeni paytaxtının təqdimatı mərasimində iştirak etdi. Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin təşəbbüsü ilə Qazaxıstanın paytaxtının Almatıdan Akmolaya keçirilməsi müxtəlif nöqteyi-nəzərlərdən şərh edilirdi. Prezident Nursultan Nazarbayevin Rusiyaya münasibəti əsas faktor kimi vurğulanır, buna əyani sübut kimi yeni paytaxt Akmolanın Rusiyaya yaxınlığı göstərilirdi. Digər bir nöqteyi-nəzər ondan ibarət idi ki, Akmola Avropanı Uzaq Şərqlə birləşdirən tarixi İpək Yoluna yaxındır. Paytaxtın 750 mil uzaqlığa dəyişməsi ölkənin inkişaf etmiş sahəsinə investisiya qoyuluşunu artırmalı, paytaxtı təhlükəli seysmik mərkəzdən uzaqlaşdırmalı idi. Burada bir məsələ də qeyd edilirdi. Paytaxtın dəyişməsi üçün 500 mln.dollar vəsaitin lazım olduğunu qeyd edən əksər icmalçılar belə fikirdə idilər ki, paytaxtın dəyişməsində məqsəd Akmolaya investisiya qoyuluşundan daha çox, əhalinin əksəriyyətinin ruslardan ibarət olduğu bu yerə qazaxların axınını təşkil etməkdən ibarət idi (119, 24 yanvar 1998).

2000-ci il aprel ayının 7-də Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Azərbaycanda rəsmi səfərdə oldu. Bu səfər tədqiqatın xronoloji çərçivəsindən kənara çıxdığı üçün haqqında danışılmayacaq. Yalnız qeyd etmək istərdik ki, bu səfər zamanı da dövlətlərarası münasibətlərin daha da inkişaf etdirilməsi, əməkdaşlığın daha da intensivləşdirilməsi məqsədilə bir sıra sənədlər imzalandı. Dövlətlərarası münasibətlərin gələcək perspektivləri müzakirə edilərək ümumi istiqamətlər müəyyənləşdirildi.





Azərbaycanla Qazaxıstan arasında səfirlik və konsulluq səviyyəli əlaqələr 1993-cü il oktyabr ayının 27-də qurulmuşdur. Həmin gün Qazaxıstanın Azərbaycan Respublikasındakı səfiri İbrahim Amanqaliyev öz etimadnaməsini Azərbaycan Prezidenti Heydər Əliyevə təqdim etmişdi (119, 2 noyabr 1993; Azərbaycan Respublikasında səfirlik açılması barədə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev 1993-cü il yanvar ayının 9-da sərəncam imzalamışdı. Bu barədə bax: 139). Öz növbəsində Azərbaycan Respublikasının Milli Məclisi 1997-ci il aprel ayının 11-də Qazaxıstan Respublikasında Azərbaycan Respublikası səfirliyinin təsis edilməsi haqqında qərar qəbul etdi. 1997-ci il aprel ayının 30-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Qazaxıstan Respublikasında Azərbaycan Respublikası səfirliyinin fəaliyyətinin təşkili haqqında sərəncam imzaladı (117, 1 may 1997). Azərbaycanla Qazaxıstan arasında səfirlik və konsulluq səviyyəli əlaqələrin mövcudluğu dövlətlər arasında siyasi əlaqələrin daha da genişləndiyinin, bu əlaqələrin müntəzəm və intensiv olduğunun göstəricisi kimi qəbul edilə bilər.

Ermənistanın Azərbaycana təcavüzünə, Dağlıq Qarabağ probleminə münasibətdə də Qazaxıstanın özünəməxsus mövqeyi olub. Belə ki, münaqişənin ilk günlərindən Qazaxıstan Azərbaycanın ərazi bütövlüyünü və bölünməzliyini dönmədən müdafiə etdiyini bildirib. Bundun başqa, hələ 90-cı illərin əvvəllərində Qazaxıstan dövləti münaqişənin aradan qaldırılması işində Rusiya ilə birlikdə tərəflər arasında vasitəçilik missiyasını yerinə yetirməyə çalışmış, bu istiqamətdə müəyyən işlər də görmüşdü. Bu məqsədlə 1991-ci ilin sonlarında Dağlıq Qarabağ ətrafında münaqişənin aradan qaldırılması üzrə müvəqqəti əməli müşahidəçilər qrupunun Qazaxıstan səlahiyyətli nümayəndələrinin tərkibi müəyyən edilmişdi. Bu qrup Rusiya Prezidenti Boris Yeltsin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin vasitəçilik işinin yekunları

haqqında Jeleznovodskda qəbul olunmuş birgə rəsmi məlumatda qeyd edilmiş razılaşmalara müvafiq surətdə yaradılmışdı. Öz işlərində müşahidəçilər beynəlxalq normalara müvafiq surətdə suveren dövlətlərin daxili işlərinə qarışmamaq, milliyyətindən asılı olmayaraq vətəndaşların hüquqlarına əməl etmək prinsiplərini rəhbər tutacaqlarını öhdələrinə götürmüşdülər (119, 11 oktyabr 1991). Rusiya və Qazaxıstan Prezidentləri Ermənistan və Azərbaycan dövlət başçıları ilə görüşlər keçirmiş, Yerevana və Bakıya səfərlər etmiş, münaqişə tərəfi olan dövlət rəhbərlərinin ikitərəfli görüşlərini təşkil etmişdilər. Belə görüşlərdən biri 1992-ci il avqust ayının 27-də Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin təşəbbüsü ilə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məqsədilə Qazaxıstanın paytaxtı Almatıda Azərbaycan, Ermənistan və Qazaxıstan Xarici İşlər nazirləri arasında keçirildi. Üçtərəfli danışıqlar nəticəsində Memorandum qəbul edildi. Memorandumun şərtlərinə görə Ermənistan və Azərbaycan 1992-ci il sentyabr ayının 1-dən hərbi əməliyyatların dayandırılması haqqında razılığa gəldilər (139). Lakin bu görüşdən də istənilən nəticə əldə olunmadı. Ümumiyyətlə bu məsələ ilə bağlı görülən tədbirlər heç bir nəticə vermədi. Belə olduqda, Qazaxıstan dövləti Qarabağ münaqişəsinin aradan qaldırılması üzrə ATƏM-in Minsk qrupunun işində müşahidəçi kimi iştirak etməyə hazır olduğunu bildirdi.

1992-93-cü illərdə Ermənistanın Azərbaycana təcavüzünün daha da genişləndiyi bir vaxtda Rusiya və Qazaxıstan Prezidentləri Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı səylərini əlaqələndirmək barədə razılığa gəlmişdilər (119, 14 aprel 1993). Lakin Qazaxıstan dövlət başçısının mövcud problemin həllində vasitəçilik missiyası bu dəfə də uğursuzluqla nəticələndi. Ümumiyyətlə, Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması istiqamətində Qazaxıstanın səylərindən istənilən nəticə əldə etmək mümkün olmamışdır. Səbəbi isə, yəqin ki, Azərbaycan Prezidenti H.Əliyevin 1994-cü ilin sentyabrında Türkiyəyə səfəri zamanı dəfələrlə açıqladığı kimi odur ki, bu təcavüz təkcə Ermənistanın təcavüzü deyil. Bu, Azərbaycanı dağıtmaq, parçalamaq, Qafqazda güclü bir dövlət kimi məhv etmək məqsədilə toplaşan qüvvələrin birlikdə təcavüzüdür.





Azərbaycan xarici siyasətinin digər tərkib hissəsi olan Xəzərin statusu məsələsi haqqında. Ümumiyyətlə, Xəzər problemi dövlətlər arasında nüfuz bölgüsü məsələsidir və bu məsələ keçmişdə yalnız Rusiya və İran arasındakı danışıqların obyekti olmuşdur. Hazırda bu məsələ beş Xəzəryanı dövlət arasında müzakirə obyektinə çevrilmişdir. N.Nazarbayev hökumətinin 1993-cü ildə irəli sürdüyü müqavilə layihəsi Xəzərin statusu məsələsində iki dövlətin – Qazaxıstanın və Azərbaycanın maraqlarının xeyli dərəcədə üst-üstə düşdüyündən xəbər verir (19, s.4). Azərbaycan və Qazaxıstanın mövqeyinə qarşı Rusiya, İran və Türkmənistan öz şərtlərini irəli sürürlər (bu məsələ barədə bir qədər sonra danışılacaq – S.R.).

Deyilənləri yekunlaşdıraraq qeyd etmək istərdik ki, müstəqillik illərində Azərbaycanın Mərkəzi Asiyanın türk dövlətləri ilə əlaqələrini nəzərdən keçirərkən belə məlum olur ki, Qazaxıstanla münasibətlər daha sabit olub. Digər dövlətlərlə qarşılıqlı əlaqələrdə mövcud olmuş narazılıqlar Qazaxıstanla münasibətlərdə müşahidə olunmur. Ümumiyyətlə, müstəqillik illərində Azərbaycanla Qazaxıstan arasında 30-dan artıq hökumətlərarası və dövlətlərarası sənəd imzalanmışdır ki, bu sənədlər iki müstəqil dövlətin intensiv əməkdaşlığının bünövrəsini qoymuş və əməkdaşlıq üçün əsaslı hüquqi-normativ baza yaratmışdır.

## 2.2.Qırğızıstan Resublikası ilə qarşılıqlı siyasi əlaqələr

Qırğızıstan Respublikası beynəlxalq müşahidəçilər tərəfindən SSRİ-nin dağılması ilə Mərkəzi Asiyada yeni müstəqillik qazanmış dövlətlər arasında demokratiyanın ən böyük sürətlə inkişaf etdiyi ölkə kimi qiymətləndirilir. Azərbaycan Respublikası da özünün müstəqillik illərində xarici siyasət fəaliyyətində bu dövləti diqqətdən kənarda qoymamış, 1992-ci il oktyabr ayının 9-da Bişkek şəhərində Azərbaycan və Qırğızıstan Respublikaları arasında diplomatik münasibətlərin yaradılması haqqında protokol imzalamışdır (119, 9 oktyabr 1992). Lakin bu əlaqələr ilk vaxtlarda özünün intensivliyi ilə seçilməmişdir. Belə ki, dövlətlər arasında ikitərəfli siyasi əlaqələrin qurulması, tam həcmli diplomatik münasibətlərin yaradılması yalnız 1997-ci ilə təsadüf edir. Müstəqilliyin ilk illərində Azərbaycan-Qırğızıstan əlaqələri, Mərkəzi Asiyanın digər türk dövlətləri ilə olduğu kimi, əsasən çoxtərəfli əməkdaşlıq formasında, beynəlxalq və məhəlli təşkilatların işində əməkdaşlıq çərçivəsində həyata keçirilmişdir.

Qırğızıstan Xarici İşlər naziri Roza Otunbayeva 1994-cü ilin iyun ayında Türkiyənin Mərmərə Universitetində konfrans zamanı Qırğızıstanın xarici siyasət fəaliyyətində daha çox önəm verdiyi istiqamətlərdən danışarkən bildirmişdi ki, bunlar: ABŞ və Avropa ilə əlaqələr; Çin, Qazaxıstan, Özbəkistan və Tacikistan kimi qonşu dövlətlərlə münasibətlər; Türkiyə ilə münasibətlərdir. Bununla yanaşı, yeni müstəqillik qazanmış digər türk dövlətləri kimi özünün xarici siyasət kursunu müəyyənləşdirərkən bir sıra problemlərlə rastlaşan Qırğızıstan Rusiya və digər MDB dövlətləri ilə yanaşı, Pakistandan İrana qədər, hətta SSRİ dövründə əlaqəsi belə olmayan digər bölgə dövlətləri ilə də əlaqələr qurmağa cəhd edir (108, s.263). Və bu baxımdan, «Rusiya və MDB dövlətləri ilə əməkdaşlıq» çərçivəsində, artıq əvvəldə qeyd etdiyimiz





kimi, 1992-ci ilin may ayında Qırğızıstan Müstəqil Dövlətlər Birliyi çərçivəsində Rusiya, Ermənistan, Qazaxıstan, Özbəkistanla birlikdə «Kollektiv təhlükəsizlik haqqında» müqavilə imzalamışdı (108, s.259).

Azərbaycanla Qırğızıstan arasında ikitərəfli əməkdaşlığa gəlincə, 1993-cü il dekabr ayının 23-də Türkmənistanın paytaxtı Aşqabatda Müstəqil Dövlətlər Birliyinin üzvü olan dövlət başçılarının görüşündə Azərbaycan Prezidenti Heydər Əliyevin Qırğızıstan Prezidenti Əskər Akayevlə ikitərəfli görüşü keçirildi. Söhbət zamanı qeyd olundu ki, ikitərəfli münasibətləri möhkəmlətmək üçün ənənələrin, mədəniyyətlərin, dinin ümumiliyi, dil yaxınlığı kimi möhkəm bünövrə vardır və buna əsaslanaraq iki dövlət arasında əlaqələri inkişaf etdirmək, dərinləşdirmək lazımdır. Həmçinin Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması məsələsinə də toxunuldu və bu problemin həlli üçün daha fəal səy göstərməyin mümkünlüyü qeyd edildi. Eyni zamanda qeyd edildi ki, bu məsələdə dövlətlərin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyü prinsipləri rəhbər tutulmalıdır. Bu, ölkələrin MDB çərçivəsində yanaşı yaşamasının labüd şərtidir (!?) və birliyin Nizamnaməsinə uyğundur.

1995-ci ilin avqust ayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Qırğızıstanda rəsmi səfərdə oldu. İkitərəfli görüşlərdə müstəqillik qazanmış Azərbaycan və Qırğızıstan dövlətlərinin əlaqələrinin daha da inkişaf etdirilməsi ilə bağlı məsələlərin müzakirəsinə ciddi ehtiyac olduğunu bildirən prezidentlər xalqlarının çoxəsrlik münasibətlərinin indiki dövrdə daha da canlandırılmasının vacibliyini qeyd etdilər. Tərəflər bölgə dövlətlərinin iqtisadi inteqrasiyasının daha da gücləndirilməsi ilə əlaqədar qarşıda duran vəzifələrdən geniş bəhs etdilər. Görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması ilə əlaqədar aparılan danışıqlardan da geniş bəhs edildi və bildirildi ki,

Qafqaz bölgəsində sülhün və əmin-amanlığın bərpa olunması iqtisadı münasibətlərin daha da möhkəmləndirilməsinə müsbət təsir göstərə bilər. Prezidentlər belə bir yekun rəyə gəldilər ki, Azərbaycanla Qırğızıstan arasında əməkdaşlıq daha da sıxlaşdırılmalı, əlaqələrin inkişafı yeni səviyyəyə qaldırılmalıdır.

1997-ci il mart ayının 3-də Qırğızıstan Xalq Nümayəndələri Məclisinin sədri Almambet Matubraimovun rəhbərlik etdiyi Qırğızıstan parlamentinin rəsmi şəxslərindən ibarət nümayəndə heyəti Azərbaycan tərəfinin dəvəti ilə Bakıya gəldi. Bir sıra aktual məsələlərin müzakirəsi ilə yanaşı, hər iki dövlətin parlamentlərarası əlaqələri haqda rəsmi sənədlər, o cümlədən xüsusi saziş imzalandı. Sazişdə dövlətlərin ərazi bütövlüyü, digər mühüm beynəlxalq prinsiplər, parlamentlər arasında əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi əsas götürülürdü. Qırğızıstan Xalq Nümayəndələri Məclisinin sədri Almambet Matubraimov Azərbaycan Milli Məclisinin spikeri Murtuz Ələsgərovla görüşündə bildirdi ki, Qarabağ münaqişəsi məsələsində Azərbaycanın mövqeyini dəstəkləyən Qırğızıstan sərhədlərin dəyişdirilməsinin, ərazıların işğal edilməsinin əleyhinədir. Qırğızıstan nümayəndə heyətinin başçısı həmçinin ikitərəfli əlaqələrin genişləndirilməsinin məqsədəuyğunluğunu da qeyd etdi. Görüşün sonunda Azərbaycan və Qırğızıstan parlamentləri arasında əlaqələrin inkişaf etdirilməsi ilə bağlı Azərbaycan Milli Məclisinin sədri Murtuz Ələsgərov və Qırğızıstan Xalq Nümayəndələri Məclisinin sədri Almambet Matubraimov tərəfindən saziş imzalandı.

1997-ci il aprel ayının 23-də Qırğızıstan Respublikasının Prezidenti Əskər Akayev Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dəvəti ilə Bakıya rəsmi səfərə gəldi. Qırğızıstan Prezidenti Əskər Akayev bəyan etdi ki, səfərin məqsədi qardaş türk elləri arasında dostluq və əməkdaşlığı





daha da genişləndirmək və dərinləşdirməkdən ibarətdir. Prezidentlərin görüşü zamanı qeyd olundu ki, Azərbaycan və Qırğızıstan müstəqillik əldə etdikdən sonra aralarında artıq çoxdan mövcud olan sıx iqtisadi, elmi, mədəni əlaqələrin möhkəmlənməsi və inkişafı üçün imkanlar xeyli artmışdır. Bu müddətdə az iş görülməmişdir, lakin hələ görülməli işlər də çoxdur. Bunun üçün mövcud imkanlardan fəal istifadə etmək lazımdır.

Qırğızıstan Prezidenti Əskər Akayev təəssüf etdiyini bildirdi ki, çoxəsrlik dostluq tarixinə, eyni köklərə malik olan xalqlarımız arasında son vaxtlar əməkdaşlıq obyektiv və subyektiv səbəblərə görə zəifləmişdir. Lakin bütün bunlara baxmayaraq qırğız xalqı Azərbaycan xalqı ilə həmrəydir.

Azərbaycan Prezidenti Azərbaycanla Qırğızıstanın Müstəqil Dövlətlər Birliyində, bütün beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlığını məmnunluqla qeyd edərək bildirdi ki, indiki görüş ölkələrimiz arasında münasibətlərin səmərəliliyini yüksəltməyə dair bir çox məsələlər barəsində fikir mübadiləsi aparmağa imkan verir. Azərbaycanla Qırğızıstanın baxışları və mövqelərinin üst-üstə düşdüyünü və bunun dövlətlər arasında münasibətlərin gələcək inkişafı üçün yaxşı əsas və etibarlı təminat olduğu qeyd edən Azərbaycan Prezidenti bildirdi ki, Azərbaycan bundan sonra da bütün sahələrdə Qırğızıstan üçün çox etibarlı tərəfdaş olacaq, qarşılıqlı surətdə faydalı əməkdaşlığı inkişaf etdirməkdən ötrü bütün imkanlardan istifadə edəcəkdir. Qeyd olundu ki, dövlətlərimizin xalqlarının başlıca vəzifəsi qazandıqları müstəqilliyi qoruyub saxlamaq və möhkəmləndirmək, ölkələrimizi dünya birliyinin tam hüquqlu üzvlərinə çevirməkdir ki, dövlət müstəqilliyi dövlətlərimiz üçün dönməz hadisəyə çevrilsin.

Qırğızıstan Prezidentinə Ermənistan Respublikasının ölkəmizə təcavüzü haqqında məlumat verildi. Bildirildi ki, münaqişənin aradan qaldırılması sahəsində Azərbaycan

mümkün olan bütün vasitələrdən istifadə edir. Lissabon Zirvə görüşünün yekunlarından və həmin toplantıda münaqişənin aradan qaldırılmasına dair qəbul edilmiş universal prinsiplərdən – gələcəkdə bütün danışıqların əsasını təşkil etməli olan prinsiplərdən söhbət açan Azərbaycan rəhbəri Lissabonda qəbul edilmiş sənədi dəstəklədiyinə, habelə bu prinsiplərin (ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və s.) məsələnin həlli üçün yeganə məqbul prinsiplər olduğunu indi də dəstəklədiyinə görə Prezident Əskər Akayevə təşəkkürünü bildirdi. Prezident Heydər Əliyev bu prinsiplərin həyata keçirilməsində ATƏT, MDB çərçivələrində Azərbaycanın bundan sonra da Qırğızıstan tərəfindən dəstəklənəcəyinə ümid etdiyini vurğuladı.

Daha sonra qeyd edildi ki, biz ölkəmizin ərazi bütövlüyünün təmin olunması, qaçqınların doğma yurdlarına qayıtması şərtilə, Dağlıq Qarabağ üçün nəzərdə tutulanlar da gözlənilməklə Ermənistanla Azərbaycan arasında sülhə tərəfdarıq, dünyanın bir çox ölkələri, o cümlədən Mərkəzi Asiya ölkələri üçün də böyük əhəmiyyəti olan Qafqazda sülh yaranmasına tərəfdarıq. Azərbaycan Qafqazda sülh haqqında Tbilisidə imzalanmış bəyannamənin həyata keçirilməsinə çalışacaqdır, öz qonşuları – Gürcüstan, Rusiya, İran, Türkiyə ilə, habelə tarixən bağlı olduğu Mərkəzi Asiya ölkələri ilə tam dostluq və qarşılıqlı anlaşma şəraitində yaşamaq, əlaqələri inkişaf etdirmək və möhkəmləndirmək niyyətindədir. Bunun üçün ən mühüm vasitə isə sülhdür.

Danışıqların gedişində Transqafqaz magistralı haqqında dördtərəfli saziş imzalanması məsələsinə də toxunuldu. Qırğızıstan Prezidenti Əskər Akayev bildirdi ki, Qırğızıstan da bu nəqliyyat dəhlizinə qoşulmaq fikrindədir. Ümumiyyətlə, bu dəhliz ölkələrimizi daha da yaxınlaşdıracaq, onların bütün sahələrdə əlaqələrini canlandıracaqdır.





Danışıqlardan sonra ikitərəfli sənədlərin imzalanması mərasimi oldu. Azərbaycan Prezidenti Heydər Əliyev və Qırğızıstan Prezidenti Əskər Akayev Azərbaycan Respublikası ilə Qırğızıstan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə imzaladılar. Azərbaycan və Qırğızıstan hökumətləri arasında investisiyaların qarşılıqlı surətdə həvəsləndirilməsi və qorunması haqqında; sənaye mülkiyyətinin qorunması haqqında; istehsal kooperasiyası haqqında; hüquqa dair informasiya mübadiləsi haqqında; elmi-pedaqoji kadrların attestasiyası sahəsində əməkdaşlıq haqqında; pensiya təminatı sahəsində əməkdaşlıq haqqında; zəhmətkeş miqrantların əmək fəaliyyəti və sosial müdafiəsi haqqında; turizm sahəsində əməkdaşlıq haqqında; ticarət-iqtisadi əməkdaşlıq haqqında sazişlər; Azərbaycanın və Qırğızıstanın Ədliyyə Nazirlikləri arasında məhkəmə ekspertizası sahəsində əməkdaşlıq haqqında sazişlər imzalandı. Səfər zamanı dövlətlər arasında imzalanmış sənədlər 1997-ci il iyun ayının 27-də Azərbaycan tərəfindən təsdiq edildi (117, 31 iyul 1997).

İkitərəfli sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra mətbuat konfransı keçirildi. Azərbaycan Prezidenti bildirdi ki, görüşlər, danışıqlar, söhbətlər ölkələrimiz arasında qarşılıqlı münasibətlər üçün xarakterik olan tamamilə dostluq, səmimilik şəraitində keçib. Bu səfər Qırğızıstan Respublikası Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir və bu gün imzalanmış 13 sənəd müstəqil respublikalarımız arasında qarşılıqlı münasibətləri tənzimləmək məqsədilə imzalanmış ilk sənədlərdir. Qırğızıstanla Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında müqavilənin xüsusi əhəmiyyəti vardır. O, bizim dostluğumuzun, əməkdaşlığımızın möhkəm müqaviləli-hüquqi bünövrəsini qoyur. İmzalanmış digər bütün sənədlər də müxtəlif sahələrdə ölkələrimiz arasında əməkdaşlığın təşkili və həyata keçirilməsi üçün müstəsna əhəmiyyətə malikdir, respublikalarımızın qarşılıqlı münasibətlə-

rının müqaviləli, hüquqi əsasını təşkil edir. Şübhəsiz ki, bütün bunlar əməkdaşlığımızı dərinləşdirmək, inkişaf etdirmək üçün zəmindir. Əməkdaşlığın bundan sonra da inkişaf etməsi, şübhəsiz, hökumətlərarası bir çox digər sənədlərin imzalanmasına gətirib çıxaracaqdır. Ancaq görüş çərçivəsində imzalanmış sənədlər bünövrədir, başlanğıcdır və bu zəmində münasibətlərimiz daha da uğurla inkişaf edəcəkdir.

Prezidentlərin təkbətək görüşündə, nümayəndə heyətləri arasında danışıqlar zamanı bir çox məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı. Qarşılıqlı surətdə faydalı əməkdaşlığı, Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in prinsiplərini, qırğız və Azərbaycan xalqlarının dostluq və qardaşlıq ənənələrinə əsaslanan prinsipləri rəhbər tutaraq ilk növbədə dövlətlərarası, hökumətlərarası məsələlər müzakirə edildi. Qafqazda sülhün və sabitliyin təmin edilməsi ilə bağlı məsələlər diqqət mərkəzində oldu. Belə yekdil fikrə gəlindi ki, Qafqazda, Cənubi Qafqazda sülh və əmin-amanlıq yaratmaq üçün əlavə tədbirlər gərəkdir. Ermənistan-Azərbaycan münaqişəsi barədə belə bir fikrə gəlindi ki, bu məsələ sülh danışıqları yolu ilə, ATƏT-in Lissabon Zirvə toplantısının sənədlərində əksini tapmış prinsiplər əsasında həll edilməlidir.

Azərbaycanın Qırğızıstanla siyasi əməkdaşlığının digər forması olan səfirlik və konsulluq səviyyəli əlaqələr 1998-ci ildə qurulub. Həmin ilin yanvarında Qırğızıstanın fövqəladə və səlahiyyətli səfiri Axmetbek Napayev Azərbaycan Respublikasında Qırğızıstan Respublikasının səfiri təyin olunması haqqında etibarnaməsini Azərbaycan Prezidentinə təqdim etdi (119, 28 yanvar 1998).

Azərbaycan xarici siyasətinin Ermənistan-Azərbaycan probleminə münasibətdə Qırğızıstan müəyyən dövrlərdə fəallıq göstərməyə çalışsa da, əsasən bitərəf mövqe tutub. Belə ki, 1994-cü ilin may ayında MDB-nin vasitəçiliyi ilə Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında müqavilə Bişkek şəhərində imzalanmışdır və bu müqavilənin imzalanmasında Qırğızıstan Ali Sovetinin sədri M.Şerimkulov xüsusi fəallıq göstərmişdi. Lakin sonralar Qırğızıstanın probleme münasibətdə fəallığı zəifləyərək, nəticədə heçə enmişdir.





Daha bir təəssüf doğuran məqam ondan ibarətdir ki, Qırğızıstan Prezidenti Ə.Akayev Ermənistana rəsmi səfəri zamanı ermənilərin 1915-ci il «soyqırım» abidəsini ziyarət etmiş, abidənin önünə əklil qoymuşdu. Bu hadisə yalnız Azərbaycanda deyil, həm də Türkiyədə dövlət səviyyəsində bir qədər soyuqqanlılıqla qarşılansa da, ictimaiyyət tərəfindən birmənalı şəkildə mənfi qəbul edildi. Ə.Akayevin bu məsələ ilə bağlı suallara verdiyi cavab da yalnız təəssüf hissi doğura bilər. Belə ki, 1997-ci ilin aprelində Azərbaycanda rəsmi səfərin yekunlarına həsr olunmuş mətbuat konfransında jurnalistlərin «Əklili qoyanda bilirdinizmi ki, ermənilər bu abidəni bütün türk xalqlarına tarixi düşmənçilik kimi səciyyələndirirlər, yoxsa abidəyə Sizin münasibətiniz başqadır?» sualına cavab verərkən Ə.Akayev bildirmişdi ki, «... biz hamımız ümumbəşəri prinsipləri və ümumbəşəri dəyərləri rəhbər tutmalıyıq ... harada, hansı ölkədə baş verməsindən, kim tərəfindən törədilməsindən asılı olmayaraq soyqırımına bəraət qazandırmaq olmaz. Hesab edirəm ki, bütün sivilizasiyalı bəşəriyyət, biz hamımız mümkün olan hər şeyi etməliyik ki, belə hallar heç vaxt baş verməsin. Azərbaycanın azadlığı, müstəqilliyi, bütövlüyü uğrunda həyatlarını qurban vermiş minlərlə azərbaycanlı oğlanın və qızın dəfn olunduğu Şəhidlər xiyabanını ziyarət edəndə də mən xatirə kitabına bu sözləri yazdım. Ona görə də, hesab edirəm ki, biz bu məsələdə Sizin dediyinizi əsas götürməməliyik. Bilirsiniz, mənim qarşımda həmişə Almaniyanın böyük kansleri Villi Brandt nümunə kimi dayanır, neçənci ildə olduğunu yada sala bilmirəm, Varşavada diz üstə çökərək öz xalqının törətdiyi soyqırımı pisləmişdi ...» (117, 24 aprel 1997).

Ermənistana münasibətdə Qırğızıstanda yol verilmiş daha bir insident Azərbaycanda narahatlıqla qarşılandı. Bu dəfə Azərbaycan ərazilərinə hərbi təcavüz etmiş Ermənistana Qırğızıstan tərəfin hərbi sursat satması haqqında məsələ diqqəti cəlb etmişdi. Azərbaycan buna rəsmi etirazını bildirmiş, Qırğızıstan tərəfi isə araşdırmalar aparacağını vəd etmişdi. Aparılan araşdırmalardan sonra Qırğızıstan tərəfi bildirdi ki, belə bir fakt həqiqətən mövcuddur, lakin bu dövlət səviyyəsində baş vermiş bir iş deyil. Hansısa özəl bir şirkətin ticarət fəaliyyətinin nəticəsidir (bu barədə internet saytlarında məlumat verilmişdi – S.R.).

Ümumiyyətlə, müstəqillik illərində Azərbaycanla Qırğızıstan arasında siyasi əlaqələr özünün intensivliyi ilə seçilmir, bu əlaqələrdə istifadə edilməmiş imkanlar hələ çoxdur. Müstəqillik illərində iki dövlət arasında əməkdaşlığı nizamlayan 20-yə yaxın müqavilə, saziş, protokol imzalanıb. Lakin bunlar əməkdaşlığın daha da dərinləşdirilməsi və genişləndirilməsi üçün kifayət etmir. İnanmaq istərdik ki, bir çox regional və beynəlxalq əhəmiyyətli birgə iqtisadi layihələrin hazırlanması və həyata keçirilməsində iştirakları Azərbaycan və Qırğızıstan arasında ikitərəfli münasibətlərin daha intensiv inkişafına kömək edəcək, bundan sonra əlaqələr yeni inkişaf mərhələsinə keçəcək.

### 2.3. Özbəkistan Respublikası ilə qarşılıqlı siyasi əlaqələr

Azərbaycanın Mərkəzi Asiya bölgəsində özünəməxsus çəkisi olan Özbəkistan Respublikası ilə siyasi əlaqələrinin öyrənilməsi xüsusi maraq doğurur. Belə ki, müstəqilliyin ilk illərində Özbəkistanla əlaqələrdə bir sıra hallarda mövcud olmuş narazılıq və qarşılıqlı ittihamlar dövlətlərarası münasibətlərdə gərginlik yaratmış, bu isə öz növbəsində az qala qarşılıqlı münasibətlərin tamamilə pozulmasına gətirib çıxarmışdı. Düzdür, sonrakı mərhələlərdə dövlətlər bu münasibətlərin





normallaşmasına və əvvəlki səviyyədən daha çox inkişafına nail ola bilmişlər. Lakin buna baxmayaraq, indinin özündə də Azərbaycan-Özbəkistan qarşılıqlı münasibətlərinin göstərilən dövrü haqqında ya danışılmır, ya da yalnız Azərbaycan tərəfin günahı, yaxud səriştəsizliyi üzündən münasibətlərdə əsassız gərginlik yaradıldığı qeyd edilir. Bu baxımdan müstəqillik illərində Azərbaycan-Özbəkistan qarşılıqlı əlaqələrinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanla Özbəkistan arasında birbaşa qarşılıqlı əlaqələrin qurulması hər iki respublikanın hələ SSRİ-nin tərkibində olduğu vaxta təsadüf edir. Bu məqsədlə 1990-cı ilin oktyabrında Azərbaycan nümayəndə heyətinin Daşkənd şəhərinə rəsmi səfəri olmuşdu. Səfər zamanı 1991-1995-ci illər və sonrakı perspektiv üçün Azərbaycan SSR ilə Özbəkistan SSR arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında hökumətlərarası saziş imzalanmışdı. Saziş Azərbaycanla Özbəkistan arasında iki müttəfiq respublikanın suverenliyi və qarşılıqlı fayda götürməsi prinsiplərinə əsaslanan ikitərəfli əlaqələrin yeni keyfiyyətə keçdiyindən xəbər verirdi.

Müstəqilliklərini elan etdikləri gündən dövlətlərin hər birinin siyasi əlaqələr tarixində yeni mərhələnin başlandığını, xarici siyasət fəaliyyətinin istiqamətlərinin müəyyənləşdirildiyini qeyd etmişik. Bu baxımdan müstəqil Özbəkistan Respublikasının xarici siyasət fəaliyyətinin istiqamətlərini nəzərdən keçirmək maraqlıdır. Özbəkistan Prezidenti İslam Kərimovun «Özbəkistan: müstəqillik və inkişafın yolu» (Daşkənd, 1992 – ingilis dilində) kitabında müstəqillik illərində Özbəkistanın xarici siyasət fəaliyyətində önəm verdiyi dövlətlər aşağıdakı kimi sıralanır: MDB dövlətləri. Rusiya. «Orta Asiya və Qazaxıstan». «Müsəlman Şərqi». Asiya-Pasifik hövzəsi ölkələri. Türkiyə. Digər müsəlman dövlətləri. Çin və Hindistan kimi «Asiya dövlətləri». Cənub-Şərqi Asiyanın yeni sənayeləşmiş ölkələri və ABŞ, Almaniya, İspaniya,

Fransa, İtaliya (108, s.268; Həqiqətən də, ilk baxışdan çətin anlaşılan bir siyahıdır). Azərbaycanın hansı ölkələr blokuna aid edildiyini müəyyənləşdirmək bir o qədər də asan deyil.

Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətində isə Mərkəzi Asiya dövlətləri sırasında Özbəkistanla əlaqələrin özünəməxsus yeri olmuşdur. 1991-ci il oktyabr ayının 18-də «Müstəqillik haqqında Konstitusiya Aktı»nı qəbul edən Azərbaycan Respublikası nümayəndə heyətinin ilk rəsmi səfəri oktyabr ayının 19-da məhz Daşkənd şəhərinə oldu. Danışıqlar zamanı tərəflər ölkələrin siyasi və iqtisadi həyatının əsas problemləri barədə mövqelərinin bir olduğunu təsdiq etmiş, əmin olduqlarını bildirmişdilər ki, Azərbaycanla Özbəkistan arasında dərin tarixi kökləri olan münasibətlər cəmiyyətin inkişafının son dərəcə mürəkkəb olan indiki mərhələsində daha da möhkəmlənəcək və dərinləşəcəkdir. Səfər zamanı Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında dövlətlərarası münasibətlərin prinsipləri haqqında müqavilələr - «Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında dövlətlərarası münasibətlərin prinsipləri haqqında» müqavilə və «1992-ci ildə ticarət-iqtisadi əməkdaşlığın prinsipləri haqqında» iki sənəd imzalanmışdı (42, s.289). Sənədlərin imzalanmasından sonra keçirilən mətbuat konfransında respublikaların Prezidentləri Ayaz Mütəllibov və İslam Kərimov bildirmişdilər ki, Azərbaycanla Özbəkistan arasında qarşılıqlı surətdə faydalı siyasi və iqtisadi əlaqələri möhkəmlətmək siyasəti yeritmək əzmindədirlər.

Hər iki dövlət öz münasibətlərini bir-birlərinin dövlət müstəqilliyini qarşılıqlı surətdə tanımaq və hörmət etmək əsasında, hüquq bərabərliyi və bir-birlərinin daxili işlərinə qarışmamaq, mübahisəli problemləri barışdırıcılıq vasitələri ilə tənzimləmək prinsipləri əsasında, beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş prinsipləri və normaları əsasında inkişaf etdirmək niyyəti güdərək; tərəflər arasında dostluq





münasibətlərinin və qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsini və möhkəmləndirilməsini hər iki dövlətin xalqlarının ümdə milli mənafelərinə uyğun hesab edərək; suveren dövlətlərin iqtisadi birliyini yaratmaq istəyini rəhbər tutaraq razılığa gəldiklərini bildirdilər.

Tərəflər bir-birlərinin ərazi bütövlüyünü tanıyaraq ona hörmət edir, bir-birlərinin suverenliyinə xələl gətirə biləcək hərəkətlərdən çəkinəcəklərini bildirdilər. Tərəflər aşağıdakı məsələləri hüquq bərabərliyi əsasında həyata keçirilən əməkdaşlığın üstün istiqamətləri hesab edirlər: xarici siyasət və xarici iqtisadi fəaliyyət sahəsində qarşılıqlı əlaqə, hər iki tərəfin sülhü daha da möhkəmləndirmək səyi nəzərə alınmaqla kollektiv təhlükəsizlik sisteminin yaradılması; birgə iqtisadi proqramların həyata keçirilməsi və s.

Tərəflər dövlətlərarası münasibətlərin bütün başqa sahələrində müqavilələr və sazişlər bağlamaq hüququnu özlərində saxladıqlarını, səlahiyyətli nümayəndəliklər mübadiləsini məqsədəuyğun saydıqlarını, nümayəndəliklərin mübadiləsi qaydası və onların statusunun xüsusi sazişlə tənzim ediləcəyini bildirirdilər.

Müqavilənin tərəflərin üçüncü dövlətlər barəsində öhdəliklərinə və onlarla müqavilələr bağlamaq hüquqlarına xələl gətirmədiyi, üçüncü tərəflərə qarşı yönəldilmədiyi xüsusi qeyd olunurdu. Tərəflər müqavilənin icrası məsələləri barəsində müntəzəm ikitərəfli məsləhətləşmələrin və danışıqların keçiriləcəyini nəzərdə tuturdular.

Muqavilənin 5 illik müddətə bağlandığı, təsdiqnamələrin mübadiləsinin Bakı şəhərində olacağı və müqavilənin təsdiqnamələrin mübadiləsi günü qüvvəyə minəcəyi bildirilirdi (maddə 18 // 119, 24 oktyabr 1991). Tərəflərin hər biri məsləhətləşmələr və danışıqlar əsasında bu müqavilənin və ya onun ayrı-ayrı maddələrinin qüvvədə qalması müddətinin uzadılmasının məqsədəuyğunluğu barədə təşəbbüs göstər-

mək hüququnu özündə saxlayırdı. Müqavilənin müddəaları tərəflərin qarşılıqlı razılığı ilə tamamlana və ya dəyişdirilə bilərdi. Əgər tərəflərdən heç biri müqavilənin qüvvədə olması müddətinin başa çatmasına ən azı altı ay qalmış onu ləğv etmək istəyini yazılı şəkildə bildirməzdisə, onun qüvvəsi sonrakı 5 illik müddət üçün uzadılacaqdı.

İqtisadi əməkdaşlıq məsələlərindən danışarkən qeyd edildi ki, tərəflərin böyük xammal və sənaye potensialı vardır. İndi vəzifə həmin potensialı xalqın həyat səviyyəsinin onun rifahının yüksəlməsinə yönəltməkdən ibarətdir. İqtisadiyyatı sürətlə inkişaf etdirmək, bir çox sahələrdə ümumavropa səviyyəsinə çatmaq üçün hər iki respublikanın hər cür imkanı vardır. Bu mənada Azərbaycanın və Özbəkistanın iqtisadi sahədə birgə fəaliyyət imkanlarının çox böyük əhəmiyyəti vardır.

Lakin Azərbaycanla Özbəkistan arasında dövlətlərarası münasibətlərin prinsipləri haqqında imzalanmış bu müqavilələrin taleyi bir qədər müəmmalı oldu. Azərbaycanın rəsmi dövlət mətbuatında Respublika Milli Şurasının 1991-ci il dekabr ayının 16-da müqavilələri təsdiq etdiyi barədə məlumat verilmişdi (119, 21 dekabr 1991). Özbəkistan Prezidenti İslam Kərimovun 1996-cı ilin may ayında Azərbaycana səfəri zamanı isə bu müqavilələrdən birinin («Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında dövlətlərarası münasibətlərin prinsipləri haqqında» müqavilənin) təsdiqlənmədiyi, digərinin («1992-ci ildə ticarət-iqtisadi əməkdaşlığın prinsipləri haqqında») ölkələrimiz arasında münasibətləri müəyyənləşdirən yeganə sənəd olduğu bildirildi (13, s.34). Əgər Azərbaycan mətbuatının rəsmi məlumatına inansaq, belə məlum olur ki, müqavilələr Özbəkistan tərəfdən təsdiq olunmamış qalmışdı. Səbəbi isə, yəqin ki, 1992-ci ildə iki dövlət arasında siyasi əlaqələrdə yaranmış gərginlik olmuşdu.





Belə ki, ümumilikdə Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin ikinci mərhələsi hesab edilən 1992-ci ilin may ayından 1993-cü ilin iyun ayına qədər olan dövrdə yol verilmiş bir sıra obyektiv və subyektiv səhvlər Özbəkistanla münasibətlərdən də yan keçməmiş, nəticədə dövlətlər arasında yaranmış narazılıqlar, irəli sürülən qarşılıqlı ittihamlar münasibətlərdə soyuqluq yaranmasına gətirib çıxarmışdı. Bu dövrdə Özbəkistanın daxili ictimai-siyasi həyatında baş verən hadisələrə münasibət bildirən Azərbaycan dövlətinin mövqeyi Özbəkistan tərəfindən birmənalı qarşılanmadı. Belə narazılıqlar Özbəkistanın Türkiyə ilə münasibətlərində də özünü göstərirdi. Hətta Özbəkistanın Türkiyədəki səfirliyinin bağlanması, Türkiyədə təhsil alan özbək tələbələrin geri çağırılması haqqında xəbərdarlıqla nəticələndi. Münasibətlər yalnız müəyyən müddətdən sonra qaydaya düşdü.

Mövcud tarixi-siyasi ədəbiyyatda bu dövrdə Azərbaycan-Özbəkistan münasibətlərinin kəskinləşməsinə səbəb olmuş hadisələrin üzərindən əsasən sükutla keçilir, bu barədə ya tamamilə danışılmır, yaxud da Özbəkistan Prezidenti İ.Kərimovun iddia etdiyi kimi, münasibətlərin yalnız «Azərbaycan tərəfin günahı üzündən» pozulması göstərilir. Qarşılıqlı münasibətlərimizin bu mübahisəli dövrünə bir qədər aydınlıq gətirmək məqsədilə bu dövrdə baş vermiş hadisələr üzərində bir qədər geniş dayanmağı zəruri hesab edirik.

Artıq qeyd etdiyimiz kimi, bu dövrdə Özbəkistanın daxili siyasi həyatında baş verən hadisələrə münasibət bildirən Azərbaycan dövlətinin mövqeyi Özbəkistan tərəfinin narazılığına səbəb olmuşdu.

Müstəqilliyin ilk aylarında beynəlxalq müşahidəçilər Özbəkistanı avtoritar rejimin hakim olduğu, gerçək bir müxalifət hərəkatına yol verməyən, mətbuatı ciddi nəzarət altında olan bir ölkə kimi xarakterizə edirdilər. Özbəkistanda müxalifət liderlərinə qarşı fiziki güc tətbiq edilməsi, insan

haqqlarının pozulması məsələsinin də dövlətlərarası münasibətlərdə tez-tez gündəmə gətirildiyi göstərilirdi. Ümumiyyətlə Özbəkistan özünün daha çox müsəlman dövləti olmasını ön plana çəkirdi. Bu sadalananların fonunda, müstəqilliyin elan edildiyi 1991-ci ilin sonlarında müxtəlif müxalif partiya və hərəkatların fəaliyyətinə icazə verilməsi Özbəkistan cəmiyyətinin liberallaşma yoluna qədəm qoyması təsəvvürünü yarada bilərdi. Amma qısa bir zaman ərzində bunun ötəri xarakterli olduğu özünü göstərdi. Özbəkistan dövləti müxalifətə təzyiqlər göstərməsinə haqq qazandırmaq üçün Tacikistandakı vəziyyəti əsas gətirir və bu vəziyyəti müxalif qüvvələr arasında razılığın olmaması ilə izah edirdi. İ.Kərimov dövlət quruculuğunda iqtisadiyyata daha üstün yer verir, bazar iqtisadiyyatına addım-addım keçməyi məqsədəuyğun hesab edir, bu məqsədə çatmaq üçün isə ölkədə siyasi birliyin olmasını vacib sayırdı. İ.Kərimov demokratikləşməyə daha çox üstünlük verən ölkələrdə «anarxiyanın» iqtisadi dirçəlişə ciddi maneə olduğunu iddia edirdi.

SSRİ-nin dağıldığı ərəfədə Özbəkistanda ən önəmli müxalifətçi hərəkat «Birlik Hərəkatı» olmuşdur. 1989-cu ilin mayında «xalq cəbhəsi» kimi formalaşan hərəkata ziyalılardan Məhəmməd Saleh, Abdurrahim Pulatov, Erkin Vahidov liderlik etmişlər. 1991-ci ilin noyabrında «sosial hərəkat» kimi qeydiyyatdan keçmiş, mahiyyətcə milli xarakterli olan hərəkatın məqsədi «demokratikləşmə, iqtisadi islahatlar, sosial inkişaf və dünyəvilik» uğrunda mübarizə aparmaq idi. Birlik mövcudluğunun ilk günlərindən Rusiyadan asılılığın azaldılması, özbək dilinin rəsmi dil elan edilməsi və s. bu kimi tələblərlə çıxış etmişdi. 1991-ci ildən bu istiqamətdə bir sıra əməli işlər görmüş İ.Kərimov müxalifətə yönələ biləcək xalq dəstəyini özünə tərəf yönəltməyə nail olmuş, onun bu mövqeyi hətta «Birlik Hərəkatı»nın özündə belə parçalanmaya gətirib çıxartmışdı. 1991-ci il prezident seçkiləri ərəfəsində Birlik Hərəkatının partiya kimi qeydiyyatdan keçirilməsinə icazə verilmədiyindən, Birliyin liderlərindən olan Məhəmməd Saleh «Ərk» partiyasını yaradır və müxalifətə təzyiqlərin güclü olmasına baxmayaraq, 1991-ci ilin dekabr ayında Özbəkistanın müstəqilliyi haqda referendumla eyni zamanda keçirilən prezident seçkilərində iştiraka icazə ala bilir. 1992-ci ilin yazında müxalifətə qarşı təzyiqlərin daha da kəskinləşdiyi bir vaxtda «Birlik Hərəkatı» və «Ərk» partiyası yenidən birləşmək qərarına gəlirlər, bunun ardınca iyul ayında «Ərk» partiyasının fəaliyyəti hökumət tərəfindən qadağan edilir. Bununla da Özbəkistanda müxalifətə sarsıdıcı zərbə vurulur. Müxalifətin liderləri təqiblərdən yaxa qurtarmaq üçün Azərbaycana, oradan isə Türkiyəyə mühacirət edirlər.





Hadisələrin baş verdiyi dövrdə Azərbaycanda hakimiyyətə müxalifətdən gəlmiş Xalq Cəbhəsi üzvləri Özbəkistanda baş verən hadisələrə kəskin münasibət bildirdilər. Özbəkistan müxalifətinin liderlərini Azərbaycanda qəbul etdilər, sonradan onların Türkiyəyə getməsinə yardımçı oldular. Özbəkistan Prezidenti İ.Kərimov ölkədən getmiş müxalifət liderlərinə sığınacaq verdiklərinə görə Azərbaycan və Türkiyə hökumətlərinə etirazını bildirdi və onların geri qaytarılmasını tələb etdi. Hətta 1994-cü ilin iyununda İ.Kərimov Ankarada səfərdə olarkən Özbəkistanda fəaliyyətini qadağan etdiyi bir neçə müxalifət liderinin uzun müddətdir ki, Türkiyədə sığınacaq tapmasından narahat olduğunu bildirdi. Bunun iki ölkə arasında münasibətlərə mənfi təsir göstərdiyini qeyd etdi. Tələbinə müsbət cavab almayan İ.Kərimov Özbəkistanın Ankaradakı səfirini geri çağırdı. Bununla kifayətlənməyərək, Türkiyədə təhsil alan özbək tələbələrini də geri çağıra biləcəyini bildirdi. Özbəkistanın Azərbaycanla və Türkiyə ilə münasibətlərinin kəskinləşməsinin digər səbəblərdən biri Ahıska türkləri məsələsi idi (Digər bir səbəb haqqında isə bir qədər sonra bəhs olunacaq - S.R.). Ümumilikdə bu məsələlər Özbə-

kistanın həm Azərbaycanla, həm də Türkiyə ilə münasibətlərinin pozulması ilə nəticələndi. Dövlətlərarası siyasi münasibətlərdə yaranmış bu gərginlik hətta ölkələrin sıravi vətəndaşlarından da yan keçmədi. Belə ki, göstərilən dövrdə Azərbaycanla Özbəkistan arasında mövcud olan hava yolları da bağlanmışdı. Münasibətlər yalnız bir qədər sonra normallaşmağa başladı (108, s.134-140). Bundan sonra isə münasibətlərin yenidən pozulmaması üçün bu məsələyə bir o qədər də qayıdılmır. Bütün deyilənlərdən belə nəticəyə gəlmək olar ki, münasibətlərin kəskinləşməsinin Azərbaycan tərəfinin günahı üzündən baş verdiyini iddia etmək ən azı ədalətsizlik hesab olunmalıdır. Əgər əksini demək istəmiriksə, onda ən azı tərəflərin müəyyən məqamlarda bərabər günahkar olduğunu qəbul edə bilərik.

Münasibətlərin ikinci mərhələsində - 1992-ci ilin avqust ayında Azərbaycan Baş nazirinin I müavini A.Abbasov Türkiyədən qayıdarkən yolüstü Bakıda dayanmış Özbəkistan Baş nazirinin I müavini A.Mulatovla görüşmüşdü. İqtisadiyyat, elm və texnika, mədəniyyət sahəsində ikitərəfli münasibətlərin perspektivləri, habelə Azərbaycanla Özbəkistan arasında 1993-cü il üçün hökumətlərarası müqavilənin bağlanmasına hazırlığın gedişi müzakirə edilmişdir. Baş nazirlərin müavinləri qarşılıqlı mal göndərilməsini dövlət nəzarəti altına almaq barədə razılığa gəlmişlər (119, 1 avqust 1992).

1993-cü ilin iyun ayından Azərbaycanın xarici siyasət kursunda yeni keyfiyyət dəyişikliyinin baş verdiyini artıq qeyd etmişdik. Və bu dəyişiklik Azərbaycan-Özbəkistan münasibətlərində də özünü göstərdi. 1993-1995-ci illərdə MDB üzvü olan ölkələrin, türk dövlət başçılarının toplantılarında Azərbaycan və Özbəkistan rəhbərlərinin görüşləri keçirilir, münasibətlərin yeni dövrün tələblərinə uyğun səviyyədə qurulmasına cəhd göstərilirdi. Nəticədə, 1995-ci ilin sonlarında





Azərbaycanla Özbəkistan arasında tam həcmdə diplomatik əlaqələr yaradıldı.

1996-cı ilin may ayının 27-28-də Özbəkistan Respublikası Prezidentinin Azərbaycana ilk rəsmi səfəri oldu. Səfər zamanı Azərbaycanla Özbəkistan arasında münasibətlərin gələcək inkişafı ilə bağlı bir çox məsələlər, dünya birliyində hər iki tərəfi maraqlandıran problemlərlə əlaqədar məsələlər müzakirə edildi. Qeyd edildi ki, hazırda yeni perspektivlərimizi xeyli dərəcədə müəyyən edən bir başlıca məsələ var – bu, Mərkəzi Asiyanı Azərbaycanla birləşdirəcək, Gürcüstan vasitəsilə Qara dəniz sahillərinə çıxacaq kommunikasiyanın açılmasıdır. Müasir dövrdə əlaqələrsiz, kommunikasiyalarsız yaşamaq mümkün deyil. Bu baxımdan Türkmənistanda imzalanmış dördtərəfli müqavilə çox mühümdür. Özbəkistan tərəfi bu müqaviləni həm özü üçün, həm Azərbaycan üçün, həm də layihədə iştirak edəcək başqa tərəflər üçün təkcə iqtisadi maraq kimi deyil, həm də siyasi maraq kimi qiymətləndirir (18, c.VI, s.321-351).

Görüşlər zamanı ölkələr arasında yalnız ikitərəfli səciyyə daşıyan məsələlər barəsində deyil, həm də regional sabitliyin qorunması, möhkəmləndirilməsi məsələləri, beynəlxalq xarakterli məsələlər barəsində ən ümdə qarşılıqlı əməkdaşlığın istiqamətləri müəyyən edildi, bu istiqamətlər imzalanmış müqavilə və sazişlərdə əksini tapdı. Ümumilikdə səfər zamanı «Özbəkistan Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında» müqavilə də daxil olmaqla 19 sənəd imzalandı (13). Sənədlərin əhəmiyyətindən danışarkən tərəflər qeyd etdilər ki, onlar mühüm əhəmiyyətə malikdirlər və dövlətlərarası münasibətləri, əməkdaşlığı daha da inkişaf etdirmək, möhkəmlətmək üçün əsaslı hüquqi-normativ baza hesab oluna bilər.

Bundan sonra Azərbaycan Prezidenti 1996-cı ilin oktyabr ayında Əmir Teymurun yubileyi münasibətilə Daşkənddə keçirilən tədbirlərdə iştirak etdi (116; 23 oktyabr 1996, sənəd №437/42).

1997-ci il iyun ayının 18-19-da isə Azərbaycan Prezidenti H.Əliyev Özbəkistan Prezidentinin dəvəti ilə Daşkənddə rəsmi səfərdə oldu. Səfər zamanı hökumətlərarası və dövlətlərarası məsələlər üzrə bir sıra müqavilələr və müvafiq baş idarələrin rəhbərləri səviyyəsində 9 sənəd imzalandı. Bunların içərisində «Özbəkistanla Azərbaycan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi haqqında» sənəd xüsusi əhəmiyyət kəsb edirdi. Azərbaycanla Özbəkistan arasında əməkdaşlıq üzrə hökumətlərarası müştərək komissiyasının yaradılması haqqında razılığa gəlindi. Respublikaların baş nazirlərinin I müavinləri komissiyaya həmsədrlik etməli idilər. Komissiyanın birinci iclası 1998-ci il fevral ayının 26-da Bakıda, II iclası 1998-ci ilin sentyabr ayında Daşkənddə keçirildi. Komissiyanın iclaslarında dövlətlər arasında iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi, bu əməkdaşlığın hüquqi bazasının yaradılması ilə bağlı sənədlərin hazırlanması nəzərdə tutulurdu. Səfər zamanı dövlətlər arasında imzalanmış sənədlər 1997-ci il iyun ayının 27-də Azərbaycan tərəfindən təsdiq edildi (117, 31 iyul 1997).

Ümumiyyətlə, Azərbaycanla Özbəkistanın dövlət başçılarının, dövlət və hökumət nümayəndə heyətlərinin arasında keçirilən görüşlər nəticəsində məlum olmuşdu ki, beynəlxalq həyatın prinsipial məsələləri barədə dövlətlərin mövqeləri əsasən uyğun gəlir. Azərbaycan da, Özbəkistan da bölgədə sülhün və sabitliyin möhkəmlənməsinə, geniş və açıq beynəlxalq əməkdaşlığa, ticarət-iqtisadi, elmi-texniki və mədəni sahələrdə inteqrasiya proseslərinin dərinləşməsinə tərəfdardırlar. Hər iki tərəf bu fikirdədir ki, istər ikitərəfli, istərsə də məhəlli təşkilatlar çərçivəsində beynəlxalq münasibətlər ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət bəsləmək, təhlükəsizliyi təmin etmək və dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanmalıdır.





Özbəkistanla Azərbaycan arasında səfirlik səviyyəili əlaqələr 1996-cı ildə quruldu. 1996-cı il iyun ayının 21-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Özbəkistan Respublikasında (Daşkənd şəhərində) Azərbaycan Respublikasının səfirliyi təsis edildi (117, 22 iyun 1996). Həmin il iyun ayının 20-də Aydın Əzimbəyov Azərbaycan Respublikasının Özbəkistanda fövqəladə və səlahiyyətli səfiri təyin edildi (117, 21 iyun 1996; 119, 24 oktyabr 1996). Həmin il iyun ayının 19-da Daşkənd şəhərində hər iki dövlət başçısının iştirakı ilə müstəqil Azərbaycanın Mərkəzi Asiyada ilk səfirliyinin rəsmi açılış mərasimi keçirildi.

Ermənistan-Azərbaycan münaqişəsinə münasibət məsələsinə gəlincə Özbəkistanın mövqeyi Mərkəzi Asiyanın digər dövlətlərinin mövqeyindən bir o qədər də fərqli olmamışdır. Belə ki, Özbəkistanın mövcud sərhədlərin toxunulmazlığı, ərazi bütövlüyü, münaqişələrin həllində zor işlədilməsinin yolverilməzliyi və s. prinsiplərə tərəfdar olduğu dövlət səviyyəsində dəfələrlə bəyan edilmişdir. Rəsmi dairələrdən fərqli olaraq Özbəkistan ictimaiyyətinin məsələyə münasibəti başqa olmuşdur. Daha dəqiq desək, özbək ictimaiyyəti özünün fəallığı ilə seçilmişdir. Bir qədər əvvəl dövlətlərarası münasibətlərdə narazılıq yaratmış səbəblərdən bəhs edərkən bir səbəb barədə bir qədər sonra danışılacağını qeyd etmişdik. Bu səbəb, 1992-ci ildə Özbəkistan Prezidenti İslam Kərimovun «Qarabağa yardım komitəsi»nin ləğv edilməsi haqqında qərarı olmuşdu. Belə ki, erməni silahlı qüvvələrinin Azərbaycan ərazilərini qanunsuz işğalına və dünya dövlətlərinin bu məsələyə biganə münasibətinə etirazını bildirən özbək müxalifəti

adı çəkilən komitəni təşkil etmiş, azərbaycanlılarla birlikdə Qarabağ uğrunda döyüşlərdə iştirak üçün özbək könüllülərini toplamağa başlamışdı. Həmin vaxtda Qarabağda döyüşlərdə iştirak etmək üçün Özbəkistandan mücahid dəstələrinin Azərbaycana yola düşməsi barədə ermənilər yerli və Rusiya mətbuatında qorxu ilə məlumatlar verirdilər. Öz tərəfimizdən, həmin dəstələrin Azərbaycana gəlib çatması və döyüşlərdə iştirak etməsi barədə rəsmi məlumatlara rast gəlmədiyimizi qeyd etmək istərdik. 1992-ci ilin yazında Özbəkistanın daxili ictimai-siyasi həyatında baş verən hadisələr fonunda müxalifətə qarşı təzyiqlərin daha da kəskinləşdiyi bir vaxtda müxalifət liderlərinin rəhbərlik etdiyi «Qarabağa yardım komitəsi»nin də fəaliyyəti ləğv edildi. Azərbaycanın o vaxtkı Prezidenti Əbülfəz Elçibəy həm bu qərarına, həm də «Birlik» partiyasının fəaliyyətini qadağan etdiyinə görə Özbəkistan Prezidenti İslam Kərimovun ünvanına ittihamlarla çıxış etdi (72). Bu isə, öz növbəsində Özbəkistan Prezidentinin kəskin reaksiyasına və dövlətlərarası münasibətlərdə gərginlik yaranmasına təsir göstərdi.

Sonrakı illərdə Özbəkistan da digər dövlətlər kimi Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, münaqişəni sülh yolu ilə həll etməyin tərəfdarı olduğunu bildirməsinə baxmayaraq Ermənistana münasibətdə ehtiyatlı hərəkət edir, onun təcavüzkar tərəf kimi adını çəkmir. Mövcud münaqişənin həllı məqsədilə beynəlxalq və regional təşkilatlar çərçivəsində hazırlanmış bəyanat və sənədləri imzalamaqla kifayətlənir. 1996-cı ildə Azərbaycana rəsmi səfəri zamanı Prezident I.Kərimov Özbəkistanın Ermənistanla heç bir əlaqəsinin olmadığını, yalnız səfirliklər səviyyəsində rəsmi münasibətlər saxlanıldığını bildirmişdi (18 c.VI, s.337).

Nəzərdən keçirilən faktlar belə qənaətə gəlməyə əsas verir ki, müstəqillik illərində Azərbaycanın Özbəkistanla siyasi əlaqələri özünəməxsusluğu ilə seçilən əlaqələr olmuşdur. Müəyyən vaxt ərzində münasibətlərdə mövcud olmuş narazılıq və qarşılıqlı ittihamlara baxmayaraq, dövlətlər sonrakı mərhələlərdə bu münasibətlərin normallaşmasına, əvvəlki səviyyədən daha çox inkişafına nail olmuşlar. Hazırda əməkdaşlığın hələ də istənilən səviyyədə qurulmadığını qeyd etməklə, bildirmək istərdik ki, Azərbaycanla Özbəkistan arasında əlaqələri nizamlayan, siyasi, iqtisadi və mədəni münasibətlərin hüquqi əsasını təşkil edən 40-dan çox protokol, müqavilə mövcuddur və bunlar gələcəkdə münasibətlərimizin daha da inkişaf etdirilməsinə əlverişli zəmin yarada bilər.





## 2.4.Türkmənistan Respublikası ilə qarşılıqlı siyasi əlaqələr

Azərbaycan Respublikasının Mərkəzi Asiyanın türk dövlətlərindən Türkmənistanla qarşılıqlı münasibətləri özünün mürəkkəbliyi ilə diqqəti cəlb edir. Bu mürəkkəblik isə, öz növbəsində, mövcud əlaqələri daha dərindən nəzərdən keçirməyi və araşdırmağı zəruri edir. Qeyd edilməlidir ki, hər iki dövlətin keçdiyi ümumi tarixi inkişaf yolu, vaxtilə mövcud olmuş qarşılıqlı əlaqələri, əlverişli geosiyasi mövqeləri, müasir dövrdə yürütdükləri daxili və xarici siyasətin qarşısında duran vəzifələr və bu sahədə meydana çıxan müəyyən problemlərin mahiyyətcə bənzərliyi və s. amillər adı çəkilən dövlətlər arasında qarşılıqlı əlaqələri şərtləndirməklə yanaşı onların xarakterinə və prinsiplərinə də bilavasitə təsir göstərir. Belə ki, Azərbaycanın Türkmənistanla münasibətlərinin araşdırılması iki ölkə arasındakı əlaqələrin əsasən iqtisadi zəmində, xüsusən də neft sənayesində əməkdaşlıq üzərində qurulmasına cəhd edildiyini göstərir. Lakın əlaqələrin xarakterindən asılı olmayaraq, bu əlaqələr ölkələrimizin dünya birliyinə siyasi və iqtisadi inteqrasiyasını sürətləndirən amil kimi qiymətləndirilməlidir. Neft sahəsi və fövqəlmilli xarakterli

kommunikasiyalar məsələlərində əməkdaşlıq (yollar, limanlar, nəqliyyat, neft və qaz boru kəmərləri, telekommunikasiya və s.), iqtisadi infrastrukturun möhkəmləndirilməsi Azərbaycanla Türkmənistan arasında əməkdaşlığın strateji əhəmiyyət daşıdığını göstərməklə yanaşı bu əməkdaşlığın yalnız dövlətlərarası deyil, həm də regional və beynəlxalq mahiyyət daşıdığından xəbər verir.

Və fikrimizcə, bir çox hallarda elə əməkdaşlığımızın belə mühüm mahiyyəti dövlətlərimiz arasında münasibətlərdə bəzən təbii, bəzən isə süni yaradılmış problemlərin meydana çıxmasına səbəb olur. Belə ki, artıq əvvəldə qeyd edildiyi kimi, Azərbaycanın digər türk dövlətləri ilə münasibətlərində də müəyyən dövrlərdə narazılıqların yaranmasına baxmayaraq bunlar hamısı ötəri xarakterli olmuş, müəyyən vaxt keçdikdən sonra münasibətlər öz təbii axarına düşmüşdür. Lakin Türkmənistanla Xəzərin statusu məsələsində mövcud narazılıq hələ də həll olunmayıb və bu, bir çox hallarda dövlətlərarası münasibətlərin digər sahələrinə, o cümlədən siyasi əməkdaşlığa da mənfi təsir göstərir.

Müstəqilliklərini 1991-ci ildə elan etmələrinə baxmayaraq Azərbaycanla Türkmənistan arasında ikitərəfli əməkdaşlığın hüquqi əsaslarını müəyyənləşdirən müvafiq sənədlərin 1996-cı ilə qədər imzalanmamasını da yəqin ki, bununla izah etmək olar.

Məlum olduğu kimi, Azərbaycanın xarici siyasətinin mühüm tərkib hissəsini «neft strategiyası» təşkil edir. 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalandığı gündən hazırkı günə qədər Azərbaycan xarici neft şirkətləri ilə 20 beynəlxalq neft müqaviləsi imzalamışdır. Region üçün olduqca əhəmiyyətli olan bu hadisə eyni zamanda növbəti olaraq ortalığa atılmış daha bir süni problemin yaranmasını istisna etməmişdir. Bu problem regionun 5 dövləti arasında (Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İran) Xəzərin statusu





və ona mənsub təbii ehtiyatların istismar olunması ilə bağlıdır. Mübahisə obyektinə münasibətin belə kəskin şəkildə qabardılması Rusiya, İran və əksər hallarda onları müdafiə edən Türkmənistanın qeyri-konstruktiv mövqeyinin nəticəsidir. Rusiya əslində Xəzərə tam nəzarəti bərpa etməyə çalışır və bununla da Qərbin regiona təsirinin qarşısını almağa ümid edir. İran isə münaqişə edən əsas iki tərəf arasında manevr etməklə Xəzərə aid müstəsna hüquqlar əldə etməyə çalışır. Ümumiyyətlə, Xəzər problemi dövlətlər arasında nüfuz bölgüsü məsələsidir və bu məsələ keçmişdə yalnız Rusiya və İran arasındakı danışıqların obyekti olmuşdur.

Xəzərin statusunun müəyyənləşdirilməsi məsələsində süni şəkildə yaradılmış mövcud narazılıqlar Azərbaycanın Türkmənistanla qarşılıqlı əlaqələrində gərginlik yaranmasına səbəb olmuşdur. Bu səbəbdən mövcud problemin mahiyyətini qısa şəkildə nəzərdən keçirməyi lazımlı hesab edirik.

Beynəlxalq hüquqa görə Xəzər üçün iki status mövcud ola bilər: göl, yaxud dəniz. Coğrafi baxımdan Xəzər daha çox gölə bənzəyir, çünki okeana heç bir çıxışı yoxdur. Göl öz hüquqi rejiminə görə orta xətt üzrə onu əhatə edən dövlətlər arasında bölünür və bu ölkələrin hər biri öz milli sektoruna aid olan hissədə tam suveren hüquqlara malikdir. Rusiya Xəzərin göl şəklində təyinatını mənafelərinə zidd olduğu üçün inkar edir. Əgər Xəzəri dəniz statusunda qəbul etsək, onda onun hüquqi rejimi «Ərazi suları və ona yaxın zona haqqındakı» 1958-ci il Cenevrə konvensiyası və 1982-ci ildə qəbul edilmiş «Dəniz hüququ haqqında» BMT konvensiyası ilə müəyyənləşdirilməlidir. Dənizin sözügedən hüquqi rejimində isə sərhəd orta xətt prinsipi ilə bölünmür və problemə belə yanaşma üsulu zahirən Rusiya üçün sərfəlidir. Lakin söhbət konkret olaraq Xəzər dənizindən getdiyindən bu «zahirən sərfəlilik» olduqca nisbidir və dəniz statusu ilə bağlı bütün

hüquqi arqumentləri Xəzərə tətbiq etdikdə «dəniz» statusunun Xəzərə münasibətdə uyarsızlığı meydana çıxır.

Sadaladığımız bütün nəzarət zonalarını toplasaq: (daxili sular + ərazi suları + ərazi sularına yaxın zona + kontinental şelf + xüsusi iqtisadi zona) görərik ki, okean dənizlərinə nisbətən xeyli kiçik olan Xəzər belə bölgü üçün çox kiçikdir və milli sektorlar bir-birinin içinə girir. Belə konflikt halını nəzərdə tutan «Dənizin statusu, ərazi suları və ona yaxın zona haqqında»kı 1958-ci il Cenevrə konvensiyasının (Rusiya da bu konvensiyaya qoşulub) 12-ci maddəsində deyilir: «Bir neçə dövlətin zonaları toqquşduqda heç bir dövlət öz ərazilərini orta xəttdən o tərəfə keçirə bılməz» (61, s.60).

Deməli, dəniz olduqda belə Xəzər göl kimi orta xətt prinsipi üzrə bölünməyə məhkumdur və istər Azərbaycan, istər Qazaxıstan, istərsə də Türkmənistan öz sektorlarının enerji ehtiyatlarından istifadədə azaddırlar.

Bir sözlə, sözügedən məsələdə, Azərbaycanın mövqeyi beynəlxalq hüquq normalarına uyğundur, tutarlı hüquqi arqumentlərə əsaslanır və konkret olaraq belə təqdim olunur.

1.Xəzər göldür.

2.Xəzər orta xətt prinsipi ilə milli sektorlara bölünməlidir.

3.Xəzərin milli sektorlara bölünməsi keçmiş SSRİ-nin iş praktikasına və o zamankı bölgüyə əsaslanmalıdır (Azərbaycan 80.000 kv.km, Türkmənistan təqribən o qədər, Qazaxıstan 113.000 kv.km, Rusiya 64.000 kv.km.). Belə bölgü artıq mövcud olduğundan Xəzəryanı dövlətlər status müəyyənləşməzdən əvvəl öz milli sektorlarında işə başlaya bilərlər (61, s.60).

Azərbaycanın mövqeyini bu məsələdə müdafiə edən dövlət Qazaxıstandır. N.Nazarbayev hökumətinin 1993-cü ildə irəli sürdüyü müqavilə layihəsi Xəzərin statusu məsələsində iki dövlətin maraqlarının xeyli dərəcədə üst-üstə düşdüyündən xəbər verirdi. Azərbaycan və Qazaxıstanın mövqeyinə qarşı Rusiya, İran və Türkmənistan aşağıdakı şərtləri irəli sürürlər: 1.Xəzər unikal qapalı su hövzəsidir və Xəzəryanı dövlətlərin ümumi sərvətidir; 2.Milli sektorlar 45 mildən çox olmamalıdır, yəni 45 millik zonadan kənarda orta sahə ümumi sahə hesab edilməlidir. Buna «qoğal prinsipi» də deyirlər, yəni 45 mildən artıq olub qoğalın ortasına düşən hissələr ümumi istifadədə olmalıdır; 3.Xəzərin milli sektorlara düşməyən orta hissəsində geoloji kəşfiyyat və neft-qaz hasilatı beş Xəzəryanı dövlətin ümumi iştirakı ilə həyata keçirilməlidir; 4.Xəzərin statusu müəyyənləşməmiş dövlətlərin milli sektorlarında qazma işləri aparması səhv addımdır və yolverilməzdir.

Xəzər SSRİ-nin mirası kimi respublikalar arasında keçmiş bölgüyə əsasən milli sektorlara ayrılıb. Belə bölgü 1970-ci ildə baş verib və bir halda ki, keçmiş SSRİ respublikaları quru sərhədlərini olduğu kimi qəbul ediblər, onda məntiqi olaraq dəniz sərhədlərini də qəbul etməlidirlər. 1978-ci ildə yaradılmış «hüquq varisliyi haqqında»kı konvensiya bu sahədə ən tutarlı arqumentdir. 1997-ci il fevralın əvvəllərində Türkmənistan Prezidenti Xəzərin statusu ilə bağlı hətta bir qədər də irəli gedib «Əsrin müqaviləsi»nə daxil olan «Azəri» və «Çıraq» neft yataqlarına iddia qaldırmışdı. Türkmənistan prezidentinin «Azəri» neft yatağına iddiaları ilə Rusiya daha bir siyasi arqumenti ortaya atdı: Xəzərin statusu müəyyənləşməmiş Azərbaycanın neft hasilatı işlərinə başlaması milli sektorların sərhədləri üstündə yeni mübahisələrə gətirib çıxarar və s. Lakin Azərbaycan Prezidentinin, respublika Xarici siyasət idarəsinin vaxtında gördüyü tədbirlər nəticəsində S.Niyazov hökuməti öz iddialarını geri götürməli oldu. Ədalət naminə qeyd etmək lazımdır ki, bəzi məsələlərdə vaxtaşırı Türkmənistanın mövqeyində bir qədər yumşalma hiss olu-

nurdu. Məsələn, 1997-ci il fevralın 25-26-da Türkmənistan Prezidenti S.Niyazov Qazaxıstan Prezidenti N.Nazarbayevlə status məsələsinə dair danışıqlar aparmışdı. Türkmənistanın təşəbbüskarı olduğu danışıqların nəticəsində Prezidentlər bəyan etmişdilər ki, Xəzərin statusunu müəyyənləşdirən konvensiya qəbul olunanadək tərəflər keçmiş SSRİ vaxtında təyin olunmuş Xəzərin milli sektorlara bölünmə prinsipini əldə rəhbər tutaraq və bundan irəli gələrək hər tərəf öz sektoru çərçivəsində neft hasilatı ilə məşğul ola bilər. Prezidentlərin sözləri həmçinin imzalanmış ikitərəfli sənəddə də öz əksini tapmışdı. Həmin sənədin 1-ci bəndində deyilirdi ki, «tərəflər Xəzər dənizinin statusunu tənzimləyən ümumi konvensiya qəbul olunanadək Xəzərin orta xəttdən delimitasiyasını qəbul edirlər» (119, 7 noyabr 1997).

Həmin ilin yanvar ayında Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin Fransaya rəsmi səfəri zamanı «Yevrconyus» beynəlxalq telekanalına verdiyi müsahibəsində də Xəzər probleminə toxunulmuş və Azərbaycanın bu məsələdə mövqeyinin düzgünlüyü bir daha bəyan edilmişdi: «İndiki halda Qazaxıstanla Azərbaycan bir mövqe tutur, Rusiya ilə İran isə başqa mövqe. Türkmənistan Rusiya ilə İranın mövqeyinə qoşulur. Tamamilə qanunauyğun haldır ki, hər ölkənin öz mövqeyi vardır. Biz hesab edirik ki, bizim mövqe daha düzgündür: çünki Xəzər dənizinin mineral ehtiyatlarından istifadə üçün onun sektorlara bölünməsi artıq çoxdan yaranmış praktikadır» (120, 1 yanvar 1997).

Lakin Xəzərin statusu məsələsində aralarında olan narazılıqlara baxmayaraq, həm Azərbaycan, həm də Türkmənistan dövlət başçıları çoxtərəfli görüşlərdə, müxtəlif regional və beynəlxalq təşkilatlar çərçivəsində keçirdikləri ikitərəfli görüşlərdə dəfələrlə bildirirdilər ki, öz həyatlarının müstəqillik dövrünü yaşayan Azərbaycan və türkmən xalqlarının tarixin sınaqlarından uğurla çıxmış çoxəsrlik dostluq və qardaşlıq əlaqələri vardır, bu mərhələdə Azərbaycanla Türkmənistan arasında əlaqələri daha da inkişaf etdirmək üçün geniş imkanlar mövcuddur və bu imkanlardan istifadə edilməlidir.

Bu istiqamətdə 1994-cü ilin oktyabrında Türkmənistanın Prezidenti Saparmurad Niyazovun dəvəti ilə Türkmənistanın müstəqilliyinin üçüncü ildönümü münasibətilə Aşqabatda keçirilən şənliklərdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev daha bir cəhd göstərmişdi. Keçirilən görüşlərdə Azərbaycan Prezidenti bildirmişdi ki, tarixən Azərbaycanla Türkmənistan arasında çox sıx əlaqələr olmuşdur. İndi müstəqil dövlətlər kimi bu əlaqələri daha da möhkəmləndirməyə ehtiyac var. Coğrafi baxımından yaxınlığımız, milli keçmişimiz və s. bunu tələb edir.

1995-ci il may ayının 7-də faşizm üzərində qələbənin 50 illik yubileyinə həsr olunmuş şənliklərdə iştirak çərçivəsində Londonda Azərbaycan Prezidenti H.Əliyevin Türkmənistan Prezidenti S.Niyazovla görüşü dövlətlər arasında qarşılıqlı əlaqələrin qurulması istiqamətində növbəti addım kimi qiymətləndirilə bilər. Görüşdə qeyd olundu ki, dost ölkələrimizin qədim tarixi ənənələri olan əlaqələrini daha da sıxlaşdırmaq, əməkdaşlığı yeni səviyyəyə qaldırmaq üçün bütün imkanlar səfərbərliyə alınmalıdır. Tərəflərin fikrincə, ayrı-ayrı şirkətlərin, konkret sahələrin bir-biri ilə bilavasitə əlaqələr qurması ölkələrimiz arasında əməkdaşlığın möhkəmləndirilməsinə güclü təkan verə bilər. Bazar iqtisadiyyatı yolunu seçmiş hər iki müstəqil dövlətdə islahatların daha dərindən öyrənilməsi və qarşılıqlı tətbiqi də diqqətdən yayınmamalıdır. Prezidentlər Xəzərin statusuna dair məsələ barədə də fikir mübadiləsi etmişlər. Hər iki tərəfin fikrincə, bu məsələlərin dərindən öyrənilməsi üçün işçi qrupları yaradılmasına, həmin qrupların vaxtaşırı görüşlərinin təşkil edilməsinə ciddi ehtiyac vardır. Söhbət zamanı işçi qrupların qarşılıqlı olaraq

həm Türkmənistana, həm də Azərbaycana gəlmələrinin vacibliyi də qeyd edildi. Görüşdə hər iki dövləti maraqlandıran digər məsələlər də müzakirə edildi.

Həmin görüşün nəticəsi olaraq 1995-ci il iyun ayının 14-də Azərbaycan Respublikasının Xarici İşlər naziri H.Həsənov Türkmənistana səfər etdi. H.Həsənov qonşu ölkənin Prezidenti Saparmurad Niyazov, baş nazirin müavini, Xarici İşlər naziri B.Şıxmuradov ilə görüşdü. Bu görüşlər zamanı ikitərəfli münasibətlərin genişləndirilməsi, qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər barədə müzakirələr oldu. Səfər zamanı iki ölkənin Xarici İşlər nazirlikləri arasında əməkdaşlıq haqqında protokol imzalandı (117, 16 iyun 1995). Xəzər dənizi ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı. Belə bir fikir ifadə olundu ki, bu görüşlər və söhbətlər iki dost ölkə arasında əlaqələrin və əməkdaşlığın genişləndirilməsi, tərəflərin maraqlarını əks etdirən sahələrdə qarşılıqlı anlaşmaya nail olunması baxımından əhəmiyyətlidir.

Nəhayət, 1996-cı ildə hər iki dövlətin uzun müddətli səylərinin nəticəsində dövlətlərarası ikitərəfli əlaqələrin qurulması mümkün oldu. 1996-cı il mart ayının 18-19-da Türkmənistan Respublikasının Prezidenti Saparmurad Niyazov Azərbaycan Prezidentinin dəvəti ilə Azərbaycana rəsmi səfər etdi. Səfər zamanı imzalanacaq sənədlərin ölkələr arasında əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsində mühüm rol oynayacağı, iki ölkə arasında mövcud dostluğun daha da sıxlaşacağına təkan verəcəyi gözlənilirdi.

Görüşlər zamanı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkmənistan Respublikasının Prezidenti Saparmurad Niyazov ikitərəfli və çoxtərəfli dövlətlərarası münasibətlərə dair məsələləri və aktual beynəlxalq məsələləri müzakirə edərək milli dövlətçiliyi möhkəmləndirmək siyasətini davam etdirmək, öz ölkələrinin siyasi və iqtisadi suverenliyinin təmin edilməsi üçün lazımi şərait yaratmaq əzmində olduqlarını öz dövlətləri və xalqları adından bir daha təsdiq etmişdilər. Bu baxımdan Azərbaycan və Türkmənistan Respublikalarının Prezidentləri 1991-ci il Belovejsk sazişinin ləğv edilməsi haqqında Rusiya Federasiyası Dövlət Dumasının 1996-cı il 15 mart tarixli qərarını da nəzərdən keçirərək bildirmişdilər ki, Azərbaycan Respublikası və Türkmənistan xalqlarının iradəsi ümummilli referendumlarla təsdiq olunmuşdur və onların öz seçdikləri yolla – müstəqil və suveren inkişaf yolu ilə irəliləmək qətiyyətini əks etdirir (18, c.VI, s.456-459, 481-482). Xalqların inkişaf yolunun öz iradəsinə əsasən azad surətdə təyin edilməsi BMT Nizamnaməsinə və hamı tərəfindən qəbul edilmiş beynəlxalq normalara uyğun şəkildə onların ayrılmaz hüququdur. Azərbaycan Respublikasının və Türkmənistanın müstəqillik statusu beynəlxalq birlik tərəfindən tanınmışdır və heç bir digər dövlət, yaxud onun orqanı tərəfindən müzakirə mövzusu ola bilməz. Azərbaycan və Türkmənistan xalqlarının seçdikləri yol iki ölkənin dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində ən ali meyar və müəyyənedici amildir və onların milli mənafelərini əks etdirir. Azərbaycan Respublikasının və Türkmənistanın Prezidentləri MDB çərçivəsində birlik ölkələrinin xalqları arasında hüquq bərabərliyi, qarşılıqlı hörmət və əməkdaşlıq əsasında əlaqələrin inkişafını bundan sonra da davam etdirməyə hazır olduqlarını təsdiq etmiş və bildirmişdilər ki, Rusiya Federasiyasının Dövlət Dumasının adı çəkilən qərarının hər hansı hüquqi əsası yoxdur və o, həyata keçirilə bilməz. Danışıqlarda həmçinin bir çox ikitərəfli, məhəlli və beynəlxalq problemlərə də toxunulmuş, sonda bütün məsələlərdə mövqelərin əsasən uyğun gəldiyi bildirilmişdi (18, c.VI, s.460-482).

Səfərin yekunu olaraq 1996-cı il martın 18-də Azərbaycanla Türkmənistan arasında 10-dan çox sənəd imzalandı. Prezidentlər Azərbaycan Respublikası ilə Türkmənistan arasında dostluq və əməkdaşlıq haqqında müqaviləni imzaladılar (müqavilə 1996-cı il may ayının 21-də Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edildi // 117, 1 iyun 1996). Həmçinin azad ticarət haqqında; istehsal kooperasiyası haqqında; pensiya təminatı haqqında; hüquqi informasiya mübadiləsi haqqında; beynəlxalq hava yolları haqqında; dəniz ticarət gəmiçiliyi sahəsində; təhsil, səhiyyə sahəsində; elm, texnika və informasiya sahəsində, mədəniyyət və idman sahəsində əməkdaşlıq haqqında Azərbaycan və Türkmənistan hökumətləri arasında sazişlər imzalandı. Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi ilə Türkmənistanın Milli Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında saziş, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dəvəti ilə Türkmənistan Respublikasının Prezidenti Saparmurad Niyazovun Azərbaycana rəsmi səfəri zamanı Azərbaycan Respublikası ilə Türkmənistanın dövlət nümayəndə heyəti arasında danışıqların nəticələri haqqında yekun protokolu (Bakı bəyannaməsi), Azərbaycan Respublikası ilə Türkmənistan arasında konsul konvensiyası (müqavilə 1996-cı il may ayının 21-də Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edildi // 117, 1 iyun 1996), Azərbaycanın və Türkmənistanın Xarici İşlər Nazirlikləri arasında məsləhətləşmələr haqqında protokol da imzalandı. İkitərəfli sənədlərin imzalanması mərasimindən sonra mətbuat konfransı keçirildi. Mətbuat konfransında Türkmənistan Respublikasının Prezidenti Saparmurad Niyazova Türkmənistanın Ermənistanla qarşılıqlı münasibətləri haqqında sual verildi. Saparmurad Niyazov bildirdi ki, bitərəf ölkə olan Türkmənistan Azərbaycan Prezidenti Heydər Əliyev və Gürcüstan Prezidenti Eduard Şevardnadzenin Qafqaz bölgəsini sülh və əməkdaşlıq bölgəsinə çevirməyə yönəldilmiş addımlarını alqışlayır. Türkmənistan Dağlıq Qarabağ məsələsinin dinc yolla aradan qaldırılması və işğal olunmuş Azərbaycan torpaqlarının tezliklə azad edilməsi üçün göstərilən səyləri alqışlayır. Bu məsələni beynəlxalq birliyin köməyi ilə həll etmək olar. Bu, ən yaxşı yoldur. Türkmənistan bu məsələnin ATƏT, onun Minsk qrupu, BMT vasitəsilə və ABŞ, Rusiya kimi böyük dövlətlərlə intensiv danışıqlar vasitəsilə həll olunmasına həmişə kömək göstərəcəkdir. Türkmənistanın Ermənistanla əlaqələri isə hələ sovet hakimiyyəti dövründə yaranmışdır. Hal-hazırda Türkmənistandan çəkilən qaz kəməri Gürcüstana da, Ermənistana da gedir. İndiki halda Türkmənistanla Ermənistan arasında həll edilməli çox məsələlər mövcuddur. Və buna görə də Azərbaycana səfərdən sonra Saparmurad Niyazovun Ermənistana səfəri nəzərdə tutulub.

Görüşdən sonra Gülüstan sarayında çıxışı zamanı S.Niyazov bildirmişdi ki, Türkmənistan və Azərbaycan xalqları arasında zamanın sınağından çıxan dostluq müstəqillik əldə edildikdən sonra heç də zəifləməmiş, əksinə, beynəlxlaq siyasi və iqtisadi əlaqələr sistemində öz yerini axtaran dövlətlərimizin xarici siyasətində mühüm amilə çevrılmişdir. Biz Azərbaycanla münasibətlərimizi mehriban qonşuluq və hüquq bərabərliyi, qarşılıqlı hörmət və qarşılıqlı fayda əsasında siyasət, iqtisadiyyat və mədəniyyətin bütün sahələrində geniş əməkdaşlıqda görürük.

1996-cı il mayın 13-14-də Heydər Əliyev Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) üzvü olan ölkələrin dövlət başçılarının Zirvə toplantısında iştirak edərkən Aşqabatda görüş çərçivəsində bir çox dövlət başçıları ilə, o cümlədən, Türkmənistan Respublıkasının Prezidenti Saparmurad Niyazovla və Türkmənistan parlamentinin sədri Səhhət Muradovla ikitərəfli görüşlər də keçirdi. Türkmənistan Prezidenti S.Niyazovla görüşdə Azərbaycan Prezidenti H.Əliyev ha-

zırki görüşün dövlətlərimiz arasında münasibətlərin daha da canlandırılmasında mühüm rol oynayacağına əmin olduğunu bildirdi və Azərbaycan, Gürcüstan, Türkmənistan, Özbəkistan arasında imzalanmış tranzit yük daşımalarının tənzimlənməsi haqqında və dəmiryol nəqliyyatının tənzimlənməsi haqqında və dəmiryol nəqliyyatının fəallaşmasının əlaqələndirilməsi barədə sənədləri yüksək qiymətləndirdi.

Tərəflər Xəzər dənizinin təbii ehtiyatlarından birgə istifadə olunması, neft, qaz hasilatı sahəsində, gəmiçilik, balıqçılıq, xüsusilə ekologiya sahəsində əməkdaşlığın həm Azərbaycan, həm də Türkmənistan üçün xüsusi əhəmiyyətə malik olduğunu nəzərə çatdırdılar. Prezidentlər Qafqazda və Mərkəzi Asiya regionunda sülhün və təhlükəsizliyin bərqərar olunması sahəsində göstərilən səyləri yüksək qiymətləndirməklə yanaşı, Ermənistan-Azərbaycan münaqişəsinin həllı ilə bağlı görülən işlər barədə də fikir mübadiləsi apardılar. Dövlət başçıları həmçinin Xəzər dənizi sahillərindəki dövlətlər arasında iqtisadi bağlılığın daha da möhkəmləndirilməsinin vacibliyini qeyd etdilər. Onların fikrincə, Türkmənistan və Azərbaycan nüfuzlu beynəlxalq təşkilatlarda əməkdaşlığın möhkəmləndirilməsinə də xüsusi fikir verməli və bir-birinin mövqelərini müdafiə etməyə çalışmalıdırlar. Hər iki müstəqil dövlətin bazar iqtisadiyyatına keçid dövründəki təcrübəsinin öyrənilib qarşılıqlı surətdə tətbiq edilməsi işinin canlandırılmasını vacib hesab edən prezidentlərin fikrincə, islahatların ilkın nəticələri haqqında vaxtaşırı olaraq bir-birinə informasiya vermək və qarşıya çıxan problemlərin aradan qaldırılması üçün müntəzəm fikir mübadiləsi aparmaq lazımdır.

Türkmənistan parlamentinin sədri Səhhət Muradovla görüşdə Saparmurad Niyazovun mart ayında Azərbaycana səfərinin və imzalanmış sənədlərin əhəmiyyətini qeyd edən Azərbaycan Prezidenti bildirmişdı ki, onun fikrincə, ölkələrimizin bütün sahələrdə əməkdaşlığının inkişaf etdirilməsində parlamentlərarası əlaqələr mühüm rol oynaya bılər və hər iki tərəf bu imkanlardan səmərəli istifadə etməlidir. Görüşdə eyni zamanda Azərbaycan-Türkmənistan əməkdaşlığının bir sıra aktual məsələləri barədə fikir mübadiləsi aparıldı.

1997-ci il dekabr ayının 8-də İslam Konfransı Təşkilatının Tehranda keçirilən VIII Zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidentı Heydər Əliyev Türkmənistan Prezidenti Saparmurad Niyazovla ikitərəfli görüş keçirdi. Görüşdə Azərbaycan-Türkmənistan əməkdaşlığının ardıcıl surətdə genişləndirilməsi üçün həlli vacib olan məsələlər barədə müzakirələr aparıldı. Xəzərin təbii ehtiyatlarının birgə işlənməsi məsələləri ilə bağlı fikir mübadiləsi zamanı qərara alındı ki, qarşılıqlı surətdə faydalı əməkdaşlığın möhkəmləndirilməsi üçün birgə işçi qrupunun yaradılması zəruridir (6, c.III, s.746).

Tehran razılaşmasının davamı olaraq 1998-ci il yanvar ayının 6-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev «Xəzər dənizində orta xətt koordinatlarına dair Azərbaycan Respublikası ilə Türkmənistan arasında danışıqlar aparılması üçün ekspert qrupu yaradılması haqqında» sərəncam, yanvar ayının 13-də isə Türkmənistan Prezidenti Saparmurad Niyazov «Xəzər dənizi akvatoriyasında orta xətt koordinatlarının və Türkmənistanın və Azərbaycan Respublikasının yurisdiksiyası hüdudlarının müəyyənləşdirilməsinə dair ikitərəfli danışıqlar aparılması üçün səlahiyyətli ekspert qrupu yaradılması haqqında» qərar imzaladılar. Azərbaycan tərəfdən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, Türkmənistan tərəfdən Türkmənistan Nazirlər Kabinetinin sədrinin müavini, neft-qaz sənayesi və mineral ehtiyatları naziri B.Sarcayevin başçılıq etdiyi qruplara Xəzər dənizində orta xəttin koordinatlarını müəy-

yənləşdirməyə dair danışıqlar aparmaq səlahiyyəti verilmişdi (119, 15 yanvar 1998).

İşçi qrup 1998-ci il fevral ayının 5-də Aşqabatda, mart ayının 30-da Bakıda görüşlər keçirdi. Bakı görüşü zamanı Azərbaycan Prezidenti Heydər Əliyev və respublikanın Baş naziri Artur Rəsizadə Türkmənistan Baş nazirinin müavini, Xarici İşlər naziri Boris Şıxmuradovun rəhbərliyi ilə Türkmənistan nümayəndə heyətini qəbul etdilər (119, 31 mart 1998). Elə həmin gün respublika Xarici İşlər nazirliyində Xəzər dənizinin hüquqi statusuna dair Azərbaycan-Türkmənistan məsləhətləşmələrinin ikinci dövrəsi keçirildi, Xəzərdə Azərbaycan və Türkmənistan sektorları arasında orta xətt koordinatlarının müəyyənləşdirilməsi üzrə məsləhətləşmələr davam etdirildi. Tərəflər Xəzər dənizinin hüquqi statusu barəsində 1998-ci il fevralın 5-də Aşqabad şəhərində əldə olunmuş qarşılıqlı anlaşmaya sadiq qaldıqlarını təsdiq edərək, bu məsələ ilə əlaqədar digər Xəzəryanı dövlətlərlə apardıqları ikitərəfli danışıqların yekunlarına dair fikir mübadiləsi edərək və həmin məsələ üzrə sahilyanı bütün dövlətlər arasında ümumi razılığın işlənib hazırlanması üçün bu danışıqların nəticələrinin mühümlüyünü vurğulamışdılar. Aparılmış danışıqlar nəticəsində Azərbaycan Respublikası və Türkmənistan Xarici İşlər nazirlərinin və ekspert qruplarının danışıqlarının yekunlarına dair rəsmi məlumat qəbul edildi.

Məlumatda bildirilirdi ki, tərəflər özlərinin milli mexanizmləri çərçivəsində Xəzər dənizinin ekologiyasının qorunmasına dair müvafiq tədbirlərin görülməsinə tərəfdar çıxmış və bu müddəanın Xəzər dənizinin hüquqi statusunda təsbit olunmasını zəruri saymışlar. Tərəflər bir daha təsdiqləmişdilər ki, Xəzər dənizi Azərbaycan Respublikası ilə Türkmənistan arasındakı hissədə beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş prinsiplərinə və normalarına uyğun olaraq, bu





ölkələrin Xəzər dənizinə olan suveren hüquqlarının reallaşdırılması əsasında orta xətt üzrə bölünür.

Tərəflər razılaşmışdılar ki, sahilyanı dövlətlər Xəzər dənizində müvafiq milli sektorlarda təbii ehtiyatlardan istifadə olunmasında müstəsna hüquqlara malikdirlər. Tərəflər beynəlxalq hüquq normalarına və beynəlxalq təcrübəyə uyğun olaraq milli sektorlara və yurisdiksiya zonalarına bölünmə prinsiplərini əsas götürərək, Xəzərdə yaranmış praktikanı nəzərə almaqla orta xətt koordinatlarının müəyyənləşdirilməsinə dair danışıqları ekspert qrupları çərçivəsində davam etdirmək barədə razılığa gəlmişdilər (119, 1 aprel 1998).

Türkmənistanın Xarici İşlər naziri Azərbaycan Prezidenti ilə görüş zamanı Türkmənistan Prezidenti Saparmurad Niyazovun məktubunu Azərbaycan Prezidentinə təqdim etmişdi.

Lakin görülən bütün işlərə, əldə olunan razılaşmalara baxmayaraq, sonrakı illərdə Azərbaycanla Türkmənistan arasında narazılıq və ittihamlar daha da kəskinləşmiş, İran da bu məsələdən kənarda qalmamışdı. Belə ki, İran təyyarələrinin heç bir səbəb və izah olmadan bir neçə dəfə Azərbaycanın hava məkanına müdaxilə etməsi, onun əraziləri üzərində uçuşlar etməsi münasibətlərdə mövcud gərginliyin daha da artmasına gətirib çıxartdı. Bunun ardınca Türkmənistan hökuməti Azərbaycana nota göndərərək, ona qarşı əsassız ittihamlar irəli sürmüş, bundan əlavə Türkmənistan Prezidenti S.Niyazov Azərbaycana hədə-qorxu gələrək, Türkmənistanın top-tüfənginin, kifayət qədər hərbi qüvvəsinin olduğunu bildirmiş, lazım gələrsə «Xəzərin o tayından bizə hədə-qorxu gələnlərlə müharibə də edə bilərik» deyə xəbərdarlıq etmişdi. Bununla kifayətlənməyən Türkmənistan hökuməti maliyyə çatışmazlığını səbəb kimi göstərərək Azərbaycandakı səfirliyinin fəaliyyətini dayandırdığını bildirmişdi.

Qeyd etmək yerinə düşərdi ki, Azərbaycanın Türkmənistanla səfirlik səviyyəli əlaqələri 1997-di ildə qurulub. 1997-

ci il aprel ayının 11-də Azərbaycan Respublikasının Milli Məclisi Türkmənistanda Azərbaycan Respublikası səfirliyinin təsis edilməsi haqqında qərar qəbul etmiş (117, 4 may 1997), 1997-ci il aprel ayının 30-da isə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkmənistanda Azərbaycan Respublikası səfirliyinin fəaliyyətinin təşkili haqqında sərəncam imzalanmışdı (yenə orada, 1 may 1997).

Türkmənistanın Bakıda səfirliyi 1998-ci ildə fəaliyyət göstərməyə başlamışdı. Lakin sonradan, artıq qeyd etdiyimiz kimi, Azərbaycan və Türkmənistan arasında Xəzərin statusu ilə bağlı narazılıqlar əsasında Türkmənistan hökuməti 2001-ci ildə maliyyə çatışmazlığını bəhanə gətirərək Azərbaycandakı səfirini geri çağırdı. Bir qədər sonra səfirliyin fəaliyyətinin yenidən bərpa edildiyi elan olunsa da, indiyə qədər səfirlik fəaliyyət göstərmir. Qarşılıqlı münasibətlərdə mövcud problemlər isə hələ də həllini tapmayaraq, həlli çətin problemlər sırasında qalmaqdadır.

Azərbaycan Respublikasının xarici siyasətinin digər həllini gözləyən problemi olan Ermənistan-Azərbaycan münaqişəsinə münasibətdə Türkmənistanın mövqeyi Mərkəzi Asiyanın digər türk dövlətlərinin mövqeyindən bir o qədər də fərqlənmir, demək olar ki, üst-üstə düşür. Belə ki, Türkmənistan da digər dövlətlər kimi Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, münaqişəni sülh yolu ilə həll etməyin tərəfdarı olduğunu bildirməsinə baxmayaraq Ermənistana münasibətdə ehtiyatlı hərəkət edir, onun təcavüzkar tərəf kimi adını çəkmir. Azərbaycanla olduğu kimi onunla da qarşılıqlı və çoxtərəfli münasibətlər saxlayır. Mövcud münaqişənin həlli məqsədilə beynəlxalq və regional təşkilatlar çərçivəsində hazırlanmış bəyanat və sənədləri imzalamaqla kifayətlənir.

Türkmənistanın Ermənistanla qarşılıqlı münasibətlərində ilk baxışdan adi görünə biləcək, lakin ümumilikdə





Azərbaycanın mənafeyinə toxunan bir məqamı da qeyd etmək istərdik. 1996-cı ilin mart ayında Azərbaycana ilk (və hələ ki, yeganə – S.R.) rəsmi səfərindən sonra Yerevana rəsmi səfər etmiş S.Niyazov türkmən nümayəndələri ilə birlikdə Ermənistan rəhbərliyinin müşaiyəti ilə aeroportdan birbaşa Qaraqoyunlu türkmən əmiri Pir-Hüseyninin 1413-cü ildə tikilmiş mavzoleyini ziyarət etmişdi. Söhbət əsnasında Ermənistanın Türkmənistanla dostluq münasibətlərinin tarixən mövcud olduğunu və hazırda da davam etdiyini söyləyən Ermənistan prezidenti Levon Ter-Petrosyan S.Niyazova abidənin yerləşdiyi yerdə erməni və türkmən arxeoloqlarının birgə tədqiqat aparmasını təklif etmişdi. Abidənin yerləşdiyi yerin tarixən qərbi Azərbaycan ərazisi, haqqında bəhs edilən Pir-Hüseynin isə Azərbaycan ərazisində mövcud olmuş Qaraqoyunlu dövlətinin əmiri olduğunu, həmçinin göstərilən ərazidə arxeoloji axtarışlara Azərbaycan alimlərinin də cəlb edilməsinin daha düzgün və etik normalara uğyun ola biləcəyini yəqin ki, «unudan» S.Niyazov təklifi qəbul etmişdi (128, 1997, №8). Bununla da, işğal olunmuş Azərbaycan ərazilərində tarixi və mədəniyyət abidələrini faktiki məhv edən ermənilər (bu barədə müxtəlif məlumatlar mövcuddur. Məsələn, məlumatlardan birində ermənilər tərəfindən işğal olunmuş ərazilərdə 300-dən artıq tarixi, 1.421 mədəniyyət abidəsinin, 10 məscid, 638 kitabxana, 518 mədəniyyət evi və s.-nin dağıdıldığı göstərilir (78, s.61) – S.R.) Türkmənistan Prezidentinin yardımı ilə «tarix və mədəniyyət abidələrinin qoruyucusu» imicinin formalaşdırılması istiqamətində növbəti uğurlarını əldə etmiş oldular.

Sonda qeyd etmək istərdik ki, Türkmənistanla Azərbaycan arasında son illərdə yaranmış mövcud problem xalqlar arasında zamanın sınağından çıxan dostluq münasibətlərini heç də zəiflətməmişdir. Əksinə, bu dostluğun beynəlxlaq siyasi və iqtisadi əlaqələr sistemində öz yerini axtaran dövlət-

lərimizin xarici siyasətini istiqamətləndirməyə qadir mühüm bir amilə çevrilə biləcəyinə ümid etmək istərdik. Əgər nəzərə alsaq ki, Türkmənistan Prezidenti S.Niyazov da dəfələrlə «Biz Azərbaycanla münasibətlərimizi mehriban qonşuluq və hüquq bərabərliyi, qarşılıqlı hörmət və qarşılıqlı fayda əsasında siyasət, iqtisadiyyat və mədəniyyətin bütün sahələrində geniş əməkdaşlıqda görürük» deyə bəyanatlar vermişdir, bunun gerçəkləşmək şansının heç də az olmadığını görərik. Bu əməkdaşlığın daha da dərinləşməsi, səmimi münasibətlərə çevrilməsi üçün artıq dövlətlərimiz arasında onlarla sənəd imzalanmışdır.

* * *

XX əsrin 90-cı illərində Azərbaycanın Mərkəzi Asiyanın türk dövlətləri ilə ikitərəfli siyasi əlaqələrinin təhlili aşağıdakı nəticələrə gəlməyə imkan verir:

- müstəqilliyinin ilk illərində Azərbaycanın Mərkəzi Asiyanın türk dövlətləri ilə hər hansı formada yaxınlaşmaq cəhdi onun xarici siyasətinin dini, etnik təəssübkeşlik prinsipləri əsasında həyata keçirildiyi, bu əməkdaşlığın pantürkizm, turançılıq, böyük türk millətçiliyi olduğu haqda ittihamlarla müşayiət olunurdu. Mərkəzi Asiyanın türk dövlətləri də öz növbəsində eyni xarakterli ittihamlarla üzləşməli olurdular (bu, əsasən türk dövlətləri arasında çoxtərəfli əlaqələrə münasibətdə özünü büruzə verirdi. Bu barədə daha ətraflı mövcud tədqiqat çərçivəsində növbəti fəsildə bəhs olunacaq. Bax: səh. 158-175). Bütün bunlar isə adı çəkilən dövlətlər arasında əlaqələri müəyyən dərəcədə bölgədə marağı olan digər dünya dövlətlərinin, xüsusən də qonşu Rusiya və İranın istək və arzularından asılı edirdi. Lakin bütün bu çətinliklərə, təzyiqlərə baxmayaraq, türk dövlətləri ilə əlaqələrin qurulması və inkişaf etdirilməsi elə ilk vaxtlardan Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin tərkib hissələrindən biri kimi





müəyyənləşdirildi və, müəyyən məqamlarda uğursuzluqla nəticələnməyinə baxmayaraq, həyata keçirilməsinə cəhd göstərildi;

- Azərbaycanın və Mərkəzi Asiyanın dövlət başçılarının, dövlət və hökumət nümayəndə heyətlərinin səfərlərinin və görüşlərinin materialları, imzalanmış müqavilə və sazişlərin mətnlərinin öyrənilməsi bir daha təsdiq edir ki, Azərbaycan türk dövlətləri ilə əlaqələrini beynəlxalq hüquq normalarına uyğun, qarşılıqlı faydalı əməkdaşlıq əsasında qurur. Bu əlaqələr heç bir üçüncü dövlətə qarşı çevrilməyib və digər dövlətlərlə əməkdaşlığı istisna etmir;

- Göstərilən dövrdə Mərkəzi Asiyanın türk dövlətlərindən yalnız Qazaxıstan Respublikası ilə əlaqələrimiz nisbətən sabit inkişaf yolu keçmişdir. Mərkəzi Asiyanın digər türk dövlətləri olan Qırğızıstan Respublikası, Özbəkistan Respublikası və Türkmənistanla münasibətlərdə Azərbaycan Respublikası vaxtaşırı müəyyən problemlərlə qarşılaşmış, bəzən bu problemlər müəyyən zaman keçdikdən sonra aradan qaldırılmış (məsələn, Özbəkistanla, Qırğızıstanla olan narazılıqlar), bəzən isə həlli mümkün olmayan problem səviyyəsinə çatmışdır (məsələn, Xəzərin statusu məsələsində Türkmənistanla mövcud olan narazılıq).

- Müstəqilliyin ilk illərində Mərkəzi Asiyanın türk dövlətləri ilə ikitərəfli əlaqələrimiz ya zəif olmuş, ya da ümumiyyətlə olmamışdır. Yalnız 1990-cı illərin ortalarından qarşılıqlı əlaqələrin qurulmasına səy göstərilmiş və müəyyən nəticələr əldə edilmişdir. Lakin bu əlaqələrdə hələ də istifadə olunmamış imkanlar çoxdur. 1995-ci ilin avqust ayında türk dövlət başçılarının Bişkek şəhərində keçirilən III Zirvə toplantısına yola düşərkən Azərbaycan Prezidenti H.Əliyevin dediyi - «Türkiyə ilə əməkdaşlığımız çox inkişaf etsə də, Mərkəzi Asiyanın türk dövlətləri ilə əlaqələr arzu olunan səviyyədə deyil. Hesab edirəm ki, Azərbaycanın bütün tarixi keçmişini və XX

əsrdəki əlaqələrini nəzərə alsaq, Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığın inkişaf etdirilməsi üçün hələ də istifadə olunmalı ehtiyatlar vardır. Bunlardan istifadə etmək lazımdır» (117, 29 avqust 1995) - sözlər hələ də aktuallığını saxlamaqdadır;

- Və sonda, Azərbaycanın Mərkəzi Asiyanın türk dövlətləri ilə əməkdaşlığının genişlənməsini, konkret olaraq türk dili, mədəniyyəti və nailiyyətləri əsasında türk xalqları arasında ortaq bir dil-mədəniyyət məkanının yaradılmasını ümumilikdə hazırda dünyada gedən qloballaşma prosesinin bir forması olaraq qəbul etmək mümkündür. Bu istiqamətdə məqsədyönlü iş aparılarsa, Asiyanın və Avropanın böyük bir hissəsi vahid bir düşüncəyə və mədəniyyətə malik ola bilər. Bu proses heç də bəziləri tərəfindən iddia edildiyi kimi, milliyyətçiliyin qalxmasına gətirib çıxarmaz. Əksinə, yeni dünyada yeni bir mədəni məkanın yaradılması dünyada qloballaşma proseslərini daha da sürətləndirər, ümumbəşəri qloballaşmanın bir mərhələsini təşkil edə bilər.














AZERBAYCAN
CUMHURBAŞKANI
EKSELANS
HAYDAR ALİYEV
HOŞGELDİNİZ
MARMARA GRUBU







































## III fəsil

# AZƏRBAYCAN TÜRK DÖVLƏTLƏRİNİN ÇOXTƏRƏFLİ SİYASİ ƏLAQƏLƏRİ SİSTEMİNDƏ

### 3.1. Beynəlxalq və məhəlli təşkilatlar çərçivəsində əməkdaşlıq

Müasir beynəlxalq münasibətlər sisteminin səciyyəvi cəhətlərindən biri müxtəlif yönümlü beynəlxalq və məhəlli təşkilatların mövcudluğu və fəaliyyətidir. Bu təşkilatlar onlara üzv dövlətlərin suverenliyinin qorunması və möhkəmləndirilməsinin təminatçısı, ölkələr arasında ikitərəfli və çoxtərəfli qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin vasitəçisi rolunu oynayırlar. Eyni zamanda, gənc dövlətlərin problemlərinin, həqiqətlərinin dünyaya çatdırılması baxımından da bu təşkilatlara üzv olmaq xüsusi əhəmiyyət kəsb edir. Odur ki, bu imkanlardan geniş istifadə etmək məqsədilə siyasət səhnəsinə yeni çıxmış dövlətlər müstəqilliklərinin ilk günlərindən bir çox təşkilatlara üzv olurlar. Bunları əsas götürərək, 1991-ci ildə müstəqillik qazanmış beş yeni türk dövlətinin, o cümlədən Azərbaycan Respublikasının xarici siyasətində beynəlxalq və məhəlli təşkilatlara üzv olmaq, onlarla əməkdaşlıq etməyə mühüm diqqət verildi, onların xarici siyasətinin əsas istiqamətlərindən biri dünyada mühüm yer tutan beynəlxalq və məhəlli təşkilatlara daxil olmaq və onlar vasitəsilə iş aparmaq oldu. Həmçinin, artıq qeyd edildiyi kimi, Azərbaycanın türk dövlətləri ilə çoxtərəfli siyasi əlaqələri beynəlxalq və məhəlli təşkilatların işində iştirak, xarici iqtisadi əlaqələr (birgə layihələrin işlənib hazırlanması və həyata keçirilməsi) formasında həyata keçirilir.

1991-ci il oktyabr ayının 18-də «Müstəqillik haqqında Konstitusiya Aktı»nı qəbul edən Azərbaycan elə həmin ay,

yəni oktyabr ayının 29-da Birləşmiş Millətlər Təşkilatına (BMT) və dünya dövlətlərinə müraciət etdi (Keçmiş İttifaqın üzvü olan türk respublikalarından Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan BMT-yə qəbul olunmalarını Rusiya Federasiyasının BMT-dəki daimi nümayəndəliyi vasitəsilə xahiş etmişdilər, Azərbaycan isə Türkiyəyə müraciət etmişdi (119, 19 fevral 1992). Türkiyə nəşrlərində Türkiyənin bu məsələdə türk dövlətlərinə fəal yardımçı olduğu göstərilir. Məsələn, bax: 108)). Müraciətdə Azərbaycan dövlət müstəqilliyinin bərpasını elan edərək, demokratiya, azadlıq və bərabərlik yolu ilə getmək əzmini əsas tutaraq, dünya birliyində layiqli yer tutmağı, beynəlxalq təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsi işinə kömək göstərməyi arzulayaraq, BMT Nizamnaməsinə sadiq qalacağına və ondan irəli gələn öhdəlikləri yerinə yetirməyə hazır olduğunu bildirərək BMT üzvlərindən xahiş edirdi ki, təşkilatın üzvlüyünə qəbul olunmaq məsələsi nəzərdən keçirilsin. 1992-ci il mart ayının 2-də Azərbaycan, o cümlədən yeni müstəqillik qazanmış digər dövd türk dövləti BMT üzvlüyünə qəbul edildi və bununla da beynəlxalq birliyin bərabərhüquqlu üzvünə çevrildi. (42, s.273).

Ən nüfuzlu və mötəbər beynəlxalq təşkilat olan **Birləşmiş Millətlər Təşkilatının** üzvü olmaq ölkələrimizə BMT sistemindəki idarələrin fəaliyyət prinsiplərinin cəlbedici qüvvəyə, onların yüksək potensiala malik olduğunu öz təcrübələrində yəqin etməyə imkan vermişdir. BMT çərçivəsində çoxtərəfli əlaqələrdə iştirak etmək Azərbaycana nisbətən qısa müddət ərzində öz mövqelərini beynəlxalq meydanda möhkəm bərqərar etməyə və həm təşkilata üzv dövlətlərlə, o cümlədən türk dövlətləri ilə, həm də təşkilatın özü ilə sıx qarşılıqlı əlaqələr yaratmağa imkan açmışdır (35, s.81-86; 17, s.57-84, 112-126).





BMT-yə üzv olmaq müstəqillik və azad inkişaf, öz ictimai həyatının bütün tərəflərinin demokratikləşdirilməsi, sülh və tərəqqi naminə digər ölkələrlə bərabərhüquqlu əməkdaşlıq yoluna qədəm qoymuş dövlətlərimizin ən yeni tarixində ən mühüm və əlamətdar mərhələlərindən biridir. BMT-yə üzv olduqları ilk günlərdən dövlətlərimiz onun əsas strukturlarında özlərinin daxili və xarici siyasətləri barədə, öz tarixləri və mədəniyyətləri barədə beynəlxalq birliyə hərtərəfli məlumat verilməsi sahəsində fəal işə başlamışlar.

BMT-yə üzvlük illəri ərzində Azərbaycanın fəaliyyətinin üstün istiqaməti Ermənistan-Azərbaycan münaqişəsi ətrafında real vəziyyət və Azərbaycan Respublikasının mövqeyi barədə dünya birliyinə ən geniş, imkan daxilində daha ətraflı məlumat verilməsindən ibarət olmuşdur. Beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün başlıca məsuliyyət daşıyan BMT Təhlükəsizlik Şurası (TŞ) tərəfindən Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı çoxsaylı sənədlər qəbul edilmişdir. Bu sənədlərdə Azərbaycan Respublikasının və bölgədə digər dövlətlərin suverenliyi və ərazi bütövlüyü, Dağlıq Qarabağın Azərbaycana mənsubluğu təsdiqlənir, ərazilərin ələ keçirilməsi üçün zor işlədilməsinin yolverilməzliyi vurğulanır, bütün işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələbi irəli sürülür, qaçqınların və köçkünlərin daimi yaşayış yerlərinə qayıtması üçün şərait yaradılmasının zəruriliyi qeyd edilir (17, s.57-84). Azərbaycanın mövqeyi türk dövlətləri də daxil olmaqla BMT-nin üzvü olan dövlətlərin əksəriyyəti tərəfindən dəstəklənir.

Lakin eyni zamanda qeyd edilməlidir ki, Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması istiqamətində BMT-nin səyləri nəticəsiz qalmışdır. Belə ki, bütün dünyanın gözü qarşısında baş verən bu təcavüzə dünya dövlətləri və beynəlxalq təşkilatlar etinasızlıqla yanaşılır, beynəlxalq hü-

quq normalarını və BMT Nizamnaməsini pozan Ermənistana qarşı ciddi bir tədbir görülmür. BMT Təhlükəsizlik Şurası təcavüzkarı hətta öz adı ilə adlandırmağa belə təşəbbüs göstərmir. Halbuki, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri və Təhlükəsizlik Şurası sədrinin bəyanatlarında Ermənistanın münaqişədə bu və ya digər formada iştirakı etiraf olunur. Cəzasız qalmasından istifadə edən ermənilər isə BMT-nin münaqişəyə dair qəbul olunmuş qətnamələrinə məhəl belə qoymurlar.

ABŞ Dövlət Departamentinin keçmiş əməkdaşı, erməni-Azərbaycan konfliktinin ərazi dəyişikliyi vasitəsilə həll edilməsi planının müəllifi P.Qobl hadisələri ətraflı təhlil edərək belə nəticəyə gəlir ki, dərindən diqqət yetirdikdə Qafqaz siyasət meydanında əlavə fiqurların olduğu aydın görünür ki, bunlar baş verənlərlə bu və ya başqa dərəcədə əlaqəlidir. Regionda Rusiyanın maraqlarının olduqca böyük olduğunu göstərən müəllif belə bir xüsusiyyəti xüsusi vurğulayır ki, Rusiya regionda baş verən münaqişələrin həllində yox, «konservləşdirilməsində» - dondurulmasında maraqlıdır, çünki tərəfləri qorxutmaq üçün tükdən asılı tarazlığı asanlıqla pozmaq olar, Rusiya hələlik bu yolla Qafqazda öz mövcudluğunu qoruyub saxlayır.

Avropa qurumlarının da Ermənistan-Azərbaycan münaqişəsinin həllindəki rolunu şübhə altına alan P.Qobl başlıca diqqəti Qafqaz regionu əməkdaşlığına verir və bu zaman Azərbaycanın əhəmiyyətini xüsusi qeyd edərək göstərir ki, «Azərbaycan heç də Qərblə Orta Asiya arasında körpü deyil, həm də xammalla zəngin Şərqlə Rusiya arasında bir səddir» (81).

Maraqlı burasıdır ki, Qafqaz ittifaqı ilə bağlı nəzərdən keçirilən konsepsiyaların heç birində Ermənistan Respublikasının adı «Qafqaz evi»nin yaradıcıları içərisində vurğulanmır, bu isə təsadüfi deyil, diplomatik dairələr, dünyanın gör-





kəmli politoloqları Ermənistanı Rusiyanın strateji müttəfiqi, onun «Qafqaz dəyənəyi» hesab edirlər. Rusiya Fedarasiyası ilə Ermənistan arasında 1997-ci il avqustun 2-də imzalanmış 12 bənddən ibarət «Dostluq, əməkdaşlıq və qarşılıqlı yardım» paktı iki dövlət arasında partnyorluğun hüquqi ifadəsidir.

Azərbaycan türk dövlətləri ilə həmçinin Avropa Şurası, Avropa Sosial Xartiyası, İslam Konfransı Təşkilatında, NATO-nun Sülh Naminə tərəfdaşlıq proqramı çərçivəsində əməkdaşlıq edir.

1992-ci il iyul ayının 21-də Azərbaycan Respublikasının Milli Məclisi «Konsulluq əlaqələri haqqında» Vyana Konvensiyasına qoşulması, diplomatik əlaqələr yaradılmasına dair beynəlxalq təşkilatların bir sıra sənədlərinin təsdiq edilməsi haqqında qərarlar qəbul etdi (119, 23 iyul 1992).

Göstərilən dövrdə həmçinin beynəlxalq parlament əlaqələri dövlətimizin ümumi xarici siyasətinin tərkib hissəsi olmuşdur (Bu barədə ətraflı məlumat üçün bax: 33, s.16-17). Ümumiyyətlə, Azərbaycan dövlətinin beynəlxalq fəaliyyətində Azərbaycan Respublikası Milli Məclisi özünəməxsus yer tutur. Müstəqillik qazanıldıqdan sonra Azərbaycan parlamenti bir sıra beynəlxalq və məhəlli parlament təşkilatlarının üzvü, bəzilərinin isə yaradıcılarından biri olurdu. Tədqiq olunan illərdə Azərbaycan parlamenti Parlamentlərarası İttifaqın, ATƏT-in Parlament Məclisinin, MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Məclisinin və Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin üzvü olaraq (35, s.97-98) türk dövlətləri ilə əməkdaşlıq etmişdir.

Ümumiyyətlə, tədqiq edilən illərdə Azərbaycan Respublikasının beynəlxalq parlament təşkilatları ilə əlaqələrinin qurulması və inkişafı daim yüksələn xətt üzrə getmişdir. Bu əlaqələr Azərbaycanın dünyada tanınmasına və dövlət müstəqilliyinin möhkəmləndirilməsinə kömək etmişdir. Eyni za-

manda qarşılıqlı əlaqələr beynəlxalq parlament təşkilatlarının coğrafiyasını genişləndirmiş, onların təsir dairəsinin yayıldığı əraziləri artırmış və fəaliyyətlərinin məzmunca zənginləşməsinə kömək etmişdir.

Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı özünəməxsus yer tutur. Azərbaycan Respublikası 1992-ci il yanvar ayının 30-da **Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM)** üzvlüyünə qəbul edilib (119, 1 fevral 1992) və həmin il iyulun 8-də ATƏM-in Helsinkidə keçirilən Zirvə toplantısında onun sənədlərini imzalayıb. Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələlərinə dair Müşavirənin Helsinki Yekun Aktı 33 Avropa dövləti, ABŞ və Kanada tərəfindən imzalanmışdı. 1994-cü ildə ATƏM-in Budapeştdə keçirilən Zirvə toplantısında bu təşkilatın statusu genişləndirildi və o, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) adlandırıldı. Təşkilatın üzvlərinin sayı keçmiş SSRİ və Yuqoslaviya respublikalarının hesabına artaraq 54-ə çatmışdır (17, s.9).

Azərbaycan dövlətinin ATƏT-lə əlaqələri əsasən siyasi istiqamətdə həyata keçirilir. Yekun sənədində əks olunmuş prinsiplər Azərbaycan tərəfindən qəbul olunmuşdur və onlara əməl edilir. 1992-ci ilin fevral ayından başlayaraq Dağlıq Qarabağ münaqişəsi bu təşkilatın prinsiplərinə uyğun olaraq üzv dövlətlərin daha çox diqqət obyektinə çevrilmişdir. Təşkilatda əməkdaşlıq çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması, Dağlıq Qarabağ probleminin həlli istiqamətində Türkiyə ilə yanaşı Qazaxıstan Respublikası da vaxtaşırı xüsusi fəallıq göstərmiş, konkret təkliflərlə çıxış etmişdir. Məsələn, 1992-ci il avqust ayının 27-də Qazaxıstan Respublikasının təşəbbüsü ilə ATƏM-in Minsk qrupunun müraciətinə cavab olaraq Azərbaycan, Ermənistan və Qazaxıstan nümayəndələri birgə bəyannamə imzaladılar (34,





s.101-102; 139). İmzalanan Alma-Ata birgə memorandumuna görə münaqişə edən tərəflər sentyabrın 1-dən hərbi əməliyyatları dayandırmağa hazır olduqlarını bildirdilər. Bu sənədin yerinə yetirilməsinə dair sentyabrın 3-də İcevan protokolu imzalandı (34, s.162). 1992-ci il sentyabrın 14-16-da Alma-Atada Azərbaycan və Ermənistan işçi qrupları arasında keçirilən ikitərəfli danışıqlar nəticəsiz başa çatdı. Ermənistan nümayəndələri Azərbaycan və Qazaxıstan nümayəndə heyətlərinin qəbul etdikləri bəyannamə layihəsini rədd etdilər.

1995-ci ilin ikinci yarısında Qərbin Qarabağ münaqişəsinin həlli yolunda fəaliyyətinin güclənməsi hiss olunurdu. Belə ki, ABŞ, Türkiyə və Almaniya özlərinin ATƏT-in Minsk qrupundakı nümayəndələrinə Qarabağ münaqişəsinin həlli prosesində iştirak etmək üçün xüsusi səlahiyyətli səfir statusu verdilər.

Münaqişənin nizama salınması istiqamətində ATƏT çərçivəsində Türkiyənin fəaliyyətini qeyd etməyi lazım bilirik. Belə ki, 1996-cı ildə ATƏT-in Lissabon Zirvə görüşündə məhz Türkiyənin böyük dəstəyi nəticəsində ATƏT-in Zirvə görüşünün Lissabon bəyanatı – Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsinə dair bəyanat hasil oldu. Bir çox başqa faktlar da gətirmək olar. Bunlar hədsiz dərəcədə çoxdur. 1998-ci il may ayının 10-da Türkiyə Prezidenti S.Dəmirəl Azərbaycan Prezidenti H.Əliyevin 75 illik yubileyi münasibətilə keçirilən tədbirlərdə iştirak etmək üçün Bakıya gələrkən Azərbaycan Prezidenti son illər Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması sahəsində Minsk qrupunun üzvü kimi Türkiyənin böyük xidmətlər göstərdiyini xüsusi vurğulamışdı (119, 12 may 1998).

1998-ci il may ayının 29-da Fransa parlamentinin aşağı palatasının erməni millətçilərinin təsiri altında Türkiyədə 1915-ci il «erməni soyqırımı» məsələsini müzakirə edərək, «soyqı-

rım»ı tanıması haqda qərar qəbul etdiyi barədə, bu qərarın Azərbaycan dövləti və ictimaiyyətinin ciddi narazılığına səbəb olduğu və Azərbaycan Prezidenti Heydər Əliyevin Fransa nümayəndə heyətini qəbul etməşi, söhbət zamanı Fransa parlamentinin aşağı palatasının qərarının Azərbaycanda çox böyük etiraz və narahatlıq yaratdığını onların nəzərinə çatdırdığı barədə əvvəlki fəsillərdə danışılıb. Lakin, yeri gəlmişkən bir məqamı bir daha xatırlatmaq istərdik. Artıq neçə illərdir ki, Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar münaqişə mövcuddur və bu təcavüz zamanı ermənilər Azərbaycana qarşı çox vəhşiliklər etmişlər. 1992-ci ilin fevral ayında Dağlıq Qarabağın Xocalı şəhərinin dinc əhalisinə qarşı ermənilər tərəfindən soyqırım aktı törətmişlər və bu, yeganə fakt deyil. Fransa Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üzrə ATƏT-in Minsk qrupunun Rusiya, ABŞ ilə bərabər həmsədrlərindən biridir. Və, fikrimizcə, ən azı buna görə bu məsələlər barədə kifayət qədər məlumatlı olmalıdır. Belə olan halda Fransanın parlamentində dediyimiz qərarın qəbul edilməsi anlaşılmazdır.

Ümumiyyətlə, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə nizama salınmasına dair ATƏT-in göstərdiyi səylər təsirli nəticələr verməmişdir. Buna səbəb bir tərəfdən Ermənistan Respublikasının və Dağlıq Qarabağ ermənilərinin qeyri-konstruktiv mövqedən çıxış edərək güzəştə getmək istəməməsidirsə, digər tərəfdən ATƏT-in və onun yaratdığı Minsk qrupunun konsensus prinsipini əsas götürərək ikili standartlar mövqeyindən çıxış etməsidir. ATƏT-in konsensus mexanizmi regional münaqişələrin həlli zamanı təcavüzkar dövlətlərə öz əməlləri müqabilində cəzasız qalmağa imkan verir. Bu baxımdan, ATƏT-in Azərbaycanın mövcud vəziyyəti üçün yararsız olan konsensus prinsipini beynəlxalq hüquq normalarından üstün tutması Ermənistan və Dağlıq Qarabağ separatçıları üçün çox sərfəlidir. Bundan başqa,





başlıca çatışmazlıqlardan biri də ATƏT çərçivəsində və onun himayəsi altında müqaviləni pozan və onu yerinə yetirməkdən imtina edən tərəfə qarşı sanksiya tətbiqetmə mexanizminin olmamasıdır (17, s.55).

Ümumavropa təhlükəsizlik və əməkdaşlıq prosesində iştirak etməyi təbii və zəruri hal hesab edən Azərbaycan Respublikası ATƏM-in tam hüquqlu üzvləri sırasına daxil olarkən əmin idi ki, yalnız bu məclis çərçivəsində öhdəliklərə əməl edilməsi Avropada gələcək sabitliyin və tərəqqinin əsası və təminatı ola bilər. Azərbaycanın Avropa ailəsinə uyğunlaşması və daxil olması yolu şübhəsiz uzun bir yol olacaqdır. Lakin eyni zamanda Avropa da Azərbaycanın Avropaya qoşulmasının siyasi faydasını nəzərə almalıdır. Azərbaycan Asiyaya məxsus olduğu dərəcədə Avropaya da məxsusdur.

Fikrimizcə, münaqişələrin həlli prosesində konkret nəticələr əldə edən ATƏT sülhpərvərlik fəaliyyətinin vasitələrini bir qədər genişləndirməlidir. Doğrudur, ATƏT-dən onun imkanları səviyyəsindən artıq nəticələr gözləmək qeyri-real görünsə də, təşkilatın potensial imkanlarına laqeyd münasibətə də haqq qazandırmaq olmaz. Bu baxımdan, ATƏT-in mövcud münaqişədə real sülhü bərqərar etmək üçün passiv müşahidəçi mövqeyindən fəal əməliyyatlara keçməsi zəruridir.

**Müstəqil Dövlətlər Birliyi (MDB).** 1991-ci il dekabr ayının 21-də Mərkəzi Asiyanın türk dövlətləri Alma-Ata şəhərində Müstəqil Dövlət Birliyinin yaradılması haqqında müqaviləyə qoşuldular. Lakin araşdırılan illərdə Azərbaycanda MDB-yə birmənalı münasibət mövcud olmamışdır. 1991-ci ilin oktyabrından 1992-ci ilin mayınadək Azərbaycan Respublikasında rəsmi xarici siyasət xəttində MDB iştirakçısı olan dövlətlərlə əməkdaşlıq üstünlük təşkil etmişdisə də, 1992-ci ilin mayından 1993-cü ilin iyununadək Azərbaycan Respublikası bu təşkilata Rusiyanın hegemonluq iddiası kimi baxaraq, SSRİ-ni bərpa etmək cəhdi kimi qiymətləndirərək onun işində

fəal iştirak etməyərək, yalnız müşahidəçilər göndərməklə kifayətlənmişdi. 1993-cü ilin iyunundan sonrakı dövrdə Azərbaycanda MDB-yə, onun strukturlarına münasibət dəyişdi və əməkdaşlıq xəttinə üstünlük verildi. Bu dövrdən Azərbaycan dövləti MDB-də iştirak etmək qərarına gəldi. MDB ilə müxtəlif səviyyəli əlaqələr quruldu. Azərbaycan Respublikası 1993-cü il sentyabrın 20-də MDB iştırakçısı olan dövlətlərin Parlamentlərarası Məclisinin (1992-ci il 27 mart tarixli sazişə əsasən yaradılıb) iştirakçısı oldu (117, 22 sentyabr 1993, №183 (695)). Parlamentlərarası məclis MDB iştırakçısı olan dövlətlərin məsləhətçi orqanıdır. Məclis məsələləri hazırlamaq və müzakirə etməkdən ötrü daimi və müvəqqəti komissiyalar yaratmışdır. Təşkilat öz qərarlarını bəyanat, müraciət, tövsiyə, təklif, memorandum və qətnamə formalarında qəbul edir. Azərbaycanın bu təşkilatda 11 deputat yeri vardır. MDB Parlamentlərarası məclis çərçivəsində də Azərbaycanın üzv olduğu digər təşkilatlardakı kimi Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması, Dağlıq Qarabağ məsələsinin həll olunması istiqamətində müəyyən işlər görülməsinə səy göstərilmişdir.

1994-cü il may ayının 5-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Rusiya Federasiyası Şurasının MDB işləri üzrə komitəsinin sədri Vadim Quskov başda olmaqla MDB Parlamentlərarası Assambleyasının (PA) nümayəndə heyətini qəbul etmişdi. Ermənistan-Azərbaycan münaqişəsinin dinc vasitələrlə tənzimlənməsinə yönəlmiş səylər çərçivəsində əvvəlcə Yerevan və Xankəndində olmuş qonaqlar problemin həlli yolları barədə Azərbaycan rəhbəri ilə məsləhətləşmələr keçirmək, qaçqınların vəziyyətilə tanış olmaq üçün gəldiklərini bildirmişdilər.

Nümayəndə heyətinin başçısı V.Quskov Ermənistanda və Dağlıq Qarabağda keçirilmiş görüşlər haqqında Azərbaycan Prezidentinə məlumat verməzdən əvvəl PA-nın sülhyaratma fəaliyyətinin tarixinə toxunaraq qeyd etmişdi ki, təxminən 1 il əvvəl PA-nın vasitəçiliyi ilə Qırğızıstan paytaxtında imzalanmış Bışkek protokolu atəşin dayandırılması üçün zəmin oldu. Bununla bərabər o, etiraf etdi ki, ötən müddət ərzində münaqişənin nizama salınması istiqamətində irəliyə doğru addım atmaq mümkün olmamışdır. V.Quskov bunun səbəbini MDB məkanında parlamentarizmin zəif inkişafı ilə əlaqələndirdi. Belə ki, PA-nın missiyasında fəal iştirak edən Qırğızıstan Ali Sovetinin sədri M.Şerimkulov vəzifəsindən getmiş, Qazaxıstanda isə parlament buraxılmışdır. O, təəssüflə qeyd etdi ki, atəşkəs elan olunarkən regionda sülhün tezliklə bərqərar ediləcəyinə bəslənən ümidlər doğrulmamışdır.

Azərbaycan Prezidenti qonaqların qaldırdığı məsələlərə münasibətini bildirərkən qeyd etdi ki, atəşkəs elan olunarkən Azərbaycan münaqişənin tənzimlənməsinə və böyük siyasi sazişə qısa vaxt ərzində nail olmağın qeyri-mümkünlüyünü yaxşı başa düşürdü. Lakin bütöv 1 il ərzində bu istiqamətdə heç bir irəliləyişin olmaması ciddi narahatlıq doğurur. Dövlət başçısı bəyan etdi ki, vasitəçilər, o cümlədən ATƏT-in Minsk qurupu və Rusiya fəal olsaydılar, hansısa uğur əldə etmək olardı. O bildirdi ki, Azərbaycan rəhbərliyi ATƏT-in keçən ilin dekabr ayında keçirilmiş Budapeşt Zirvə toplantısının Ermənistan-Azərbaycan münaqişəsinin həlli barədə çıxardığı qətnaməyə böyük əhəmiyyət verir. Həmin toplantıdan keçən müddət ərzində sülhyaratma prosesi ölü nöqtədən tərpənmir. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan rəhbərliyi münasibətlərin nizama salınmasının dinc vasitələrinə sadiq qaldığını bəyan etdi və ümidvar olduğunu bildirdi ki, MDB PA-nın hazırki missiyası regionda sülhyaratma prosesinə öz töhfəsini verəcəkdir.

1996-cı ilin əvvəllərində Rusiyanın Dövlət Duması Sovet İttifaqının ləğvi haqqında qərarı hüquqi cəhətdən düzgün

olmayan addım elan etdi (75, s.132). Və 1996-cı il mart ayının 15-də 1991-ci il Belovejsk sazişinın ləğv edilməsi haqqında qərar qəbul etdi.

Bu məsələyə Türkmənistan Respublikasının Prezidenti Saparmurad Niyazovun 1996-cı il mart ayının 18-19-da Azərbaycana rəsmi səfəri zamanı da münasiət bildirildi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkmənistan Respublikasının Prezidenti Saparmurad Niyazov ikitərəfli və çoxtərəfli dövlətlərarası münasibətlərə dair məsələləri və aktual beynəlxalq məsələləri müzakirə edərək, milli dövlətçiliyi möhkəmləndirmək siyasətini davam etdirmək, öz ölkələrinin siyasi və iqtisadi suverenliyini təmin edilməsi üçün lazımi şəraiti yaratmaq əzmində olduqlarını öz dövlətləri və xalqları adından təsdiq edərək bəyan etdilər ki, Azərbaycan və türkmən xalqlarının iradəsi ümummilli referendumlarla təsdiq olunmuşdur və onların öz seçdikləri yolla – müstəqil və suveren inkişaf yolu ilə irəliləmək qətiyyətini əks etdirir. BMT Nizamnaməsində və hamı tərəfindən qəbul edilmiş beynəlxalq normalara uyğun şəkildə, xalqların inkişaf yolunu öz iradəsinə əsasən azad surətdə təyin etməsi onların ayrılmaz hüququdur. Azərbaycan Respublikası və Türkmənistan Respublikasının müstəqillik statusu beynəlxalq birlik tərəfindən tanınmışdır və heç bir digər dövlət, yaxud onun orqanı tərəfindən müzakirə mövzusu ola bilməz. Azərbaycan və Türkmənistan xalqlarının seçdikləri yol iki ölkənin dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində ən ali meyar və müəyyənləşdirici amildir və onların milli mənafelərini əks etdirir.

Azərbaycan Respublikasının və Türkmənistanın prezidentləri MDB çərçivəsində birlik ölkələrinin xalqları arasında hüquq bərabərliyi, qarşılıqlı hörmət və əməkdaşlıq əsasında əlaqələrin inkişafını bundan sonra da davam etdirməyə hazır olduqlarını təsdiq etdilər. Onlar belə hesab edirlər ki,





tarixi hadisələri geri döndərmək üçün göstərilən hər hansı bir cəhdlərin, o cümlədən Rusiya Federasiyası Dövlət Dumasının adı çəkilən qərarının hər hansı hüquqi əsası yoxdur və o, həyata keçirilə bilməz.

Haqqında danışılan qərarın ardınca Rusiya MDB-nin «daha fəal üzvləri» olan dövlətlərlə daha sıx iqtisadi və siyasi inteqrasiyanı nəzərdə tutan iki müqavilə imzaladı. Birinci müqavilə Belarusla «Suveren Respublikalar İttıfaqı» çərçivəsində yeni ittifaqın yaradılmasını nəzərdə tuturdu. Bir çox politoloqların, mütəxəssislərin fikrincə yeni qurumun hətta adı belə Rusiyanın keçmiş imperiyanı bərpa etmək niyyətini açıq şəkildə göstərirdi – SRİ – SSRİ (75, s.132). İkinci müqavilə Rusiya, Qazaxıstan, Belarus və Qırğızıstan arasında imzalandı. Muqavilə iştirakçıları perspektivdə «Birləşmiş Dövlətlər Birliyi»nin yaradılmasını nəzərdə tuturdular. Müqavilələrin hər ikisi mətəxəssislər tərəfindən, MDB daxilində inteqrasiyanın inkişaf tempinin aşağı olmasından Rusiyanın narazılığının nəticəsi kimi qiymətləndirilir, bildirilirdi ki, bu, Rusiyanın keçmiş imperiya dövlətləri arasında birləşmə prosesini davam etdirmək və daha da sürətləndirmək əzmini nümayiş etdirir (75, s.132). Belə ki, onların fikrincə, Rusiyanın MDB-dən siyasi inteqrasiyanı sürətləndirmək vasitəsi kimi istifadə etmək cəhdinə qarşı artıq 90-cı illərin ortalarında ittifaq daxilində Ukraynanın liderliyi ilə, belə demək mümkünsə, «gizli blok» formalaşmışdır ki, buraya Azərbaycan, Özbəkistan, Türkmənistan, müəyyən hallarda Qazaxıstan, Gürcüstan və Moldova da qoşulurlar (75, s.138).

Göstərilən dövrdə Rusiya türk dövlətləri arasında hər hansı formada əməkdaşlığa ehtiyatla yanaşmış, bu əməkdaşlığın MDB daxili münasibətlərə mənfi təsir göstərəcəyi barədə adı çəkilən dövlətlərə dəfələrlə xəbərdarlıq etmişdir. Rusiya həmçinin türk dövlətləri arasında çoxtərəfli əməkdaşlığın nəticəsi olan türk dövlət başçılarının Zirvə toplantısının

keçirilməsini də birmənalı qəbul etmirdi. Belə ki, o, Zirvə toplantılarına MDB-nin alternativi kimi baxır, bu toplantıların Rusiya əleyhinə keçirildiyini iddia edirdi. Təsadüfi deyil ki, türk dövlət başçıları toplantıların keçirildiyi ilk görüşlərin hər birində bu görüşlərin üçüncü heç bir dövlətə qarşı çevrilmədiyini xüsusi vurğulayırdılar.

Azərbaycan dövlətinin xarici siyasətində **İslam Konfransı Təşkilatı** ilə əlaqələr xüsusi yer tutur. Dövlətlərarası orqan kimi 1969-cu ilin sentyabrında Rabatda (Mərakeş) keçirilmiş birinci konfransda toplanan, rəsmi şəkildə 1972-ci ilin fevral-martında Ciddədə (Səudiyyə Ərəbistanı) müsəlman ölkələrin xarici işlər nazirlərinin üçüncü konfransında yaradılan və nizamnaməsi təsdiq edilən İslam Konfransı Təşkilatı hazırda 54 dövləti, o cümlədən bütün türk dövlətlərini özündə birləşdirir. 1991-ci il dekabrın 8-də İKT-nın üzvlüyünə qəbul edilmiş Azərbaycan dövləti bu təşkilat çərçivəsində də türk dövlətləri ilə çoxtərəfli əməkdaşlıq edir (145, Ministry of Foreign AffairsIKT.htm). Həmin vaxtdan indiyədək bu təşkilat Azərbaycanın haqq işini birmənalı şəkildə dəstəkləyən, Ermənistanın təcavüzkarlığını qətiyyətlə pisləyən, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və ATƏT qərarlarının sözsüz yerinə yetirilməsini tələb edən yeganə təşkilatdır. Bu təşkilatın fəaliyyəti təkcə din birliyinə deyil, eyni zamanda beynəlxalq normalara əsaslanır. Deməli, Azərbaycanın bu təşkilatla əməkdaşlığının əsas istiqamətlərindən biri də siyasi sahədə ola bilər. Eyni zamanda İKT ilə ölkəmiz arasında iqtisadi, elmi-texniki, mədəni və humanitar sahələrdə əməkdaşlığın da perspektivləri şübhəsizdir.

Tarixi keçmişi, dini, mədəni və mənəvi dəyərləri ilə islam dünyasının ayrılmaz hissəsi olan Azərbaycanın 1991-ci ilin dekabr ayında İslam Konfransı Təşkilatına (İKT) üzv olması beynəlxalq aləmdə respublikamızın qarşısında yeni üfüqlər açdı. Belə ki, Azərbaycan İKT və ona üzv dövlətlərin





ardıcıl dəstəyinə nail oldu. İlkin vaxtlarında İKT Baş katibliyi Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı respublikamızın mövqeyini dəstəkləyən bəyanatlar verdiyi halda, daha sonrakı mərhələdə İKT konfransları Ermənistan-Azərbaycan münaqişəsi haqqında kəsərli qətnamələr qəbul etmişdir. Bu qətnamələrdə Ermənistan-Azərbaycan münaqişəsi birmənalı şəkildə Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü kimi qiymətləndirilir.

İKT xarici işlər nazirlərinin 1993-cü ildə Kəraçidə keçirilmiş XXI, 1994-cü ildə Kasablankada keçirilmiş XXII, 1995-ci ildə Konakridə keçirilmiş XXIII konfransları Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamələr qəbul etmişdir. İKT xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV konfransında müvafiq qətnamənin adı dəyişdirilərək. "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" adlandırılmışdır. O vaxtdan etibarən xarici işlər nazirlərinin bütün konfranslarında bu qəbildən olan qətnamələrin adı dəyişilməz qalmışdır. Qeyd etmək lazımdır ki, İKT dövlət və hökumət başçılarının 1997-ci ildə Tehranda keçirilmiş VIII, 2000-ci ildə Dohada keçirilmiş IX və 2003-cü ildə Malayziyanın Putracaya şəhərində keçirilmiş X konfransları da eyni adlı qətnamələr qəbul etmişdir.

Qeyd etmək lazımdır ki, İKT qətnamələri Azərbaycan üçün yalnız siyasi əhəmiyyət daşımır, respublikamıza müsəlman ölkələri tərəfindən göstərilən humanitar, texniki və s yardımın böyük bir hissəsi İKT konfranslarının qəbul etdiyi sənədlər əsasında həyata keçirilir. Məsələn, İslam İnkişaf Bankı (İİB) qaçqınlara humanitar yardım göstərilməsinə 500 min dollar və onlar üçün iş yerləri yaradılması məqsədi ilə dəzgah və avdanlığın alınmasına 1 milyon dollar vəsait ayırmışdır. İİB, həmçinin, Respublikamızın sosial-inkişaf layihə-

lərinin texniki-iqtisadi əsaslandırılmasının hazırlanmasına təmənnasız olaraq 1.424 milyon dollar ayırmışdır. İİB-in respublikamıza təqdim etdiyi güzəştli kreditin ümumi məbləği 74 milyon dollardan artıqdır (145, Mınıstry of Foreign Affairs IKT.htm).

Siyasətin iqtisadiyyat üçün yol göstəricisi olduğunu və inteqrasiya üçün siyasi danışıqlarsız, razılıqsız keçinilmədiyini dərk edən yeni müstəqil türk dövlətləri həmçinin bir sıra iqtisadi layihələrin iştirakçılarıdırlar. Bu baxımdan, Azərbaycan Respublikasının türk dövlətləri ilə Avropa İqtisadi Birliyi çərçivəsində fəaliyyətini qeyd etmək yerinə düşərdi.

Avropa İttifaqı öz Xüsusi Elçisini 1998-ci ildə Azərbaycana göndərmiş, Azərbaycan öz növbəsində Avropa İttifaqında öz Daimi Nümayəndəliyini 2000-ci ildə açmışdır. Avropa İttifaqı üzv dövlətləri və Azərbaycan arasında 22 iyun 1999-cu ildə Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (TƏS) (22 aprel 1996-cı ildə Lüksemburqda imzalanmışdır) qüvvəyə minmişdir ki, bu da tərəflər arasında yüksək səviyyəli əməkdaşlığın təşəkkül tapmasını təsdiqləyir. Müqavilə müvafiq siyasi dialoq çərçivəsində tərəflər arasında siyasi münasibətlərin inkişafının təmin edilməsi; Azərbaycanda demokratiyanın möhkəmlənməsi, iqtisadi inkişaf və bazar iqtisadiyyatına keçid cəhdlərinin dəstəklənməsi; Ticarət və investisiyanın inkişafı, iqtisadi, sosial, maliyyə, elmi, texniki və mədəni əməkdaşlıq məsələlərini nizamlamağı nəzərdə tutur. 1991-ci ildən günümüzədək Azərbaycan Aİ-dən 400 milyon avro dəyərində humanitar, texniki və digər yardım almışdır (145, Ministry of Foreign Affairs 4.htm).

Azərbaycan Avropa İttifaqında türk dövlətləri ilə 12 keçmiş Sovet İttifaqı dövləti və Monqolustana texniki yardım dəstəyini təmin etmək məqsədilə 1991-ci ildə yaradılmış TACİS proqramı çərçivəsində əməkdaşlıq edir. Aİ TACİS proqramı çərçivəsində müvafiq texniki və ekspert köməyi vasitəsilə adı çəkilən dövlətlərdə aparılan iqtisadi islahatları dəstəkləyir. TACİS-in Azərbaycanla əlaqədar əsas çoxtərəfli şəbəkə layihələri TRACEKA və İNOGATE-dir.





TRACEKA (Avropa-Qafqaz-Asiya nəqliyyat koridoru) Brüsseldə 1993-cü ilin mayında keçirilmiş 8 təsisçi dövlətin (5 Mərkəzi Asiya və 3 Cənubi Qafqaz ölkələri) ticarət və nəqliyyat nazirlərinin Konfransında təsis olunmuşdur. Bu təşkilatın məqsədi - qeyd edilən dövlətlərin siyasi və iqtisadi müstəqilliyini dəstəkləməklə onların alternativ nəqliyyat yolları vasitəsilə Avropa və dünya bazarlarına çıxış qabiliyyətini yüksəltmək və üzv dövlətlər arasında sonrakı regional əməkdaşlığı stimulə etməkdən ibarətdir.

8 sentyabr 1998-ci ildə Bakıda Azərbaycan və Gürcüstan Prezidentlərinin təşəbbüsü və Aİ-nin TACİS-TRACEKA proqramının dəstəyi ilə «Tarixi İpək Yolunun bərpası» adlı beynəlxalq konfrans keçirilmişdir. 32 ölkə və 12 beynəlxalq təşkilat nümayəndələri bu konfransda iştirak etmişlər. Konfransda əldə edilmiş ən mühüm nailiyyət Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkiyə, Ukrayna, Moldova, Rumıniya və Bolqarıstanın «Avropa-Qafqaz-Asiya Nəqliyyat Koridorunun inkişafı üçün Əsas Beynəlxalq Nəqliyyat çoxtərəfli Müqavilə» (Əsas razılaşma) və Əsas Razılaşmanın əsasında olan Texniki Əlavə sənədlər: beynəlxalq dəmiryolu nəqliyyatı; beynəlxalq yol nəqliyyatı; beynəlxalq kommersiya dəniz gəmiçilik naviqasiyası; gömrük prosedurаları və sənədlərin təhvili.

21 fevral 2001-ci ildə Avropa İttifaqının (Aİ) yüksək rəsmilərinin iştirakı ilə HK TRACEKA Daimi Katibliyinin Ofisinin Bakıda açılışı keçirilmişdir (145, Ministry of Foreign Affairs 4.htm).

TRACEKA layihəsi Azərbaycanla 25 texniki və 11 investisiya layihəsinin həyata keçirilməsini dəstəkləyir ki, bu layihələrin 26-da Azərbaycanın payı ümumilikdə 100 milyon avro məbləğindən də artıqdır.

İNOGATE (Avropaya dövlətlərarası neft və qaz ixracı) Aİ-nin yeni müstəqil dövlətlərə maliyyə dəstəyi çərçivəsində həyata keçirilən əsas regional təşəbbüsdür. 1999-cu ilin iyul ayında 15 dövlətin (Azərbaycan da daxil olmaqla) iştirakı ilə imzalanan dövlətlərarası neft və qaz ixracını nəzərdə tutan Çərçivə Sazişi İNOGATE-nin əsas hüquqi bazasını təşkil edir. Proqramın birinci fazası ümumi məbləği 50 milyon avrodan artıq olan 10 layihənin həyata keçirilməsini nəzərdə tutur ki, bu layihələrdən 5-i bilavasitə Azərbaycanla əlaqədardır. İNOGATE yeni müstəqil dövlətlər və Azərbaycana münasibətdə trans-sərhəd layihələrinin həyata keçirilməsi üçün yeni perspektivlər yaradır və hidrokarbon mənbələrinin tranziti ilə bağlı beynəlxalq razılaşmaların üstünlükləri əsasında beynəlxalq maliyyə institutları və xüsusi investisiya fondları tərəfindən investisiyanın cəlb edilməsi məqsədləri üçün katalizator rolunu oynayır.

Azərbaycan dövləti həmçinin **Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı** ilə əlaqələrə də üstünlük verir. 1992-ci il iyunun 25-də Azərbaycan dövləti ilə yanaşı Albaniya, Bolqarıstan, Yunanıstan, Gürcüstan, Moldova, Rusiya, Rumıniya, Türkiyə, Ukrayna, Ermənistan İstanbul bəyannaməsini imzalayaraq bu təşkilatı təsis etdilər. QİƏT-in əməkdaşlıq sahələri ticarət və sənaye, bank və maliyyə, nəqliyyat və rabitə, kənd təsərrüfatı, turizm, energetika, ətraf mühitin mühafizəsi, elm, təhsil və başqalarıdır (113, s.412-443). Üzv dövlətlərin əməkdaşlığı üçün geniş perspektivlər olmasına baxmayaraq təşkilat problemlərsiz də deyildir. Onun üzvü olan ölkələrdən Yunanıstanla Türkiyə, Rusiya ilə Ukrayna və Moldova, Albaniya ilə Yunanıstan, Türkiyə ilə Ermənistan arasında problemlər mövcuddur. Təşkilat üzvü olan Ermənistan digər üzv dövlətin - Azərbaycanın ərazilərinin 20 faizindən çoxunu işğal etmişdir. Gürcüstanda gürcü-abxaz, Moldovada Dnestryanı, Rusiyada Çeçenistan, Yunanıstanda Qərbi Trakiya, Ukraynada Krım kimi daxili problemlər artıq beynəlxalq və regional təşkilatlarda müzakirə obyektinə çevrilmişdir (35, s.95-96). Təbiidir ki, belə vəziyyət təşkilat üzvü olan ölkələr arasında səmərəli əlaqələrin inkişaf etdirilməsinə mane olur. Bu baxımdan üzv dövlətlər regionda siyasi problemlərin həlli üçün ciddi addımlar atmalı, beynəlxalq normaların pozulmasına yol verməməlidirlər. Nəzərə almaq lazımdır ki, ölkələr arasında geniş iqtisadi əlaqələrin qurulması bir sıra siyasi problemlərin həllində mövcud olan çətinlikləri yumşaldır. İqtisadi əməkdaşlıq siyasi münasibətlərin maddiləşməsi kimi çıxış edir. Azərbaycanın iqtisadi potensialı onun geniş əlaqələr qurmasına tamamilə imkan verir (115, s.219-221). Bu baxımdan Azərbaycan dövlətinin QİƏT daxilində əlaqələrinin böyük əhəmiyyəti vardır.





MDB-yə müqabil olaraq Mərkəzi Asiyanın türk dövlətləri və Azərbaycan danışılan dövrdə İqtisadi Əməkdaşlıq Təşkilatında fəaliyyətlərini daha da genişləndirdilər. Azərbaycan Respublikasının xarici siyasət strategiyasında **İqtisadi Əməkdaşlıq Təşkilatının** üzvü olan ölkələrə – Türkiyə, İran, Pakistan, Əfqanıstan və Mərkəzi Asiya dövlətləri ilə iqtisadi əməkdaşlığı mühüm yer tutur (113, s.403). Bu əməkdaşlığın təməlində geniş, qarşılıqlı fayda əsasında beynəlxalq ticarət əlaqələri yaratmaq və hər hansı şəkildə ayrı-seçkiliyə yol verməmək dayanır. Siyasi planda İƏT çərçivəsində əməkdaşlıq dövlətlərin öz suverenliklərini saxlamaq, xarici iqtisadi əlaqələri hər vasitə ilə genişləndirmək və müstəqil iqtisadi və maliyyə siyasəti aparmaq səylərinin həyata keçirilməsini təmin edir. Azərbaycanın beynəlxalq və regional iqtisadi təşkilatlarda iştirakı respublikanın beynəlxalq meydanda mövqelərinin möhkəmlənməsinə kömək edir. İqtisadi Əməkdaşlıq Təşkilatı beynəlxalq birlik tərəfindən tanınmışdır və digər məhəlli təşkilatlarla fəal əməkdaşlıq edir, geniş bir ərazidə iqtisadi

inteqrasiya ilə bağlı konkret vəzifələr yerinə yetirir. İqtisadi Əməkdaşlıq Təşkilatı beynəlxalq mütəxəssislər tərəfindən regional İslam dövlətlərinin nisbətən azad, müstəqil birliyi kimi qiymətləndirilir (75, s.176).

İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində üzv dövlətlər Ermənistan-Azərbaycan məsələsini dəfələrlə müzakirə etmiş, problemə münasibətlərini bildirmişlər. 1993-cü il iyul ayının 6-7-də İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının yüksək səviyyədə II görüşündə iştirak edən dövlət başçıları Ermənistanın Azərbaycana qarşı təcavüzünün davam etdirilməsi ilə bağlı bəyanat qəbul etmişlər. Bəyanatda Ermənistanın təcavüzkar hərəkətləri pislənir, qeyd edilirdi ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü BMT Nizamnaməsinin, beynəlxalq hüququn, insan hüquqları haqqında müahidənin və ATƏM sənədlərinin prinsip və məqsədlərini pozur. Görüşdə iştirak edən dövlətlər qüvvədən istifadə etmək yolu ilə ərazilər ələ keçirilməsinin yolverilməzliyi prinsiplərinə və siyasi üstünlüklərə nail olmaq məqsədilə qüvvə işlədilməməsi prinsipinə tərəfdar olduqlarını təsdiq edərək, dünya birliyini Ermənistana olan öz nüfuzundan istifadə etməyə və bu təcavüzə son qoymağa çağırırlar.

Təşkilatın II görüşündə iştirak edən üzv dövlətlər Ermənistana müraciət edərək bütün döyüş əməliyyatlarının dərhal dayandırılmasını və işğal olunmuş ərazilərdən erməni silahlı birləşmələrinin çıxarılmasını, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl olunmasını tələb etmiş, onu təcavüzkar mövqeyini dəyişməyə və bölgədə sabitliyin və sülhün bərqərar olmasına doğru aparan sülh siyasəti yeritməyə çağırmışlar.

Hər şeydən əvvəl müşavirədə Türkiyə, İran, Əfqanıstan, Pakistan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Tacikistan dövlət başçıları tərəfindən yekdilliklə qəbul olunmuş bəyanatda Ermənistanın Azərbaycana qarşı təcavüzünün davam etməsi və son vaxtlar genişlənməsi ilə əlaqədar narahatlıq ifadə edilmişdir. Ermənistanın Azərbaycana qarşı təcavüzü faktı açıq və birmənalı şəkildə təsdiq edilmişdir. Yeri gəlmişkən, Türkiyə, İran, Əfqanıstan və Pakistan bəyanata Ermənistana qarşı iqtisadi və siyasi sanksiyalar tətbiq olunmasına dair təklif daxil etməyə hazır idilər. Belə ki. Türkiyə 1993-cü ilin iyul ayında İqtisadi Əməkdaşlıq Təşkilatının İstanbulda keçirilən II görüşündə İran, Əfqanıstan və Pakistanla birlikdə görüş iştirakçısı olan dövlət başçılarının bəyanatına Ermənistanın Azərbaycana təcavüzkarlığının artmasına cavab kimi, ona qarşı iqtisadi sanksiyaların tətbiq edilməsinə dair bir bənd daxil etməyi təklif etdi. Lakin MDB üzvü olduqlarına görə Ermənistanla müəyyən müqavilə münasibətlərinin olduğunu bildirən Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan bu bəndin bəyanata daxil edilməməsi üçün xahiş etdilər (119, 10 iyul 1993). Fikrimcə, Mərkəzi Asiyanın türk-müsəlman dövlətlərinin Ermənistanla birlikdə MDB üzvü olmaları onların Ermənistanın Azərbaycana qarşı heç bir beynəlxalq normaya uyğun gəlməyən iddialarına münasibət bildirməmələrinə, problemə bitərəf mövqedən yanaşmalarına haqq qazandıra biləcək arqument sayıla bilməz. Və bu fakt Mərkəzi Asiyanın türk dövlətlərinin Azərbaycana münasibətində, təəssüf ki, yeganə misal deyil. Lakin buna baxmayaraq bəyanat üzv dövlətlər tərəfindən qəbul edildiyi şəkildə imzalandı. Halbuki, bu hadisəyədək bu dövlətlər (Mərkəzi Asiyanın türk dövlətləri) Qarabağ münaqişəsi barədə hər hansı bəyanat verməkdən çəkinirdilər (119, 10 iyul 1993).

1996-cı il mayın 13-14-də Heydər Əliyev Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) üzvü olan ölkələrin dövlət başçılarının IV Zirvə toplantısında iştirak edərkən mövcud görüş çərçivəsində bir çox dövlət başçıları ilə – Türkiyə, Türkmənistan, Qazaxıstan, Qırğızıstan prezidentləri ilə,

Türkmənistan parlamentinin sədri Səhhət Muradovla ikitərəfli görüşlər keçirdi (117, 15 may 1996). Türkiyə Prezidenti Süleyman Dəmirəl Zirvə toplantısında çıxışında bildirdi ki, Ermənistan-Azərbaycan münaqişəsi Cənubi Qafqazda sülhü və əmin-amanlığı pozan başlıca amildir. Münaqişə ATƏT çərçivəsində aradan qaldırılmalı, Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir. H.Əliyev çıxışında bildirdi ki, «dünya təcrübəsi göstərir ki, heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına tərəqqiyə nail ola bilməz. Məhz buna görə də, təşkilatda fəal iştirak etmək, təkcə iqtisadi maraqlarla deyil, həm də tarixi köklərin, ənənələrin, mədəniyyətin eyniliyi ilə bağlı olduğumuz qardaş ölkələrlə sıx əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin üstün istiqamətidir». Yəqin ki, elə bu səbəbləri nəzərə alan Rusiya keçmiş imperiyanın indi müstəqil dövlətlərinin Iqtisadi Əməkdaşlıq Təşkilatına üzvlüyünün MDB-daxili əməkdaşlığa «zərər vuracağı»ndan ehtiyat edir (75, s.176).

**Mərkəzi Asiya Regional İttifaqı.** 1993-cü ilin yanvar ayında Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Tacikistan respublikalarının dövlət başçıları Daşkənd görüşündə regional əməkdaşlığı nəzərdə tutan alyans – Mərkəzi Asiya Regional İttifaqını yaratmaq qərarlarını elan etdilər. İttifaq üzvləri həmçinin Rusiyanın türk-müsəlman muxtariyyətləri və ərazilərinin də (Tatarstan, Başqırdıstan, Volqaboyu, Şimali Qafqaz) alyansda iştirakını mümkün hesab etdiklərini bildirdilər. Bununla da üzv dövlətlər özlərinin Moskvadan asılı olmayan, müstəqil siyasət yeritmək istəklərini bir daha nümayiş etdirdilər.

Mərkəzi Asiya Regional İttifaqının yaranması və fəaliyyəti üzv dövlətlərin beynəlxalq vəziyyətinə və mövqeyinə əhəmiyyətli təsir göstərdi. Belə ki, yeni regional ittifaqın yaranmasına münasibət birmənalı olmadı. Türkiyə, Azərbaycan, həmçinin regionda bilavasitə maraqlı olan ABŞ, İsrail,





Səudiyyə Ərəbistanı bu addımı alqışladıqlarını və dəstəklədiklərini bildirdilər. Regionda özünəməxsus çəkiləri olan Çin və Hindistan yeni qurumun, yeni güc mərkəzinin yaranmasına bir qədər ehtiyatlı yanaşdılar. Rusiya və İran isə qurumun yaranmasını mənfi qarşıladılar. Rusiya İttifaqın dini, etnik birliyə əsaslandığını bildirərək onu «Böyük Türküstan» ideyasını gerçəkləşdirmək yolunda növbəti cəhd kimi qiymətləndirir, qurumun məqsədinin Rusiyanın cənub sərhədlərində «türk-müsəlman zolağı» yaratmaqla onu Mərkəzi Asiyadan təcrid etmək olduğunu bildirirdi. Rusiya həmçinin etiraf edirdi ki, qurumun fəaliyyəti Mərkəzi Asiyada və Orta Şərqdə onun həyati mənafelərinə toxunur. Belə ki, maraqlı dövlətlər qurumdan regionun enerjidaşıyıcılarını Qərbə Rusiyadan yan keçərək, Azərbaycan və Türkiyə vasitəsilə ötürmək niyyətlərini həyata keçirmək üçün istifadə edəcəklər (106).

Bu qurum da müstəqilliyin ilk illərində yaradılmış bir sıra digər ittifaq və birliklər kimi qarşıya qoyduğu məqsəd və vəzifələrin öhdəsindən tam şəkildə gələ bilmədi. Hələ də ittifaqdaxili əməkdaşlıq özünü bütün hallarda doğrultmur, obyektiv və subyektiv səbəblər üzündən hətta bəzi hallarda bir qədər problem xarakteri daşıyır.

**ÖGUAM.** Azərbaycanın müstəqillik əldə etməsindən sonra 1993-1996-cı illərdə həyata keçirdiyi Qərb siyasəti, Avropa və Amerika kapitallarının regiona nüfuzu, Azərbaycanın regional maraqlarının da reallaşmasında mühüm rol oynadı. Avropa strukturları ilə hərtərəfli inteqrasiya xətti götürmüş Azərbaycanın bu istiqamətdə fəal siyasətə üstünlük verən bir sıra region dövlətləri ilə üst-üstə düşən strateji maraqları nəticəsində neft ixrac kəmərlərinin və kommunikasiya sistemlərinin yaradılması Transqafqaz «Böyük İpək yolunun» «TRASEKA» proqramında maddiləşdirildi və bu zəmində «GUAM» alyansı - Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanın iştirakı ilə yeni regional qurum meydana gəl-

di. «GUAM alyansı» regionda inteqrasiya proseslərini şərtləndirən amillər kompleksinin yetirməsidir (116, 1996-cı il üçün hesabat, s.1-2). Strateji əhəmiyyətinə görə, GÜAM Avropaya çıxış yolu, «Qafqaz evi» ilə «Avropa evi»ni birləşdirən vasitə və ya «körpüdür» desək, səhv etmərik.

1999-cu ildə Özbəkistanın da bu quruma qoşulması müstəqil dövlətçilik mənafelərini, regional təhlükəsizliyi, Qərblə hərtərəfli əlaqələrin inkişafını üstün tutan sözügedən dövlətlərə öz məqsədlərinə nail olmaq üçün daha səmərəli əməkdaşlıq etməyə yeni imkanlar açdı (ətraflı məlumat üçün bax: 15, s.186-198). Bu dövlətlərin tədricən Avropa Şurasına inteqrasiyası, Böyük İpək yolu layihəsində fəal iştirakı, digər regional qurumlarda və iqtisadi layihələrdə qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsinə təkan verməklə yanaşı, Qərb dövlətləri ilə də maraqların uzlaşmasına, münasibətlərin inkişafına şərait yaratdı. Müstəqil dövlətçilik mənafelərinin qorunmasında bu ölkələrin Qərb dövlətləri ilə əlaqələrə xüsusi diqqət yetirməsi ABŞ və Avropanın aparıcı dövlətləri üçün yeni fəaliyyət məkanı açaraq Xəzər və Qara dəniz hövzələrinə, Mərkəzi Asiyaya siyasi və iqtisadi baxımdan çəkinmədən nüfuz etməsi üçün əlverişli mühit formalaşdırır (145, Ministry of Foreign Affairs GUOAM.htm).

Sonda beynəlxalq və məhəlli təşkilatlara üzvlük, onlarda əməkdaşlıqla bağlı bir məqamı qeyd etmək istərdik. Azərbaycan, Qazaxıstan, Qırğızıstan 43-dən çox (132), Özbəkistan 37-dən çox (132), Türkiyə, Türkmənistan 39-dan çox (132) beynəlxalq və məhəlli təşkilatın üzvüdür. Lakin, fikrimizcə, nə Azərbaycan, nə də ümumilikdə digər türk dövlətləri bu təşkilatlara üzv olmaqla, bu təşkilatlarda əməkdaşlıqla özlərinin mövcud problemlərinin həllində əməli yardım ala bilməyiblər. Əksinə, bəzi hallarda bu təşkilatlara üzv olduqlarına görə onlara qarşı ədalətsiz mövqe tutulur, xüsusən də Azərbaycan və Türkiyəyə qarşı, təzyiqlər göstərilir, onların





dövlət maraqlarına toxuna biləcək tələblər irəli sürülür. Bu. xüsusilə Ermənistanla münasibətlər məsələsində özünü açıq göstərir (məsələn: ATƏT, AŞ, AB təşkilatları, NATO-nun «Sülh naminə əməkdaşlıq proqramı» çərçivəsində). Lakin bütün bunlara baxmayaraq, məhəlli və beynəlxalq təşkilatların işində iştirak XX əsrin sonlarında müstəqillik əldə etmiş dövlətlərimizə dünya birliyinin digər üzvləri tərəfindən bərabərhüquqlu üzv kimi tanınmaqda, dünya inteqrasiya proseslərində daha yaxından iştirak etməkdə yardımçı olur. Bununla yanaşı, ölkələrimiz özlərinin dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik-hüquqi dövlətlər yaradılması, siyasi və iqtisadi islahatların həyata keçirilməsi, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi sahəsində qarşıda duran vəzifələrin yerinə yetirilməsində, həmçinin dövlətlərimiz və xalqlarımız arasında əlaqələrin daha da möhkəmlənməsində mühüm rolunu nəzərə alaraq həmin təşkilatlar çərçivəsində əməkdaşlıqlarını davam etdirirlər.

## 3.2.Türk dövlət başçılarının Zirvə toplantılarının ölkələrarası siyasi əlaqələrin inkişafında rolu

Türk dövlətləri arasında çoxtərəfli əlaqələrin qurulması və inkişaf etdirilməsi sahəsində dövlət başçılarının artıq ənənəvi xarakter almış Zirvə toplantıları xüsusi yer tutur. Zirvə toplantıları türk dövlətlərinin dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik-hüquqi dövlətlər yaradılması, siyasi prinsiplərin bərqərar edilməsi sahəsində qarşıda duran vəzifələrin yerinə yetirilməsində, türk dövlətləri və xalqları arasında əlaqələrin daha da möhkəmləndirilməsində özünəməxsus rol oynayırlar.

Zirvə toplantılarının keçirilməsi təşəbbüsü 1992-ci ildə Türkiyənin baş naziri Süleyman Dəmirəl tərəfindən irəli sü-

rülmüşdü. Həmin ilin may ayında Türkiyə Respublikasının baş naziri kimi Azərbaycana və Mərkəzi Asiyanın türk dövlətlərinə səfəri zamanı Süleyman Dəmirəl türk dövlətləri rəhbərlərinin iştirakı ilə Zirvə toplantıları keçirmək təşəbbüsü ilə çıxış etdi. Bu günədək türk dövlət başçılarının 7 Zirvə toplantısı keçirilmişdir. İlk toplantı 1992-ci il oktyabr ayının 30-31-də Ankarada, ikinci toplantı 1994-cü il oktyabr ayının 19-da İstanbulda, üçüncü toplantı 1995-ci il avqust ayının 28-də Bişkekdə, dördüncü toplantı 1996-cı il oktyabr ayının 21-22-də Daşkənddə, beşinci toplantı 1998-ci il iyunun 9-da Astanada, altıncı toplantı 2000-ci il aprel ayının 8-də Bakıda, yeddinci toplantı 2001-ci ilin aprel ayının 26-27-də İstanbulda keçirilmişdir.

Zirvə toplantıları türk xalqları arasında təşəkkül tapmış əlaqələrin və əməkdaşlığın tarixi, dil və mədəniyyət ümumiliyindən irəli gələn xüsusi amillərə müvafiq surətdə, müstəqillik, suverenlik, ərazi bütövlüyünə hörmət, bir-birinin daxili işlərinə qarışmamaq və bərabərlik prinsipləri əsasında möhkəmləndirilməsinə xidmət edir.

Türk dövlət başçılarının Zirvə toplantıları həmçinin türk dövlətləri arasında qarşılıqlı münasibətlər və əməkdaşlığın Avroasiyada sülh, təhlükəsizlik, sabitlik və iqtisadi inkişaf işinə kömək etməsini nəzərdə tutur.

Zirvə toplantıları Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının prinsiplərinin beynəlxalq münasibətlərdə vacibliyini, habelə həmin prinsiplərə, ən əvvəl dövlətlərin ərazi bütövlüyü prinsipinə və zor işlədilməsi yolu ilə onların sərhədlərinin dəyişdirilməsinin yolverilməzliyi prinsiplərinə hörmət edilməsinin zəruriliyini qeyd edir.

Zirvə toplantılarında türk dövlətləri arasında əlaqələrin və əməkdaşlığın vəziyyəti nəzərdən keçirilir, regional və beynəlxalq problemlər barəsində fikir mübadiləsi edilir.





1992-ci ilin oktyabr ayının 30-31-də Ankarada türk dövlət başçılarının ***I Zirvə toplantısı*** keçirildi (1992-ci il oktyabr ayının 28-də türk dövlət başçıları Türkiyə Respublikasının 69-cu ildönümü münasibətilə keçirilən tədbirlərdə iştirak etmiş və bundan sonra iki günlük Zirvə toplantısı keçirilmişdi (119, 30 oktyabr 1992)). Oktyabr ayının 31-də Türkiyə Böyük Millət Məclisinin salonunda Türkiyə Respublikasının Prezidenti Turqut Özal, Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Respublikasının Prezidenti Əskər Akayev, Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov, Türkmənistan Prezidenti Saparmurat Niyazov və Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl Ankara Zirvə toplantısının birgə Yekun bəyannaməsini imzaladılar. Birgə Bəyannamə imzalandıqdan sonra keçirilən mətbuat konfransında Türkiyə Prezidenti Turqut Özal bildirdi ki, türk dövlətləri arasında çoxtərəfli əlaqələr çox vacibdir. Bu əlaqələr dövlətlərimizin dünya birliyinə qovuşmasına imkan yaradır. Belə görüşlərin vaxtaşırı keçirilməsi, parlamentlər arasında əlaqələr yaradılması, informasiya-əlaqə şurasının yaradılmasının məqsədəuyğun olduğu bildirildi. Türkiyə Xarici İşlər naziri Hikmət Çətin bildirdi ki, Zirvə toplantılarının keçirilməsi türk dövlətləri arasında münasibətlərin inkişafında böyük əhəmiyyətə malikdir. Azərbaycan nümayəndə heyətinin üzvü, dövlət müşaviri, Azərbaycan Dövlət Neft Şirkətinin Prezidenti Sabit Bağırov bildirmişdi ki, Ankara bəyannaməsinin imzalanması türk dövlətləri arasında əlaqələrin inkişafı baxımından mühüm irəliləyiş və gələcəyə doğru böyük bir addımdır. Lakin buna baxmayaraq, türk dövlətlərinin iqtisadi birliyindən danışmaq hələ tezdir. Bunun üçün müəyyən vaxt lazımdır. Amma belə birlik mümkündür, hətta obyektiv zərurətdir və o, dövlətlərimizin ümumi mənafeyinə xidmət edəcəkdir.

1992-ci ilin oktyabr ayında Türkiyəyə səfərinin yekunları ilə bağlı mətbuat konfransı keçirən Azərbaycan Prezidenti Ə.Elçibəy bildirmişdi ki, səfərin ikinci hissəsi türk dövlət başçılarının yığıncağına həsr olunmuşdu. Bu barədə mətbuatda müxtəlif rəylər verilirdi. Türk dövlətləri arasında yaranmış yaxınlaşma prosesini çox böyük ehtiyatla aparmaq lazımdır. Digər ölkələrin mənafelərinə toxunmaq olmaz. Nə Türkiyənin, nə də Rusiyanın xətrinə dəymədən hərəkət etmək lazımdır. Bu, qorxu yox, siyasi etikadır. Əgər Rusiya ilə qarşılıqlı etimad, toxunulmazlıq, iqtisadi əlaqələr barədə müqavilələr imzalamışıqsa, Türkiyə görüşündə bunu nəzərə almalıyıq. Bu mənada Qazaxıstanın Prezidenti Nursultan Nazarbayevin mövqeyini başa düşmək olar.

Türkiyə mətbuatında böyük söz-söhbətə səbəb olmuş digər məsələ ondan ibarət olmuşdu ki, Azərbaycan Prezidenti Ə.Elçibəy təklif edirdi ki, türk dili BMT-də işlək dilə çevrilsin. Amma Qazaxıstanın Prezidenti Nursultan Nazarbayev bu məsələni hər bir ölkənin BMT-dəki nümayəndəsinə həvalə etməyi daha düzgün hesab edirdi. Azərbaycan Prezidenti bu fikirlə razılaşmış və bildirmişdi ki, BMT-dəki nümayəndələr dövlət başçılarından daha tez-tez görüşürlər və bu məsələni onlar daha asanlıqla yoluna qoya bilərlər.

Görüşdə təklif edildi ki, Bosniya-Hersoqovina, Kipr, Qarabağ, Tacikistan hadisələrinə münasibət bildirilsin, yekun kimi mətbuatda dərc olunacaq bəyannamə qəbul edilsin. Qarabağ probleminin müzakirə olunmasını Qazaxıstan Prezidenti Nursultan Nazarbayev təklif etsə də, Azərbaycan Prezidenti Ə.Elçibəy bununla razılaşmadı. Fikrini isə belə əsaslandırdı ki, belə çıxar ki, müsəlman-türk dövlətləri bir yerə yığışıb dindaşlarını müdafiə edirdər. Lakin buna baxmayaraq, Qarabağ məsələsi ilə bağlı müəyyən fikir mübadiləsi aparıldı (119, 10 noyabr 1992). Bununla bağlı Azərbaycan Prezidenti Əbülfəz Elçibəy qeyd etmişdi ki, müharibə indiyə qədər heç bir xalqa xeyir gətirməyib. Müharibələr həmişə sülhlə, danışıqlarla başa çatır və biz Azərbaycan torpağında sülhün bərqərar olması üçün əlimizdən gələni edəcəyik (119, 3 noyabr 1992).





Türk dövlət başçılarının Zirvə toplantısı ilə bağlı dünya mətbuatında müxtəlif fikirlər dərc olunurdu. Bunlara cavab olaraq, Türkiyənin Baş naziri Süleyman Dəmirəl Parisdə çıxan «Mond» qəzetinə müsahibəsində bildirmişdi ki, Türkiyə keçmiş Sovet İttifaqının xarabalıqları yerində meydana gəlmiş yeni müstəqil dövlətlərlə, ən əvvəl türk dövlətləri ilə hərtərəfli əməkdaşlığı inkişaf etdirmək niyyətindədir və onlar üçün «Qərbə açılan qapı» olmaq istəyir. Bu bir ildə çox işlər görülüb. Türkiyə adı çəkilən dövlətlərin rəhbərləri ilə daim sıx əlaqələr saxlayır (119, 24 noyabr 1992).

Ankarada əldə olunmuş razılığa görə ikinci Zirvə toplantısı 1993-cü il may ayının 2-də Bakıda keçirilməli idi (119, 3 noyabr 1992). Lakin MDB dövlət başçılarının həmin ərəfədə keçirilmiş Aşqabad görüşündə Rusiya Federasiyasının Prezidenti Boris Yeltsin Bakıda türk dövlət başçılarının toplantısının keçirilməsi ideyasının əleyhinə olduğunu bildirdi. Onun fikrincə, Ermənistanla Azərbaycan arasında mövcud münaqişənin daha da kəskinləşdiyi bir dövrdə Bakıda belə bir toplantının keçirilməsi MDB üzvü olan dövlətlər arasında münasibətlərə ciddi təsir göstərə bilərdi, başqa sözlə desək, Mərkəzi Asiya respublikalarının Ermənistanla münasibətlərində gərginlik yaranmasına səbəb olardı. Bundan başqa, mətbuatda Rusiya prezidentinin Özbəkistan prezidentinə müəyyən təzyiq göstərdiyi haqqında məlumatlar da verilirdi. Bir qədər sonra rəsmi mətbuatda türk dövlət başçılarının ikinci Zirvə toplantısının 1994-cü il yanvar ayının 21-22-də Bakıda keçiriləcəyi barədə Azərbaycan Respublikası Prezidentinin Mətbuat xidmətinin məlumatı dərc edildi (119, 11 yanvar 1994). Lakin bu dəfə də görüş baş tutmadı, nəticədə

türk dövlət başçılarının ***ikinci toplantısı 1994-cü ilin oktyabr ayında İstanbulda*** keçirildi.

II Zirvə toplantısında Ankara toplantısından keçən dövrdə siyasət, təhsil, mədəniyyət və iqtisadiyyat sahələrində, həmçinin digər sahələrdə ikitərəfli və çoxtərəfli münasibətlərin qənaətbəxş şəkildə inkişaf etdiyi qeyd edilmiş, bu əlaqələrin daha da möhkəmləndirilməsi üçün dövlətlərin siyasi iradələri təsdiqlənmiş, dövlətlərin demokratiya, insan hüquqlarına hörmət, sosial ədalət və bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan ictimai quruluşa tərəfdar olduqları bildirilmişdi.

Həmçinin dövlət başçıları toplantıda beynəlxalq, o cümlədən regional problemlərin geniş dairəsi barədə fikir mübadiləsi aparmış və baxışlarının oxşarlığını qeyd etmişdilər. Bununla əlaqədar bildirilmişdi ki, müstəqilliyə, suverenliyə, ərazi bütövlüyünə hörmət prinsiplərinə zor işlədilməsi yolu ilə dövlətlər arasında sərhədlərin dəyişdirilməsinin yolverilməzliyi prinsipinə riayət etmək məsqsədilə beynəlxalq təşkilatlar, ən əvvəl, BMT və ATƏM çərçivəsində səylərin davam etdirilməsi dünyada və regionda sülhün və təhlükəsizliyin təmin olunmasına kömək edəcəkdir. Dövlət başçıları BMT və ATƏM prinsiplərinin açıq şəkildə pozulması nəticəsində regionda yaranmış münasibətlərlə əlaqədar dərindən narahat olduqlarını bildirmiş və bütün tərəfləri yuxarıda göstərilən prinsiplərə riayət etməyə çağırmışdılar. Dövlət başçıları Ermənistanla Azərbaycan arasında münaqişəni BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında, sülh yolu ilə aradan qaldırmağın zəruriliyini qeyd etmiş, həmçinin Tacikistan və Əfqanıstan problemlərinin dinclikla, ədalətlə və qəti həll olunması yollarını axtarmağın zəruriliyini qeyd etmiş, Bosniya və Hersoqovina, Kipr məsələləri barədə fikir mübadiləsi aparmışdılar.

Dövlət başçıları regional və beynəlxalq məsələlərə dair onların ölkələri arasında müxtəlif səviyyələrdə aparılan məsləhətləşmələrin faydalılığını təsdiqləyərək, bu cür məsləhətləşmələrin müntəzəm surətdə keçirilməsinin, habelə ümumi mənafelər reallaşdırılarkən, o cümlədən beynəlxalq təşkilatlarda və beynəlxalq məclislərdə fəaliyyətlərinin əlaqələndirilməsinin və həmrəyliklərinin mümkünlüyünü qeyd etmişdilər.





Dövlət başçıları Zirvə toplantıları qərarlarının yerinə yetirilməsini nəzərdən keçirmək üçün və növbəti toplantılara hazırlıq görmək üçün xarici işlər nazirlərinin məsləhətləşmələr keçirmələrini qərara almışdılar.

Dövlət başçıları əmin olduqlarını bildirmişdilər ki, çox səmimi və əməli şəraitdə keçən İstanbul Zirvə toplantısı dövlətlər arasında əməkdaşlığın daha da möhkəmlənməsinə, regionda inkişafa və tərəqqiyə, sabitliyə, sülhə və təhlükəsizliyə öz töhfəsini verəcəkdir. Görüşlərin müntəzəm keçirilməsi haqqında Ankara Zirvə toplantısında qəbul edilmiş qərara uyğun olaraq dövlət başçıları növbəti toplantının 1995-ci ilin avqustunda Bişkek şəhərində keçirilməsi barəsində razılığa gəlmişdilər (119, 21 oktyabr 1994).

***1995-ci il avqust ayının 27-28-də türk dövlət başçılarının III Zirvə toplantısı*** keçirildi. Türk dövlət başçıları səfər zamanı həmçinin Bişkekdə qırğız xalqının «Manas» dastanının 1000 illik yubileyi münasibətilə keçirilən şənliklərdə iştirak etdilər. Yubiley şənliklərində 55 ölkənin nümayəndə heyəti iştirak edirdi. Mərasimi açan Qırğızıstan Prezidenti Əskər Akayev çıxışında bildirmişdi ki, türk dövlət başçılarının növbəti Zirvə toplantısı ərəfəsində bütün türklərin qəhrəmanlıq, məhəbbət və dostluq dastanı olan «Manas» kompleksinin açılışını xalqlarımızın birliyinin və həmrəyliyinin rəmzi kimi qiymətləndirir (117, 29 avqust 1995).

1995-ci il avqust ayının 28-də Bişkekdə türk dövlət başçılarının III Zirvə toplantısı işə başladı. Toplantıda dövlətlər Prezidentlər səviyyəsində təmsil olunmuşdular. Zirvə toplantısının gündəliyinə beynəlxalq və regional problemlərə dair

fikir mübadiləsi, türk dövlətləri arasında iqtisadi əməkdaşlığı genişləndirmək kimi məsələlər daxil idi. Mədəni-humanitar əlaqələrin inkişaf etdirilməsi ilə bağlı məsələlər də müzakirə olundu. Narkobiznesə və qanunsuz silah alverinə qarşı mübarizədə səyləri birləşdirmək problemi ayrıca nəzərdən keçirildi. Gündəlikdə qarşılıqlı maraq doğuran digər məsələlər də var idi.

Dövlət başçıları ikinci Zirvə toplantısından keçən on ay ərzində müstəqillik, suverenlik, ərazi bütövlüyünə hörmət, bir-birinin daxili işlərinə qarışmamaq və hüquq bərabərliyi prinsipləri əsasında əlaqələrin möhkəmləndiyini və əməkdaşlığın genişləndiyini yekdilliklə qeyd etdilər. Bildirdilər ki, türk ölkələri arasında münasibətlərin və əməkdaşlığın dərinləşməsi bölgədə sülh, təhlükəsizlik, sabitlik, əməkdaşlıq, sosial və iqtisadi tərəqqi işinə xidmət edir və heç kəsə qarşı yönəldilməmişdir.

Bişkek görüşündə dövlət başçıları öz ölkələrinin zəngin təbii sərvətlərinin, ilk növbədə qaz və neft yataqlarının işlədilməsi və hasil olunan yanacağın dünya bazarına tezliklə çıxarılması problemlərini də müzakirə etdilər.

Müzakirə olunan məsələlərin geniş bir dairəsi İstanbul bəyannaməsinin mədəni-humanitar əlaqələrə, birgə təhsil müəssisələrinin yaradılması, festivallar, mədəniyyət günləri və digər tədbirlərin keçirilməsi yolu ilə bu əlaqələrin daha da inkişaf etdirilməsinə dair müddəaları ilə bağlı idi.

Türk dövlət başçıları bölgədə davam edən və BMT, ATƏT prinsiplərinin açıqca pozulması ilə nəticələnən münaqişələr barədə də fikir mübadiləsi apardılar. İştirakçı dövlətlərin rəhbərləri Ermənistanla Azərbaycan arasında münaqişənin BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında dincliklə aradan qaldırılması üçün, Tacikistan və Əfqanıstan problemlərinin sülh yolu ilə və ədalətli həlli üçün səyləri artırmağın vacibliyinə də toxundular.





Dövlət başçıları Zirvə toplantısının yekunlarına dair Bişkek bəyannaməsini imzaladılar. Onlar Ankara bəyanatının və İstanbul bəyannaməsinin əsas müddəalarının vacibliyini təsdiqləyərək müstəqillik, suverenlik, bir-birinin ərazi bütövlüyünə hörmət, daxili işlərinə qarışmamaq və hüquq bərabərliyi prinsipləri əsasında öz xalqları arasında əməkdaşlığın möhkəmləndiyini və daha da inkişaf etdiyini qeyd etdilər, beynəlxalq münasibətlərdə BMT nizamnaməsinin və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının prinsiplərinə, o cümlədən dövlətlərin ərazi bütövlüyü və sərhədləri silah işlədilməsi yolu ilə dəyişməyin yolverilməzliyi prinsiplərinə əməl olunmasının vacibliyini bir daha nəzərə çarpdırdılar.

Bəyannamədə dövlət başçıları demokratiya, insan hüquqlarına hörmət, dünyəvilik, sosial ədalət və bazar iqtisadiyyatı prinsiplərinə sadiq qaldıqlarını bir daha təsdiqlədilər. Onlar türk xalqlarının böyük mədəni-tarixi irsinin qorunub saxlanmasına və geniş yayılmasına yönəldilmiş birgə səylərin davam etdirilməsinə tərəfdar olduqlarını bildirdilər.

Sənəddə deyilir ki, iştirakçı ölkələrin xalqlarını tarixi, dil və mədəni yaxınlıqla yanaşı, uzun perspektiv üçün inkişafın müxtəlif sahələrində vəzifələrin ümumiliyi də bir-birinə bağlayır. Bəyannamədə iqtisadi inkişaf və firavanlıq üçün regional əməkdaşlığın vacibliyi bir daha təsdiqlənərək, beynəlxalq öhdəliklərə ziyan vurmadan ölkələrimiz arasında çoxtərəfli və ikitərəfli iqtisadi əməkdaşlığı inkişaf etdirməyin məqsədəuyğun olduğu bildirildi.

Dövlət başçıları TÜRKSOY-un fəaiyyətinin əhəmiyyətini, ümumi mədəni dəyərlərin inkişaf etdirilməsində və yayılmasında bu təşkilatın mühüm rol oynadığını qeyd etdilər. Onlar kütləvi informasiya vasitələri arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacib olduğunu vurğuladılar.

Bəyannamədə bəşəriyyətin genetik ehtiyatlarına mənfi təsir göstərən ekoloji amillərin artması ilə əlaqədar ciddi na-

rahatlıq ifadə edildi. Dövlət başçıları belə bir yekdil fikrə gəldilər ki, insanın təbii yaşayış mühitinin qorunub saxlanması üçün iştirakçı ölkələrin səylərini və imkanlarını birləşdirmək lazımdır. Separatçılığa, terrorizmə qarşı mübarizə aparmağın, hərbi münaqişələrin qarşısının alınmasının zəruriliyi kimi məsələlər də bəyannamədə öz əksini tapdı.

Prezidentlər Ermənistan-Azərbaycan münaqişəsini BMT Təhlükəsizlik Şurasının müvafiq qətnaməsi əsasında dinclikla aradan qaldırmağın zəruriliyini təsdiq etdilər. Onlar Tacikistan və Əfqanıstan problemlərinin dincliklə və ədalətli həll olunması yollarının axtarışına tərəfdar olduqlarını bildirdilər. Sənəddə göstərilirdi ki, BMT və ATƏT regional münaqişələrin aradan qaldırılmasında daha səmərəli rol oynamalıdırlar.

Türk dövlətlərinin başçıları belə bir ümumi rəyə gəldilər ki, narkobiznesə, habelə qanunsuz silah alverinə qarşı mübarizə məsələlərində vahid siyasət yeritmək lazımdır. Onlar həmçinin bildirdilər ki, terrorizm müasir dövrün ən ciddi problemlərindən biridir və ona qarşı mübarizə aparmaq üçün beynəlxalq əməkdaşlıq zəruridir.

Dövlət başçıları əmin olduqlarını bildirdilər ki, səmimi dostluq mühitində və əməli şəraitdə keçən yüksək səviyyədə Bişkek görüşü türk dövlətlərinin inkişafına və tərəqqisinə, onların arasında əməkdaşlığın daha da möhkəmlənməsinə, bölgədə sabitliyin, sülhün və təhlükəsizliyin təmin edilməsinə öz töhfəsini verəcəkdir.

Zirvə toplantısından sonra prezidentlər mətbuat konfransı keçirdilər. Azərbaycan Prezidenti H.Əliyev mətbuat konfransında çıxış edərkən bildirdi ki, çox sevindirici haldır ki, Avrasiya məkanının xeyli hissəsini, böyük iqtisadi potensialını, insan potensialını birləşdirən ölkələrimiz müstəqil dövlətlər, dünya birliyinin bərabərhüquqlu üzvləri kimi artıq regional əməkdaşlığa başlayıblar. Azərbaycan da bir sıra





dövlətlər kimi keçid dövrünü yaşayır. Və öz dövlət quruculuğu yolunda ciddi maneələrlə qarşılaşır. Uzun illərdir ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü davam edir. Nəticədə Azərbaycan torpaqlarının 20 faizindən çoxu işğal olunub, 1 milyondan çox vətəndaşımız qaçqın düşüb, ağır şəraitdə çadırlarda yaşayır. Lakin böyük itkilərə və qurbanlara baxmayaraq Azərbaycan tərəfi münaqişənin sivilizasiyalı, siyasi yollarla, ATƏT və onun Minsk qrupu çərçivəsində həll olunmasına, regionda ədalətli beynəlmiləl qanunlara söykənən sülhün və əmin-amanlığın bərqərar edilməsinə çalışır. Məsələnin siyasi yolla həll olunması üçün ermənilər öz qoşunlarını Şuşa və Laçın da daxil olmaqla Azərbaycanın işğal olunmuş bütün torpaqlarından çıxarmalıdırlar. Azərbaycan müharibə etmək istəmir. Biz torpaqlarımızın müdafiəsinə qalxmışıq. Ermənistanın hərbi təcavüzünə qarşı, respublikamızın ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizə aparırıq. Biz bütün dünya dövlətləri tərəfindən qəbul olunmuş beynəlxalq hüquq normalarına hörmət olunmasını, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasını tələb edirik. BMT Təhlükəsizlik Şurasının, İslam Konfransı Təşkilatının erməni təcavüzünü pisləyən və erməni işğalçı qoşunlarının işğal olunmuş bütün torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinin həyata keçirilməsini tələb edirik. Ötən ilin may ayında əldə edilmiş atəşkəs barədə sazişə 15 aydır ki, riayət olunur. Lakin «nə müharibə, nə sülh» şəraiti əbədi olaraq davam edə bilməz. Müharibəyə son qoyulmalı, işğal edilmiş Azərbaycan torpaqları azad olunmalıdır.

Azərbaycan Prezidenti fürsətdən istifadə edərək, Zirvə görüşündə iştirak edən dövlət başçılarını öz imkanlarından istifadə edərək bu münaqişənin tezliklə həll edilməsi, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi və 1 milyondan çox qaçqının öz doğma yurd-yuvasına qaytarılması işində əllərindən gələn köməyi etməyə çağırdı. Belə ki, bütün ölkələ-

rin ərazi bütövlüyünün qorunması, dünyanın bir çox regionlarında son zamanlarda geniş surətdə yayılmağa başlamış separatizmə və terrorizmə qarşı ciddi mübarizə aparılması, BMT-nin nizamnaməsinə, ATƏT-in prinsiplərinə əməl edilməsi, onların fəal surətdə həyata keçirilməsi hər bir dövlətin ayrılıqda və hamının birlikdə borcudur.

Bişkek görüşü göstərdi ki, türk dövlət başçılarının Zirvə toplantıları artıq ənənəyə çevrilir, yeni yaranmış dövlətlərin həyatında öz yerini tutur və bu görüşlər davam edəcəkdir. Zirvə toplantısında dövlət başçıları dünyada gedən proseslər, öz ölkələri arasında əlaqələrin inkişaf etdirilməsi barədə qeyri-rəsmi söhbətlər, müzakirələr apardılar. Azərbaycan Prezidenti belə söhbətlərdə Xəzəryanı ölkələrin əməkdaşlıq etməsinin mühüm olduğunu xüsusi qeyd etmişdi. Bu fikri digər türk dövlət başçıları da qeyd etdilər. Doğrudur, Türkiyə, Özbəkistan və Qırğızıstan Xəzəryanı dövlət deyillər, amma onların da bu məsələdə maraqları var. Söhbətlərdə Xəzərin təbii sərvətlərindən, onun kommunikasiya, nəqliyyat imkanlarından istifadə olunması məsələləri barədə danışıqlar aparıldı.

***Dövlət başçılarının IV Zirvə toplantısı 1996-cı il 21-22 oktyabrda Daşkənddə keçirildi.*** Görüşdən əvvəl Prezidentlər Əmir Teymurun yubileyinə həsr olunmuş mərasimdə iştirak etdilər (116, 23 oktyabr 1996, sənəd №437/42). Forumda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Respublikasının Prezidenti Əskər Akayev, Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl, Türkmənistan Prezidenti Saparmurat Niyazov, Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov iştirak edirdilər. Gündəlikdə dövlətlərarası ticarət-iqtisadi və humanitar münasibətlərin inkişaf etdirilməsi və möhkəmləndirilməsinin təşkilati prinsipləri haqqında, türk dövlətlərinin tarixində əlamətdar gün-





lərin qeyd olunması haqqında, türk dövlət başçılarının növbəti Zirvə toplantısının keçiriləcəyi yerin və vaxtın müəyyənləşdirilməsi məsələlərinin müzakirəsi nəzərdə tutulmuşdu.

Prezidentlər çıxışlarında qeyd etdilər ki, türk dövlət başçılarının Zirvə toplantıları ölkələrimizin dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik-hüquqi dövlətlər yaradılması, siyasi və iqtisadi islahatların həyata keçirilməsi, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi sahəsində qarşıda duran vəzifələrin yerinə yetirilməsində, ölkələrimiz və xalqlarımız arasında əlaqələrin daha da möhkəmlənməsində mühüm rol oynayır.

Kommunikasiya sistemlərinin tikintisinə dair layihələrin əməli surətdə həyata keçirilməsi sahəsində görülmüş işlərdən bəhs edildi. Bildirildi ki, bu sistemlər ölkələrimizi bir-biri ilə sıx bağlayacaq, qarşımızda Avropaya, Asiyaya, Yaxın və Orta Şərqə yollar açacaqdır. Avropa İttifaqının iştirakı ilə həyata keçirilən, vaxtilə Avropanı Asiya ilə bağlayan məşhur İpək Yolunun təcəssümü olan TRASEKA layihəsi məhz belə layihədir. Mərkəzi Asiyanı ən qısa və etibarlı yol ilə Avropa ilə birləşdirəcək Transqafqaz dəhlizindən istifadə etmək barədə Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstan arasında bağlanmış Sərəxs sazişləri (1996-cı il) də bu məqsədə xidmət edir. Qazaxıstan da bu sazişə qoşulmaq niyyətini bildirmişdir. Toplantı çərçivəsində keçirilən Qırğızıstan və Azərbaycan Prezidentlərinin görüşü zamanı Ə.Akayev Transqafqaz dəhlizindən birgə istifadə etmək barədə Sərəxs sazişinə Qırğızıstanın da qoşulmaq niyyətini bildirdi (119, 24 oktyabr 1996).

Toplantıda həmçinin beynəlxalq prinsiplərin açıq şəkildə pozulmasının nəticəsi olan və davam edən münaqişələrdən bəhs edildi. Ermənistanla Azərbaycan arasındakı münaqişənin sülh yolu ilə aradan qaldırılmasının zəruriliyinə toxunan

dövlət başçıları həmin münaqişəyə son qoyulmamasının regionda sülh prosesinə, etimadın möhkəmlənməsinə və təhlükəsizliyə ciddi ziyan vurduğunu nəzərə çatdırdılar.

Oktyabr ayının 22-də Prezidentlər Daşkənd Bəyannaməsini imzaladılar. Bəyannamədə dövlət başçıları öz aralarında müxtəlif sahələrdə ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafından razı qaldıqlarını bildirmiş, bu münasibətləri daha da genişləndirməyin və dərinləşdirməyin zəruri olduğunu qeyd etmiş; demokratiya, insan hüquqlarına hörmət və bazar iqtisadiyyatı prinsiplərinə möhkəm və dəyişməz sadiqliklərini bir daha təsdiqləmiş; ölkələr arasında əlaqələrin daha da genişləndirilməsinə, türk xalqlarının zəngin mədəni-tarixi irsinin geniş yayılmasına tərəfdar çıxmış; qeyd etmişlər ki, türk xalqlarının mədəni, dil və mənəvi dəyərlər birliyinə əsaslanan əməkdaşlığının daha da inkişaf etdirilməsi sahəsində TÜRKSOY təşkilatı qarşısında mühüm vəzifələr durur və onlar bu təşkilatın fəallığını yüksəltməyi zəruri hesab edirlər. TÜRKSOY-a tapşırıldı ki, türk sivilizasiyası ilə bağlı tarixi günlərin təqvimini hazırlasın, bayram şənliklərinə mədəniyyət sahəsində beynəlxalq təşkilatların, ilk növbədə YUNESKO-nun cəlb olunması imkanını öyrənsin. Böyük Türk Xaqanlığının 1450 illiyinin birgə keçirilməsi məqsədilə tədbirlər planı hazırlasın. İnformasiya mübadiləsi sahəsində yaranmış müsbət dəyişikliklərin olduğu bildirilmiş və bu əlaqələrin, rabitə vasitələrinin qarşılıqlı fəaliyyətinin daha da gücləndirilməsinin zəruriliyi qeyd edilmişdi.

Dövlət başçıları regionda sərfəli nəqliyyat sistemlərinin inkişaf etdirilməsinin zəruriliyini vurğulamış, Transqafqaz dəhlizi işə salınmaqla tranzit və dəmiryolu əlaqəsinə dair dördtərəfli Sərəxs razılaşmasının (1996) tezliklə reallaşmasına tərəfdar çıxmış və Avropa Birliyinin TRASEKA layihələrinə dair səylərini bəyənmişlər. Onlar «Şimal-Cənub» nəqliyyat dəhlizinin bir hissəsi kimi Hind okeanına çıxmaqla «Mərkəzi Asiya-Əfqanıstan-Tacikistan» nəqliyyat yolunun yaradılması təşəbbüsünü dəstəkləmişlər.





Dövlət başçıları həmçinin BMT İnkişaf Proqramını. Ümumdünya Bankını, Beynəlxalq Valyuta Fondunu və Regional İnkişaf Bankını daha çox fəallıq göstərib, türk dövlətlərinin hər birinə keçid dövrü üçün fəaliyyət strategiyasının işlənib hazırlanmasında bu ölkələrlə əməkdaşlığı genişləndirməyə çağırmışlar. Toplantıda terrorizm və separatçılıqla mübarizə aparmaq üçün beynəlxalq əməkdaşlığın zəruri olduğu bir daha qeyd edilmişdi.

Dövlət başçıları müntəzəm surətdə qarşılıqlı məsləhətləşmələr aparılmasının və təşkilati-texniki işlər görülməsinin, qəbul olunmuş qərarların reallaşdırılmasına nəzarət edilməsinin zəruriliyini vurğulayaraq Türk Dövlət Başçılarının Görüşlərinin Katibliyinin (TDBGK) yaradılması haqqında razılığa gəldilər. Katibliyin əsasnaməsinin hazırlanması Xarici İşlər nazirlərinə tapşırıldı. Katibliyə türk dövlət başçılarının görüşlərinin materiallarını hazırlamaq, türk dövlətlərinin dilinin, mədəniyyətinin və nailiyyətlərinin təbliğinə həsr olunmuş seminarlar, konfranslar və simpoziumlar keçirmək, türk xalqlarının keçmiş və indiki həyatına dair tarixi, ədəbi mənbələri axtarmaq, seçmək və nəşrə hazırlamaq vəzifələri tapşırıldı.

Qeyd olundu ki, Daşkənd görüşü türk dövlətlərinin əməkdaşlığının bundan sonrakı inkişafında, həmçinin regionda sülhün təmin edilməsində mühüm mərhələ olacaqdır.

Növbəti görüşün 1997-ci ilin dördüncü rübündə Qazaxıstan Respublikasının paytaxtında keçirilməsi haqqında razılığa gəlindi (119, 24 oktyabr 1996).

***Beşinci görüş 1998-ci il iyunun 9-da Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində keçirildi.*** Toplantıda dövlət başçıları dövlətlərarası əməkdaşlığın bütün sahələrində

dostcasına, bərabər hüquqlu və qarşılıqlı surətdə faydalı münasibətlərin yüksək səviyyəsini vurğulayaraq, tarix, dil və mədəniyyətin ümumiliyini əsas tutaraq, müstəqillik, suverenlik, ərazi bütövlüyü və dövlət sərhədlərinin pozulmazlığı, hüquq bərabərliyi, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə hörmət bəslənməsi, zor işlətməkdən və zor işlətməklə hədələməkdən, iqtisadi və hər hansı digər təzyiq metodlarından imtina edilməsi əsasında dövlətlərin siyasi və iqtisadi təhlükəsizliyini möhkəmlətməyə, təbii ehtiyatlardan tam və səmərəli istifadə olunması əsasında xalqların rifahını yüksəltməyə, milli iqtisadiyyatları dinamik inkişaf etdirməyə çalışaraq; əvvəlki Zirvə toplantılarında qəbul olunmuş bəyannamələrin varisliyini təsdiq edərək; BMT Nizamnaməsinin, ATƏT-in Helsinki Yekun Aktının və digər əsas sənədlərinin məqsəd və prinsiplərinə sadiq olduqlarını ifadə edərək; dostluq, mehriban qonşuluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsinin onların dövlətlərinin xalqlarının ümdə mənafelərinə uyğun olduğunu, sülh və təhlükəsizlik işinə xidmət etdiyini hesab edərək; qarşılıqlı surətdə faydalı və bərabər hüquqlu əməkdaşlığa yeni təkan verilməsinin zəruriliyini nəzərə çatdıraraq; ölkələr arasında münasibətlərin vəziyyətini və əməkdaşlığı inkişaf etdirməyin perspektivlərini nəzərdən keçirərək, bir sıra beynəlxalq və regional problemlər barədə fikir mübadiləsi apararaq bəyan etmişlər ki, müxtəlif sahələrdə çoxtərəfli və ikitərəfli əməkdaşlığın, habelə beynəlxalq təşkilatlar çərçivəsində sıx qarşılıqlı fəaliyyətin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsinin zəruriliyini vurğulayır, demokratiya prinsiplərinə, insan hüquqlarına əməl olunmasına sadiq olduqlarını bir daha təsdiq edirlər.

Dövlət başçıları regional və qlobal miqyasda sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunması naminə açıqlığa





və geniş qarşılıqlı fəaliyyətə, münaqişələrin dincliklə aradan qaldırılmasına sadiq qaldıqlarını təsdiq etmiş və ümumi sülhün və təhlükəsizliyin qorunub saxlanması işində BMT-nin, ATƏT-in və digər beynəlxalq təşkilatların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə kömək göstərməyə hazır olduqlarını bildirmişdilər.

Dövlət başçıları gərginliyin güclənməsinə, qaçqınların və köçkünlərin artmasına, humanitar vəziyyətin gərginləşməsinə, sosial-iqtisadi infrastrukturun dağılmasına gətirib çıxaran və dövlətlərin təhlükəsizliyinə qorxu yaradan təcavüzün və münaqişə regionlarının hərbiləşdirilməsinin hər cür təzahürlərini pisləmişdilər. Dövlət başçıları BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsinə dair qətnamələrinə tərəfdar olduqlarını bildirərək, bu münaqişənin ATƏT-in Lissabon sammitinin üç prinsipi əsasında sülh yolu ilə aradan qaldırılmasını dəstəklədiklərini bir daha təsdiq etmişdilər.

Dövlət başçıları terrorizmə, dini ekstremizmə və separatizmə qarşı mübarizədə beynəlxalq əməkdaşlığın səmərəli mexanizmini yaratmağın, habelə bu sahədə informasiya mübadiləsinin zəruriliyini bir daha vurğulamışdılar.

Türk dövlət başçıları görüşlərinin Katibliyinin mühüm rolu qeyd edilmiş və Türkiyədə daimi Katiblik yaratmaq qərara alınmışdı.

Dövlət başçılarının beşinci görüşü xalqlar arasında dostluğun, geniş və hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsinə və möhkəmləndirilməsinə böyük töhfə vermiş və türk dövlətlərinin xalqları arasında sıx əlaqələrin daha da dərinləşməsində, habelə regionda sülhün və sabitliyin təmin edilməsində mühüm mərhələ olmuşdur.

***Altıncı Zirvə toplantısı 2000-ci il aprelin 8-də Bakı şəhərində, yeddinci toplantı isə 2001-ci ilin aprel ayının 26-27-də***

***İstanbulda keçirilmişdir.*** Bu görüşlər tədqiqatın xronoloji çərçivəsindən kənarda qaldığı üçün onların haqqında geniş danışmayacağıq. Sadəcə, qeyd etməklə kifayətlənəcəyik ki, bu görüşlərdə də əvvəlki görüşlərdə olduğu kimi, türk dövlətləri arasında qarşılıqlı əməkdaşlığın cari vəziyyəti, inkişaf perspektivləri, həlli vacib olan məhəlli və beynəlxalq məsələlər və s. müzakirə edılərək, müvafiq qərarlar qəbul edilib. Və növbəti görüşlərin keçiriləcəyi yer və vaxt müəyyənləşdirilib. Lakin, qeyd etmək istərdik ki, sonuncu görüşdən 4 ildən artıq vaxt keçdiyinə baxmayaraq dövlət başçılarının növbəti toplantısı hələ də keçirilməyib.

Türk dövlət başçılarının Zirvə toplantıları materiallarının araşdırılması aydın göstərir ki, Zirvə toplantıları türk dövlətləri arasında çoxtərəfli əməkdaşlıqda özünəməxsus yer tutur. Bu səviyyəli görüşlər türk xalqlarının tarixi inkişaf yollarının ümumiliyini nəzərə almaqla onları XXI əsrdə əməkdaşlığın yeni, daha yüksək səviyyəsinə çıxarmağa, xalqlar arasında yaxınlaşmaya xidmət edir.

### 3.3.Azərbaycanın türk dövlətləri ilə siyasi əməkdaşlığında neft strategiyası və kommunikasiya diplomatiyasının yeri

Qafqaz regionunda iri enerji hasil edən ölkə olan Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətində neft strategiyası mühüm yer tutur. Ümumiyyətlə, qeyd olunmalıdır ki, müasir dövrdə xarici iqtisadi əlaqələr dövlətlərin xarici siyasət fəaliyyətinin mühüm tərkib hissəsini təşkil edir. Bu baxımdan Azərbaycan Respublikasının da xarici siyasət fəaliyyətində iqtisadi diplomatiya böyük yer tutur. Belə ki, hazırda Azərbaycan Respublikası özünün coğrafi mövqeyindən, dünya miqyaslı coğrafi-strateji əhəmiyyətə malik olan təbii ehtiyatlarından və potensialından istifadə əsasında bir çox dövlətlərlə, o cümlədən türk dövlətləri ilə səmərəli əməkdaşlıq edir, yeni-yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulur, Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı, Xəzər dənizinin ehtiyatlarının işlənməsi və dünya bazarlarına çıxarılması layihələrini həyata keçirir (21, s.262-263).





Müasir dövrdə beynəlxalq münasibətlər sistemində gedən proseslərin ən əsas xarakterik xüsusiyyəti bu münasibətlərin qloballaşmasıdır. Qloballaşma prosesləri bu cür münasibətlərə qoşulan ölkələrin iqtisadi, sosial, hüquqi, siyasi, hərbi və s. fəaliyyətini əhatə edir. Qloballaşma beynəlxalq münasibətlərın əsas sferası olan dünya təsərrüfat əlaqələrini daha sürətlə əhatə etməkdədir. Qlobal dünya təsərrüfat münasibətləri beynəlxalq iqtisadi münasibətlərin bütün formalarını: xarici ticarət, kapitalın hərəkətini, əmək resurslarının, texnologiya, informasiya, sahibkarlıq qabiliyyəti, inteqrasiya əməkdaşlığı və s. özündə cəmləşdirməklə çox dinamik və obyektiv bir prosesdir. Bu proses ayrı-ayrı dövlətlərdə xarici iqtisadi fəaliyyətin milli tənzimləmə sistemlərinə öz təsirini göstərir. Bu baxımdan, ölkə iqtisadiyyatının bazar iqtisadiyyatına transformasiyası və həmçinin dünya iqtisadiyyatına inteqrasiya olunduğu müasir dövrdə yeni yaranmış türk dövlətləri müstəqillik əldə etdikdən sonra milli iqtisadiyyatlarının prinsip və problemlərinin, xarici-iqtisadi fəaliyyətlərinin üstün istiqamətlərinin müəyyənləşdirilməsi və bu sahədə əməli tədbirlərinin həyata keçirilməsi sayəsində dünyada gedən qloballaşma proseslərində iştiraka cəlb olunublar.

Ümumiyyətlə, türk dünyası tarixi inkişafın bir çox mərhələlərində bəşəriyyətin inkişafına təkan vermiş, dünya hadisələrinə, mədəniyyətinə, iqtisadiyyatına konkret təsir göstərmişdir. Bu gün də altı müstəqil türk dövləti – Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənis-

tan BMT-nin və bir sıra təşkilatların üzvü kimi bəşəri problemlərin həllində fəal iştirak edirlər. Bununla belə, onların iqtisadi dirçəlişi üçün hələ də istifadə olunmayan geniş imkanlar vardır. Adları çəkilən 6 dövlət dünya üzrə ümumi daxili məhsulun 1,44 faizini, sənaye məhsulunun isə 1,29 faizini istehsal edir. Son illərdə bu dövlətlərin dünya üzrə istehsal olunan ümumi məhsulun həcmində xüsusi çəkisi artmışdır (ətraflı məlumat üçün bax: 40, 42, 114, 115).

Türk dünyası ölkələri yanacaq-enerji resurslarına görə xeyli dərəcədə yaxşı təmin olunmaları ilə fərqlənirlər (115, s.206-218). Dövlət müstəqilliyi şəraitində həmin resurslardan səmərəli istifadə edilməsi beynəlxalq kapitalın bu ölkələrə axmasına, dünyanın qabaqcıl ölkələrinin investorlarının iş təcrübəsindən, bir sözlə, neft faktorundan səmərəli istifadə olunmasına geniş imkan yaradır. Dünyanın ümumi 45 milyon kv. km-lik neftli-qazlı sahəsinin 6,6 faizi türk dünyası ölkələrinin payına düşür. Lakin türk dövlətlərinin özlərinin iqtisadi inkişaf səviyyəsində də böyük fərqlər mövcuddur, bundan başqa ölkələrin ərazisində neft və təbii qaz ehtiyatları qeyri-bərabər paylanmışdır. Bunları əsas götürərək türk dövlətləri yanacaq məhsullarına olan tələbatı ödəmək üçün özləri arasında qarşılıqlı iqtisadi münasibətləri dərinləşdirməlidirlər. Çünki qloballaşma qanunauyğun və ziddiyyətli bir prosesdir və bütün ölkələrin bu prosesdə iştirakının imkanları, amilləri və formaları eyni deyildir. Bu, hər bir ölkənin iqtisadi inkişaf səviyyəsindən, maddi, texniki, təbii imkanlarından və siyasi durumundan asılıdır.

Azərbaycanın mövcud iqtisadi, insani, elmi potensialı, təbii sərvətləri, çoğrafi mövqeyi onun iqtisadi qloballaşma prosesində iştirakına maddi əsas yaradır. Dövlətin siyasi durumu, fəal xarici siyasəti, beynəlxalq nüfuzu və çoxsaylı beynəlxalq təşkilatlarda iştirakı da qloballaşma pro-





sesinə qoşulma meylini gücləndirir. Ancaq iqtisadi qloballaşma milli iqtisadiyyatın zəifləməsinə deyil, onun iqtisadi müstəqilliyinin daha da möhkəmləndirilməsinə, dövlət müstəqilliyinin qorunub saxlanılmasına xidmət etməlidir. Vahid qlobal sistemdə hamı güclü olmalı və yaxşı yaşamalıdır.

Azərbaycanın qlobal iqtisadiyyata qoşulmasının əsas istiqamətləri bunlardır: 1.Əsas təbii sərvəti olan karbohidrogen ehtiyatlarının hasil edilməsi, emalı və dünya bazarına çıxarılması məqsədilə dünyanın nüfuzlu sərvətlərinin respublika iqtisadiyyatına cəlb edilməsi; 2.Azərbaycanın Avrasiya nəqliyyat sisteminə, TRASEKA proqramına qoşulması; 3.Xarici investisiyaların iqtisadiyyatın qeyri-neft sektoruna cəlb edilməsi və xarici investisiyalı müəssisələrin yaradılması (tədqiq olunan dövrdə qənaətbəxş olmayıb - S.R.); 4.Xarici ticarətin inkişaf etdirilməsi və idxal-ixrac əməliyyatlarının genişləndirilməsi.

«Əsrin müqaviləsi», «Bakı-Tbilisi-Ceyhan» boru kəmərinin reallaşması istiqamətində atılan cəsarətli addımlar türk dövlətlərinin dünya təsərrüfatında, həmçinin qlobal, regional problemlərinin həllində rolunun artmasına şərait yaratmalıdır (61).

1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi» ilə başlanan beynəlxalq neft kontraktlarının sayı artıq 20-ni keçmişdir. Bu müqavilələrə görə Azərbaycan iqtisadiyyatına yaxın 30 il müddətində 50 milyard ABŞ dollarından çox xarici investisiya cəlb ediləcəkdir. 1995-2000-ci illərdə artıq Azərbaycan iqtisadiyyatına 5793,5 milyon dollar xarici investisiya yönəldilmişdir. Bu investisiyaların 3318,5 milyon dolları, başqa sözlə, 57,3 faizi neft sənayesinə cəlb edilmişdir. Ölkənin ümumi daxili məhsulunda (ÜDM) neft sektorunun əlavə dəyərinin xüsusi çəkisi (payı) 1998-ci ildə 10,5 faiz, 1999-cu ildə

16,3 faiz, 2000-ci ildə 25 faiz olmuşdur. 2000-ci il ərzində Azərbaycandan 1464,9 milyon dollar dəyərində 7616,1 min ton və ya əvvəlki ilə nisbətən 12,9 faiz çox neft məhsulları ixrac olunmuşdur.

1999-cu il noyabrın 18-19-da ATƏT üzvlərinin İstanbulda keçirilmiş Zirvə görüşündə Azərbaycan, Türkiyə, Türkmənistan, Gürcüstan və Qazaxıstan Bakı-Tbilisi-Ceyhan neft və qaz kəmərlərinin inşası haqqında sənədlər imzaladılar. İmzalama mərasimində ABŞ Prezidenti B.Klinton da iştirak edirdi. Bununla Amerika tarixi sənədləri imzalamış ölkələrlə həmrəy olduğunu təsdiqlədi, yeni suveren dövlətlərlə uzunmüddətli əməkdaşlıq əzmini nümayiş etdirdi (117, 4 noyabr 2000).

Məlum olduğu kimi, Xəzərin Azərbaycan sektorunda çıxarılan ilkin neft Rusiya ərazisindən keçməklə şimal marşrutu ilə nəql olunmağa başladı. Sonra isə Çeçenistanda gedən müharibə nəticəsində şimal marşrutu ilə ixrac dayandı və nəticə etibarilə Azərbaycan milyonlarla dollar gəlirdən məhrum oldu. Təbii ki, belə bir şəraitdə Azərbaycan öz milli maraqlarını reallaşdırmaq üçün çıxış yolu tapmalı idi və tapdı da.

İstanbulda imzalanmış müqavilələr 15 il ərzində Azərbaycana təxminən 60 milyard dollar investisiya qoyuluşuna zəmin yaradır. Azərbaycan Dövlət Neft Şirkətinin I vitse-prezidenti İ.Əliyev «Əsrin müqaviləsi»nin beşinci ildönümü münasibətilə etdiyi çıxışda bildirmişdi ki, bütövlükdə ölkəmiz XXI əsrin əvvəllərində neft və qaz satışından, Qazaxıstan neftinin və Türkmənistan qazının nəqlindən 10 milyardlarla dollar vəsait əldə edəcək ki, bu da Azərbaycan xalqının həyat səviyyəsinin yüksəlməsinə imkan verəcək, artıq növbəti yüzilliyin birinci yarısında Azərbaycanı dünyanın ən inkişaf etmiş dövlətləri sırasına çıxaracaq. Transxəzər boru kəmərinin əhəmiyyəti bir də ondadır ki, bu kəmərlə Türkmənistan qazı ilə





bərabər bir müddətdən sonra Azərbaycan qazı da dünya bazarına ixrac ediləcək.

Qafqaz geosiyasi kontekstində Türkiyə Xəzər dənizinin enerji ehtiyatlarının ixracını daim diqqət mərkəzində saxlayır. Bu baxımdan boru nəqliyyat kəmərlərinin inkişafı, Xəzər neftinin Bakı-Tbilisi-Ceyhan xətti ilə Aralıq dənizi sahillərinə çıxarılması Türkiyənin xarici siyasət strategiyasında mühüm yer tutur. Bu beynəlxalq layihənin reallaşmasında Türkiyə və Azərbaycanı dəstəkləyən başlıca dövlət ABŞ-dır. ABŞ prezidentinin Milli təhlükəsizlik məsələləri üzrə keçmiş məsləhətçisi Z.Bzejinskinin fikrincə, «ərazi baxımından məhdud miqyasına və əhalinin sayının çox olmamasına baxmayaraq Azərbaycan özünün böyük enerji ehtiyatlarına, həmçinin geosiyasi əhəmiyyətinə görə xüsusi yer tutur. Azərbaycan Xəzər dənizi və Orta Asiyadan ibarət qabın ağzına tıxacdır

Rusiyanın nəzarət etdiyi ərazilərdən yan keçməklə çəkilən neft kəmərləri vasitəsilə Qərb bazarlarına birləşən müstəqil Azərbaycan eyni zamanda qabaqcıl ölkələrin zəngin enerji sərvətlərinə malik Mərkəzi Asiya respublikalarına çıxması yolunda nəhəng magistrala çevrilə bilər» (75, s.62).

Bu gün türk dünyası ölkələrinin inkişafı üçün daha bir əlverişli şans yaranmışdır. Söhbət qədim «İpək yolu»nun bərpasından gedir. Bu möhtəşəm nəqliyyat dəhlizinin reallaşması türk dünyası üçün daimi iqtisadi və siyasi sabitlik, daimi kapital, daimi iş yerləri, daimi gəlir mənbəyi ola bilər. Türk dövlətləri arasında münasibətlərə yeni, azad iqtisadi prinsiplər prizmasından yanaşmaq, daha effektli münasibətlərin formalaşması yollarını axtarmaq lazımdır. Milli dövlət mənafeləri bütövlükdə türk dünyasının ümumi maraqları ilə əlaqələndirilməlidir. İqtisadi əməkdaşlıq məsələlərində xırda kommersiya maraqları deyil, bütövlükdə türk dünyasının maraqları üstün tutulmalıdır.

Aparılan aradırmalar belə bir nəticə çıxarmağa əsas verir ki, hazırda türk dünyasının dinamik tərəqqisi üçün real zəmin yaranmışdır. Ən mühüm nailiyyət ondan ibarət olacaqdır ki, türk dünyası ölkələrinin bir-birinə yaxınlaşması daimi dinamik prosesə çevriləcəkdir. Onlar özlərinin tarixi köklərini dərk etdikcə yaxınlaşacaq, birləşəcək, daha da güclənəcək, bir-birinə dəstək verəcəklər.

XX əsrin 90-cı illərində dünya sosialist sisteminin iflasa uğraması Mərkəzi Asiya, Qafqaz və Şərqi Avropa ölkələri arasında bazar münasibətlərinə əsaslanan yeni iqtisadi əlaqələrin yaradılmasına əlverişli şərait yaratdı. Belə bir şəraitdə, 1993-cü ildə Brüssel şəhərində Azərbaycan, Gürcüstan, Ermənistan, Özbəkistan, Qazaxıstan, Tacikstan, Türkmənistan və Avropa Birlikləri Komissiyasının nümayəndə heyətləri Avropa-Qafqaz-Asiya (TRASEKA) və Avropa-Asiya nəqliyyat dəhlizinin yaradılması vacibliyini qeyd etdilər və Brüssel bəyannamələrini imzaladılar. Bu görüşün əsas məqsədi maraqlı tərəfləri bir araya gətirməklə, onlar arasındakı əməkdaşlığın əsas istiqamətlərini müəyyənləşdirməkdən ibarət idi (145).

8-9 sentyabr 1998-ci ildə Bakıda tarixi «İpək Yolu»nun bərpası üzrə beynəlxalq konfrans keçirildi. Bu konfransda «Avropa-Qafqaz-Asiya dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas saziş» və onun beynəlxalq ticarət gəmiçiliyi, gömrük proseduru və sənədlərin işlənməsi üzrə texniki əlavələr və «Bakı deklorasiyası» qəbul olunmuşdu.

TRASEKA layihəsi ilk növbədə məhz qədim «İpək Yolu»nu Mərkəzi Asiyanın və Qafqazın tərəfdaş ölkələrinin nəqliyyat sistemlərinin infrastrukturlarının və daşıma sistemlərinin dünya ölçülərinə uyğun təkmilləşdirilməsi, yenilərinin yaranması və onların Transavropa kommunikasiya şəbəkələri ilə birləşdirilməsi məqsədini güdür.





Qədim «İpək Yolu»nun çox uzaqlardan gələn tarixi, illər boyu davam edən əlaqələrin Avropa və Asiya ölkələrinin iqtisadi inkişafında əhəmiyyətli, müstəqil Azərbaycanın sosial-iqtisadi dəyişikliklərin zənginliyi və kommunikasiya sisteminin dünya ölçüləri səviyyəsində yenidən qurulmasının zəruriliyi və s. məsələlər bu layihə çərçivəsində öz əksini tapır.

1996-cı il may ayının 13-də Türkmənistanın Sərəxs şəhərində Azərbaycan, Gürcüstan, Özbəkistan və Türkmənistan arasında iqtisadi əlaqələrə dair iki sənəd – tranzit yük daşımalarının tənzimlənməsi sahəsində əməkdaşlıq haqqında saziş və dəmiryol nəqliyyatının fəaliyyətinin əlaqələndirilməsi haqqında müqavilə «Sərəxs sazişi» imzalandı (70).

Dünyanın nəhəng regionlarından sayılan Avropa və Asiya arasında iqtisadi əlaqələrin genişləndirilməsi, istehsal olunan məhsulların dünya bazarına çıxarılması və bu bazarlar uğrunda mövqelərin möhkəmləndirilməsi üçün yeni transkontinental nəqliyyat kommunikasiya layihəsi olan TRASEKA-nın mühüm əhəmiyyəti vardır. Belə ki, bu layihə bir çox ölkələrin ərazisindən keçməklə həmin dövlətlərin iqtisadi və siyasi inkişafında mühüm rol oynayacaq, Avrasiyanın nəqliyyat şəbəkəsini dünya standartlarına üyğun yenidən qurmaqla nəqliyyatın ümumi çəkisini artırmaq, tranzit yük axınlarını fasiləsiz həyata keçirmək mümkün olacaqdır.

Nəhəng dövlətlərin maraq dairəsində olan TRASEKA layihəsi dünyanın ən qaynar münaqişə ocaqlarından olan Qafqazda da siyasi sabitliyin yaradılması üçün əsas vasitələrindən biridir. Belə ki, nəqliyyat dəhlizi üzərində yerləşən dövlətlər Qafqazda siyasi və iqtisadi sabitliyin yaradılması, və deməli, Qarabağ münaqişəsinin də tezliklə həll olunmasında maraqlıdırlar. Bu nəhəng transkontinental nəqliyyat dəhlizinin istismara verilməsi reqionda siyasi və iqtisadi məsələlərin həllini reallaşdıracaqdır ki, bu da öz növbəsində əhalinin əmək və həyat fəaliyyətində mühüm rol oynayacaqdır.

Hazırda Azərbaycan 132-ə yaxın xarici dövlətlə iqtisadi əlaqələrdə iştirak və əməkdaşlıq edir. Son illərdə iqtisadi əlaqələrin əsas sahələri olan ticarət, elmi-texniki əməkdaşlıq, investisiya qoyuluşu, əmək ehtiyatlarının miqrasiyası sahələri kompleks şəkildə sürətlə inkişaf edir. İxrac əməliyyatının həcmində MDB ölkələrinin xüsusi çəkisi azalır, Avropa və Yaxın Şərq, Qərb dövlətlərinin xüsusi çəkisi isə artır. Məsələn, 1994-cü ildə xarici dövlətlərin idxal və ixrac əməliyyatlarında xüsusi çəkisi 46 faizdən 1996-cı ildə 60 faizə, yəni 655 milyon dollardan 962 milyon dollara yüksəlmişdir. Əksinə, MDB ölkələrinin idxal və ixrac əməliyyatlarında xüsusi çəkisi 54 faizdən 40 faizə, yəni 760 milyon dollardan 630 milyon dollara enmişdir. Hazırda Azərbaycan iqtisadiyyatının idxal və ixrac əməliyyatlarının həcmində Rusiya, Ukrayna, Gürcüstan, İran, Birləşmiş Ərəb Əmirliyi, Almaniya, Fransa, İngiltərə dövlətləri ilə bərabər türk dövlətlərindən Türkiyə, Qazaxıstan və Türkmənistan və əhəmiyyətli rol oynayırlar.

Yaranmış yeni geosiyasi situasiyadan qaynaqlanaraq türk dövlətlərində mövcud karbohidrogen potensialının qiymətləndirilməsi aktual xarakter kəsb etmişdir. Bu aktuallıq XXI yüzillik boyunca planetin iqtisadi həyatında karbohidrogen resurslarının dominant mövqeyinin qorunacağı, qlobal axının güclənməsi və regional inteqrasiyanın dərinləşməsi kontekstində bir coğrafi silsilədə yerləşən, təsərrüfatçılıq ukladları oxşar olan məmləkətlərdə qarşılıqlı faydalılıq əsasında iqtisadi əməkdaşlığın dərinləşməsi tələbi ilə daha səciyyəvi olmuşdur.

Planetin ümumi daxili məhsulunun 1,5 faizini, sənaye məhsulunun isə 1,3 faizini yaradılan Türkiyə də daxil olmaqla müstəqillik əldə etmiş türk cümhuriyyətlərində yalnız proqnoz neft ehtiyatları toplum şəklində 23113,3 mln ton təşkil edir. Müvafiq göstərici adambaşına təsnifatda 185 tona ekvivalent tutulur. Bu konfiqurasiyada daha cəlbedici mövqedə üç dövlət – Azərbaycan, Qazaxıstan, Türkmənistan dayanır. Məhz bu dövlətlərdə karbohidrogen resurslarının digər növləri – təbii qaz və kondensat da bolluq təşkil edir. Xəzərin təbii qaz potensialı öz proqnoz təsdiqini tamlıqla tapdığı təqdirdə ümumi şərti yanacaq müqabilində bu ölkələrdə karbohidrogen resurslarının adambaşına düşən bölgüsü 600 tonu aşa bilər.





Türk dövlətləri ilə yanaşı, dünya xəritəsində türk xalqlarının məskunlaşdığı və kompakt yaşadığı yetərli ərazilər də mövcuddur. Rusiyanın əsas neft mərkəzlərinin cəm olduğu Sibir torpaqları, Volqaboyu hövzə, federasiya subyektləri – Tatarıstan və Başqırdıstan da zəngin karbohidrogen potensialı ilə fərqlənirlər. Bununla belə İranda azərbaycanlıların, İraqda kərküklərin birgə yaşadığı bolgələrdə, Çində Sıntzyan Uyğur vilayətində, o cümlədən türk xalqlarının məskunlaşdığı əzəli türk torpaqlarında da karbohidrogen resursları yetərincədir.

Türk dünyasının böyük inteqrasiyası həmin ölkələr üçün yalnız iqtisadi dividentlər deyil, həm də siyasi gücün, sosial inkişafın və milli-mədəni dəyərlərin yüksəlişinə də təkan verəcəkdir. Bütün bu yaranışların səmərəli istifadəsi perspektivi digər quruculuq seqmentləri olan daxili energetik balansın tənzimlənməsi, dayanıqlı neft-qaz resursları bazasının, vahid enerji sisteminin formalaşmasının, böyük İpək yolu nəqliyyat dəhlizindən daha rasional istifadənin və habelə Xəzərin cənubundan dünya okeanına çıxışı təmin edəcək nəhəng kanalın çəkilişi kimi digər mühüm regional infrastruktur elementlərinin də stimullaşmasına zəmin olacaqdır.

Müasir mərhələdə Azərbaycanın siyasi və iqtisadi strategiyası beynəlxalq aləmdə baş verən və ölkənin gələcək inkişafına əsaslı təsir göstərən hadisələrlə sıx əlaqədardır. Hadısələrin indiki inkişaf mərhələsində siyasət daha vacib amil kimi çıxış edir. Siyasi müttəfiqin düzgün seçilməsi gələcəkdə

Azərbaycanın iqtisadiyyatına da həlledici təsir göstərə bilər. Ümumi iqtisadi, mədəni, siyasi və hərbi maraqları olan koalisiyaların yaranması və formalaşması müasir beynəlxalq münasibətlər sisteminin əsas xüsusiyyətlərindən biridir.

Regionun iri enerji hasil edən ölkəsinə çevrilən Azərbaycanın iqtisadi inkişafı həmçinin Türkiyənin və türk dövlətlərinin iqtisadiyyatına da müsbət təsir göstərə, həmin ölkələr arasında iqtisadi, siyasi irasformasiyaya meylləri gücləndirə bilər və, nəticədə, bütün türk dövlətlərinin birlikdə siyasi proseslərdə yeni güc mərkəzi kimi ortaya çıxması şansı yaranar. Bu isə türk dövlətlərinə regionda baş verən siyasi proseslərə təsir etmək imkanı verəcəkdir. Buna baxmayaraq, onlar xarici siyasətdə çevik və balanslaşdırılmış siyasət yürütməyə məcbur olacaqlar.

Bütün bu deyilənlərdən bir daha aydın olur ki, Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətində iqtisadi diplomatiya böyük yer tutur və onun birgə iqtisadi layihələrin hazırlanması və həyata keçirilməsində iştirakı da məhz bu məqsədlərə yönəlib. Özünün coğrafi mövqeyindən, dünya miqyaslı coğrafi-strateji əhəmiyyətə malik olan təbii ehtiyatlarından və potensialından istifadə əsasında Azərbaycan Respublikası bir çox dövlətlərlə, o cümlədən türk dövlətləri ilə birlikdə yeni-yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulur, Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı, Xəzər dənizinin ehtiyatlarının işlənməsi və dünya bazarlarına çıxarılması layihələrini səmərəli surətdə həyata keçirir. Bütün bunlar isə Azərbaycanın gələcək inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

* * *

Sonda qeyd etmək istərdik ki, Azərbaycan Respublikasının beynəlxalq və məhəlli təşkilatların işində iştirakı, xarici iqtisadi əlaqələri onun türk dövlətləri ilə çoxtərəfli siyasi əlaqələrinin mühüm tərkib hissəsidir. Ölkələrimiz arasındakı bu əlaqələr perspektivdə öz coğrafiyasını genişləndirərək, türk bölgələrinin iqtisadi-siyasi birliyinin yaranmasına gətirib çıxara bilər. Nəticədə, Avrasiya qitəsində əhalisi 300 milyondan çox olan yeni bir güc mərkəzi – Türkavrasiya mərkəzi yaranar. Bu isə öz növbəsində türk dövlətlərinin regionda və dünyada baş verən siyasi proseslərə təsir etmək imkanını artıra bilər.

# NƏTİCƏ

XX əsrin 90-cı illərində Azərbaycan Respublikasının türk dövlətləri ilə ikitərəfli və çoxtərəfli siyasi əlaqələrinin nəzərdən keçirilməsi, beynəlxalq və məhəlli təşkilatlar çərçivəsində əməkdaşlığının öyrənilməsi aşağıdakı nəticələrə gəlməyə imkan verir.

Bütünlükdə XX əsr türk dünyası üçün ciddi sınaqlar dövrü olmuşdur. Əsrin əvvəllərində, daha dəqiq desək, 1918-ci ildə Şərqdə ilk respublika- Azərbaycan Xalq Cümhuriyyəti quruldu. Lakin o çox yaşaya bilmədi. Bir müddət sonra, 1923-cü ildə Birinci Dünya müharibəsi nəticəsində ərazisi qalib dövlətlər tərəfindən bölüşdürülmüş Osmanlı imperiyasının ərazisində Anadolu türkləri özlərinin müstəqil Türkiyə Cümhuriyyətlərini yaratdılar. Və SSRİ dağılana qədər Türkiyə Cümhuriyyəti beynəlxalq aləmdə türk dünyasını təmsil edən yeganə müstəqil dövlət oldu. 1991-ci ildə SSRİ-nin dağılması nəticəsində daha beş türk dövləti müstəqil inkişaf yoluna qədəm qoydu və bununla da dünya siyasət meydanında qüvvələr nisbətində türk dövlətlərinin xeyrinə dəyişiklik baş verdi. Bu dövrdən beynəlxalq birliyin bərabərhüquqlu üzvləri olan yeni müstəqil türk dövlətləri, o cümlədən Azərbaycan özlərinin dövlət quruculuğunu möhkəmlətmək, nüfuzlarını artırmaq, siyasi və iqtisadi islahatlar aparmaq yolu ilə inamla və ardıcıl surətdə addımlamağa, mədəniyyət, dil və mənəvi dəyərlər birliyinə əsaslanan qarşılıqlı əlaqələrini daha da inkişaf etdirməyə başladılar. Lakin bu yaxınlaşma bölgədə marağı olan dünya dövlətləri tərəfindən birmənalı qarşılanmadı. Bu yaxınlaşmanın, türk dövlətləri arasında hər hansı formada əməkdaşlığın dini, etnik təəssübkeşlikdən irəli gəldiyi, "pantürkizm", "turançılıq", "böyük türk millətçiliyi" olduğu barədə ittihamlar irəli





sürülməyə başlandı. Bu məsələdə türk dövlətlərinin bəzən təcrübəsizlik üzündən tələskənliyə yol verməsi də az rol oynamamışdı. Belə ki, bəzən dövlət rəsmilərinin məsuliyyətsiz, emosiyalara əsaslanan çıxışları, bəyanatları dünya dövlətlərində türk dövlətləri arasında olan əməkdaşlığın məhz dini, etnik yaxınlaşma olduğu qənaətinin möhkəmlənməsinə səbəb olurdu. Bu isə öz növbəsində türk dövlətləri arasında əməkdaşlığın daha intensiv inkişafına mane olmaya bilməzdi. Artıq əvvəldə qeyd etdiyimiz kimi, 1992-ci ilin əvvəllərində Türkiyənin o vaxt Baş naziri olan Süleyman Dəmirəl tərəfindən türk dövlət başçılarının Zirvə toplantılarının keçirilməsi təşəbbüsü irəli sürüldü. Zirvə toplantıları türk dövlətləri arasında hərtərəfli əməkdaşlığın inkişafına xidmət etməli idi. Lakin bu görüşlərin keçirilməsi təklifi bir sıra dövlətlərin böyük narahatlığına səbəb oldu. Zirvə görüşlərində məqsəd və məramlarının dəfələrlə bəyan olunmasına baxmayaraq xüsusilə Rusiya bu yaxınlaşmadan dərin narahatlıq keçirdiyini gizlətmir, bu toplantılara Müstəqil Dövlətlər Birliyinin alternativi kimi baxırdı. Hətta dövlət başçılarının II toplantısı ərəfəsində bu toplantıların MDB daxili münasibətlərə mənfi təsir göstərəcəyi barədə Rusiyanın Qazaxıstan və Özbəkistan dövlət başçılarına rəsmi xəbərdarlığı da olmuşdu. Nəticədə isə II görüşün keçiriləcəyi yer (Bakı) və vaxt (1993) dəyişdirilmişdi (İstanbul, 1994). Fikrimizcə, bir sıra digər səbəblərlə yanaşı, həm də bu formada təzyiq və ittihamların nəticəsidir ki, sonuncu – VII Zirvə toplantısından artıq dörd il keçməsinə baxmayaraq türk dövlət başçıları növbəti görüşə hələ də toplaşa bilmirlər.

Müstəqillik illərində Azərbaycanın türk dövlətləri ilə siyasi əlaqələrindən danışarkən Türkiyə ilə əlaqələrə xüsusi diqqət yetirilməlidir. Belə ki, haqqında bəhs etdiyimiz dövrdə Türkiyə Azərbaycan üçün Avropaya, bütünlükdə dünyaya çıxış nöqtəsi olduğundan onunla əlaqələr də xüsusi əhəmiy-

yət kəsb edirdi. Artıq qeyd etdiyimiz kimi, Azərbaycan müstəqilliyini qeyd etdikdən dərhal sonra, birinci olaraq onun müstəqilliyini tanıyan ölkə Türkiyə oldu (9 noyabr 1991-ci il). Bunun ardınca, müstəqillik qazanmış bütün digər dövlətlər kimi, Azərbaycan Respublikası da beynəlxalq və məhəlli təşkilatlara üzv olmaq vəzifəsi ilə qarşılaşdı. Ən nüfuzlu beynəlxalq təşkilat olan Birləşmiş Millətlər Təşkilatına üzv olmaqda kömək üçün Azərbaycan Türkiyənin vasitəçiliyindən istifadə etdi. Sonrakı dövrdə də Türkiyə Azərbaycanın digər beynəlxalq və məhəlli təşkilatlara üzv qəbul olunması məsələsində öz yardımını əsirgəmədi. Bundan başqa, Azərbaycanın xarici siyasətinin ən mühüm problemi olan Ermənistanın Respublikanın ərazilərinə hərbi müdaxiləsi, torpaqlarının işğalı məsələsində Türkiyənin birmənalı şəkildə Azərbaycanı müdafiə etməsi Türkiyə-Azərbaycan əlaqələrini xüsusi əlaqələr kimi qiymətləndirməyə imkan verir. Türkiyə həmçinin Azərbaycanın strateji müttəfiqidir. Azərbaycan-Türkiyə əməkdaşlığının xüsusi əlaqələr səviyyəsində qiymətləndirilməsinin daha bir səbəbi, Azərbaycanın Türkiyə üçün həm Qafqaz, həm də Mərkəzi Asiya regionunda maraqlarının təmin edilməsi məsələsində əvəzsiz rol oynamasıdır. Bundan başqa, son illərdə Ermənistanın qondarma 1915-ci il «erməni soyqırımı» problemini ortaya atması, bu məsələnin bir sıra dünya dövlətlərinin parlamentlərində müzakirə mövzusuna çevrilməsi, bununla bağlı Fransa parlamentinin məlum qərarı, ermənilərin 1921-ci il Qars müqaviləsinin şərtlərinin ləğv edilməsi uğrunda mübarizəsi və bu kimi digər məsələlərdə Azərbaycanın Türkiyəni birmənalı şəkildə müdafiə etməsi də ölkələrimiz arasında əlaqələrin xüsusi xarakterindən xəbər verir.

Lakin bütün bu deyilənlər heç də belə düşünməyə əsas vermir ki, Azərbaycan-Türkiyə əməkdaşlığı bəhs olunan dövrdə yalnız yüksələn xətt üzrə inkişaf etmişdir. Tədqiqat-





dan göründüyü kimi, əlaqələrin müəyyən mərhələlərində müxtəlif səviyyələrdə narazılq və ittihamlar özünü göstərmişdir. Ümumilikdə dövlət və hökumət rəsmilərinin belə məqamlarda lazımi soyuqqanlılığı narazılıqların digər dövlətlərlə olduğu səviyyəyə gəlib çatmamasına, mövcud narazılıq və ittihamlardan yan keçilərək dövlətlərarası əməkdaşlığın daha da inkişaf etdirilməsinə şərait yaratmışdır.

Təəssüf ki, eyni sözləri Mərkəzi Asiyanın türk dövlətləri ilə əlaqələr haqqında da demək mümkün deyil. Mərkəzi Asiyanın türk dövlətlərindən yalnız Qazaxıstan Respublikası ilə əlaqələrimiz nisbətən sabit inkişaf yolu keçmişdir. Qazaxıstan Azərbaycanın müstəqilliyini 1991-ci il dekabr ayının 21-də tanısa da, diplomatik münasibətləri 1992-ci il avqust ayının 27-də yaratsa da, səfirlik və konsulluq səviyyəli əlaqələr 1993-cü il oktyabr ayının 30-da qurulsa da iki ölkə arasında qarşılıqlı əlaqələrin intensiv inkişafı 1996-cı ildən başlanır. Bu dövrə qədər Azərbaycan-Qazaxıstan əməkdaşlığı ayrı-ayrı beynəlxalq və məhəlli təşkilatlar çərçivəsində həyata keçirilmişdir. Qazaxıstan Respublikası Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ məsələsinin həll olunması istiqamətində də münaqişənin ilk illərində Rusiya ilə birlikdə müəyyən səy göstərməyə çalışmış, lakin onun səyləri nəticəsiz qalmışdır. Azərbaycan xarici siyasətinin digər həllini gözləyən problemi – Xəzərin statusu məsələsinin müəyyən olunması ilə bağlı məsələdə də Qazaxıstan Respublikasının mövqeyi Azərbaycanın mövqeyi ilə üst-üstə düşür.

Mərkəzi Asiyanın digər türk dövlətləri olan Qırğızıstan Respublikası, Özbəkistan Respublikası və Türkmənistanla münasibətlərdə Azərbaycan Respublikası müəyyən problemlərlə qarşılaşmış, bəzən bu problemlər müəyyən zaman keçdikdən sonra aradan qaldırılmış (məsələn, Özbəkistanla, Qırğızıstanla olan narazılıqlar), bəzən isə həlli mümkün olmayan problem səviyyəsinə çatmışdır (məsələn, Xəzərin statusu məsələsində Türkmənistanla mövcud olan narazılıq).

Azərbaycanın xarici siyasət mənafelərinin obyektiv məzmunu tarixi, geosiyasi, iqtisadi, sosial-mədəni və mənəvi amillərin bütün məcmusundan irəli gəlir. Ənənəyə görə, Azərbaycan xalqı türk xalqlarının böyük ailəsi ilə həm dil cəhətdən, həm də mənəvi, tarixi-mədəni və siyasi tellərlə bağlıdır. Azərbaycan həmçinin müsəlman sivilizasiyasının ən qədim ocaqlarından biridir və, təbii olaraq, indi o, islam dininin bir ənənə kimi inkişaf etdiyi ölkələrlə də geniş əlaqələrə və əməkdaşlığa can atır. Azərbaycan eyni zamanda Qafqazda bu qədim diyarın bütün çoxsaylı xalqları ilə möhkəm tarixi tellərlə bağlı olan ən iri dövlətdir. Yüz ildən artıq bir müddətdə Azərbaycan Rusiyanın tərkibində bilavasitə və dolayısı ilə dünya təsərrüfat əlaqələrinə, Ümumavropa və Rusiya iqtisadi, sosial-siyasi proseslərinə cəlb edilmiş, Azərbaycan xalqının həyat tərzi və məişəti müvafiq mənəvi-ideoloji, sosial-mədəni təsirlərə məruz qalmışdır. Nəhayət, 70 ildən çox müddət ərzində Azərbaycan Rusiyanın hökmran olduğu SSRİ-nin bütöv bir tam olan təsərrüfat-iqtisadi, sosial-siyasi və mədəni-ideoloji sisteminin bir hissəsi olmuşdur. Azərbaycan Respublikası müstəqillik qazandığı ilk gündən özünün xarici siyasət fəaliyyətini bütün bu reallıqları nəzərə alaraq qurmağa cəhd göstərmiş, bu cəhd ilk dövrlərdə bir qədər ehtiyatlı, bəzən uğursuz olsa da, sonrakı dövrdə artıq öz təbii axarına düşə bilmişdi.

Azərbaycanın türk dövlətləri ilə sıx, bərabərhüquqlu və səmərəli əməkdaşlığı zamanın hökmüdür, bizim əvvəlki tariximizdən və müasir siyasi və iqtisadi proseslərin gedişindən irəli gələn obyektiv zərurətdir. Bu əlaqələr ölkələrimizin müstəqilliyini inkişaf etdirmək, dövlət quruculuğunu müvəffəqiyyətlə aparmaq, iqtisadiyyatda əsaslı dəyişikliklər etmək baxımından da çox əhəmiyyətlidir. Azərbaycanla türk dövlətləri arasında bütün sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi həmçinin beynəlxalq aləmdə mövqelərimizi gücləndirir. Belə





sıx əməkdaşlıq eyni zamanda bölgənin dirçəlməsinə, burada sabitlik və əmin-amanlıq yaranmasına xidmət edir.

Romantik düşüncələrin, türk xalqlarını birliyə çağıran şüarların dövrü artıq keçmişdir. İndi əməli iş görmək, bu birliyə nail olmaq üçün birgə fəaliyyət göstərmək vaxtıdır. Bunu əsas götürərək özünün əlverişli coğrafi mövqeyindən, dünya miqyaslı coğrafi-strateji əhəmiyyətə malik olan təbii ehtiyatlarından və potensialından istifadə əsasında Azərbaycan Respublikası bir çox dövlətlərlə, o cümlədən türk dövlətləri ilə səmərəli əməkdaşlıq edir, həmçinin yeni-yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulur, Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı, Xəzər dənizinin ehtiyatlarının işlənməsi və dünya bazarlarına çıxarılması layihələrini səmərəli surətdə həyata keçirir. Bütün bunlar Azərbaycanın gələcək inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Ölkələrimiz arasındakı əməkdaşlıq perspektivdə öz coğrafiyasını genişləndirərək, türk bölgələrinin iqtisadi-siyasi birliyinin yaranmasına gətirib çıxaracaqdır.

Müasir mərhələdə Azərbaycanın siyasi və iqtisadi strategiyası beynəlxalq aləmdə baş verən və ölkənin gələcək inkişafına əsaslı təsir göstərən hadisələrlə sıx əlaqədardır. Hadisələrin indiki inkişaf mərhələsində siyasət daha vacib amil kimi çıxış edir. Siyasi müttəfiqin düzgün seçilməsi gələcəkdə Azərbaycanın iqtisadiyyatına da həlledici təsir göstərə bilər. Ümumi iqtisadi, mədəni, siyasi və hərbi maraqları olan koalisiyaların yaranması və formalaşması müasir beynəlxalq münasibətlər sisteminin əsas xüsusiyyətlərindən biridir.

Regionun iri enerji hasil edən ölkəsinə çevrilən Azərbaycanın iqtisadi inkişafı həmçinin Türkiyənin və türk dövlətlərinin iqtisadiyyatına da müsbət təsir göstərə, həmin ölkələr arasında iqtisadi, siyasi trasformasiyaya meylləri gücləndirə bilər və, nəticədə, bütün türk dövlətlərinin birlikdə siyasi proseslərdə yeni güc mərkəzi kimi ortaya çıxması şansı yara-

nar. Bu isə türk dövlətlərinə regionda baş verən siyasi proseslərə təsir etmək imkanı verər. Nəticədə, Avrasiya qitəsində əhalisi 300 milyondan çox olan yeni bir güc mərkəzi – Türkavrasiya mərkəzi yaranar ki, bu da öz növbəsində türk dövlətlərinin, o cümlədən Azərbaycanın regionda və dünyada baş verən siyasi proseslərə təsir etmək imkanını artırar.

Sonda tədqiqat nəticəsində mövcud problemlə bağlı gəldiyimiz bir sıra praktik tövsiyələri diqqətə çatdırmaq istərdik. Dövlətlərimiz arasında mövcud əməkdaşlığı aşağıdakı təklifləri nəzərə almaqla, fikrimizcə, daha da genişləndirmək, keyfiyyət baxımından daha səmərəli inkişaf səviyyəsinə çıxarmaq mümkün ola bilər.

İlk öncə, müasir dünyanın daha çox real amilləri nəzərə alan, mənəvi, tarixi, psixoloji dəyərlərdən daha çox merkantil siyasətə üstünlük verən dünya olduğunu əsas götürərək dövlətlərimiz arasında ***iqtisadi əməkdaşlıq*** ön plana çəkilməlidir. Fikrimizcə, iqtisadi əlaqələrdə ikitərəfli əməkdaşlığın xüsusi yeri saxlanılmaqla yanaşı, tərəflərdən hər birinin maraqlarına maksimum uyğun gələn, qarşılıqlı güzəştlərə əsaslanan çoxtərəfli birgə layihələrin hazırlanması və həyata keçirilməsi prioritet təşkil etməlidir. Ən əsası isə həmin layihələrin maliyyələşdirilməsi daha çox dövlətlərimizin öz imkanları hesabına, yaxud buna imkan yoxdursa, ən azı türk dünyasına düşmən münasibəti olmayan dövlətlərin yardımı ilə həyata keçirilməlidir. Hətta ayrı-ayrılıqda dövlətlərimizdən istənilən biri ilə əməkdaşlığa müəyyən səbəblər üzündən, yaxud məqsədli maraq göstərən dövlətlərin ümumilikdə türk dünyasına münasibəti mütləq nəzərə alınmalıdır. Belə ki, ümumilikdə, yaxud ayrılıqda dövlətlərimizin istənilən biri ilə əməkdaşlıq vasitəsilə regiona daxil olan dövlət burada möhkəmləndikdən sonra artıq öz şərtlərini diqtə etməyə başlaya bilər. Bu şərtlərin isə nəticə etibarilə ümumilikdə türk birliyinə, türk dünyasıdaxili vəziyyətə mənfi, yaxud müsbət təsir edəcəyənin





əvvəlcədən nəzərə alınması lazımdır. Daha bir məsələdə iradə, qətiyyət göstərmək çox vacibdir – heç bir halda layihələrin yalnız üçüncü qüvvələr tərəfindən maliyyələşdirilməsinə razılıq verilməməlidir.

Digər bir məsələni də xüsusi nəzərə almaq vacibdir. Türk dövlətləri arasında istənilən yaxınlaşma hər zaman olduğu kimi, indinin özündə də dünya dövlətləri tərəfindən birmənalı qarşılanmayacaq. Geosiyasi baxımdan dövlətlərimiz öz aralarında rəqabət aparan bu dövlətlərin maraq sferasında olduğu üçün onlar müxtəlif vasitələrdən istifadə etməklə əlaqələrimizə mane olmağa səylərini davam etdirəcəklər. Bütün bunlara qarşı isə belə bir arqument irəli sürülə bilər ki, hazırda dünyada aktual olan qloballaşma prosesinə aparan yol regional inteqrasiyadan keçir. Türk dövlətləri arasında inteqrasiya öz növbəsində regional xarakterli olmaqla qloballaşma prosesinin mühüm tərkib hissəsi hesab oluna bilər və, bununla da, beynəlxalq mahiyyət daşıyır, ümumdünya maraqlarına uyğun gəlir.

Dövlətlərimiz arasında əməkdaşlığın daha da dərinləşməsinə yardımçı ola biləcək digər bir amil, fikrimizcə, ***mədəni əməkdaşlığın*** bir çox hallarda formal xarakterli tədbirlərinin əməli nəticələr verə biləcək ***yeni istiqamətlərinin müəyyənləşdirilməsi*** ola bilər. Bu baxımdan ictimaiyyətin əlaqələrinin genişləndirilməsini, həmçinin elmi əməkdaşlığa əsaslanan əlaqələrin daha da intensivləşdirilməsini səmərəli hesab edirik. Belə ki, bu əlaqələrdə xalqlarımızın, dövlətlərimizin tarix boyu, həmçinin müasir dövrdə mövcud olmuş ümumi problemləri, ümumi mədəni irsi müəyyənləşdirilər, onların birgə müzakirələri, həlli yolları axtarılar. Bu iş isə öz növbəsində danışığımızda çox tez-tez xalqlarımız və dövlətlərimiz arasında tarixi, mədəni, mənəvi birliyin olduğu barədə işlətdiyimiz sözlərin heç də «növbətçi xarakterli» sözlər olmadığını, bu birliyin, oxşarlığın həqiqətən mövcud olduğunun əyani gös-

təricəsi olar. Demək olmaz ki, bu istiqamətdə iş görülmür. Xüsusilə TÜRKSOY mədəni və tarixi sahələrdə bir sıra mühüm əhəmiyyətli addımlar atmışdır. Elm sahəsində əməkdaşlıq isə unudulur. Bundan başqa, görülən işlər barədə yalnız informasiya xarakterli məlumatlar verilir. Təbligat işi çox zəifdir. Elmi istiqamətdə əməkdaşlıqda Türkiyənin rolunu xüsusi qeyd etmək istərdik. Belə ki, Türkiyənin elm və iş adamları bu istiqamətdə mühüm işlər görürlər. Düzdür, həmişə istənilən nəticələr əldə olunmasa da, mütəmadi olaraq türk dünyasının tarixi, bu günü, sabahı, türk dünyasıdaxili əməkdaşlıq, türk dünyası və dünya və s. problemlərə həsr olunmuş, əhəmiyyətli sayda alim, elmi işçi, müəllim və tələbəni öz ətrafında birləşdirə bilən elmi-nəzəri, elmi-praktik konfranslar, simpoziumlar təşkil olunur, onlar barədə geniş informasiya verilir. Lakin bu görülməli olan işlərin yalnız bir hissəsidir. Özü də Türkiyənin payına düşən hissəsi. Digər respublikalar, həmçinin də Azərbaycan, bu istiqamətdə səylərini artırmalıdırlar.

Ölkələrimiz arasında əməkdaşlıqda ictimaiyyətin iştirakı artırılmalıdır. Məlumdur ki, xalqların görkəmli şəxsləri, tanınmış elm və mədəniyyət xadimləri arasında əməkdaşlıq, onların dostluğu, əməkdaşlığı bir çox hallarda hər hansı diplomat, yaxud siyasətçinin səylərindən daha faydalı olur.

Əlaqələrimizin inkişaf etdirilməsində, fikrimizcə, son zamanlar xüsusi vüsət tapmağa başlamış ***turizm*** öz növbəsində əhəmiyyətli rol oynaya bilər. Belə ki, bu sahədə əməkdaşlıq dövlətlərimizin yalnız təbii, coğrafi üstünlüklərinin deyil, ən önəmlisi, tarixi birliyini, soy birliyini dərk etməyə, təbliğ etməyə yardımçı ola bilər. Turizmin inkişafı həmçinin ölkələrimiz arasında iqtisadi əməkdaşlıqda da əhəmiyyətli ola bilər.

Ən nəhayət, fikrimizcə, ölkələrimiz arasında əməkdaşlığın daha da genişlənməsində, yeni məzmun kəsb etməsində ***gənclər arasında əməkdaşlığın*** genişləndirilməsi, onların bu





əməkdaşlığa cəlb olunması əhəmiyyətli ola bilər. Belə ki, müasir dünyanın təsiri ilə formalaşan gənclər təbii ki, yeni dünya tələblərinə uyğun əməkdaşlıq qurmağa psixoloji cəhətdən daha çox hazır olmalıdırlar.

Bütün bunlar, nəticə etibarı ilə, ölkələrimiz arasında daha sıx əməkdaşlığın qurulmasına, bu isə, öz növbəsində, siyasi əməkdaşlığın daha da genişlənməsinə və dərinləşməsinə gətirib çıxarar. Nəticədə, türk dünyasında artıq yalnız sözdə deyil, həmçinin işdə, əməldə real birliyin əldə olunmasına imkan yaranar.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

### *Azərbaycan dilində*

1. Abasov Ə., Xaçatryan H. Qarabağ münaqişəsinin həlli variantları: İdeyalar və reallıq. Bakı, «Yeni nəsil» Nəşriyyat Evi, 2002. - s.74.

2. Abbasbəyli A. Azərbaycan müasir dövrdə. Bakı: Hərbi Nəşriyyat, 1998. – s.192.

3. Abbasbəyli A. Qafqaz geostrategiya məkanında. Bakı: Azərnəşr, 2003. - s.236.

4. Axundov N., Qasımov M. Azərbaycan və beynəlxalq parlament təşkilatları. B., 1996. – s.88.

5. Azərbaycan – 1993. Anarxiyadan sabitliyə doğru. Bakı, 2001.

6. Azərbaycan beynəlxalq aləmdə. cc.I-IV. Bakı: Göytürk nəşriyyatı, 1996-1999.

7. Azərbaycan beynəlxalq çoxtərəfli qarşılıqlı əlaqələrdə: məruzələr. Bakı, 1997. – s.267.

8. Azərbaycan BMT ailəsində. B., 2000. – s.342.

9. Azərbaycan-Qazaxıstan. Bakı, 1997.

10. Azərbaycan milli dövlət quruculuğu yolunda. Bakı: Azərnəşr, 1996. – s.368.

11. Azərbaycan Respublikası 1991-2001. Bakı: XXI – Yeni Nəşrlər Evi, 2001. – s.360.

12. Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin Türkiyəyə işgüzar səfəri. 31 oktyabr – 2 noyabr 1999. B., 2000. – s.255.





13. Azərbaycan-Özbəkistan: dostluğumuz daim yaşayır və möhkəmlənir. Özbəkistan Prezidenti İ.Kərimovun Azərbaycana səfəri. Bakı: «Şərq-Qərb» nəşriyyatı, 1996. – s.80.

14. Azərbaycan-Türkiyə: dostluq, qardaşlıq, strateji əməkdaşlıq (1997-ci il mayın 5-8-də Türkiyəyə səfər haqqında). Bakı: «Şərq-Qərb» nəşriyyatı, 1997.

15. Əzimli A. Azərbaycan-NATO münasibətləri (1992-2000). Bakı: «Adiloğlu» nəşriyyatı, 2001. –s.226.

16. Dünyada yeni inkişaf meylləri istiqamətində Türk dünyası, Azərbaycan və Türkiyə // **Beynəlxalq elmi-praktik simpoziumun materailları.** Bakı, 2004. –s.256.

17. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı: «Tuna» nəşriyyatı, 1998. – s.137.

18. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-VIII kitablar. Bakı: Azərnəşr, 1997-1998.

19. Əliyev N., Şahbazov E. Heydər Əliyev və Azərbaycan neftinin inkişafı. Bakı, 1997.

20.Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Tərtibçilər: Nazim İbrahimov, İbrahım Şükürov. Bakı: «Azərbaycan» nəşriyyatı, 1994. –s.174.

21. Heydər Əliyev. Azərbaycan nefti dünya siyasətində. IV-V kitablar. Bakı, 1997.

22. Həsənov Ə.M. Azərbaycan və ATƏT. Bakı, 1997.

23. Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, 1998.

24. Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). **Tarix elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyanın avtoreferatı.** Bakı, 2000. – s.76.

25.Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması // **Tarix və onun problemləri, 2003, №1,** s.55-79.

26.Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920-ci illər. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993. - s.362.

27.Hüseynov E.K. Azərbaycan Respublikasının Türkiyə ilə iqtisadi və mədəni əlaqələri (1991-1995-ci illər). **Tarix elmləri namizədi elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyanın avtoreferatı.** Bakı: AzTU-nun mətbəəsi, 2000. –s.25.

28.Hüseynova H.K. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. **Siyasi elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı.** Bakı, 2001. –s.55.

29.Hüseynova İ.M. Dövlətçilik naminə. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001. – s.300.

30.Hüseynova İ.M. Müstəqilliyimizin təminatçısı (məqalələr, çıxışlar, müsahibələr, rəylər ...). Bakı: Təhsil nəşriyyatı, 2003. - s.504.

31.Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin yaranması və möhkəmləndirilməsində Heydər Əliyevin rolu. **Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı.** Bakı, 2004.

32.XXI əsrə sülh körpüsü. – Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının İstanbul Zirvə Görüşü ilə əlaqədar Türkiyəyə səfəri. Bakı, 2000. – s.212.

33.İmanova S.M. Azərbaycanın beynəlxalq parlament təşkilatları ilə əlaqələri (1991-1998-ci illər). **Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı.** Bakı, 2001. –s.25.





34.Qasımov M.C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996. - s.135.

35.Qasımov M.C. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı: «Mütərcim» nəşriyyatı, 1997. –s.124.

36.Qasımov M. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər). Bakı, 1998.

37.Qasımov M. Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri (aprel 1920 – dekabr 1922). Bakı, 1998.

38.Qəndilov S. Azərbaycanın xarici siyasətinin başlıca istiqamətləri (iyun 1993-1997-ci illər) // **Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası,** 1998, №1.

39.Qətiyyətin təntənəsi (Sənədli xronika). Red.Yaqubov Ş. Bakı, 1995. – s.847.

40.Qloballaşma prosesində Qafqaz və Orta Asiya // **Azərbaycan Respublikası Prezidenti H.Ə.Əliyevin anadan olmasının 80 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransın materialları.** Bakı, 2003. s.-322.

41.Quluzadə Vəfa. Gələcəyin üfüqləri. Bakı, 1999.

42.Məmmədov Ə.M. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (80-ci illərin sonu – 1997-ci il). Bakı: Elm nəşriyyatı, 1999. -s.360.

43.Mahmudov Y.M. Milli siyasət aydın və konkret olmalıdır // «Kommunist» qəzeti, 26 avqust 1989, №198 (20966).

44.Mahmudov Y.M. Yeni Azərbaycanın qurucusu // **Tarix və onun problemləri, 1998, №2 (4),** s.6-19.

45.Mahmudov Y.M. Azərbaycan dövlətçiliyinin xilaskarı. Bakı: «Altay» nəşriyyatı, 1998. – s.44.

46.Mahmudov Y.M. Qurtuluş mübarizəsinin qalibi // **Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş elmi kon-**

**fransın materialları. BDU - 27-29 may. II cild. Humanitar və sosial-siyasi elmlər.** Bakı, 1998, s.5.

47.Mahmudov Y.M. Heydər Əliyev müstəqilliyimizin qarantıdır // Bakı Universiteti qəzeti. Bakı, 18 oktyabr 2001-ci il, №7 (1353).

48.Mahmudov Y.M. Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk parlamentli respublikadır (1918-ci il may – 1920-ci il aprel). «Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış». Üçüncü məqalə. // **Bakı Universiteti Xəbərləri. Humanitar elmlər seriyası. 2001-ci il, №3,** s.108-121.

49.Mahmudov Y.M. Azərbaycanın dövlətçilik və parlamentarizm ənənələri tarixindən // **«Müstəqil dövlətimiz və parlamentimiz» kitabında.** Bakı, 2001, s.178-206.

50.Mahmudov Y.M. Ata yurdumuzun Atatürkü // **«Dirçəliş. XXI əsr» jurnalı. Bakı, iyun 2002-ci il, №52,** s.46-54.

51.Mahmudov Y.M. Heydər Əliyev Yeni Azərbaycanın qurucusudur «Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış». Altıncı məqalə. // **Bakı Universiteti Xəbərləri. Humanitar elmlər seriyası. 2002-ci il, №2,** s.78-93.

52.Mahmudov Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, 2002. - s.326.

53.Müasir geopolitika (tərtib etdi: M.Qasımov). Bakı, Azərbaycan, 1999. – s.36.

54.Mustafayev R. Azərbaycan və yeni dünya. Bakı, 1993. – s.62.

55.Mustafayev R. Azərbaycan və dünya: ikinci xarici siyasi kapital yığımı konsepsiyası. Bakı, 1993.

56.Mustafayev R. Azərbaycan dövlətçiliyi. Özümüzü və dünyanı dərketmə yolunda. Bakı, 1995.

57.Mustafayev R. Fikir azaddır. Bakı, 2000.





58.Muxtarova Ə. Heydər Əliyev və türk dünyası // **Tarix və onun problemləri, 2003, №1,** s.100-114.

59.Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, 1996.

60.Nəsirov E.X. Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər). Bakı: Qanun nəşriyyatı, 1998. – s.136.

61.Nəsirov E.X. Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1999). Bakı: Respublika Xatirə Kitabı Nəşriyyatı, 1999. – s.104.

62.Nuriyev S. Müasir sivilizasiya və milli inkişafın xüsusiyyətləri. Bakı, 1998. – s.87.

63.Rəcəbov H. BMT-nin ixtisaslaşmış qurumları və Azərbaycan. Bakı, 1997. – s.78.

64.Seyidzadə Dilarə. Azərbaycanı XX əsrin əvvəllərində müstəqilliyə aparan yollar. Bakı, 1998. – s.253.

65.Sofiyev M. Türkiyə 1918-1923-cü illərdə. Bakı, 1966.

66.Sofiyev M. Türkiyə-Azərbaycan əlaqələrində yeni mərhələ // **AXC-nin 80 illiyinə həsr olunmuş elmi konfransın materialları. 27-29 may. II cild. Humanitar və sosial-siyasi elmlər.** Bakı, 1998, s.48.

### *Rus dilində*

67.Аббасбейли А., Аббасбейли Э. Гейдар Алиев и мировая политика. Баку, 1997.

68.Аббасбейли А., Гасанов А. Азербайджан в системе международных и региональных организаций. Баку, 1998.

69.Аббасбейли Агалар. Кавказ в современной геостратегии. Баку: Азернешр, 2003. – с.195.

70.Азовский И. Шелковый путь накануне XXI века // **Центральная Азия и Кавказ, 1999 №2(3).**

71.Актуальные проблемы внешней политики Казахстана. Сб. статей МИД Казахской Республики. М.: Русский раритет, 1998. - с.414.

72.Алиев Н., Оруджев Р. Узбекская опозиция дейстует из Баку // www.echo-az.info/archive/2003_04/561/facts.shtml#16

73 Бабак В. Центральная Азия: проблемы постсоветской интеграции // **Центральная Азия и Кавказ, 1997 №9.**

74.Багиров А.Н. Азербайджан в международных экономических связах Советского государства на современном этапе. Автореф. канд.дис. Баку, 1991.

75 Бзежинский З. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы. М : изд-во «Международные отношения», 2003. – с.256.

76.Внешняя политика нейтрального Туркменистана. Речи, выступления и интервью Президента Туркменистана Сапармурата Туркменбаши. Ашхабад, 1999. – с 75.

77.Гаджиев Г.А. Участие Советского Азербайджана в экономическом, научно-техническом и культурном сотрудничестве СССР (1966-1980 гг.). Автореф.дисс.док.ист.наук. Баку, 1991.

78.Гасанов Т. Тяжёлые социально-экономические последствия оккупации Арменией территорий Азербайджана. Баку, Чашыоглу, 2004. –с.122.

79.Г.Алиев открывает миру Азербайджан (авт.составители Ибрагимов Н., Шукуров И.). Баку, 1994. –с.174.

80.Гейдар Алиев. Россия великая страна. Бакы: изд-во Азербайджан, 1997.

81.Гобл П. Возвращение на политическую карту: геополитика Центральной Азии // **Центральная Азия и Кавказ, 1997 №8.**

82.Каримов И. Узбекистан по пути углубления экономических реформ. Ташкент, 1995.





83.Каримов И. Узбекистан на пороге XXI века: угрозы безопасности, условия и гарантии прогресса. Ташкент, 1997.

84.Коллинз Дж. Основные направления Центрально-Азиатской политики США // **Центральная Азия и Кавказ, 1997 №08.**

85.Кулиев Г.М. Участие Азербайджанской ССР в развитии внешнеэкономических связей Советского Союза. Баку, 1967.

86.Кушкумбаев С. Центральноазиатская интеграция в контексте истории и геополитики // **Центральная Азия и Кавказ, 1998 №16.**

87.Мамедов Дж., Асланов В. Пантюркистское движение в новое время // http://www/tatar-history.narod.ru/library.htm

88.Мураталиев М. Первая пятилетка независимого Кыргыстана (Эссе) // **Центральная Азия и Кавказ, 1997 №7.**

89.Мустафаев К.И. Отношения между Азербайджаном и Турцией. Современное состояние и прогнозы // www/tatar-history.narod.ru/library.htm

90.Надеин-Раевский В. Турция, Россия и тюркоязычные народы после распада СССР // **Международная экономика и международные отношения. М., 1994 г. изд.№4.**

91.Никонов В. Политика России в Центральной Азии // **Центральная Азия и Кавказ, 1997 №08.**

92.Петросян Д. Армяно-Туркменские отношения: взгляд из Еревана // **Центральная Азия и Кавказ, 1997, №8** (http://www.ca-c.org/datarus/infoduction.shtml).

93.Полухов Э. Основные направления внешнеполитического курса Азербайджанской Республики на современном этапе // **Центральная Азия и Кавказ, 1999, №4(5).**

94.Сафронов Р. Турецкая внешняя политика и государства Центральной Азии и Кавказа. К итогам конференции в Гарварде // **Центральная Азия и Кавказ,1998 №01.**

95.Саядов О.С. Азербайджан на меридианах международных отношений. Баку, 1991.

96.Саядов О.С. Азербайджан в системе международных отношений советского государства. 1971-1985 гг. (отношения со странами Азии, Африки и Латинской Америки). Автореф. канд. дис. Баку, 1992.

97.Саядов С.А. Национальная политика КПСС и дружба народов. Баку, Азернешр, 1969. –с.167.

98.Саядов С.А. Азербайджан на международных ярмарках и выставках (70-80-е гг.). Баку, 1985.

99.Саядов С.А. Азербайджан: международные связи и взаимопонимания. Баку, 1991.

100.Саядов С.А. Азербайджан в международной деятельности Советского Союза (1971-1985 гг.) Баку, 1996.

101.Саядов Э.С. Азербайджан в международных связах СССР в области духовной жизни. Баку, 1988.

102.Туркменбаши Сапармурат. Рухнаме. Ашгабад: Гоз.изд., 2002. –с.415.

103.Хасанов Р. Организация Исламская Конференция и мусульманские государства СНГ // **Центральная Азия и Кавказ, 1997 №11.**

104.Хензе П., Уимбуш Э. Политика США на Среднем Востоке: необходимость нового мышления // **Центральная Азия и Кавказ, 1997 №08.**

105.Чешков М. Постсоветская Центральная Азия в трех измерениях: традиционализация, периферизация, глобализация // **Центральная Азия и Кавказ, 1998 №13.**

106.Эсенов М. Формирование внешнеполитического курса Туркменистана (политологический анализ).М.,1994//. (http://www.ca-c.org/datarus/infoduction.shtml)





### *Türk dilində*

107.Azerbaycan ülke raporu. Ankara, 1995.

108.Bağımsızlığın ilk yılları (Azerbaycan, Kazakistan, Kırqızıstan, Özbekistan, Türkmenistan). T.C.Kültür Bakanlığı Milli Kütüphane Basımevi. Ankara, 1994. – s.298.

109.Bugünün ve gelecegin dünya güc merkezleri ve dengeleri ile Türkiye'de etkileri. İstanbul: Harp Akademileri Komutanlığı yayınları, 1994. –s.61.

110.Dos.Dr.Nadir Devlet. Çağdaş türk dünyası. Marmara Universitesi Yayınları. İstanbul, 1989. – s.327.

111.Mehmet Saray. Türkiye ile türk cümhuriyyətləri ve türk toplulukları arasında ilişkiler ve fealiyyetler. Ankara, 1993.

112.Mehmet Saray. Yeni türk cümhuriyyetleri tarihi. Ankara, Türk Tarih Kurumu Basımevi, 1996. - s.439.

113.**Türk dış politikasının analizi. Deyerleyen Dos.Dr.Faruk Sönmezoğlu. İstanbul, Der Yayınları, 1994.** –s.520 // Məqalələr: *Gulden Ayman və Nurşin Ateşoğlu Güney.* Degişen Uluslararası Koşullarda Strateji, Türkiye və Komşuları, s.143-158; *Kemal Kirişci.* Huzur mu, Huzursuzluq mu: Çekıç Güc və Türk dış politikası, s.273-289; *Yenə onun.* Uluslararası Sistemdeki Değişmeler ve Türk Dış PolitikasınınYeni Yönemleri, s.393-408; *Ersin Kalayçıoğlu.* Yeni Dünya Düzeni və Türk Dış Politikası, s.409-417; *Oral Sander.* Yeni Bir Bölgesel Güc Olaraq Türkiye'nin Dış Politika Hadefleri, s.419-424 və s.

114.Türk ınkılabı və Türkiye Cümhuriyeti tarihi. Melikqazi, Kayseri, UFUK kitapevi yayınları, 1995. – s.266.

115.Prof.Dr.C.Tayyar Sadıklar. İkibinli yıllar. Dünya ve Türkiye. Ankara: T.C.Kültür Bakanlığı, 1995. –s.303.

# MƏNBƏLƏR

## I. Arxiv materialları

116. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin arxivi

## II. Dövri mətbuat

### a). Qəzetlər

117. «Azərbaycan» qəzeti, 1991-2004-cü illər.
118. «Həyat» qəzeti, 28 fevral 1992-ci il.
119. «Xalq qəzeti», 1991-2004-cü illər.
120. «Вышка», 1997-ci il, 1 yanvar.
121. «Известия», 1993-cü il, 10 sentyabr.
122. «Kommunist» qəzeti, 26 avqust 1989, №198 (20966).
123. «Zaman» qəzeti, 30 oktyabr 1999.

### b). Jurnallar

124. «Dirçəliş»-XXI əsr, 1999, №21-22; iyun 2002-ci il, №52.
125. «Qanun».
126. Международная экономика и международные отношения. М., 1994 г., изд.№4.
127. «Tarix və onun problemləri», 1997-2004-cü illər.
128. «Центральная Азия и Кавказ», 1997-2004. (http://www.ca-c.org/datarus/infoduction.shtml)





## İnternet materialları

129. www.ACAM
130. www.azer.com Azerbaijan's Embassies Abroad
131. www.cankaya.gov.tr
132. www.centrasia.ru
133. www.eurasia.org.ru
134. www.kz/
135. www.press-service.uz
136. www.prezident.kr
137. www.prezident.kz
138. www.mfa.gov.tr
139. www.mfa.kz
140. www.ruhname.ru
141. www.slavmir.ru
142. www.türk republics.com
143. www.turkmenbashy.net
144. www.uzbekistanerk.org
145. www.mfa.gov.az

# ƏLAVƏLƏR

*Cədvəl 1.*

Azərbaycanın müstəqilliyinin
türk dövlətləri tərəfindən tanınması

| | Qazaxıstan Respublikası | Qırğızıstan Respublikası | Özbəkistan Respublikası | Türkmənistan | Türkiyə Respublikası |
|---|---|---|---|---|---|
| Müstəqilliyini tanıyıb | 21.XII 1991 | 1991 | 19.X 1991 | 1991 | 11.XI 1991 |
| Diplomatik əlaqələr qurulub** | 27.VIII 1992 | 9.X 1992 | 4.I 1992 | 9.VI 1992 | 14.I 1992 |
| Bakıda səfirliyi açılıb | Oktyabr 1993 | Yanvar 1998 | 1998 | 1998 | 3.V 1992* |
| Azərbaycanın həmin ölkədə səfirliyi açılıb | Aprel 1997 | | İyun 1996 | Aprel 1997 | Avqust 1992*** |

** 1991-ci ilin dekabr ayında əvvəllər Türkiyənin Bakıda fəaliyyət göstərən konsulluğu Azərbaycan Respublikasında Türkiyə Respublikasının səfirliyinə çevrildi.*

**http://mfa.gov.az/politics.shtml

**** AR Prezidentinin fərmanı ilə Məmməd Əliyev Türkiyə Respublikasında Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri; Abbas Abdulla Hacaloğlu Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin olunmuşlar («Xalq qəzeti», 11 avqust 1992-ci il). 1992-ci il noyabr ayının 2-də Ankarada Azərbaycanın səfirliyinin rəsmi açılışı olmuşdur // «Xalq qəzeti», 3 noyabr 1992-ci il.*





*Cədvəl 2.*

Türk dövlət başçılarının Zirvə toplantıları

| | I toplantı | II toplantı | III toplantı | IV toplantı | V toplantı | VI toplantı | VII toplantı |
|---|---|---|---|---|---|---|---|
| Ankara | 30 - 31.X. 1992 | - | - | - | - | - | - |
| İstanbul | - | Oktyabr 1994 | - | - | - | - | - |
| Bişkek | - | - | 28.VIII. 1995 | - | - | - | - |
| Daşkənd | - | - | - | 20 - 21.X. 1996 | - | - | - |
| Astana | - | - | - | - | Avqust 1998 | - | - |
| Bakı | - | - | - | - | - | Aprel 2000 | - |
| Ankara | - | - | - | - | - | - | 26-27.IV 2001 |

# 1991-2000-Cİ İLLƏRDƏ AZƏRBAYCANIN DÖVLƏT BAŞÇILARININ TÜRK DÖVLƏT BAŞÇILARI İLƏ QARŞILIQLI RƏSMİ GÖRÜŞLƏRİNİN XRONOLOGİYASI

## Azərbaycan-Türkiyə

| | | |
|---|---|---|
| 23-27 yanvar 1992 | - | AR Prezidenti Ayaz Mütəllibovun Türkiyəyə rəsmi səfəri |
| 28 oktyabr – 2 noyabr 1992 | - | AR Prezidenti Əbülfəz Elçibəyin Türkiyəyə rəsmi səfəri |
| 13-15 aprel 1993 | - | Türkiyə Respublikasının Prezidenti Turqut Özalın Azərbaycana rəsmi səfəri |
| 8-11 fevral 1994-cü il | - | AR Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri |
| 5-8 may 1997-ci il | - | AR Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri |
| fevral 1998-ci il | - | AR Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri |
| oktyabr-noyabr 1999-cu il | - | AR Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri |

## Azərbaycan-Qazaxıstan

| | | |
|---|---|---|
| 30 sentyabr 1991 | - | AR Prezidenti Ayaz Mütəllibovun Qazaxıstana rəsmi səfəri |
| 16-17 sentyabr 1996 | - | Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin Azərbaycana rəsmi səfəri |
| 10-11 iyun 1997-ci il | - | AR Prezidenti Heydər Əliyevin Qazaxıstana rəsmi səfəri |





| | | |
|---|---|---|
| 10 may 1998-ci il | - | AR Prezidenti Heydər Əliyevin Qazaxıstanın yeni paytaxtının təqdimatı mərasimində iştirakı |
| 7 aprel 2000-ci il | - | Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin Azərbaycana rəsmi səfəri |

## Azərbaycan-Qırğızıstan

| | | |
|---|---|---|
| Avqust 1995-ci il | - | AR Prezidenti Heydər Əliyevin Qırğızıstana rəsmi səfəri |
| 23 aprel 1997-ci il | - | Qırğızıstan Respublikasının Prezidenti Əskər Akayevin Azərbaycana rəsmi səfəri |

## Azərbaycan-Özbəkistan

| | | |
|---|---|---|
| 19-20 oktyabr 1991 | - | AR Prezidenti Ayaz Mütəllibovun Özbəkistana rəsmi səfəri |
| 27-28 may 1996-cı il | - | Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun Azərbaycana rəsmi səfəri |
| 18-19 iyun 1997-ci il | - | AR Prezidenti Heydər Əliyevin Özbəkistana rəsmi səfəri |

## Azərbaycan-Türkmənistan

| | | |
|---|---|---|
| 18-19 mart 1996-cı il | - | Türkmənistan Prezidenti Saparmurat Niyazovun Azərbaycana rəsmi səfəri |

**Ruintən S.F.**
*(Sevinc Fərrux qızı Ruintən)*

# AZƏRBAYCAN TÜRK DÖVLƏTLƏRİ İLƏ SİYASİ ƏLAQƏLƏR SİSTEMİNDƏ
**(XX əsrin 90-cı illəri)**

**Operator:** Lamiyə Ruintən
**Tərtibatçı:** Rahilə Məmmədova

**Çapa imzalanmışdır:** 12.11.2005
**Kağız formatı:** 60x84 1/16
**Həcmi:** 14,75 ç.v.
**Sifariş:** 976
**Sayı:** 500

Kitab "ADİLOĞLU" MMC-nin mətbəəsində
hazır diapozitivlərdən istifadə olunmaqla
ofset üsulu ilə çap edilmişdir.
Ünvan: Bakı şəh., Ü.Hacıbəyov küç., 38/3
Tel.: 498-68-25; faks: 498-08-14